Mövzu 1. BEYNƏLXALQ HÜQUQUN ANLAYIŞI VƏ TƏNZİMETMƏ PREDMETİ

Plan:

1. Beynəlxalq hüququn anlayışı

2.Beynəlxalq hüququn xüsusiyyətləri

3.Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq

4.Müasir beynəlxalq hüququn əsas cəhətləri

ƏDƏBİYYAT SİYAHISI

Василенко В.А. *Основы теории Международного права.* Киев, 1988.

Евинтов В.И. *Международное сообщество и правопорядок (анализ современных концепций).* Киев, 1990.

Мовчан А.П. *Международный правопорядок.* М.., 1996.

Мюллерсон Р.А. Международное публичное и международное частное право: соотношение и взаимодействие // *Сов. Ежегодниг международного права, 1985. М.., 1986.*

Тункин Г.И. *Теория международного права.* М.., 1970.

Ушаков Н.А. *Проблемы теории международного права.* М.., 1988.

Черниченко С.В. *Международное право. Современные теоретические проблемы.* М.., 1993.

Шестаков Л.Н. Понятие международного права. *// Вестник Московского университета. Сер. 11. Право.* 1997. № 6.

Franck T.M. *The Power of Legitimacy Among Nations.* Oxford, 1990.

Ragazzi M. *The Concept of Intenational Obligations* Erga Omnes. Oxford. 1997/

Schachter O. *International Law in Theory and Practice.* Dordrecht, 1991.

1. **Beynəlxalq hüququn anlayışı.** Ümumi hüquq nəzəriyyəsindən bizə məlumdur ki, hər bir cəmiyyətin normal fəalliyəti üçün hüququn, hüquqi nizamasalmanın mövcudluğu obyektiv, zəruri bir haldır, başqa sözlə desək, cəmiyyət olan yerdəhüquq da olmalıdır.Əgər dünyada olan dövlətləri bir cəmiyyət kimi, əgər belə demək mümkünsə, dünya dövlətlərinin ailəsi kimi təsəvvür etsək, onda belə bir məntiqi nəticəyə gələ bilərik ki, bu cəmiyyətin özündə də hüquqa obyektiv ehtiyac vardır. Bu hüquq **beynəlxalq hüquq** adlanır. Beynəlxalq hüquq ayrı-ayrı dövlətlərin milli hüquq sistemlərindən fərqli olan və onlardan asılı olmayaraq mövcud olan hüquqi normalar sistemidir. O, məhz dövlətlər arasındakı müxtəlif xarakterli münasibətləri hüquqi çərçivəyə salmaq üçün yaranmışdır. Beynəlxalq hüquq normaları dövlətlərarası münasibətlər sisteminin, demək olar ki, hər bir aspektini əhatə edir. Bu normalar vasitəsilə dənizdən hava, məkanından bə kosmik fəzadan istifadə olunması, beynəlxalq telekommunikasiyalar, poçt xidmətləri, mal və sərnişinlərin hava vasitəsilə daşınması və pul köçürülməsi nizama salınır;

beynəlxalq ticarət həyata keçirilir; ətraf mühitin mühafizəsi, insan hüquqlarının beynəlxalq müdafiəsi, cinayətkarların təhvil verilməsi və s. kimi dövlətlərin ümumi mənafeyində olan məsələlər həll olunur. Bununla əlaqədar demək lazımdır ki, *beynəlxalq hüquq diplomatiya və xarici siyasətlə üzvi surətdə bağlıdır.* Xarici siyasətin həyata keçirilməsi və diplomatik təcrübə beynəlxalq hüquqa uyğun olmalıdır. Digər tərəfdən, diplomatiya beynəlxalq hüquq normalarının yaradılmasının ən mühüm vasitəsi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, “ beynəlxalq hüquq” termini onun ifadə etdiyi anlamın təbiətini heç də düzgün əks etdirmir. Öz mənşəyini hələ Roma hüququnda təşəkkül tapmış “*jus gentium*” (“xalqların hüququ”) ifadəsindən götürdüyünə görə, bu termin dünyanın əksər dillərində də məhz “xalqlar arasındakı hüquq” mənasında işlədilir (məsələn, ingilis dilində - international iaw, fransız dilində - droit international, ispan dilində - derecho international, alman dilində - Völkerrecht, türk dilində - milletlerarası hukuk, rus dilində - международное право və s.). Əslində isə beynəlxalq hüquq anlamı məhz *dövlətlərarası hüquq* kimi başa

düşülməlidir, çünki beynəlxalq hüquq bilavəsitə xalqlar tərəfindən yaradılmır və xalq üçün deyil, mahiyyət etibarilə dövlətlər üçün, dövlətlərarası əlaqələrin tənzimlənməsi üçündür. Doğrudur, mövcud beynəlxalq hüquq normalarına görə, xalqlar bilavasitə beynəlxalq hüquqdan irəli gələn bəzi hüquqlara malikdirlər, məsələn, özünümüəyyənetmə hüququ (öz müqəddaratını təyyin etmək hüququ), inkişaf hüququ, sülh hüququ bə s. Digər tərəfdən, sonrakı mövzulardan bizə məlum olacaqdır ki, beynəlxalq hüquq, dövlətlərin müvafiq razılaşmasından sonra, digər subyektlər üçün də, məsələn, beynəlxalq təşkilatlar, transmilli korporasiyalar, fərdlər üçün də beynəlxalq hüquq və vəzifələr nəzərdə tuta bilər. Bununla belə, *öz təbiətinə görə, beynəlxalq hüquq dövlətlər tərəfindən yaradılan, əsasən, dövlətlərə yönəlmiş və yerinə yetirilməsi dövlətlərin öz tərəfindən təmin edilən hüquq sistemi olaraq qalır.*

Beynəlxalq hüquqa onun təbiətini əks etdirən belə bir qısaca tərif vermək olar: ***Beynəlxalq hüquq dövlətlər arasınıdakı münasibətləri nizama salmaq üçün onların qarşılıqlı razılığı əsasında yaradılan hüquqi normalar sistemidir.***

2.Beynəlxalq hüququn xüsusiyyətləri. Təbii ki, obyektiv mənada hüquqa xas olan əlamətlər beynəlxalq hüquq normaları üçün də səciyyəvidir. Ən əsası, bu normalar da müvafiq subyeklər üçün hüquqi ümumməcburi xarakter daşıyır və onların yerinə yetirilməsi müəyyən sanksiya ilə təmin edilir. Lakin beynəlxalq hüquq onu dövlətdaxili (milli) hüquqdan fərqləndirən bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyələr, hər şeydən öncə, beynəlxalq hüququn mövcud olduğu və faliyyət göstərdiyi dövlətlərarası mühitlə və suveren, formal baxımdan bir-birindən asılı olmayan dövlətlərin olması ilə əlaqədardır. *Birincisi*, fiziki və hüquqi şəxslər və dövlət orqanları arasıdakı münasibətləri nizama salan dövlətdaxili hüquqdan fərqli olaraq, beynəlxalq hüquq dövlətlər və beynəlxalq hüququn digər subyektləri (beynəlxalq təşkilatlar və s.) arasıda yaranan münasibətləri nizama

salır. *İkincisi,* beynəlxalq sistemdə qanunverici orqan yoxdur. Heç bir beynəlxalq təşkilat və ya orqan, o cümlədən Birləşmiş Millətlər Təşkilatı dövlətlər üçün hüquqi cəhətdən məcburi olan normalar yaratmaq səlahiyyətinə malik deyildir. Beynəlxalq təşkilatların orqanlarından biri kimi fəaliyyət göstərən parlametlər də (məsələn, Avropa İttifaqıda - Avropa parlamenti, Avropa Şurasıda – Parlament Assambleyası və s.) milli parlamentlərə xas olan bəzi əlamətlərə malik olsalar da, "qanunvericilik" səlahiyyətindən məhrumdurlar. Üçüncüsü, beynəlxalq sistemdə, dövlətin daxilində olduğu kimi, mərkəzləşdirilmiş icra və məhkəmə mexanizmi yoxdur. Beynəlxalq hüquq normalarının yerinə yetirilməsinin təmin edilməsi dövlətlərin öz ixtiyarına buraxılmışdır; beynəlxalq hüququn yaradıcısı və başlıca təminadçısı dövlətlərdir. Lakin bəzi hallarda bu funksiyanı dövlətlər müqavilələr vasitəsilə bu və ya digər dərəcədə beynəlxalq təşkilat və ya orqanlara həvalə edirlər. BMT-nin Təhlükəsizlik Şurası beynəlxalq sülhə və təhlükəsizliyə real qorxu yaradan dövlətə qarşı hərbi və qeyri-hərbi sanksiyalar tətbiq edə bilər. BMT-nin Beynəlxalq Məhkəməsi ilə bağlı qeyd etmək lazımdır ki, o, bu və ya digər işə yalnız müvafiq dövlətlər buna razılıq verdikdə baxa bilər. Sadə dillə desək, ən ağır beynəlxalq hüquq pozuntusu törətmiş döbləti belə onun razılığı olmadan Beynəlxalq Məhkəməyə "vermək" olmaz.

Beynəlxalq hüququn xüsusiyyətlərini düzgün başa düşmək üçün olduqca mühim bir məqama diqqət yetirmək lazımdır. Əslində biz burada beynəlxalq hüququ dövlətdaxili hüquqdan fərqləndirən daha bir cəhəti nəzərə çatdırmaq istəyirik. Söhbət ondan gedir ki, səlahiyyətli dövlət orqanları tərəfindən müəyyən olunmuş və ya tanınmış hüquq normaları prinsip etibarilə dövlətin bütün ərazisinə və bu ərazidə olan bütün hüquqi bə fiziki şəxslərə şamil edilir. Beynəlxalq hüquq

isə belə yekcins deyildir və ola da bilməz. Bu baxımdan beynəlxalq hüquq anlamı elə qəbl edilməməlidir ki, söhbət burada yalnız dünyanın bütün dövlətlərini əhatə edən, bütün dövlətlərin riayət etməli olduğu hüquqdan gedir. Qeyd edildiyi kimi, beynəlxalq hüququ dövlətlər özü yaradır və bunun nəticəsində iki dövlət arasında bağlanan ikitərəfli müqavilə də, bütöv regionu əhatə edən razılaşma da və bütün dünya dövlətləri ücün məcburi olan norma da beynəlxalq hüquq deməkdir. Bunu nəzərə almaqla, beynəlxalq hüquq sisteminin özündə *ümumi beynəlxalq hüququ və partikulyar beynəlxalq hüququ* ayırmaq olar. Beynəlxalq məhkəmə təcrübəsində çox geniş istifadə olunan "ümumi beynəlxalq hüquq " termini vasitəsilə bütün dövlətlər məcburi olan beynəlxalq hüquq normaları ifadə olunur. Bu normalara *hamılıqla tanınmış prinsiplər və ya hamılıqla tanınmış normalar* da deyirlər. Partikulyar beynəlxalq hüquqa isə müəyyən regionda və ya iki dövlət arasında mövcud olan normalar daxildir. Bu baxımdan, məsələn, hər hansı bir dövlətin beynəlxalq hüququ pozması dedikdə, biz bunu, daha dəqiq desək, həmin dövlətin bu və ya digər səviyyədə öz üzərinə götürdüyü beynəlxalq öhdəliyi pozması kimi başa düşməliyik.

3.Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq.Bəzən beynəlxalq hüquq anlamı geniş mənada işlədilir və iki müstəqil normativ komleks və elm sahəsi olan *beynəlxalq ümumi hüquq* (public international law) və *beynəlxalq xüsusi hüquq* (private international law) buraya daxil edilir. Beynəlxalq ümumi hüquq dedikdə, yuxarıda anlayışını və təbiətini şərh etdiyimiz dövlətlərarasıhüquq başa düşülür. Əslində bu terminə beynəlxalq praktikada, demək olar ki, rast gəlinmir və o, əsasən elmi tədqiqatlarda və tədris prosesində beynəlxalq xüsusi hüquqdan fərqləndirilmək üçün istifadə olunur; onun əvəzinə hamı üçün anlaşıqlı olan "beynəlxalq hüquq" termini işlədilir. Beynəlxalq xüsusi hüquqa gəldikdə isə, o, *qeyri-dövlət xarakterli beynəlxalq münasibətləri,* yəni hər şeydən əvvəl əcnəbi fiziki və ya hüquqi şəxsin iştirak etdiyi mülki-hüquqi və ona yaxın olan münasibətləri nizama salan normalar sistemi kimi başa düşülür. Beynəlxalq hüquqla (beynəlxalq ümumi hüquqla) beynəlxalq xüsusi hüquq arasında sıx əlaqə mövcuddur. Belə ki, a) onlarin hər ikisi beynəlxalq münasibətləri nizama salır; b)

hər ikisi digər dövlətin hüquq subyektliyini tanıyır; c) mülki-hüquqi münasibətləri nizama salan beynəlxalq sazişlər beynəlxalq hüququn əsas prinsiplərinə zidd ola bilməz; ç) bu sazişlər çox hallarda dövlətlərarası razılaşmaların həyata keçirilməsi istiqamətində bağlanılır.

Beynəlxalq ümumi hüquqla beynəlxalq xüsusi hüquq arasındakı fərqləri aydın başa düşmək üçün Roma hüququndan bizə məlum olan jus publicum və jus privatum bölgüsünü yada salmaq lazımdır. Bu fərqlər aşağıdakılardır:

1) *subyektlərinə görə:*

Beynəlxalq ümumi hüquqda (BÜH) – dövlətlər, beynəlxalq təşkilatlar, dövlətəbənzər qurumlar və s.;

Beynəlxalq xüsusi hüquqda(BXH) – fiziki və hüquqi şəxslər;

2) *predmetinə görə:*

BÜH-da - dövlətlərarası hakimiyyət xarakterli münasibətlər;

BXH-da – beynəlxalq xüsusi hüquq xarakterli (mülki,ailə,əmək və s.) münasibətlər;

3) *mənbələrinə görə:*

BÜH-da – beynəlxalq müqavilə, beynəlxalq adət və s.;

BXH-da – milli qanunvericilik, beynəlxalq müqavilələr, ticarət adətləri və s.;

4) *nizamasalma metoduna görə:*

BÜH-da – müstəqil dövlətlərin razılığa gəlməsi;

BXH-da – ayrı-ayrı dövlətlərin qanunvericiliyindəki kolliziyaların aradan qaldırılması (bu səbəbdən hər bir dövlətin özünün beynəlxalq xüsusi hüququ vardır);

5) *ortaya çıxan məsuliyyətin xarakterinə görə:*

BÜH-də – beynalxalq- hüquqi məsuliyyət ;

BXH-də – mülki-hüquqi məsuliyyət.

4. Müasir beynəlxalq hüququn əsas cəhətləri. Nəhayət, bu mövzu çəçivəsində daha bir məqamı da qeyd etmək istəyirik. Beynəlxalq hüquq elmində və habelə praktikada ***"müasir beynəlxalq hüquq"*** ifadəsinə tez-tez rast gəlmək olur. Bu ifadə təkcə zaman mənasında deyil, daha çox keyfiyyət baxımından

işlədilir. Bu gün qüvvədə olan beynəlxalq hüquq klassik beynəlxalq hüquqdan keyfiyyətcə kəskin surətdə fərqlənir. Müasir beynəlxalq hüququn səciyyəvi cəhətləri aşağıdakılardan ibarətdir: a) bu gün beynəlxalq hüquq təkcə sivil və xiristian dövlətlərin deyil, bütün dünya birliyinin ümumi mənafeyni əks etdirən və beynəlxalq sülhün bə təhlükəsizliyin təmin edilməsi üçün xüsusi mexanizmi olan normativ sistemə çevrilmişdir; b) müharibə bə istənilən güc tətbiqi birmənalı şəkildə qadağan edilmişdir; c) əsas insan hüquq və azadlıqlarına hörmət ediməsi beynəlxalq öhdəlik kimi qəbul edilmişdir bə bununla bağlı olaraq fərd müəyyən dərəcədə beynəlxalq-hüquqi subyekliyə yiyələnmişdir; ç) beynəlxalq normativ sistemdə jus cogens normalarının və erga omnes öhdəliklərinin (yəni bütün beynəlxalq birliyə qarşı olan öhdəliklər) olması hamılıqla qəbul edilmişdir; d) beynəlxalq cina- yətlərə (təcavüz, genosid, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, beynəlxalq terrorizm, narkotik basitələrin qeyri-qanuni dövriyəsi və b.) görə dövlətlərin bə fiziki şəxslərin beynəlxalq məsuliyyəti institutu yaradılmışdır.

Mövzu 2. BEYNƏLXALQ HÜQUQ NORMALARI

BEYNƏLXALQ HÜQUQUN MƏNBƏLƏRİ

Plan:

1. Beynəlxalq hüquq normasının anlayışı

2.Beynəlxalq hüquq normalarının növləri

3.Beynəlxalq hüquq normalarının ierarxiyası

4.Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı

5.Beynəlxalq hüququn mənbəyinin anlayışı

6. Beynəlxalq müqavilə

7. Beynəlxalq hüquqi adət

8. Beynəlxalq müqavilənin və beynəlxalq hüquqi adətin qarşılıqlı münasibəti

9. Hüququn ümumi prinsipləri

10. Məhkəmə qərarları

11. Beynəlxalq təşkilatların qətnamələri

Ədəbiyyat siyahısı

Алексидзе Л.А. *Некоторые вопросы теории международного права: императивные нормы (jus cogens).* Тбилиси.., 1982.

Дмитриева Г.К. *Моралъ и международное право.* М.., 1991.

Евинтов В.И. Провлема “общих принципов права” в современных западных концепциях // *Идеи мира и сотрудничества в современном международном праве (Отв. ред. В.Н. Денисов).* Киев: 1990. С. 156-168.

Лукашук И.И. *Нормы международного права.* М.., 1997.

Миронов Н.В. *Международное право: нормы и их юридическая сила.* М..,1980.

Мовчан А.П. *Кодификация м прогрессивное развитие международного право.* М.., 1972.

Общепризнанные нормы в современном международном праве. Отв. ред. Н.Н. Улъянова. Киев, 1984.

Талалаев А.Н. Общепризнанные принципы и нормы международного право (конституционное закрепление термина) // *Вестник Московского университета. Сер. 11. Право.* 1997. № 3.

Толстик В.А. *Иерархия российского и международного права.* М.., 2001.

Шестаков Л.Н. *Императивные нормы в системе современного международного права.* М.., 1981.

Даниленко Г.М. *Обычай в современном международном праве.* М.., 1988.

Гусейнов Л.Г. Международные обычаи в области прав человека // *Актуалъные вопросы гуманитарных наук (Межвузовский сборник научных трудов).* Новосибирск: 1999.

Лукашук И.И. *Источники международного права.* Киев, 1966.

Филимомова М.В. *Источники современного международного права.* М..,1987.

Change and Stability in International Law-Making (A. Cassese and J.H.H. Weiler eds). 1988.

Danilenko G.M. *Law-Making in the International Community.* Dordrecht-Boston-London, 1993.

Degan V.D. *Sources of International Law.* Dordrecht-Boston-London, 1997.

Mullerson R. On the Nature and Scope of Customary International Law //*Austraian Reviw of International and European Law.* 1998. vol. 2. P. 341-360.

Simma B. and Alston P. The Sources of Human Rights Law: Custom, Jus Cogens and General Principles *//Australian Yearbook of International Law.* 1992. vol. 12. P. 82-108.

Wolfke K. Some Persistent Controversies Regarding Customary International Law //*Netherlands Yearbook of International Law.* 1993. vol. XXIV. P. 1-16

1. Beynəlxalq hüquq normasının anlayışı. Beynəlxalq hüququn təbıətini bə əsas xüsusiyyətlərini açıqlayarkən biz gördük ki, bu anlayışın əsasında dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin davranış modeli kimi çıxlş edən hüquq normaları dayanır. Bundan sonrakı mövzuların daha aydın başa düşülməsi üçün bu normaların anlayışını bə təsnifini şərh etməyə ehtiyac bardır.

Beynəlxalq hüquq normaları dövlətlər bə beynəlxalq hüququn digər subyektləri

arasındakı qarşılıqlı münasibətləri nizama salan ümumi məcburi qaydalara deyilir.

Beynəlxalq hüquq normalarını dövlətlərin öz qarşılıqlı münasibətlərində əməl etdikləri digər normalardan, o cümlədən hüquqi xarakter daşımayan beynəlxalq adət normalarından və nəzakət normalarından (diplomatik etik qaydalarıdan) fərqləndirmək lazımdır. Bu normalar dövlətlər üçün məcburi deyildir və onlara əməl olunmaması beynəlxalq hüquqi məsuliyyət doğurmur.

Beynəlxalq hüquq normasının məzmunu beynəlxalq hüquq subyektinin malik olduğu *hüquqdan* və digər subyektin (subyeklərin) həmin hüquqa uyğun olaraq öz üzərinə götürdüyü *vəzifədən (öhdəlikdən)* ibarətdir. Doğrudur, beynəlxalq hüquq və öhdəliklər təkcə beynəlxalq hüquq normalarından irəli gəlmir. Hər hansı beynəlxalq məhkəmənin və ya arbitraj məhkəməsinin qərarı, BTM Təhlükəsizlik Şurasının qətnaməsi və ya dövlətin birtərəfli qaydada verdiyi bəyanat da müvafiq öhdəliklər doğura bilər.

Beynəlxalq hüquq normaları, yuxarıda qeyd etdiyimiz kimi, prinsip etibarilə dövlətlərin qarşılıqlı razılığı əsasında yaranır. Lakin xüsusi vurğulamaq lazımdır ki, hər hansı ümumi beynəlxalq hüquq normasının, yəni dünyanın bütün dövlətləri üçün məcburi olan normanın yaranması üçün heç də bu dövlətlərdən hər birinin razılığı tələb olunur. Bununla bağlı olaraq, yeni yaranmış dövlət öz arzusu və iradəsindən asılı olmayaraq, ondan qabaq artıq təşəkkül tapmışvə hamılıqla qəbul edilmiş normadan imtina edə bilməz və ona riayət etməyə borcludur. Məsələn,dövlətimiz müstəqillik qazanan andan, hələ heç bir müvafiq beynəlxalq müqaviləyə qoşulmasa da, başqa dövlətlərə qarşı güc tətbiq edilməməsi, başqa dövlətlərin ərazi bütövlüyünə hörmət edilməsi, genosid aktının törədilməməsi və s. bu kimi öhdəlikləri artıq öz üzərinə götürmüş sayılırdı.

2.Beynəlxalq hüquq normalarının növləri. Beynəlxalq hüquq normaları öz məzmununa və formasına görə olduqca müxtəlifdir. Bir sira meyarlara əsaslanmaqla, onları müxtəlif növlərə ayırmaq olar.

Subyekt-ərazi dairəsinə görə beynəlxalq hüquq normalarının üç növü fərqləndirilir: 1) ümumi normalar ; 2) regional normalar; 3) iki tərəfli (bilateral) normalar.

Ümumi beynəlxalq hüquq normalarının tərifini biz yuxarıda verdik. Bu normaların içərisində jus cogens normaları (ümumi beynəlxalq hüququn imperativ normaları) xüsusi yer tutur. Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 53-cü maddəsində jus cogens normasının anlayışı verilmişdir: həmin maddəyə əsasən, jus cogens-ümumi beynəlxalq hüququn normasıdır; bütövlükdə dövlətlərin beynəlxalq birliyi tərəfindən qəbul edilir və

tanınır; bu cür normadan geri çəkilmək yolverilməzdir; bu norma yalnız ümumi beynəlxalq hüququn eyniylə bu xarakterdə olan yeni bir norması ilə dəyişdirilə bilər. Jus cogens normalarına misal olaraq aşağıdakıları göstəmək olar: təcəvüzün qadağan olunması, başqa dövlətlərin sərhədlərini pozmamaq, dinc əhalini zorla bir ərazidən başqa bir əraziyə köçürməmək, başqa dövlətlərin daxili işlərinə qarışmamaq və s. Dövlətlər hətta qarşılıqlı razılıq əsasında jus cogens normasının ziddinə hərəkət edə bilməzlər. Belə ki, istənilən belə bir müqavilə tam etibasız sayılır və onun heç bir hüquqi qüvvəsi ola bilməz. Eyniylə, yeni bir jus cogens norması yarandıqdan sonra bu normaya zidd olan bütün beynəlxalq müqavilələr hüquqi cəhətdən etibarsız olur və onlar xitam olunmuş sayılır. Jus cogens normasının pozulması ilə bütün dövlətlərin hüquq və mənafeləri pozulmuş sayılır.

Reqional normalar müəyyən bir coğrafi regionda yerləşən dövlətləri bağlayan beynəlxalq hüquq normalarıdır. Məsələn, Latin Amerikası ölkələri arasıda elə normalar mövcuddur ki, onlar digər regionlarda qəbul olunmamışdır. Buna misal olaraq diplomatik sığıncaq hüququnu göstərmək olar.

İkitərəfli normalar iki dövlət arasıda bağlanmış müqavilədə əks olunmuş normalardır.

Nizamasalma üsuluna görə beynəlxalq hüquq normalarının iki növünü ayırmaq olar: 1) imperativ normalar və 2) dispozativ normalar.

Imperativ normalar o normalara deyilir ki, onlarda nəzərdə tutulmuş yeganə davranış variantından dövlətlər heç cür kənara çıxa bilməzlər. Yuxarıda biz imperativ normaların xüsusi bir növü olan jus cogens normalarının izahını vermişdik. İmperativ normaya misal kimi nüvə silahının yayılmamasını nəzərdə tutan beynəlxalq hüquq normasını göstərmək olar.

Dispozitiv normalar alternativ davranış variantı nəzərdə tutulan normalardır. Dövlətlər başq cür razılığa gəlməklə, normada göstərildiyindən fərqli hərəkət edə bilərlər. Məsələn, dövlətin hava məkanından onun birbaşa razılığı olmadan istifadə olunmasını qadağan edən norma dispozitiv normadır.

Normada nəzərdə tutulmuş göstərişin xarakterinə görə beynəlxalq hüquq normalarının aşağıdakı növləri fərqləndirilir:1) *səlahiyyətverici* normalar (dövlətə

və ya beynəlxalq hüququn digər subyektinə hər hası bir hərəkəti etmək hüququ verən normalar);

2) *məcburedici* normalar (hər hası bir hərəkəti yerinə yetirmək vəzifəsi müəyyən edən normalar) və 3) *qadağanedici* normalar (müəyyən hərəkətin edilməsini qadağan edən normalar).

Formasına görə beynəlxalq hüquq normaları iki nöbə ayrılır: 1) *yazılı rəsmi təsbit* olunmuş normalar və 2) yazılı təsbit olunmamış normalar.

Birinci növ normalara müqavilə normaları daxildir. Yazılı təsbit olunmamış normalara isə dövlətlərin praktikasında meydana gələn və bu praktikanın özündə mövcud olan beynəlxalq adət hüquq normaları və hüquq ümumi prinsipləri aiddir.

Qüvvədə olma müddətinə görə beynəlxalq hüquq normalarının iki növünü göstərmək olar: 1) müddətsiz normalar və 2) müddətli normalar.

Müddətsiz normaların hüquqi qüvvəsi heç bir formal müddətlə məhdudlaşdırılmamışdır. Beynəlxalq hüququn əsas prisiplərini, digər beynəlxalq adət hüquq normalarını buna misal göstərmək olar. Bəzi hallarda beynəlxalq müqavilə müddəalarının da müddətsiz qüvvədə olması nəzərdə tutulur.

Müddətli normalar qüvvəsi müəyyən müddət üçün (adətən, bir ildən başlayaraq iyirmi ilə qədər) nəzərdə tutulan normalardır.

Beynəlxalq hüquq normaları, habelə ***maddi və prosessual normalara*** bölünür. Maddi normalarda dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin hüquq və öhdəlikləri ehtiva olunur (məsələn, ayrı-ayrı əsas insan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı dövlətlər üçün beynəlxalq öhdəliklər müəyyən edən normalar). Prosessual normalar isə maddi normalarının həyata keçirilməsinin təşkilati-prosedur aspektlərini müəyyən edir (məsələn, insan hüquqları üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə yaradılan orqanların səlahiyyətlərini, təşkili və fəaliyyət qaydasını müəyyən edən normalar). Maddi normalar öz növbəsində *tənzimləyici və mühafizəedici* normalara, prosessual normalar isə təşkilati, prosedur, protokol normalarına bölünür.

3.Beynəlxalq hüquq normalarının ierarxiyası. Beyəlxalq hüquq normalarının yaradılması prosesinin dövlətdaxili normaların yaradılması

qaydasından fərqli olması özünü habelə ierarxiya, yəni hüquqi qüvvəsinə görə hüquq normalarının bir-birindən asılı olması məsələsində biruzə verir. Beyəlxalq hüquqda milli hüquq sistemində olduğu kimi dəqiq müəyyən olunmuş və bütün normativ massivi əhatə edən ierarxiya yoxdur. Beyəlxalq hüquq normasının forması, məsələn, hər hansı beynəlxalq müqavilədə təsbit olunması və ya beynəlxalq adət hüququ şəklində mövcud olması və yaxud ikitərəfli və ya çoxtərəfli müqavilədə təsbit olunması onu müxtəlif hüquqi qüvvəyə malik olmasına prinsip etibarilə təsir göstərmir. Bunula belə, beyəlxalq hüquqda da müəyyən ierarxiya mövcuddur. Belə ki, müasir beyəlxalq hüquqda müəyyən olunmuşdur ki:

1) jus cogens normaları, yuxarıda artıq qeyd edildiyi kimi, bütün digər beyəlxalq hüquq normalarına nisbətən üstün hüquqi qüvvəyə malikdir. Jus cogens-ə zidd olan norma hüquqi baxımdan etibarsızdır (bu barədə bax: Beynəlxalq müqavilələr və hüquqi haqqında Vyana Konvensiyasının 53-cü maddəsi).

2) Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin hüquqi qüvvəsi bütün digər beynəlxalq müqavilələrin hüquqi qüvvəsindən üstündür. Bu Nizamnamənin 103-cü maddəsində birbaşa ifadə olunmşdur. Həmin maddədə deyilir: “Birləşmiş Millətlər Təşkilatı Üzvlərinin bu Nizamnamədən irəli gələn öhdəlikləri ilə onların istənilən digər beynəlxalq sazişdən irəli gələn öhdəlikləri arasıda ziddiyyət olduqda, onların bu Nizamnamədən irəli gələn öhdəlikləri üstün qüvvəyə malik olur”.

3) beynəlxalq müqavilələri bağlayan dövlət orqanlarının dövlət mexanizmində yeri və konstitusion statusundan asılı olaraq, bu müqavilələr aşağıdakı ierarxiyaya malik olur: 1) dövlətlərarası müqavilələr; 2) hökumətlərarası müqavilələr və 3) idarələrarası müqavilələr.

4. Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı.

Beynəlxalq hüququn məcəllələşdirilməsi (kodifikasiyası) daxilən uzlaşdırılmış iri hüquqi akttların yaradılması məqsədilə beynəlxalq hüquq normalarının rəsmi sistemləşdirilməsinədeyilir.

Məcəllələşdirmə zamanı beyəlxalq hüquq normaları nəinki vahid sistemə gətirilir,

həmçinin bu normalar daha dəqiq ifadə olunur bə beynəlxalq adət hüququ şəklində təşəkkül tapmış normalar da buraya daxil edilir. Lakin məcəllələşdirmə prosesi heçdə bununla məhdudlaşmır və praktikada bu proses mövcud normaların dəyişdirilməsi və yaxud yeniləşdirilməsi, habelə tamamilə yeni normaların yaradılması ilə, yəni beyəlxalq hüququn mütərəqqi inkişafı ilə müşaiət olunur.

Beyəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı aşağıdakı vəzifələri yerinə yetirir: a) qüvvədə olan beyəlxalq hüququ beynəlxalq münasibətlərin həmin inkişaf dövrünün tələbatına uyğunlaşdırmaq; b) ona tələb olunanyeni hüquq normaları əlavə etmək; c) köhnəlmiş normaları kənar etmək və mövcud normalar arasındakı ziddiyyətləri aradan qaldımaq; ç) beyəlxalq hüququn müvafiq sahəsini və ya insitutunu bir normativ kompileks şəklinə salmaq.

Məcəllələşdirmə *rəsmi və qeyri-rəsmi* olur. Rəsmi məcəllələşdirmə, əsasən, BTM çərçivəsində aparılır. Qeyri-rəsmi məcəllələşdirmə isə ayrı-ayrı amillə, milli insitutlar və yaxud beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən (bunların içərisində hər ikisi 1873-cü ildən fəaliyyət göstərən və müxtəlif ölkələrin alimlərini özündə birləşdirən Beynəlxalq Hüquq Assosiyasiyasını və Beyəlxalq Hüquq İnstitunu xüsusilə ayırmaq lazımdır) həyata keçirilir.

Beyəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı işinin təşkili BTM Baş Assambleyasının səlahiyyətinə daxildir (BTM Nizamnaməsinin 13-cü maddəsi). Baş Assombleya tərəfindən bu məqsədlə 1947-ci ildə xüsusi kömıkçi orqan - Beyəlxalq hüquq komissiyası təsis edilmişdir. Komissiya müxtəlif hüquqi sistemləri təmsil edən, Komissiyada şəxsi keyfiyyətdə fəaliyyət göstərən, Baş Assambleya tərəfindən 5 il müddətinə seçilən 34 tanınmış beynəlxalq hüquşünasdan ibarətdir. İndiyə qədər Beyəlxalq hüquq komissiyası bir sıra məcəllələşdirimiş beynəlxalq aktların, o cümlədən Diplomatik əlaqələr haqqıda 1961-ci il Vyana Konvensiyasının, Konsulluq əlaqələri haqqında 1963-cü il Vyana Konvensiyasının, Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının, Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinin (1995-ci il) və digər mühüm aktların mətinlərini işləyib hazırlamışdır. Hazırda Komissiya aşağıdakı məsələlər üzrə Məcəllə layihələri üzərində işləyir: Dövlətlərin

məsuliyyəti; Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər; Beynəlxalq müqavilələrə qeyd-şərtlər; Beyəlxalq hüquqla qadağan olunmayan hərəkətlərin zərərli nəticələrinə görə beynəlxalq məsuliyyət və b.

5.Beynəlxalq hüququn mənbəyinin anlayışı. Hər hansı davranışın hüquqauyğun olub-olmamasını müəyyən etmək üçün biz bu davranışı özündə əks etdirən müvafiq hüquq normasını axtarıb tapmalı oluruq. Bu normanın harada öz əksini tapması, haradan götürülməsi praktik baxımdan müstəsna əhəmiyyətə malik olan "hüququn mənbəyi" anlamı ilə bağlıdır. ***Hüququn mənbəyi dedikdə, hüquq formasının ifadə forması başa düşülür.*** Bu qısa tərifi biz ***beyəlxalq hüququn mənbəyi*** anlayışına da aid edə bilərik.

Bu və ya digər ölkə daxilində hansı hüquq mənbələrinin olmasını biz, adətən, həmin ölkənin Konstitusiyasından və ya müvafiq qanunvericilik aktından bilirik. Belə bir mötəbər "informasiya mənbəyi" beyəlxalq hüquqda da vdrdır: beyəlxalq hüququn mənbələri BTM Beynəlxalq Məhkəməsi Statunun 38-ci maddəsində göstərilmişdir. Həmin maddəyə görə, Beynəlxalq Məhkəmə ona təqdim olunmuş mübahisələri həll edərkən 1) *beynəlxalq müqaviləyə*; 2) *beyəlxalq hüquqi adətə*; 3) hüququn ümumi prinsiplərinə; hüquq normalarını məzmununu müəyyən etmək üçün köməkçi vasitə kimi 4) məhkəmə qərarlarına və 5) tanınmış alimlərin rəylərinə əsaslana bilər.

Doğrudur, göstərilən maddədə beyəlxalq hüququn mənbələrinin siyahısını vermək məqsədi güdülməmişdir. Bundan əlavə, müasir beyəlxalq hüququn mühüm mənbəyi olan *beynəlxalq təşkilatların qətnamələri* bu maddədə heç nəzərdə tutulmamışdır. Halbuki BTM-nin Beynəlxalq Məhkəməsi BTM Baş Assambleyasının qətnamələrinə dəfələrlə, o cümlədən 1986-cı ildə baxdığı məşhur Nikaraqua işində istinad etmişdir.

6. Beynəlxalq müqavilə. Beynəlxalq müqavilə beyəlxalq hüququn əsas mənbələrindən biri olub, iki vəya daha artıq dövlət (və ya beynəlxalq

hüququn digər subyekti) arasında bağlanan, qarşılıqlı beynəlxalq hüquq və vəzifələr müəyyən edən razılaşma kimi başa düşülür.

Beynəlxalq müqavilələrin xüsusiyyətləri, onlarin bağlanması və xitam ollunması qaydası haqqında irəlidə ətraflı bəhs ediləcəkdir. Aşağıda isə beynəlxalq müqavilə beynəlxalq hüququn əsas mənbəyi kimi qısaca şərh edilir.

Beynəlxalq müqavilələr vasitəsilə dövlətlər və habelə beynəlxalq hüququn digər subyektləri, məsələn, beynəlxalq təşkilatlar öz aralarında ortaya çıxan müxtəlif xarakterli məsələləri həll edirlər. İndiki dövrdə beynəlxalq münasibətlərin elə sahəsini göstərmək olmaz ki, orada beynəlxalq sazişlər mövcud olmasın. Beynəlxalq müqavilələrdə dövlətlərin hüquq və vəzifələri daha dəqiq və birmənalı təsbit olunur, onların beynəlxalq səviyyədə və dövlət daxili hüquq sistemində həyata keçirilməsi üçün zəruri zəruri hüquqi mexanizm nəzərdə tutulur. Bu baximdan beynəlxalq müqavilə müasir beynəlxalq hüququn ən mühüm mənbəyikimi çıxış edir.

Dövlət yalnız öz razılığı ilə hər hansı beynəlxalq müqavilənin iştirakçısı ola bilər. Müqaviləyə razılıq verdiyi andan dövlət həmin müqavilənin bütün tərəfləri qarşısında öz üzərinə müvafiq öhdəliklər götürür. Müqavilə yalnız onun iştirakçıları üçün hüquq və öhdəliklər yaradır; üçüncü dövlətlər üçün isə o, beynəlxalq hüququn mənbəyi ola bilməz.

Beynəlxalq müqavilələr şifahi formada da bağlana bilər.Buna indi praktikada çox nadir hallarda rast gəliinən *"centlmen sazişləri"ni* misal göstərmək olar.

7. Beynəlxalq hüquqi adət. Beynəlxalq hüquqi adət beynəlxalq praktikada təşəkkül tapmış və məcburi norma kimi tanınmış davranış qaydasıdır.

Tərifdən göründüyü kimi, beynəlxalq hüquqi adətin iki ünsürü vardır: 1) dövlətlərin praktikası və 2) bu praktikanın məcburi norma kimi tanınması (opinio yuris).

Bu fikir BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən bir neçə dəfə, o cümlədən Şimal dənizinin kontinental şelfi haqqında iş üzrə (1969-cu il) və Nikaraqua işi üzrə (1986-cı il) çıxardığı qərarlarında qeyd olunmuşdur.

Beynəlxalq hüququi adətin maddi əsasını təşkil edən *dövlətlərin praktikasına* aşağıdakılar daxildir: a) dövlətlərin "faktik" fəaliyyəti (hərəkət və ya hərəkətsizlik); b) konkret situasiya və ya mübahisələrlə bağlı onların verdikləri bəyanatlar; c) dövlətdaxili qanunvericilik; ç) milli məhkəmələrin qərarları; d) beynəlxalq təşkilatların praktikası.

Müəyyən adət normasının təşəkkül tapması üçün, bir qayda olaraq, dövlətlərin praktikası aşağıdakı tələblərə cavab verməlidir:

a) ardıcıl, səbatlı və eyni cür olmalıdır;

b) ümumi olmalıdır, yəni dünyanın əksər dövlətlərinin bu praktikada "payı" olmalıdır; burada üç cəhəti nəzərə almaq lazımdır: 1) bu və ya digər beynəlxalq adət normasının mövcud olması haqqında məsələni həll edərək, nizama salmanın münasıbətdə maraqları xüsusilə toxunulan dövlətlərin praktikası ön plana çəkilməlidir. Məsələn, dəniz hüququ ilə bağlı adət normalarının təşəkkül tapmasında dənizyanı dövlətlərin praktikası dənizə heç bir çıxışı olmayan Əfqanıstanın və ya Avstriyanın praktikasından daha önəmli əhəmiyyət kəsb edəcəkdir; 2) əgər bir dövlət lap əvvəldən və ardıcıl olaraq digər dövlətlərin hər hansı bir praktikasına etiraz edirsə, o, yaranmaqda olan adət norması ilə bağlı olmayacaqdır. Bu, beynəlxalq hüquqda qəbul olunmuş "təkidlə etiraz edən dövlət" prinsipindən irəli gəlir. Lakin bu prinsip yuxarıda sözü getmiş jus cogens normalarına şamil olumur; 3) beynəlxalq hüquqda ümumi beynəlxalq adət normalarından başqa, iki və daha artıq dövləti əhatə edən *partikulyar (lokal)* adətlər də mövcud ola bilər.

Nəhayət, ümumi qayda bundan ibarətdir ki, beynəlxalq adət normasının formalaşması üçün dövlətlərin praktikası *uzunmüddətli* olmalıdır. Məhz dövlətlərin uzun tarixi vaxt ərzində təkrarlanan və üst-üstə düşən praktikası beynəlxalq hüquqi adətin əsasını təşkil edir. Doğrudur, beynəlxalq hüquqda bu müddətin nə qədər olması müəyyən edilməmişdir və bu, hər bir halda nizama salınan məsələnin xarakterindən aıslıdır. Bunula belə, müasır beynəlxalq hüquqda müstəsna hallarda "ani adət" də yarana bilər. Məsələn, kosmiq fəzadan istifadə ilə bağlı hazırda mövcud olan bir sıra beynəlxalq hüquqi adətlər bu qəbildəndir.

Beynəlxalq hüquqi adətin yaranması üçün dövlətlərin ardıcıl, ümumi, eyni cür və uzunmüddətli praktikasının olması kifayət deyildir. Bu praktikanın hüquqa çevrilməsi üçün dövlətlər həmin praktikanı məcburi norma kimi qəbul etməlidirlər. Başqa sözlə, praktikanın sadəcə adət yox, məhz məcburi yerinə yetirilməli norma olmasına dövlətlərdə inam, yəni *opinio yuris* olmalıdır.

Qeyd etmək istərdik ki, əslində beynəlxalq hüquq öz mənşəyini beynəlxalq adətlərdən götürmüşdür. Lakin beynəlxalq hüquq inkişaf etdikcə və məcəllələşdirildikcə, beynəlxalq adət normaları öz əvvəlki, əhəmiyyətini və nizamasalma dairəsini itirmişdir. Bununla belə, müasir beynəlxalq hüquqda müqavilələr aparıcı rol oynasa da, beynəlxalq hüquqi adətin təsiri də az deyildir.

Doğrudan da, hazıda faktik olaraq elə bir müqabilə yoxdur ki, dünyanın bütün dövlətləri onun iştirakçısı olsun. Bir misal göstərək. Genosid cinayətinin alınması və cəzalandırıkması haqqında 1948-ci il Konvensiyasının hazırda 133 iştirakçısı vardır. Bu o deməkdirmiki, dünyanın, demək olar ki, 60-a qədər dövləti genosid cinayəti törətməmək, genosid aktları törətmiş şəxslərin cəzalandırılması təmin etmək və s. kimi beynəlxalq hüquqi öhdəliklərdən azaddırlar? Əlbəttə ki, yox. Sadalanmış öhdəliklər ümumi beynəlxalq hüquqn bir hissəsidir və dünyanın bütün dövlətləri tərəfinədən məhz beynəlxalq hüquqi adət kimi tanənmışdır.

Beləliklə, beynəlxalq hüquqi adətin indiki dövrdə başlıca əhəmiyyəti ondan ibarətdir ki, o, hər hansı bir universal müqavilə iştirakçıları ilə bu müqavilənin iştirakçısı olmayan dövlətlər drasıdakı və sonuncuların özləri arasındakı müvafiq münasibətləri nizama salır.

8. Beynəlxalq müqavilənin və beynəlxalq hüquqi adətin qarşılıqlı münasibəti. Praktiki olaraq, bu mühüm məsələyə biz yuxarıda qismən toxunduq. Deyilənlərə əlavə edək ki, beynəlxalq müqavilə və beynəlxalq hüquqi adət müasir beynəlxalq hüququn ən mühüm və ən çox istinad edilən mənbələrdir. Əgər bu iki mənbə eyni və ya oxşar hüquqi öhdəliklər nəzərdə tutursa, müqavilənin iştirakçıları müqavilə ilə, iştirakçı olmayan dövlətlər isə beynəlxalq hüquqi adətlə bağlı olacaqlar. Dövlət müqavilənin tərəfi olduqda, o, müvafiq adət norması ilə bağlı olmaqda davam edir. Eyni münasibəti nizama salan müqavilə və adət bir-birinə

ziddirsə, bu ziddiyyət, əgər jus cogens normasından söhbət getmirsə, "sonrakı norma əvvəlki normanı ləğv edir" ("lex posteriori derogat legi priori") prinsipinə əsasən həll olunur.

Yuxarıda qeyd etmişdik ki, ümumi qaydaya görə, beynəlxalq müqavilə üçüncü tərəflər üçün hüquq və öhdəliklər yaratmır(pacta tertiis nec nocent nec prosunt). Lakin həmin müqavilənin müddəaları müqavilənin iştirakçısı olmayan dpvlətlər tərəfindən hüquqi adət kimi tanına bilər və bununla həmin dövlətlər üçün adət kimi qüvvədə ola bilər.

9. Hüququn ümumi prinsipləri. BMT Beynəlxalq Məhkəməsinin Statutunun 38-ci maddəsinin 1(s) bəndində göstərilir ki, Məhkəmə ona təqdim olunmuş işləri həll edərkən "sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prisiplərinə" istinad edə bilər. Burada qeyd edək ki. "sivil millətlər" ifadəsi beynəlxalq hüququn bu günkü durumuna uyğun gəlmir və hüquqi əhəmiyyətə malik deyildir.

Hüququn ümumi prinsipləri dedikdə, hüququn təbiətini əks etdirən və bütün mövcud hüquqi sistemlər üçün ümumi olan prinsip və normalar başa düşülür.

Hüququn ümumi prinsiplərinə misal kimi aşağıdakıları göstərmək olar:vicdanlılıq prinsipi (bona fide); "eyni hüquq pozuntusuna iki dəfə cəza ola bilməz" (non bis in idem) ; "yalan heç bir hüquqi nəticə doğurmur" və s.

Hüququn ümumi prinsiplərinə beynəlxalq məhkəmə praktikasıda nadir hallarda müraciət edilir.

10. Məhkəmə qərarları. Məhkəmə qərarları beynəlxalq hüququn "köməkçi" mənbəyi kimi xarakterizə olunmur, çünki onldr bilavəstə hüquq yaratmır, artıq mövcud olan hüququ bəyan edir. Bu, məsələn, BMT Beynəlxalq Məhkəməsi Statutunun 59-cu maddəsindən aydın görünür. Maddədə deyilir: "Məhkəmənin qərarı yalnız işin tərəfləri üçün və yalnız həmin konkiret iş üçün məcburi qüvvəyə malikdir". Beləliklə, anqlo-sakson hüquq sistemindən fərqli olaraq, beynəlxalq hüquqda stare decisis (presedent) prinsipi tanınmır. Lakin BMT Beynəlxalq Məhkəməsinin qərarı beynəlxalq hüquqda əhəmiyyətli rol oynayır. Birincisi, bu qərarda beynəlxalq hüquq normalarının, xüsusi ilə adət normalarının dəqiq

məzmunu müəyyən edilir. İkincisi Beynəlxalq Məhkəmənin qərarı beynəlxalq adət hüququnun inkişafına əhəmiyyətli təsir göstərir, çünki hər hansı davamlı, ardıcıl və eyni cür praktikanın və zəruri opinio yuris-in olması, faktik olaraq məhz Beynəlxalq Məhkəmə tərəfindən konkret işlərin həlli zamanı ortaya çıxarılır. Buna əlavə, Məhkəmənin qərarı, müvafiq sahə hüququn necə inkişaf etdiyini və etməli olduğunu göstərməklə, sonrakı praktikaya həlledici təsir edə bilər. Bu səbəbdən BMT Beynəlxalq Məhkəməsinin özü, digər beynəlxalq məhkəmələr, habelə milli məhkəmə orqanları BMT Beynəlxalq Məhkəməsinin qərarlarına olduqca nüfuzlu mənbə kimi istinad edirlər.

Qeyd edək ki, məhkəmə qərarı dedikdə, təkcə BMT Beynəlxalq Məhkəməsinin qərarı deyil, habelə beynəlxalq arbitraj məhkəmələrinin, ixtisaslaşmış beynəlxalq məhkəmələrin (məsələn, Avropa insan hüquqları məhkəməsinin Dəniz hüququ üzrə Beynəlxalq Tribunalın), milli məhkəmələrin çıxartdığı qərarlar nəzərdə tutulur.

11. Beynəlxalq təşkilatların qətnamələri. Beynəlxalq təşkilatların öz nizamnamə fəaliyyəti çərçivəsində çıxardığı qərar və qətnamələr, prinsip etibarilə, beynəlxalq hüququn "köməkçi" mənbəyidir. Çünki onlar formal-hüquqi baxımdan məcburi norma yaratmır; bu qərar və qətnamələrdə ya beynəlxalq hüququn qüvvədə olan prinsip və normaları bəyan edilir, ya da tövsiyə xarakterli yeni normalar əks olunur. Deyilənlər müəyyən mənada BMT Baş Assambleyasının qətnamələrində də aid edilə bilər. Bu qətnamələr yekdil səslə qəbul olusa da, hüquqi cəhətdən məcburi deyildir. Yəni dövlət Baş Assambleyanın qətnaməsində öz əksini tapmış davranış qaydasına, hətta o, bu qətnamənin lehinə səs vermiş olsa da, əməl etməyə borclu deyildir. Bununla belə, bu qətnamələr beynəlxalq hüquqda çox mühüm rol oynayır və xüsusilə də dövlətlərin praktikasının müəyyə yönümdə inkişafına və opinio yuris-in formalaşmasına böyük təsir göstərir. Həmin qətnamələr ya müəyyən beynəlxalq hüquqi adətin formalaşması üçün təkan, ya da belə bir adət normasının artıq təşəkkül tapdığını göstərən ən mühüm sübut rolunu oynaya bilər. Bu baxımdan, BMT Baş Assambleyasının qətnamələri ilə qəbul olunmuş bir sıra müstəsna əhəmiyyətli sənədlər, məsələn, 1948-ci ildə qəbul

olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il Bəyannaməsini, Təcavüzün tərifi haqqında 1974-cü il Qətnaməsini müəyyən mənada müvafiq beynəlxalq adət hüququ normalarının "yaradıcısı" hesab etmək olar.

Sonda qeyd edək ki, BMT-nin Baş Assambleyasının BMT-nin daxili fəaliyyəti ilə bağlı çıxardığı qətnamələr, o cümlədən BMT-yə yeni dövlətlərin qəbul edilməsi, BMT Beynəlxalq Məhkəməsinin hakimlərinin seçilməsi, büdcə və s. məsələlər üzrə qətnamələr BMT-nin bütün üzvəri üçün məcburi qüvvəyə malikdir.

Mövzu 3. BEYNƏLXALQ HÜQUQUN ƏSAS PRİNSİPLƏRİ

Plan:

1.Beynəlxalq hüququn əsas prinsiplərinin anlayışı

2. Dövlətlərin suveren bərabərliyi prinsipi

3.Dövlətlərin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi

4. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi

5. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi

6. Sərhədlərin pozulmazlığı prinsipi

7. Ərazi bütövlüyü prinsipi

8. Xalqların özünümüəyyənetmə prinsipi

9. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi

10. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi

11. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi

Ədəbiyyat siyahısı.

Баратавшвили Д.И. *Принцип суверенного равенства государств в международном праве.* М.., 1978.

Волова Л.И. *Принцип территориалъной целостностти и неприкосновенности в современном международном праве.* Ростов-на-Дону.., 1981.

Волова Л.И. *Нерушимостъ границ – новый принцип международного права.* Ростов-на-Дону.., 1987.

Клименко Б.М., Ушаков Н.А. *Нерушимостъ границ – условие международного мира.* М.., 1978.

Левин Д.Б. *Принцип мирного разрешения международных споров.* М.., 1977.

Мартыненко А.П. *Права народов в современном международном праве.* Киев, 1993.

Менжинский В.И. *Неприменение силы в международных отношениях.* М.., 1976.

Талалев А.Н. *Хелъсинки: принцнпы и реалъностъ.* М.., 1985.

Тиунов О.И. *Принцип соблюдения международных обязателъств.* М.., 1979.

Ушаков Н.А. *Невмешателъство во внутренние дела государств.* М.., 1971.

Черникенко С.В. Принцип самоопределения народов (современная интерпретация) // *Московский журнал международного право.* 1996. № 4.

1.Beynəlxalq hüququn əsas prinsiplərinin anlayışı. Müasir beynəlxalq hüquqda bir sıra xüsusi əhəmiyyətli normalar mövcuddur ki, onlarsız beynəlxalq sistemin normal fəaliyyət göstərməsi praktik cəhətdən mümkün deyilir. Həmin normalar beynəlxalq hüququn əsas prinsipləridir.

Beynəlxalq hüququn əsas prinsipləri bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Bu prinsiplər;

a) beynəlxalq hüququn ən mühüm normalarıdır;

Beynın əlxalq hüququn əsas prinsipləri beynəlxalq hüquq sisteminin normativ hüquqi əsasını təşkil edir. Dövlətlərin beynəlxalq hüquq normalarının yaradılması və həyata keçirilməsi ilə bağlı bütün qarşılıqlı münasibətləri bu prinsiplərə söykənir.

b) ***öz mahiyyətinə görə beynəlxalq hüququn ən ümumi normalarıdır*****;**

Beynəlxalq hüququn əsas prinsipləri bir növ ori-yentir rolunu oynayır. Onlar dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin davranışının ümumi istiqamətlərini müəyyən edir. Bu prinsiplər beynəlxalq münasibətlərin istənilən sahəsinə sirayət edir və dəqiq ifadə olunmuş davranış qaydalarında konkretləşdirilir.

a) dünyayın bütün dövlətləri üçün hüquqi cəhtdən məcburi xarakter daşıyan ümumtanınmış normalardır;

Beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT Nizamnaməsinin 2-ci maddəsində BMT-nin bütün üzvləri üçün məcburi normalar kimi göstərilmişdir. Həmin maddənin 6-cı bəndində isə deyilir: "Təşkilat təmin edir ki, onun üzvü olmayan dövlətlər, bunun beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri ola bildiyi dərəcədə, bu prinsiplərə uyğun hərəkət etsinlər".

ç) ən yüksək hüquqi qüvvəyə malik olan imperativ jus cogens normalarıdır.

Beynəlxalq hüququn əsas prinsipləri bütövlükdə beynəlxalq birlik tərəfindən tanınır və qəbul edilir və yalnız beynəlxalq birliyin özü tərəfindən ləğv edilə bilər. Beynəlxalq hüququn bütün normaları beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olmalıdır.

Beynəlxalq hüququn əsas prinsiplərindən kənarda və onlarsız beynəlxalq hüququn özü də yoxdur.

Beynəlxalq hüququn əsas prinsipləri bir-biri ilə üzvi surətdə bağlıdır və bir-birini şərtləndirir. *BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970-*

ci il Bəyannaməsində qeyd edilir ki, bu prinsiplərin tətqiqi və təsfiri zamanı onların hər biri bütün digər prinsiplərin konteksində nəzərdən keçirilməlidir.

Qeyd etdiyimiz kimi, müasir beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT-nin Nizamnaməsində (2-ci maddədə) öz əksini tapmışdır. Lakin bunlardan bəziləri məqsəd və ya ümumi öhdəlik kimi ifadə olunmuşdur. Sonralar dövlətlər bu prinsiplərin məzmununu dəqiqləşdirməyə və onları məcəllələşdirməyə çalışmışlar. BU, BMT Baş Assambleyasının qətnaməsi əsasında yuxarıda adı çəkilmiş Bəyannamənin qəbul olunması ilə nəticələnmişdir. Doğrudur, Bəyannamədə beynəlxalq hüququn heç də bütün prinsipləri deyil, cəmi yeddi prinsipi əks olunmuşdur:

1) güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi;

2) beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi;

3) dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi;

4) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək prinsipi;

5) xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi;

6) dövlətlərin suveren bərabərliyi prinsipi;

7) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi.

Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci il tarixli Yekun aktında isə on prinsip göstərilmişdir; yuxarıda sadalanmış prinsiplərə burada daha üçü əlavə olunmuşdur:

1) sərhədlərin toxunulmamazlığı prinsipi;

2) dövlətlərin ərazi bütövlüyü prinsipi;

3) əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi.

Qeyd etmək lazımdır ki, Helsinki Yekun aktı özü-özlüyündə beynəlxalq müqavilə
deyildir və regional xarakterli bir sənəddir. Lakin onun təsbit etdiyi prinsiplər, o cümlədən bu üç prinsip onun qəbul olunmasına qədər artıq ümumi beynəlxalq adət

hüququnun bir hissəsi idi və bütün dövlətlər tərəfindən tanınmışdı. Yəni Helsinki Yekun aktı, sadəcə olaraq, müasir beynəlxalq hüququn hamılıqıa qəbul edilmiş on əsas prinsipini bəyan etmişdir.

Yadda saxlamaq lazımdır ki, hər bir prinsip özü bir hüquqi normadır və deməli, özündə konkret normativ məzmun, yəni müəyyən beynəlxalq hüquqlar və müvafiq öhdəliklər ehtiva edir. Aşağıda əsas diqqət məhz bu məqama yetirilmişdir

2. Dövlətlərin suveren bərabərliyi prinsipi. Bu prinsip öz birbaşa ifadəsini BMT nin Nizamnaməsini 2-ci maddəsinin 1-ci bəndində tapmışdır: "Təşkilat onun bütün Üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır".

Suveren bərabərlik prinsipinin məzmunu iki ünsürdən ibarətdir.

1. Hər bir dövlət tam *suverenliyə* malikdir və öz siyasi və ikdisadi sistemini sərbəst və manesiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir.

2. Bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensiallından asılı olmayaraq *hüquqi cəhətdən* bərabərdir. Beynəlxalq təşkilatlarda, bir qayda olaraq, hər bir dövlət bir səsə malikdir. Beynəlxalq hüquq normaları dövlətlər tərəfindən qarşılıqlı razılıq yolu ilə bərabərhüquqlu əsasda yaradılır.

Suveren bərabərlik prinsipi bütün dövlətlərin beynəlxalq məsələlərin həllində bərabər iştirakını təmin etməyə yönəlmişdir.

3.Dövlətlərin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi. Bu prinsip dövlətlərin suveren bərabərlik prinsipi ilə üzvi surətdə bağlıdır və əslində onu tamamlayır. Prinsipin məğzi ondan ibarətdir ki, dövlətin öz suveren hüquqlarını öz arzu və iradəsinə uyğun həyata keçirməsinə heç bir digər dövlət və ya beynəlxalq təşkilat qarışa bilməz.

BMT Nizamnaməsinin 2-cı maddəsinin 7-ci bəndində deyilir: "Bu Nizamnamənin heç bir müddəası Birləşmiş Millətlərə səlahiyyət vermir ki, hər hası bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin...".

Doğrudur, göstərilən qadağa bilavasitə Birləşmiş Millətlər Təşkilatının üzərinə qoyulmuşdur. Lakin məntiqi təfsir belə bir nəticə çıxarmağa imkan verir ki, dövlətlərin daxili işinə qarışmamaq öhdəliyi BMT-nin büyün üzvlərinə şamil olunur. Hazırda dünyanın hər bir dövləti üçün imperativ xarakter daşıyan bu prinsipin normativ məzmunu bir sıra mühüm sənədiərdə, o cümlədən *Dövlətlərin daxili işlərinə qarışmağın yolverilməzliyin, onların müstəqilliyinin və suverenliyinin qorunması haqqında BMT-nin 1965-ci il Bəyannaməsində,* yuxarıda adı çəkilmiş 1970-ci il Bəyannaməsində, Helsinki Yekun aktında açıqlanır.

Qeyd edək ki, "dövlətin daxili yurisdiksiyasında olan məsələlər" onun ərazi daxilində olan məsələlər demək deyildir. Dövlətin ərazisində baş verən bir çox məsələlər,- misal üçün, xarici səfirliyin binasına basqın edilməsi, - heç də onun daxili işi sayılmır. Digər tərəfdən, ilk baxışdan, "beynəlxalq" sayılan hər hansı məsələ,- misal üçün, dövlətin başqa bir dövlət ilə üçüncü tərəfin hüquq və mənafelərinə toxunmayan müqavilə bağlaması, - həmin dövlətlərin daxili işi hesab olunur və ona istənilən müdaxilə qadağandır. Hansı məsələnin dövlətin daxili işi olmasını beynəlxalq hüquq müəyyən emir və edə də bilməz. Lakin bir şey aydındır ki, əgər hər hansı məsələ üzrə dövlət öz üzərinə beynəlxalq öhdəlik götürmüşsə, bu, artıq onun daxili məsələsi sayıla bilməz. Daimi Beynəlxalq ədalət məhkəməsi 1930-cu ildə qeyd etmişdi ki, "dövlətin daxili səlahiyyət dairəsində olan məsələlərin" həcmi sabit deyildir və bu, beynəlxalq hüququn inkişafı ilə dəyişə bilməz. Məsələn, o vaxtlar və ondan sonrakı illərdə də dövlətlərin sirf daxili işi olan insan hüquqlarının milli qanunvericilikdə təsbiti və qorunması məsələsi bu gün prinsip etibarilə beynəlxalq məsələyə çevrilmişdir. Nəhayət, burada bir məqamı da vurğulamaq lazımdır ki, əgər bir dövlətin ərazisindəki daxili münaqişə və ya situasiya beynəlxalq sülhə və təhlükəsizliyə real qorxu yaradırsa, bu, yenə də daxili məsələ sayılmır və BMT Təhlükəsizlik Şurası bu hallarda BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq məcburiyyət tədbirləri tətbiq edə bilər; təbii ki, həmin kollektiv sanksiyalar qətiyyən dövlətin daxili işlərinə qarışmaq deyildir.

Sözü gedən prinsipin normativ məzmunu aşaıdakılardan ibarətdir:

1) dövlətin suverenliyinə və onun siyasi və iqtisadi əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər müdaxilə formaları qadağandır;

2) heç bir dövlət başqa bir dövlətin, onun öz suveren hüquqlarını həyata keçirməkdə özünə tabe edilməsinə və bununla ondan hər hansı imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edə bilməz;

3) başqa bir dövlətin quruluşunun zorakı yolla dəyişdirilməsinə yönəlmiş təxribatçı və ya terrorist fəaliyyətin təşkili və yaxud dəstəklənməsi yolverilməzdir;

4) başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilə qadağandır;

5) hər bir dövlət digər dövlətərin (və beynəlxalq hüququn digər subyektlərinin) müdaxiləsi olmadan öz siyasi, iqtisadi, sosial və mədəni sistemini seçmək hüququna malikdir.

4. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi. Müasir beynəlxalq hüquq üçün müstəsna əhəmiyyətə malik olan bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində tapmışdır. Burada deyilir ki, Birləşmiş Millətlər Təşkilatının bütün Üzvləri "öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı, yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər". Prinsipi özündə əks etdirən sənədlər sırasında *Təcavüzün tərifi haqqında BMT Baş Assambleyasının 1974-cü il qətnaməsini, Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il Bəyannaməsini* xüsusilə qeyd etmək lazımdır.

"Güc" dedikdə, BMT Nizamnaməsində hərbi, silahlı güc başa düşülür. Ədəbiyyatda bəzən rast gəlinən və bu terminin məna yükünün genişləndirilməsi, iqtisadi, və hətta ideoloji gücün də bu termin vasitəsilə əhatə olunmasını nəzərdə tutan fikirləri birmənalı qəbul etmək olmaz və demək olar ki, bu fikirlər pozitiv beynəlxalq hüquqa söykənmir.

BMT Nizamnaməsinin göstərilən müddəasının bəzən belə bir təfsiri verilir ki, dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı olmayan, hər hansı

“bəraətverici” məqsədlə, məsələn, insan hüquqlarının kütləvi pozulması hallarının qarşısını almaq üçün birtərəfli qaydada güc tətbiq olunması (buna *“humanitar müdaxilə”* deyilir) beynəlxalq hüquqa, daha doğrusu, sözü gedən prinsipə zidd deyildir. Doğrudur, BMT Təhlükəsizlik Şurası tərəfindən sanksiyalaşdırılmamış humanitar müdaxiləyə mənəvi baxımdan, humanizm nöqteyi-nəzərindən haqq qazandırmaq olar, lakin dövlətlərin müvafiq praktikası güc tətbiqinin, BMT Nizamnaməsində əks olunmuş və aşağıda şərh olunacaq iki istisnadan başqa, bütün hallarda yolverilməzliyini təsdiq edir.

Sözü gedən prinsipə görə, aşağıdakı hərəkətlər hüquqazidd hesab olunur:

- digər dövlətin beynəlxalq sərhədlərini pozmaq məqsədilə və ya beynəlxalq

mübahisələri, o cümlədən ərazi və yaxud sərhəd mübahisələrini həll etmək üçün güc tətbiq etmək və ya güc tətbiqi ilə hədələmək;

- silahlı güc tətbiq etməklə əvəzçıxma təzyiq tədbirləri;

burada,qadağan olunmuş əməllər sırasında bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin limanlarını blokadaya almasını (buna *“dinc blokada”*deyilir) göstərmək olar.

- qeyri-nizami qüvvələrin və ya silahlı bandaların təşkili və ya təşkilinə dəstək

verilməsi;

- digər dövlətlərin ərazisində vətəndaş müharibəsinin və yaxud terror aktlarının

təşkil edilməsi, onlara yardım edilməsi və ya onlarda birbaşa iştirak edilməsi;

- digər dövlətin ərazisinin qeyri-qanuni güc tətbiq etməklə işğal edilməsi;
- güc tətbiq etməklə və ya güc tətbiqi ilə hədələməklə digər dövlətin ərazisinin ələ

keçirilməsi;

- xalqları özünümüəyyənetmə güququndan, azadlıq və müstəqillikdən məhrum

edən zorakı hərəkətlərin törədilməsi.

Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin ən ağır pozuntusu *silahlı təcavüz* hesab olunur. Təcavüz və onun ən təhlükəli forması olan silahlı

əcavüzü, əlbəttə ki, qarışdırmaq olmaz. Dövlət aktı kimi (fərdin törətdiyi beynəlxalq cinayət kimi yox) təcavüzün anlayışı barədə beynəlxalq müqavilə olmasa da, BMT Baş assambleyasının XXIX sessiyasında (14 dekabr 1974-cü il) qəbul olunmuş 3314 saylı qətnamə mövcuddur. *"Təcavüzün tərifi"* adlanan bu qətnaməyə görə, aşağıdakı aktlardan hər biri təcavüz sayılır.

1) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı işğal;

2) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardıman etməsi və ya onun ərazisinə qarşı hər hansı silahın tətbiq edilməsi;

3) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;

4) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dənizz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etmısi;

5) bir dövlətin,başqa bir dövlətin ərazisində onunla razılaşma əsasında yerləşən silahlı qüvvələrinin bu razılaşmanın şərtlərini pozmaqla istifadə edilməsi və habelə həmin silahlı qüvvələrin bu razılaşmanın xitam olunmasından sonra göstərilən ərazidə qalmaqda hər hansı formada davam etməsi;

6) dövlətin öz ərazisini, həmin ərazini üçüncü bir dövlətə qarşı təcvüz aktı törətmək üçün istifadə istifadə edən başqa bir dövlətin sərıncamına verməsi;

7) bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar hə-yata keçirən silahlı bandaların, qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi.

Qeyd etmək lazımdır ki, təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir (BMT Nizamnaməsinin 39-cu maddəsi). Təhlükəsizlik Şurasının bu preroqativi, habelə "Təcavüzün tərifi haqqında" qətnamədə və Beynəlxalq cinayə məhkəməsinin Nizamnaməsində ifadə olunmuşdur. Lakin, yaxşı məlum olduğu kimi, siysi mülahizələr ucbatından çoxsaylı təcavüz aktları, birbaşa basqin faktları da daxil olmaqla, Təhlükəsizlik Şurası tərəfindən lazımi tövsifini almışdır. Buna ən bariz misal kimi Ermənistanın Azərbaycana qarşı törətdiyi məlum hərəkətləri göstərmək olar. Bu açıq-aşkar

təcavüz aktları nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizə qədəri işğal olunmuşdur. Təəssüflər olsun ki, konfiliktlə bağlı Təhlükəsizlik Şurasının çıxardığı dörd qətnamənin heç birində (822, 853, 874 və 884) təcavüz aktı barəsində, Ermənistanın təcavüzkar dövlət elan olunması barəsində heç nə deyilmir.

Yuxarıda göstədiyimiz kimi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipindən iki müstəsna halmövcuddur, yəni beynəlxalq hüquq yalnız iki halda silahlı gücün tətbiqinə yol verilir:

1. *Özünümüdafiə.*

Dövlət silahlı basqından özünü müdafiə etmək məqsədilə fərdi qaydada və ya başqa dövlətlərlə birgə və proporsionallıq prinsipinə əməl etmək şərtilə güc tətbiq edə bilər. BMT Nizamnaməsinin 51-ci maddəsində deyilir: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin Üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlə görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdaafiə hüququna xələl gətirmir".

2. *Sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı olduqda, BMT Təhlükəsizlik*

Şurasının qərarına əsasən.

BMT Nizamnaməsinin 42-ci maddəsinə müvafiq olaraq, BMT Təhlükəsizlik Şurası "...hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər".

5. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi. BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndinə görə, Birləşmiş Millətlər Təşkilatının bütün Üzvləri "öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın".

Əsas bir cəhəti qeyd etmək lazımdır ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi yuxarıda şərh etdiyimiz güc tətbiq etməmək və ya güclə

hədələməmək prinsipi ilə sıx surətdə bağlılıq və onun məzmununu tamamlayır. Doğrudur, sözü gedən prinsip ümumi beynəlxalq hüquq norması kimi bir qədər əvvəl- hələ ikinci dünya müharibəsindən qabaq formalaşmışdır. *Beynəlxalq toqquşmaların dinc həlli haqqında 1907-ci il Haqa Konvensiyasında* (1-ci və 2-ci maddələr) və Millətlər Liqaının Sttutunda (12-ci, 13-cü, 15-ci və 17-maddələr) məhdud çərçivədə təsbit olunmuş bu prinsip bu günkü anlamda, yəni heç bir qeyri-şərtsiz və imperativ formada ilk dəfə olaraq *1928-ci il Brain-Kelloq Paktında* öz əksini tapmışdır. Paktın II maddəsində birbaşa göstərilirdi ki, müqavilənin iştirakçısı olan dövlətlər öz aralarında ortaya çıxan bütün mübahisə və ya münaqişələri, onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız dinc vasitələrlə həll etməlidirlər. Sonralar BMT Nizamnaməsində təsbit olunmuş bu mühüm norma, həmçinin əsas regional təşkilatların nizamnamələrində də birbaşa əks olunmuşdur.

Prinsipin normativ məzmununa keçməzdan qabaq "beynəlxalq mübahisə" anlayışını açıqlamağa ehtiyac vardır.

Heç bir müvafiq beynəlxalq sazişdə , o cümlədən BMT Nizamnaməsində beynəlxalq mübahisənin tərifi verilmir. Beynəlxalq Məhkəmə iki dəfə bu məsələ ilə qarşılaşmışdır. Daimi Beynəlxalq ədalət məhkəməsi *Mavromatis işində* (1924-cü il) qeyd edilmişdi ki, "mübahisə- iki şəxs arasında hər hansı hüquq normasına və ya fakta görə fikir müxtəlifliyidir". Oxşar tərif *Cənub-qərbi Afrika işində (ilkin etirazlar mərhələsi, 1962-ci il)* də verilmişdir. Sadəcə belə demək olar ki, mübahisə o zaman mövcuddur ki, bir dövlət digər dövlətə qarşı iddia irəli sürür, o biri dövlət isə bu iddianı rədd edir. Beynəlxalq mübahisənin aşağıdakı əlamətlərini göstərmək olar:

1) iki və ya daha artıq tərəfin – beynəlxalq hüquq subyektlərinin olması;

2) mübahisənin dövlətin daxili səlahiyyət dairəsində olmaması;

3)mübahisə edən tərəfin qarşılıqlı iddialarının olması;

4) tərəflərin öz aralarında mübahisənin yaranması faktını etiraf etməsi;

5)mübahisənin taranması anının müəyyən edilməsi.

Mübahisə *"situasiya"* dan fərqləndirilməlidir. Doğrudur, çox zaman bu iki termin

bir yerdə işlədilir. Misal üçün, BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndini, habelə *Beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən mübahisə və situasiyaların qarşısının alınması və aradan qaldırlması* və *BMT-nin bu sahədə rolu haqqında Bəyannaməni* göstərmək olar. Situasiya dövlətlərin maraqlarının toqquşması nəticəsində gərginliyin yaranmasıdır, lakin bu zaman tərəflər bir-birinə qarşı iddialar irəli sürmürlər. *Situasiya zamanı sanki tərəflər olmur, yəni qarşılıqlı iddialar yoxdur.* Belə demək olar ki, hər bir mübahısə situasiyadır, lakin heç də hər bir situasiya mübahisə deyildir. Mübahisə və situasiyanın fərqləndirilməsi nəzəri məsələ deyildir; bunun olduqca mühüm praktik əhəmiyyəti vardır. Belə ki, BMT Nizamnaməsinin 27-ci maddəsinin 3-cü bəndinə görə, mübahisənin tərəfi olan Təhlükəsizlik Şurasının daimi üzvü qərar qəbul edilərkən səsvermədə iştirak etməməlidir. Bu müdda situasiyalara şamil olunmur. BMT Nizamnaməsinin 36-cı maddəsinin 1-ci bəndinə əsasən, Təhlükəsizlik Şurası həmin mübahisənin, həm də situasiyanın istənilən mərhələsində müvafiq nizamlama prosedurları və ya metodları tövsiyə edə bilər. 37-ci və 38-ci maddələrə görə isə, Təhlükəsizlik Şurası tərəflərə situasiyanın yox, mübahisənin həlli şərtlərini töfsiyə edə bilər. Nəhayət, BMT Beynəlxalq Məhkəməsinə iş situasiya ilə deyil, yalnız mübahisə ilə bağlı verilə bilər.

Lakin istənilən halda, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həm beynəlxalq mübahisəlrə, həm də beynəlxalq situasiyalara şamil olunur.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin məzmunu dövlətlərin aşağıdakı hüquq və öhdəliklərində öz ifadəsini tapır:

1. Dövlətlər öz mübahisələrini, onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız yə yalnız dinc vasitələrlə həll etməlidirlər. Lakin prinsipin məzmunundan belə alınmır ki, dövlətlər öz beynəlxalq mübahisələrini mütləq həll etməlidirlər. Beynəlxalq hüquqda dövlətlərdən bunu imperativ şəkildə tələb edən norma yoxdur. Beynəlxalq hüququn tələb etdiyi budur ki, əgər dövlət öz mübahisəsini nizamlamaq qərarına gəlibsə, bunu yalnız dinc yolla etməlidir.

2. Dövlətlər öz mübahisələrini həll edərkən dinc vasitələrdən hər hanı birini seçmək hüququna malikdirlər. Lakin dövlətlər qabaqcadan konkret beynəlxalq müqavilədə hər hansı nizamlama vasitəsinə razılaşa bilərlər. Məsələn, *Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasında* mübahisələrin nizamlanmasının dörd məcburi proseduru nəzərdə tutulmuşdur ki, bunlardan hər birini hər hansı dövlət Konvensiyanı imzalayarkən və ya ratifikasiya edərkən yazılı bəyanat vasitəsilə seçə bilər: 1) Dəniz hüququ üzrə Beynəlxalq tribunal; 2) BMT-nin Beynəlxalq məhkəməsi; 3) Konvensiyaya VII Əlavəyə müvafiq olaraq yaradılan arbitraj və 4) Konvensiyaya VIII Əlavəyə müvafiq olaraq yaradılan xüsusi arbitraj.

3. Dövlətlər arasında olan mübahisəni həll olunmaq üçün hər hansı üçüncü tərəfə

təqdim etməyə məcbur oluna bilməzlər. Lakin bu norma beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən mübahisələrə aid deyildir.

4. Dövlətlər aralarında olan mübahisənin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinməlidirlər. Mübahisənin həllini çətinləşdirə bilən, beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən, habelə mübahisənin tərəflərindən birinin vəziyyətini pisləşdirə bilən hərəkətlər qadağan olunur.

5. Dövlətlər öz mübahisələrini beynəxalq hüquq və ədalət əsaında həll etməlidirlər.

6. Sərhədlərin pozulmazlığı prinsipi. Sərhədlərin pozulmazlığı prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi və ya suveren bərabərlik prinsipi ilə sıx surətdə bağlıdır. Helsinki Yekun Aktında o, müstəqil prinsip kimi təsbit olunmuşdur. Sərhədlərin pozulmazlığı prinsipi digər regionlarda - afrika və Cənubi Amerikada da imperativ norma kimi tanınmişdır. Dövlətin razılığı olmadan onun sərhədləri heç bir halda dəyişdirilə bilməz. Azərbaycan Respublikasının Konstitusiyasına görə, belə bir razılıq yalnız referendum vasitəsələ ifadə oluna bilər.

Sərhədlərin pozulmazlığı prinsipinin məzmunu aşağıdakı ünsürlərdən ibarətdir:

1) mövcud sərhədlər beynəlxalq hüquqa müvafiq olaraq müəyyən olunmuş sayılır;

2) dövlət başqa bir dövlətə qarşı hər hansı ərazi iddiasından imtina etməlidir;

3) dövlət başqa bir dövlətin sərhədlərinə qarşı istənilən qəsdlərdən imtina etməlidir.

7. Ərazi bütövlüyü prinsipi. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində dolayı yolla əks olunmuşdur. Müstəqil prinsip kimi o, Helsinki Yekun Aktında təsbit olunmuşdur. Göstərilən prinsipin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir- birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa bir dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətin ərazisi qanunsuz gqc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Ərazi bütövlüyü prinsipi özündə digər bir prisipi – hələ xıx əsrdə Latın Amerikasında Formalaşmış və 1986- cı ildə *Burkina Faso /Mali işində* BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən ümumi beynəlxalq hüquq norması kimi xarakterizə edilmiş *uti possidetis prinsipini* ehtiva edir. Uti prossidest prinsipinin məğzi ondan ibarətdir ki, müstəmləkələrin və ya federasiya subyektlərinin əvvəlki sərhədləri tehi müstəqil dövlətlərin beynəlxalq sərhıdləri olur və müvafiq razılıq olmadan dəyişilə bilməz. Azərbaycanla bağlı demək olar ki, onun SSRİ dövründə malik olduğu ərazisinin bütövlüyünə istənilən iddia və ya qəsd sözü sözü gedən prinsipə tamamilə ziddir.

8. Xalqların özünümüəyyənetmə prinsipi. Bu prinsip BMT Nizamnaməsində, *Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il Bəyannaməsində, İnsan hüquqları haqqında 1966-cı il Beynəlxalq Paktlarının* 1-ci maddələrində, 1970-ci il Bəyannaməsində, Helsinki Yekun aktında, habelə BMT-nin Beynəlxalq Məhkəməsinin bir sıra qərar və məsləhət xarakterli rəylərində öz əksini tapmışdır. *Şərqi Timor haqqında işdə* (1995-ci il) Beynəlxalq Məhkəmə qeyd etmişdir ki, xalqların özünümüəyyənetmə

hüququ erga omens hüququdur, yəni bütün dövlətlər bu hüquqa hörmət etməlidirlər və onun həyata keçirilməsinə maneə törətməməlidirlər.

Prinsipin məzmununu açıqlamaq üçün iki anlayış – "xalq" və "özünümüəyyənetmə" anlayışlarının məna yükünü düzgün bilmək lazımdır.

Göstərilən prinsipin kontekstində və ümumiyyətlə, beynəlxalq hüquqda "xalq", bir qayda olaraq, etnik anlamında başa düşülmür. Beynəlxalq-hüquqi anlayış kimi "xalq" hər hası milli və ya etnik qrupu deyil, məhz dövlətin (və ya dövlətçilikdən qeyri-qanuni məhrum edilmiş ərazinin) bütün əhalisini bildirir. Yəni "xalq" etnos kimi deyil, demos kimi başa düşülmür. Yalnız xalq bütövlükdə bu hüququn daşıyıcısıdır. Xalqın bir hissəsinin, o cümlədən, milli azlıqların belə bir hüququ yoxdur. Bu, beynəlxalq hüquqda birmənalı olaraq qəbul edilmişdir.

"Özünümüəyyənetmə" o deməkdir ki, hər bir xalq xaricdən müdaxilə olmadan sərbəst olaraq özü öz siyasi statusunu müəyyən edə bilər və öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirə bilər. Müstəmləkə altında olan və ya ışğal olunmuş ərazinin bütün əhalisi üçün bu:

a) müstəqillik əldə edilməsində və suveren dövlət qurulmasında;
b) hər hansı bir müstəqil dövlətə qoşulmaqda, yaxud
c) hər hansı bir müstəqil dövlətələ birləşməkdə ifadə oluna bilər.

Təbii ki, müstəqil dövlətlərin xalqı (əhalisi) da özünümüəyyənetmə hüququna malikdir. Həmin xalq üçün özünümüəyyənetmə, hər şeydən öncə, *demakratik idarəetmə hüququ* deməkdir. Yəni xalq daxildən və xaricdən təzyiq və ya müdaxilə olmadan demokratik vasitələrlə öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirmək imkanına malik olmalıdır. Əlbəttə ki, bu xalq öz siyası statusunu sərbəst surətdə özləri müəyyən edə bilərlər.

Xüsusi vurğulanmalıdır ki, özünümüəyyənetmə hüququnun həyata keçirilməsi dövlətlərin suvernliyi və ərazi bütövlüyü ilə uzlaşmalıdır və sesessiyanı (dövlətdən müəyyən ərazinin ayrılmasını) sanksiyalaşdıra bilməz. Başqa sözlə, bu hüququn həyata keçirilməsi müstəqil, demokratik dövlətin parçalanması üçün əsas ola bilməz.

9. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi. Bu olduqca mühüm prinsip ilk dəfə olaraq BMT Nizamhaməsində (1-ci, 55-ci və 56-cı maddələr) ümumi formda təsbit olunmuş, sonralar bir sıra mühüm beynəlxalq sənədlərdə, o cümlədən 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində dəqiqləşdirilmişdir. Yuxarıda göstərmişdik ki, beynəlxalq hüququn müstəqil prinsipi kimi, o, Helsinki Yekun aktında əks olunmuşdur. Prinsipin dövlətlərin üzərinə qoyduğu başlıca öhdəlik ondan ibarətdir ki, onlar insan hüquqlarına hörmət etsinlər və bun beynəlxalq səviyyədə *dəstək versinlər*. Bu gün, bütün insan hüquqlarına *əməl etmək* və onların həyata keçirilməsini *təmin etmək* kimi ümumi beynəlxalq hüquq normalarının mövcudluğundan danışmaq hələ tezdir. Belə ki, əsas etibarilə, biz hər hansı bir dövlətin insan hüquqlarını kobud və kütləvi surətdə pozduğu halda sözü gedən prinsipə əməl olunmamasından danışa bilərik.

10. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsində təsbit olunmuşdur. Beynəlxalq sülhün və təhlükəzliyin qorunmasında və iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində əməkdaşlıq etmək dövlətlərin həm hüququ, həm də vəzifəsidir. Dövlətlərin əməkdaşlığı onların siyasi, iqtisadi, və sosial sistemlərindəki fərqlərdən asılı olmayaraq həyata keçirilməlidir.

11. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi beynəlxalq hüququn ən qədim prinsipidir və daha çox pacta sunt servanda ("müqavilələr yerinə yetirilməlidir") kimi məlumdur. O, BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində birbaşa təsbit olunmuşdur. Burada deyilir ki, Birləşmiş Millətlər Təşkilatının bütün Üzvləri "Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün, bu Nizamnaməyə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər". Sözügedən prinsip habelə çox mühüm beynəlxalq müqavilədə - *Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında* (26-cı maddə) öz əksini tapmışdır.

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi bütün beynəlxalq hüquq sisteminin fəaliyyəti üçün əhəmiyyəti danılmazdır. Dövlət BMT Nizamnaməsinə uyğun olaraq, öz üzərlərinə götürdükləri bütün öhdəlikləri, o cümlədən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarından, beynəlxalq müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəlikləri yerinə yetirilməlidir. Onlar heç bir əsas olmadan özbaşına öz beynəlxalq öhdəliklərindən imtina edə bilməzlər. Beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi müvafiq dövlətin beynəlxalq məhsuliyyətini doğurmur. Dövlətlər elə etməlidirlər ki, onların daxili qanunvericiliyi və inzibati praktikası üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərə uyğun olsun. Belə bir norma mövcuddur ki, beynəlxalq müqaviləni yerinə yetirmədiyinə bəraət qazandırmaq üçün dövlət öz daxili hüququnun müddəalarına istinad edə bilməz (Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsi)

Mövzu 1. BEYNƏLXALQ HÜQUQUN ANLAYIŞI VƏ TƏNZİMETMƏ PREDMETİ

Plan:

1. Beynəlxalq hüququn anlayışı

2.Beynəlxalq hüququn xüsusiyyətləri

3.Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq

4.Müasir beynəlxalq hüququn əsas cəhətləri

ƏDƏBİYYAT SİYAHISI

Василенко В.А. *Основы теории Международного права.* Киев, 1988.

Евинтов В.И. *Международное сообщество и правопорядок (анализ современных концепций).* Киев, 1990.

Мовчан А.П. *Международный правопорядок.* М.., 1996.

Мюллерсон Р.А. Международное публичное и международное частное право: соотношение и взаимодействие // *Сов. Ежегодниг международного права, 1985. М.., 1986.*

Тункин Г.И. *Теория международного права.* М.., 1970.

Ушаков Н.А. *Проблемы теории международного права.* М.., 1988.

Черниченко С.В. *Международное право. Современные теоретические проблемы.* М.., 1993.

Шестаков Л.Н. Понятие международного права. *// Вестник Московского университета. Сер. 11. Право.* 1997. № 6.

Franck T.M. *The Power of Legitimacy Among Nations.* Oxford, 1990.

Ragazzi M. *The Concept of Intenational Obligations* Erga Omnes. Oxford. 1997/

Schachter O. *International Law in Theory and Practice.* Dordrecht, 1991.

1. **Beynəlxalq hüququn anlayışı.** Ümumi hüquq nəzəriyyəsindən bizə məlumdur ki, hər bir cəmiyyətin normal fəalliyəti üçün hüququn, hüquqi nizamasalmanın mövcudluğu obyektiv, zəruri bir haldır, başqa sözlə desək, cəmiyyət olan yerdəhüquq da olmalıdır.Əgər dünyada olan dövlətləri bir cəmiyyət kimi, əgər belə demək mümkünsə, dünya dövlətlərinin ailəsi kimi təsəvvür etsək, onda belə bir məntiqi nəticəyə gələ bilərik ki, bu cəmiyyətin özündə də hüquqa obyektiv ehtiyac vardır. Bu hüquq **beynəlxalq hüquq** adlanır. Beynəlxalq hüquq ayrı-ayrı dövlətlərin milli hüquq sistemlərindən fərqli olan və onlardan asılı olmayaraq mövcud olan hüquqi normalar sistemidir. O, məhz dövlətlər arasındakı müxtəlif xarakterli münasibətləri hüquqi çərçivəyə salmaq üçün yaranmışdır. Beynəlxalq hüquq normaları dövlətlərarası münasibətlər sisteminin, demək olar ki, hər bir aspektini əhatə edir. Bu normalar vasitəsilə dənizdən hava, məkanından bə kosmik fəzadan istifadə olunması, beynəlxalq telekommunikasiyalar, poçt xidmətləri, mal və sərnişinlərin hava vasitəsilə daşınması və pul köçürülməsi nizama salınır;

beynəlxalq ticarət həyata keçirilir; ətraf mühitin mühafizəsi, insan hüquqlarının beynəlxalq müdafiəsi, cinayətkarların təhvil verilməsi və s. kimi dövlətlərin ümumi mənafeyində olan məsələlər həll olunur. Bununla əlaqədar demək lazımdır ki, *beynəlxalq hüquq diplomatiya və xarici siyasətlə üzvi surətdə bağlıdır.* Xarici siyasətin həyata keçirilməsi və diplomatik təcrübə beynəlxalq hüquqa uyğun olmalıdır. Digər tərəfdən, diplomatiya beynəlxalq hüquq normalarının yaradılmasının ən mühüm vasitəsi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, “ beynəlxalq hüquq” termini onun ifadə etdiyi anlamın təbiətini heç də düzgün əks etdirmir. Öz mənşəyini hələ Roma hüququnda təşəkkül tapmış “*jus gentium*” (“xalqların hüququ”) ifadəsindən götürdüyünə görə, bu termin dünyanın əksər dillərində də məhz “xalqlar arasındakı hüquq” mənasında işlədilir (məsələn, ingilis dilində - international iaw, fransız dilində - droit international, ispan dilində - derecho international, alman dilində - Völkerrecht, türk dilində - milletlerarası hukuk, rus dilində - международное право və s.). Əslində isə beynəlxalq hüquq anlamı məhz *dövlətlərarası hüquq* kimi başa

düşülməlidir, çünki beynəlxalq hüquq bilavəsitə xalqlar tərəfindən yaradılmır və xalq üçün deyil, mahiyyət etibarilə dövlətlər üçün, dövlətlərarası əlaqələrin tənzimlənməsi üçündür. Doğrudur, mövcud beynəlxalq hüquq normalarına görə, xalqlar bilavasitə beynəlxalq hüquqdan irəli gələn bəzi hüquqlara malikdirlər, məsələn, özünümüəyyənetmə hüququ (öz müqəddaratını təyyin etmək hüququ), inkişaf hüququ, sülh hüququ bə s. Digər tərəfdən, sonrakı mövzulardan bizə məlum olacaqdır ki, beynəlxalq hüquq, dövlətlərin müvafiq razılaşmasından sonra, digər subyektlər üçün də, məsələn, beynəlxalq təşkilatlar, transmilli korporasiyalar, fərdlər üçün də beynəlxalq hüquq və vəzifələr nəzərdə tuta bilər. Bununla belə, *öz təbiətinə görə, beynəlxalq hüquq dövlətlər tərəfindən yaradılan, əsasən, dövlətlərə yönəlmiş və yerinə yetirilməsi dövlətlərin öz tərəfindən təmin edilən hüquq sistemi olaraq qalır.*

Beynəlxalq hüquqa onun təbiətini əks etdirən belə bir qısaca tərif vermək olar: ***Beynəlxalq hüquq dövlətlər arasınıdakı münasibətləri nizama salmaq üçün onların qarşılıqlı razılığı əsasında yaradılan hüquqi normalar sistemidir.***

2.Beynəlxalq hüququn xüsusiyyətləri. Təbii ki, obyektiv mənada hüquqa xas olan əlamətlər beynəlxalq hüquq normaları üçün də səciyyəvidir. Ən əsası, bu normalar da müvafiq subyeklər üçün hüquqi ümumməcburi xarakter daşıyır və onların yerinə yetirilməsi müəyyən sanksiya ilə təmin edilir. Lakin beynəlxalq hüquq onu dövlətdaxili (milli) hüquqdan fərqləndirən bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyələr, hər şeydən öncə, beynəlxalq hüququn mövcud olduğu və faliyyət göstərdiyi dövlətlərarası mühitlə və suveren, formal baxımdan bir-birindən asılı olmayan dövlətlərin olması ilə əlaqədardır. *Birincisi*, fiziki və hüquqi şəxslər və dövlət orqanları arasıdakı münasibətləri nizama salan dövlətdaxili hüquqdan fərqli olaraq, beynəlxalq hüquq dövlətlər və beynəlxalq hüququn digər subyektləri (beynəlxalq təşkilatlar və s.) arasıda yaranan münasibətləri nizama

salır. *İkincisi,* beynəlxalq sistemdə qanunverici orqan yoxdur. Heç bir beynəlxalq təşkilat və ya orqan, o cümlədən Birləşmiş Millətlər Təşkilatı dövlətlər üçün hüquqi cəhətdən məcburi olan normalar yaratmaq səlahiyyətinə malik deyildir. Beynəlxalq təşkilatların orqanlarından biri kimi fəaliyyət göstərən parlametlər də (məsələn, Avropa İttifaqıda - Avropa parlamenti, Avropa Şurasıda – Parlament Assambleyası və s.) milli parlamentlərə xas olan bəzi əlamətlərə malik olsalar da, "qanunvericilik" səlahiyyətindən məhrumdurlar. Üçüncüsü, beynəlxalq sistemdə, dövlətin daxilində olduğu kimi, mərkəzləşdirilmiş icra və məhkəmə mexanizmi yoxdur. Beynəlxalq hüquq normalarının yerinə yetirilməsinin təmin edilməsi dövlətlərin öz ixtiyarına buraxılmışdır; beynəlxalq hüququn yaradıcısı və başlıca təminadçısı dövlətlərdir. Lakin bəzi hallarda bu funksiyanı dövlətlər müqavilələr vasitəsilə bu və ya digər dərəcədə beynəlxalq təşkilat və ya orqanlara həvalə edirlər. BMT-nin Təhlükəsizlik Şurası beynəlxalq sülhə və təhlükəsizliyə real qorxu yaradan dövlətə qarşı hərbi və qeyri-hərbi sanksiyalar tətbiq edə bilər. BMT-nin Beynəlxalq Məhkəməsi ilə bağlı qeyd etmək lazımdır ki, o, bu və ya digər işə yalnız müvafiq dövlətlər buna razılıq verdikdə baxa bilər. Sadə dillə desək, ən ağır beynəlxalq hüquq pozuntusu törətmiş döbləti belə onun razılığı olmadan Beynəlxalq Məhkəməyə "vermək" olmaz.

Beynəlxalq hüququn xüsusiyyətlərini düzgün başa düşmək üçün olduqca mühim bir məqama diqqət yetirmək lazımdır. Əslində biz burada beynəlxalq hüququ dövlətdaxili hüquqdan fərqləndirən daha bir cəhəti nəzərə çatdırmaq istəyirik. Söhbət ondan gedir ki, səlahiyyətli dövlət orqanları tərəfindən müəyyən olunmuş və ya tanınmış hüquq normaları prinsip etibarilə dövlətin bütün ərazisinə və bu ərazidə olan bütün hüquqi bə fiziki şəxslərə şamil edilir. Beynəlxalq hüquq

isə belə yekcins deyildir və ola da bilməz. Bu baxımdan beynəlxalq hüquq anlamı elə qəbl edilməməlidir ki, söhbət burada yalnız dünyanın bütün dövlətlərini əhatə edən, bütün dövlətlərin riayət etməli olduğu hüquqdan gedir. Qeyd edildiyi kimi, beynəlxalq hüququ dövlətlər özü yaradır və bunun nəticəsində iki dövlət arasında bağlanan ikitərəfli müqavilə də, bütöv regionu əhatə edən razılaşma da və bütün dünya dövlətləri ücün məcburi olan norma da beynəlxalq hüquq deməkdir. Bunu nəzərə almaqla, beynəlxalq hüquq sisteminin özündə *ümumi beynəlxalq hüququ və partikulyar beynəlxalq hüququ* ayırmaq olar. Beynəlxalq məhkəmə təcrübəsində çox geniş istifadə olunan "ümumi beynəlxalq hüquq " termini vasitəsilə bütün dövlətlər məcburi olan beynəlxalq hüquq normaları ifadə olunur. Bu normalara *hamılıqla tanınmış prinsiplər və ya hamılıqla tanınmış normalar* da deyirlər. Partikulyar beynəlxalq hüquqa isə müəyyən regionda və ya iki dövlət arasında mövcud olan normalar daxildir. Bu baxımdan, məsələn, hər hansı bir dövlətin beynəlxalq hüququ pozması dedikdə, biz bunu, daha dəqiq desək, həmin dövlətin bu və ya digər səviyyədə öz üzərinə götürdüyü beynəlxalq öhdəliyi pozması kimi başa düşməliyik.

3.Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq.Bəzən beynəlxalq hüquq anlamı geniş mənada işlədilir və iki müstəqil normativ komleks və elm sahəsi olan *beynəlxalq ümumi hüquq* (public international law) və *beynəlxalq xüsusi hüquq* (private international law) buraya daxil edilir. Beynəlxalq ümumi hüquq dedikdə, yuxarıda anlayışını və təbiətini şərh etdiyimiz dövlətlərarasıhüquq başa düşülür. Əslində bu terminə beynəlxalq praktikada, demək olar ki, rast gəlinmir və o, əsasən elmi tədqiqatlarda və tədris prosesində beynəlxalq xüsusi hüquqdan fərqləndirilmək üçün istifadə olunur; onun əvəzinə hamı üçün anlaşıqlı olan "beynəlxalq hüquq" termini işlədilir. Beynəlxalq xüsusi hüquqa gəldikdə isə, o, *qeyri-dövlət xarakterli beynəlxalq münasibətləri,* yəni hər şeydən əvvəl əcnəbi fiziki və ya hüquqi şəxsin iştirak etdiyi mülki-hüquqi və ona yaxın olan münasibətləri nizama salan normalar sistemi kimi başa düşülür. Beynəlxalq hüquqla (beynəlxalq ümumi hüquqla) beynəlxalq xüsusi hüquq arasında sıx əlaqə mövcuddur. Belə ki, a) onlarin hər ikisi beynəlxalq münasibətləri nizama salır; b)

hər ikisi digər dövlətin hüquq subyektliyini tanıyır; c) mülki-hüquqi münasibətləri nizama salan beynəlxalq sazişlər beynəlxalq hüququn əsas prinsiplərinə zidd ola bilməz; ç) bu sazişlər çox hallarda dövlətlərarası razılaşmaların həyata keçirilməsi istiqamətində bağlanılır.

Beynəlxalq ümumi hüquqla beynəlxalq xüsusi hüquq arasındakı fərqləri aydın başa düşmək üçün Roma hüququndan bizə məlum olan jus publicum və jus privatum bölgüsünü yada salmaq lazımdır. Bu fərqlər aşağıdakılardır:

1) *subyektlərinə görə:*

Beynəlxalq ümumi hüquqda (BÜH) – dövlətlər, beynəlxalq təşkilatlar, dövlətəbənzər qurumlar və s.;

Beynəlxalq xüsusi hüquqda(BXH) – fiziki və hüquqi şəxslər;

2) *predmetinə görə:*

BÜH-da - dövlətlərarası hakimiyyət xarakterli münasibətlər;

BXH-da – beynəlxalq xüsusi hüquq xarakterli (mülki,ailə,əmək və s.) münasibətlər;

3) *mənbələrinə görə:*

BÜH-da – beynəlxalq müqavilə, beynəlxalq adət və s.;

BXH-da – milli qanunvericilik, beynəlxalq müqavilələr, ticarət adətləri və s.;

4) *nizamasalma metoduna görə:*

BÜH-da – müstəqil dövlətlərin razılığa gəlməsi;

BXH-da – ayrı-ayrı dövlətlərin qanunvericiliyindəki kolliziyaların aradan qaldırılması (bu səbəbdən hər bir dövlətin özünün beynəlxalq xüsusi hüququ vardır);

5) *ortaya çıxan məsuliyyətin xarakterinə görə:*

BÜH-də – beynalxalq- hüquqi məsuliyyət ;

BXH-də – mülki-hüquqi məsuliyyət.

4. Müasir beynəlxalq hüququn əsas cəhətləri. Nəhayət, bu mövzu çəçivəsində daha bir məqamı da qeyd etmək istəyirik. Beynəlxalq hüquq elmində və habelə praktikada ***"müasir beynəlxalq hüquq"*** ifadəsinə tez-tez rast gəlmək olur. Bu ifadə təkcə zaman mənasında deyil, daha çox keyfiyyət baxımından

işlədilir. Bu gün qüvvədə olan beynəlxalq hüquq klassik beynəlxalq hüquqdan keyfiyyətcə kəskin surətdə fərqlənir. Müasir beynəlxalq hüququn səciyyəvi cəhətləri aşağıdakılardan ibarətdir: a) bu gün beynəlxalq hüquq təkcə sivil və xiristian dövlətlərin deyil, bütün dünya birliyinin ümumi mənafeyni əks etdirən və beynəlxalq sülhün bə təhlükəsizliyin təmin edilməsi üçün xüsusi mexanizmi olan normativ sistemə çevrilmişdir; b) müharibə bə istənilən güc tətbiqi birmənalı şəkildə qadağan edilmişdir; c) əsas insan hüquq və azadlıqlarına hörmət ediməsi beynəlxalq öhdəlik kimi qəbul edilmişdir bə bununla bağlı olaraq fərd müəyyən dərəcədə beynəlxalq-hüquqi subyekliyə yiyələnmişdir; ç) beynəlxalq normativ sistemdə jus cogens normalarının və erga omnes öhdəliklərinin (yəni bütün beynəlxalq birliyə qarşı olan öhdəliklər) olması hamılıqla qəbul edilmişdir; d) beynəlxalq cina- yətlərə (təcavüz, genosid, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, beynəlxalq terrorizm, narkotik basitələrin qeyri-qanuni dövriyəsi və b.) görə dövlətlərin bə fiziki şəxslərin beynəlxalq məsuliyyəti institutu yaradılmışdır.

Mövzu 2. BEYNƏLXALQ HÜQUQ NORMALARI

BEYNƏLXALQ HÜQUQUN MƏNBƏLƏRİ

Plan:

1. Beynəlxalq hüquq normasının anlayışı

2.Beynəlxalq hüquq normalarının növləri

3.Beynəlxalq hüquq normalarının ierarxiyası

4.Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı

5.Beynəlxalq hüququn mənbəyinin anlayışı

6. Beynəlxalq müqavilə

7. Beynəlxalq hüquqi adət

8. Beynəlxalq müqavilənin və beynəlxalq hüquqi adətin qarşılıqlı münasibəti

9. Hüququn ümumi prinsipləri

10. Məhkəmə qərarları

11. Beynəlxalq təşkilatların qətnamələri

Ədəbiyyat siyahısı

Алексидзе Л.А. *Некоторые вопросы теории международного права: императивные нормы (jus cogens).* Тбилиси.., 1982.

Дмитриева Г.К. *Моралъ и международное право.* М.., 1991.

Евинтов В.И. Провлема “общих принципов права” в современных западных концепциях // *Идеи мира и сотрудничества в современном международном праве (Отв. ред. В.Н. Денисов).* Киев: 1990. С. 156-168.

Лукашук И.И. *Нормы международного права.* М.., 1997.

Миронов Н.В. *Международное право: нормы и их юридическая сила.* М..,1980.

Мовчан А.П. *Кодификация м прогрессивное развитие международного право.* М.., 1972.

Общепризнанные нормы в современном международном праве. Отв. ред. Н.Н. Улъянова. Киев, 1984.

Талалаев А.Н. Общепризнанные принципы и нормы международного право (конституционное закрепление термина) // *Вестник Московского университета. Сер. 11. Право.* 1997. № 3.

Толстик В.А. *Иерархия российского и международного права.* М.., 2001.

Шестаков Л.Н. *Императивные нормы в системе современного международного права.* М.., 1981.

Даниленко Г.М. *Обычай в современном международном праве.* М.., 1988.

Гусейнов Л.Г. Международные обычаи в области прав человека // *Актуалъные вопросы гуманитарных наук (Межвузовский сборник научных трудов).* Новосибирск: 1999.

Лукашук И.И. *Источники международного права.* Киев, 1966.

Филимомова М.В. *Источники современного международного права.* М..,1987.

Change and Stability in International Law-Making (A. Cassese and J.H.H. Weiler eds). 1988.

Danilenko G.M. *Law-Making in the International Community.* Dordrecht-Boston-London, 1993.

Degan V.D. *Sources of International Law.* Dordrecht-Boston-London, 1997.

Mullerson R. On the Nature and Scope of Customary International Law //*Austraian Reviw of International and European Law.* 1998. vol. 2. P. 341-360.

Simma B. and Alston P. The Sources of Human Rights Law: Custom, Jus Cogens and General Principles *//Australian Yearbook of International Law.* 1992. vol. 12. P. 82-108.

Wolfke K. Some Persistent Controversies Regarding Customary International Law //*Netherlands Yearbook of International Law.* 1993. vol. XXIV. P. 1-16

1. Beynəlxalq hüquq normasının anlayışı. Beynəlxalq hüququn təbıətini bə əsas xüsusiyyətlərini açıqlayarkən biz gördük ki, bu anlayışın əsasında dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin davranış modeli kimi çıxlş edən hüquq normaları dayanır. Bundan sonrakı mövzuların daha aydın başa düşülməsi üçün bu normaların anlayışını bə təsnifini şərh etməyə ehtiyac bardır.

Beynəlxalq hüquq normaları dövlətlər bə beynəlxalq hüququn digər subyektləri

arasındakı qarşılıqlı münasibətləri nizama salan ümumi məcburi qaydalara deyilir.

Beynəlxalq hüquq normalarını dövlətlərin öz qarşılıqlı münasibətlərində əməl etdikləri digər normalardan, o cümlədən hüquqi xarakter daşımayan beynəlxalq adət normalarından və nəzakət normalarından (diplomatik etik qaydalarıdan) fərqləndirmək lazımdır. Bu normalar dövlətlər üçün məcburi deyildir və onlara əməl olunmaması beynəlxalq hüquqi məsuliyyət doğurmur.

Beynəlxalq hüquq normasının məzmunu beynəlxalq hüquq subyektinin malik olduğu *hüquqdan* və digər subyektin (subyeklərin) həmin hüquqa uyğun olaraq öz üzərinə götürdüyü *vəzifədən (öhdəlikdən)* ibarətdir. Doğrudur, beynəlxalq hüquq və öhdəliklər təkcə beynəlxalq hüquq normalarından irəli gəlmir. Hər hansı beynəlxalq məhkəmənin və ya arbitraj məhkəməsinin qərarı, BTM Təhlükəsizlik Şurasının qətnaməsi və ya dövlətin birtərəfli qaydada verdiyi bəyanat da müvafiq öhdəliklər doğura bilər.

Beynəlxalq hüquq normaları, yuxarıda qeyd etdiyimiz kimi, prinsip etibarilə dövlətlərin qarşılıqlı razılığı əsasında yaranır. Lakin xüsusi vurğulamaq lazımdır ki, hər hansı ümumi beynəlxalq hüquq normasının, yəni dünyanın bütün dövlətləri üçün məcburi olan normanın yaranması üçün heç də bu dövlətlərdən hər birinin razılığı tələb olunur. Bununla bağlı olaraq, yeni yaranmış dövlət öz arzusu və iradəsindən asılı olmayaraq, ondan qabaq artıq təşəkkül tapmışvə hamılıqla qəbul edilmiş normadan imtina edə bilməz və ona riayət etməyə borcludur. Məsələn,dövlətimiz müstəqillik qazanan andan, hələ heç bir müvafiq beynəlxalq müqaviləyə qoşulmasa da, başqa dövlətlərə qarşı güc tətbiq edilməməsi, başqa dövlətlərin ərazi bütövlüyünə hörmət edilməsi, genosid aktının törədilməməsi və s. bu kimi öhdəlikləri artıq öz üzərinə götürmüş sayılırdı.

2.Beynəlxalq hüquq normalarının növləri. Beynəlxalq hüquq normaları öz məzmununa və formasına görə olduqca müxtəlifdir. Bir sira meyarlara əsaslanmaqla, onları müxtəlif növlərə ayırmaq olar.

Subyekt-ərazi dairəsinə görə beynəlxalq hüquq normalarının üç növü fərqləndirilir: 1) ümumi normalar ; 2) regional normalar; 3) iki tərəfli (bilateral) normalar.

Ümumi beynəlxalq hüquq normalarının tərifini biz yuxarıda verdik. Bu normaların içərisində jus cogens normaları (ümumi beynəlxalq hüququn imperativ normaları) xüsusi yer tutur. Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 53-cü maddəsində jus cogens normasının anlayışı verilmişdir: həmin maddəyə əsasən, jus cogens-ümumi beynəlxalq hüququn normasıdır; bütövlükdə dövlətlərin beynəlxalq birliyi tərəfindən qəbul edilir və

tanınır; bu cür normadan geri çəkilmək yolverilməzdir; bu norma yalnız ümumi beynəlxalq hüququn eyniylə bu xarakterdə olan yeni bir norması ilə dəyişdirilə bilər. Jus cogens normalarına misal olaraq aşağıdakıları göstəmək olar: təcəvüzün qadağan olunması, başqa dövlətlərin sərhədlərini pozmamaq, dinc əhalini zorla bir ərazidən başqa bir əraziyə köçürməmək, başqa dövlətlərin daxili işlərinə qarışmamaq və s. Dövlətlər hətta qarşılıqlı razılıq əsasında jus cogens normasının ziddinə hərəkət edə bilməzlər. Belə ki, istənilən belə bir müqavilə tam etibasız sayılır və onun heç bir hüquqi qüvvəsi ola bilməz. Eyniylə, yeni bir jus cogens norması yarandıqdan sonra bu normaya zidd olan bütün beynəlxalq müqavilələr hüquqi cəhətdən etibarsız olur və onlar xitam olunmuş sayılır. Jus cogens normasının pozulması ilə bütün dövlətlərin hüquq və mənafeləri pozulmuş sayılır.

Reqional normalar müəyyən bir coğrafi regionda yerləşən dövlətləri bağlayan beynəlxalq hüquq normalarıdır. Məsələn, Latin Amerikası ölkələri arasıda elə normalar mövcuddur ki, onlar digər regionlarda qəbul olunmamışdır. Buna misal olaraq diplomatik sığıncaq hüququnu göstərmək olar.

İkitərəfli normalar iki dövlət arasıda bağlanmış müqavilədə əks olunmuş normalardır.

Nizamasalma üsuluna görə beynəlxalq hüquq normalarının iki növünü ayırmaq olar: 1) imperativ normalar və 2) dispozativ normalar.

Imperativ normalar o normalara deyilir ki, onlarda nəzərdə tutulmuş yeganə davranış variantından dövlətlər heç cür kənara çıxa bilməzlər. Yuxarıda biz imperativ normaların xüsusi bir növü olan jus cogens normalarının izahını vermişdik. İmperativ normaya misal kimi nüvə silahının yayılmamasını nəzərdə tutan beynəlxalq hüquq normasını göstərmək olar.

Dispozitiv normalar alternativ davranış variantı nəzərdə tutulan normalardır. Dövlətlər başq cür razılığa gəlməklə, normada göstərildiyindən fərqli hərəkət edə bilərlər. Məsələn, dövlətin hava məkanından onun birbaşa razılığı olmadan istifadə olunmasını qadağan edən norma dispozitiv normadır.

Normada nəzərdə tutulmuş göstərişin xarakterinə görə beynəlxalq hüquq normalarının aşağıdakı növləri fərqləndirilir:1) *səlahiyyətverici* normalar (dövlətə

və ya beynəlxalq hüququn digər subyektinə hər hası bir hərəkəti etmək hüququ verən normalar);

2) *məcburedici* normalar (hər hası bir hərəkəti yerinə yetirmək vəzifəsi müəyyən edən normalar) və 3) *qadağanedici* normalar (müəyyən hərəkətin edilməsini qadağan edən normalar).

Formasına görə beynəlxalq hüquq normaları iki nöbə ayrılır: 1) *yazılı rəsmi təsbit* olunmuş normalar və 2) yazılı təsbit olunmamış normalar.

Birinci növ normalara müqavilə normaları daxildir. Yazılı təsbit olunmamış normalara isə dövlətlərin praktikasında meydana gələn və bu praktikanın özündə mövcud olan beynəlxalq adət hüquq normaları və hüquq ümumi prinsipləri aiddir.

Qüvvədə olma müddətinə görə beynəlxalq hüquq normalarının iki növünü göstərmək olar: 1) müddətsiz normalar və 2) müddətli normalar.

Müddətsiz normaların hüquqi qüvvəsi heç bir formal müddətlə məhdudlaşdırılmamışdır. Beynəlxalq hüququn əsas prisiplərini, digər beynəlxalq adət hüquq normalarını buna misal göstərmək olar. Bəzi hallarda beynəlxalq müqavilə müddəalarının da müddətsiz qüvvədə olması nəzərdə tutulur.

Müddətli normalar qüvvəsi müəyyən müddət üçün (adətən, bir ildən başlayaraq iyirmi ilə qədər) nəzərdə tutulan normalardır.

Beynəlxalq hüquq normaları, habelə ***maddi və prosessual normalara*** bölünür. Maddi normalarda dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin hüquq və öhdəlikləri ehtiva olunur (məsələn, ayrı-ayrı əsas insan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı dövlətlər üçün beynəlxalq öhdəliklər müəyyən edən normalar). Prosessual normalar isə maddi normalarının həyata keçirilməsinin təşkilati-prosedur aspektlərini müəyyən edir (məsələn, insan hüquqları üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə yaradılan orqanların səlahiyyətlərini, təşkili və fəaliyyət qaydasını müəyyən edən normalar). Maddi normalar öz növbəsində *tənzimləyici və mühafizəedici* normalara, prosessual normalar isə təşkilati, prosedur, protokol normalarına bölünür.

3.Beynəlxalq hüquq normalarının ierarxiyası. Beyəlxalq hüquq normalarının yaradılması prosesinin dövlətdaxili normaların yaradılması

qaydasından fərqli olması özünü habelə ierarxiya, yəni hüquqi qüvvəsinə görə hüquq normalarının bir-birindən asılı olması məsələsində biruzə verir. Beyəlxalq hüquqda milli hüquq sistemində olduğu kimi dəqiq müəyyən olunmuş və bütün normativ massivi əhatə edən ierarxiya yoxdur. Beyəlxalq hüquq normasının forması, məsələn, hər hansı beynəlxalq müqavilədə təsbit olunması və ya beynəlxalq adət hüququ şəklində mövcud olması və yaxud ikitərəfli və ya çoxtərəfli müqavilədə təsbit olunması onu müxtəlif hüquqi qüvvəyə malik olmasına prinsip etibarilə təsir göstərmir. Bunula belə, beyəlxalq hüquqda da müəyyən ierarxiya mövcuddur. Belə ki, müasir beyəlxalq hüquqda müəyyən olunmuşdur ki:

1) jus cogens normaları, yuxarıda artıq qeyd edildiyi kimi, bütün digər beyəlxalq hüquq normalarına nisbətən üstün hüquqi qüvvəyə malikdir. Jus cogens-ə zidd olan norma hüquqi baxımdan etibarsızdır (bu barədə bax: Beynəlxalq müqavilələr və hüquqi haqqında Vyana Konvensiyasının 53-cü maddəsi).

2) Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin hüquqi qüvvəsi bütün digər beynəlxalq müqavilələrin hüquqi qüvvəsindən üstündür. Bu Nizamnamənin 103-cü maddəsində birbaşa ifadə olunmşdur. Həmin maddədə deyilir: “Birləşmiş Millətlər Təşkilatı Üzvlərinin bu Nizamnamədən irəli gələn öhdəlikləri ilə onların istənilən digər beynəlxalq sazişdən irəli gələn öhdəlikləri arasıda ziddiyyət olduqda, onların bu Nizamnamədən irəli gələn öhdəlikləri üstün qüvvəyə malik olur”.

3) beynəlxalq müqavilələri bağlayan dövlət orqanlarının dövlət mexanizmində yeri və konstitusion statusundan asılı olaraq, bu müqavilələr aşağıdakı ierarxiyaya malik olur: 1) dövlətlərarası müqavilələr; 2) hökumətlərarası müqavilələr və 3) idarələrarası müqavilələr.

4. Beynəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı.

Beynəlxalq hüququn məcəllələşdirilməsi (kodifikasiyası) daxilən uzlaşdırılmış iri hüquqi akttların yaradılması məqsədilə beynəlxalq hüquq normalarının rəsmi sistemləşdirilməsinədeyilir.

Məcəllələşdirmə zamanı beyəlxalq hüquq normaları nəinki vahid sistemə gətirilir,

həmçinin bu normalar daha dəqiq ifadə olunur bə beynəlxalq adət hüququ şəklində təşəkkül tapmış normalar da buraya daxil edilir. Lakin məcəllələşdirmə prosesi heçdə bununla məhdudlaşmır və praktikada bu proses mövcud normaların dəyişdirilməsi və yaxud yeniləşdirilməsi, habelə tamamilə yeni normaların yaradılması ilə, yəni beyəlxalq hüququn mütərəqqi inkişafı ilə müşaiət olunur.

Beyəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı aşağıdakı vəzifələri yerinə yetirir: a) qüvvədə olan beyəlxalq hüququ beynəlxalq münasibətlərin həmin inkişaf dövrünün tələbatına uyğunlaşdırmaq; b) ona tələb olunanyeni hüquq normaları əlavə etmək; c) köhnəlmiş normaları kənar etmək və mövcud normalar arasındakı ziddiyyətləri aradan qaldımaq; ç) beyəlxalq hüququn müvafiq sahəsini və ya insitutunu bir normativ kompileks şəklinə salmaq.

Məcəllələşdirmə *rəsmi və qeyri-rəsmi* olur. Rəsmi məcəllələşdirmə, əsasən, BTM çərçivəsində aparılır. Qeyri-rəsmi məcəllələşdirmə isə ayrı-ayrı amillə, milli insitutlar və yaxud beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən (bunların içərisində hər ikisi 1873-cü ildən fəaliyyət göstərən və müxtəlif ölkələrin alimlərini özündə birləşdirən Beynəlxalq Hüquq Assosiyasiyasını və Beyəlxalq Hüquq İnstitunu xüsusilə ayırmaq lazımdır) həyata keçirilir.

Beyəlxalq hüququn məcəllələşdirilməsi və mütərəqqi inkişafı işinin təşkili BTM Baş Assambleyasının səlahiyyətinə daxildir (BTM Nizamnaməsinin 13-cü maddəsi). Baş Assombleya tərəfindən bu məqsədlə 1947-ci ildə xüsusi kömıkçi orqan - Beyəlxalq hüquq komissiyası təsis edilmişdir. Komissiya müxtəlif hüquqi sistemləri təmsil edən, Komissiyada şəxsi keyfiyyətdə fəaliyyət göstərən, Baş Assambleya tərəfindən 5 il müddətinə seçilən 34 tanınmış beynəlxalq hüquşünasdan ibarətdir. İndiyə qədər Beyəlxalq hüquq komissiyası bir sıra məcəllələşdirimiş beynəlxalq aktların, o cümlədən Diplomatik əlaqələr haqqıda 1961-ci il Vyana Konvensiyasının, Konsulluq əlaqələri haqqında 1963-cü il Vyana Konvensiyasının, Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının, Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinin (1995-ci il) və digər mühüm aktların mətinlərini işləyib hazırlamışdır. Hazırda Komissiya aşağıdakı məsələlər üzrə Məcəllə layihələri üzərində işləyir: Dövlətlərin

məsuliyyəti; Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər; Beynəlxalq müqavilələrə qeyd-şərtlər; Beyəlxalq hüquqla qadağan olunmayan hərəkətlərin zərərli nəticələrinə görə beynəlxalq məsuliyyət və b.

5.Beynəlxalq hüququn mənbəyinin anlayışı. Hər hansı davranışın hüquqauyğun olub-olmamasını müəyyən etmək üçün biz bu davranışı özündə əks etdirən müvafiq hüquq normasını axtarıb tapmalı oluruq. Bu normanın harada öz əksini tapması, haradan götürülməsi praktik baxımdan müstəsna əhəmiyyətə malik olan "hüququn mənbəyi" anlamı ilə bağlıdır. ***Hüququn mənbəyi dedikdə, hüquq formasının ifadə forması başa düşülür.*** Bu qısa tərifi biz ***beyəlxalq hüququn mənbəyi*** anlayışına da aid edə bilərik.

Bu və ya digər ölkə daxilində hansı hüquq mənbələrinin olmasını biz, adətən, həmin ölkənin Konstitusiyasından və ya müvafiq qanunvericilik aktından bilirik. Belə bir mötəbər "informasiya mənbəyi" beyəlxalq hüquqda da vdrdır: beyəlxalq hüququn mənbələri BTM Beynəlxalq Məhkəməsi Statunun 38-ci maddəsində göstərilmişdir. Həmin maddəyə görə, Beynəlxalq Məhkəmə ona təqdim olunmuş mübahisələri həll edərkən 1) *beynəlxalq müqaviləyə*; 2) *beyəlxalq hüquqi adətə*; 3) hüququn ümumi prinsiplərinə; hüquq normalarını məzmununu müəyyən etmək üçün köməkçi vasitə kimi 4) məhkəmə qərarlarına və 5) tanınmış alimlərin rəylərinə əsaslana bilər.

Doğrudur, göstərilən maddədə beyəlxalq hüququn mənbələrinin siyahısını vermək məqsədi güdülməmişdir. Bundan əlavə, müasir beyəlxalq hüququn mühüm mənbəyi olan *beynəlxalq təşkilatların qətnamələri* bu maddədə heç nəzərdə tutulmamışdır. Halbuki BTM-nin Beynəlxalq Məhkəməsi BTM Baş Assambleyasının qətnamələrinə dəfələrlə, o cümlədən 1986-cı ildə baxdığı məşhur Nikaraqua işində istinad etmişdir.

6. Beynəlxalq müqavilə. Beynəlxalq müqavilə beyəlxalq hüququn əsas mənbələrindən biri olub, iki vəya daha artıq dövlət (və ya beynəlxalq

hüququn digər subyekti) arasında bağlanan, qarşılıqlı beynəlxalq hüquq və vəzifələr müəyyən edən razılaşma kimi başa düşülür.

Beynəlxalq müqavilələrin xüsusiyyətləri, onlarin bağlanması və xitam ollunması qaydası haqqında irəlidə ətraflı bəhs ediləcəkdir. Aşağıda isə beynəlxalq müqavilə beynəlxalq hüququn əsas mənbəyi kimi qısaca şərh edilir.

Beynəlxalq müqavilələr vasitəsilə dövlətlər və habelə beynəlxalq hüququn digər subyektləri, məsələn, beynəlxalq təşkilatlar öz aralarında ortaya çıxan müxtəlif xarakterli məsələləri həll edirlər. İndiki dövrdə beynəlxalq münasibətlərin elə sahəsini göstərmək olmaz ki, orada beynəlxalq sazişlər mövcud olmasın. Beynəlxalq müqavilələrdə dövlətlərin hüquq və vəzifələri daha dəqiq və birmənalı təsbit olunur, onların beynəlxalq səviyyədə və dövlət daxili hüquq sistemində həyata keçirilməsi üçün zəruri zəruri hüquqi mexanizm nəzərdə tutulur. Bu baximdan beynəlxalq müqavilə müasir beynəlxalq hüququn ən mühüm mənbəyikimi çıxış edir.

Dövlət yalnız öz razılığı ilə hər hansı beynəlxalq müqavilənin iştirakçısı ola bilər. Müqaviləyə razılıq verdiyi andan dövlət həmin müqavilənin bütün tərəfləri qarşısında öz üzərinə müvafiq öhdəliklər götürür. Müqavilə yalnız onun iştirakçıları üçün hüquq və öhdəliklər yaradır; üçüncü dövlətlər üçün isə o, beynəlxalq hüququn mənbəyi ola bilməz.

Beynəlxalq müqavilələr şifahi formada da bağlana bilər.Buna indi praktikada çox nadir hallarda rast gəliinən *"centlmen sazişləri"ni* misal göstərmək olar.

7. Beynəlxalq hüquqi adət. Beynəlxalq hüquqi adət beynəlxalq praktikada təşəkkül tapmış və məcburi norma kimi tanınmış davranış qaydasıdır.

Tərifdən göründüyü kimi, beynəlxalq hüquqi adətin iki ünsürü vardır: 1) dövlətlərin praktikası və 2) bu praktikanın məcburi norma kimi tanınması (opinio yuris).

Bu fikir BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən bir neçə dəfə, o cümlədən Şimal dənizinin kontinental şelfi haqqında iş üzrə (1969-cu il) və Nikaraqua işi üzrə (1986-cı il) çıxardığı qərarlarında qeyd olunmuşdur.

Beynəlxalq hüququi adətin maddi əsasını təşkil edən *dövlətlərin praktikasına* aşağıdakılar daxildir: a) dövlətlərin "faktik" fəaliyyəti (hərəkət və ya hərəkətsizlik); b) konkret situasiya və ya mübahisələrlə bağlı onların verdikləri bəyanatlar; c) dövlətdaxili qanunvericilik; ç) milli məhkəmələrin qərarları; d) beynəlxalq təşkilatların praktikası.

Müəyyən adət normasının təşəkkül tapması üçün, bir qayda olaraq, dövlətlərin praktikası aşağıdakı tələblərə cavab verməlidir:

a) ardıcıl, səbatlı və eyni cür olmalıdır;

b) ümumi olmalıdır, yəni dünyanın əksər dövlətlərinin bu praktikada "payı" olmalıdır; burada üç cəhəti nəzərə almaq lazımdır: 1) bu və ya digər beynəlxalq adət normasının mövcud olması haqqında məsələni həll edərək, nizama salmanın münasıbətdə maraqları xüsusilə toxunulan dövlətlərin praktikası ön plana çəkilməlidir. Məsələn, dəniz hüququ ilə bağlı adət normalarının təşəkkül tapmasında dənizyanı dövlətlərin praktikası dənizə heç bir çıxışı olmayan Əfqanıstanın və ya Avstriyanın praktikasından daha önəmli əhəmiyyət kəsb edəcəkdir; 2) əgər bir dövlət lap əvvəldən və ardıcıl olaraq digər dövlətlərin hər hansı bir praktikasına etiraz edirsə, o, yaranmaqda olan adət norması ilə bağlı olmayacaqdır. Bu, beynəlxalq hüquqda qəbul olunmuş "təkidlə etiraz edən dövlət" prinsipindən irəli gəlir. Lakin bu prinsip yuxarıda sözü getmiş jus cogens normalarına şamil olumur; 3) beynəlxalq hüquqda ümumi beynəlxalq adət normalarından başqa, iki və daha artıq dövləti əhatə edən *partikulyar (lokal)* adətlər də mövcud ola bilər.

Nəhayət, ümumi qayda bundan ibarətdir ki, beynəlxalq adət normasının formalaşması üçün dövlətlərin praktikası *uzunmüddətli* olmalıdır. Məhz dövlətlərin uzun tarixi vaxt ərzində təkrarlanan və üst-üstə düşən praktikası beynəlxalq hüquqi adətin əsasını təşkil edir. Doğrudur, beynəlxalq hüquqda bu müddətin nə qədər olması müəyyən edilməmişdir və bu, hər bir halda nizama salınan məsələnin xarakterindən aıslıdır. Bunula belə, müasır beynəlxalq hüquqda müstəsna hallarda "ani adət" də yarana bilər. Məsələn, kosmiq fəzadan istifadə ilə bağlı hazırda mövcud olan bir sıra beynəlxalq hüquqi adətlər bu qəbildəndir.

Beynəlxalq hüquqi adətin yaranması üçün dövlətlərin ardıcıl, ümumi, eyni cür və uzunmüddətli praktikasının olması kifayət deyildir. Bu praktikanın hüquqa çevrilməsi üçün dövlətlər həmin praktikanı məcburi norma kimi qəbul etməlidirlər. Başqa sözlə, praktikanın sadəcə adət yox, məhz məcburi yerinə yetirilməli norma olmasına dövlətlərdə inam, yəni *opinio yuris* olmalıdır.

Qeyd etmək istərdik ki, əslində beynəlxalq hüquq öz mənşəyini beynəlxalq adətlərdən götürmüşdür. Lakin beynəlxalq hüquq inkişaf etdikcə və məcəllələşdirildikcə, beynəlxalq adət normaları öz əvvəlki, əhəmiyyətini və nizamasalma dairəsini itirmişdir. Bununla belə, müasir beynəlxalq hüquqda müqavilələr aparıcı rol oynasa da, beynəlxalq hüquqi adətin təsiri də az deyildir.

Doğrudan da, hazıda faktik olaraq elə bir müqabilə yoxdur ki, dünyanın bütün dövlətləri onun iştirakçısı olsun. Bir misal göstərək. Genosid cinayətinin alınması və cəzalandırıkması haqqında 1948-ci il Konvensiyasının hazırda 133 iştirakçısı vardır. Bu o deməkdirmiki, dünyanın, demək olar ki, 60-a qədər dövləti genosid cinayəti törətməmək, genosid aktları törətmiş şəxslərin cəzalandırılması təmin etmək və s. kimi beynəlxalq hüquqi öhdəliklərdən azaddırlar? Əlbəttə ki, yox. Sadalanmış öhdəliklər ümumi beynəlxalq hüquqn bir hissəsidir və dünyanın bütün dövlətləri tərəfinədən məhz beynəlxalq hüquqi adət kimi tanənmışdır.

Beləliklə, beynəlxalq hüquqi adətin indiki dövrdə başlıca əhəmiyyəti ondan ibarətdir ki, o, hər hansı bir universal müqavilə iştirakçıları ilə bu müqavilənin iştirakçısı olmayan dövlətlər drasıdakı və sonuncuların özləri arasındakı müvafiq münasibətləri nizama salır.

8. Beynəlxalq müqavilənin və beynəlxalq hüquqi adətin qarşılıqlı münasibəti. Praktiki olaraq, bu mühüm məsələyə biz yuxarıda qismən toxunduq. Deyilənlərə əlavə edək ki, beynəlxalq müqavilə və beynəlxalq hüquqi adət müasir beynəlxalq hüququn ən mühüm və ən çox istinad edilən mənbələrdir. Əgər bu iki mənbə eyni və ya oxşar hüquqi öhdəliklər nəzərdə tutursa, müqavilənin iştirakçıları müqavilə ilə, iştirakçı olmayan dövlətlər isə beynəlxalq hüquqi adətlə bağlı olacaqlar. Dövlət müqavilənin tərəfi olduqda, o, müvafiq adət norması ilə bağlı olmaqda davam edir. Eyni münasibəti nizama salan müqavilə və adət bir-birinə

ziddirsə, bu ziddiyyət, əgər jus cogens normasından söhbət getmirsə, "sonrakı norma əvvəlki normanı ləğv edir" ("lex posteriori derogat legi priori") prinsipinə əsasən həll olunur.

Yuxarıda qeyd etmişdik ki, ümumi qaydaya görə, beynəlxalq müqavilə üçüncü tərəflər üçün hüquq və öhdəliklər yaratmır(pacta tertiis nec nocent nec prosunt). Lakin həmin müqavilənin müddəaları müqavilənin iştirakçısı olmayan dpvlətlər tərəfindən hüquqi adət kimi tanına bilər və bununla həmin dövlətlər üçün adət kimi qüvvədə ola bilər.

9. Hüququn ümumi prinsipləri. BMT Beynəlxalq Məhkəməsinin Statutunun 38-ci maddəsinin 1(s) bəndində göstərilir ki, Məhkəmə ona təqdim olunmuş işləri həll edərkən "sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prisiplərinə" istinad edə bilər. Burada qeyd edək ki. "sivil millətlər" ifadəsi beynəlxalq hüququn bu günkü durumuna uyğun gəlmir və hüquqi əhəmiyyətə malik deyildir.

Hüququn ümumi prinsipləri dedikdə, hüququn təbiətini əks etdirən və bütün mövcud hüquqi sistemlər üçün ümumi olan prinsip və normalar başa düşülür.

Hüququn ümumi prinsiplərinə misal kimi aşağıdakıları göstərmək olar:vicdanlılıq prinsipi (bona fide); "eyni hüquq pozuntusuna iki dəfə cəza ola bilməz" (non bis in idem) ; "yalan heç bir hüquqi nəticə doğurmur" və s.

Hüququn ümumi prinsiplərinə beynəlxalq məhkəmə praktikasıda nadir hallarda müraciət edilir.

10. Məhkəmə qərarları. Məhkəmə qərarları beynəlxalq hüququn "köməkçi" mənbəyi kimi xarakterizə olunmur, çünki onldr bilavəstə hüquq yaratmır, artıq mövcud olan hüququ bəyan edir. Bu, məsələn, BMT Beynəlxalq Məhkəməsi Statutunun 59-cu maddəsindən aydın görünür. Maddədə deyilir: "Məhkəmənin qərarı yalnız işin tərəfləri üçün və yalnız həmin konkiret iş üçün məcburi qüvvəyə malikdir". Beləliklə, anqlo-sakson hüquq sistemindən fərqli olaraq, beynəlxalq hüquqda stare decisis (presedent) prinsipi tanınmır. Lakin BMT Beynəlxalq Məhkəməsinin qərarı beynəlxalq hüquqda əhəmiyyətli rol oynayır. Birincisi, bu qərarda beynəlxalq hüquq normalarının, xüsusi ilə adət normalarının dəqiq

məzmunu müəyyən edilir. İkincisi Beynəlxalq Məhkəmənin qərarı beynəlxalq adət hüququnun inkişafına əhəmiyyətli təsir göstərir, çünki hər hansı davamlı, ardıcıl və eyni cür praktikanın və zəruri opinio yuris-in olması, faktik olaraq məhz Beynəlxalq Məhkəmə tərəfindən konkret işlərin həlli zamanı ortaya çıxarılır. Buna əlavə, Məhkəmənin qərarı, müvafiq sahə hüququn necə inkişaf etdiyini və etməli olduğunu göstərməklə, sonrakı praktikaya həlledici təsir edə bilər. Bu səbəbdən BMT Beynəlxalq Məhkəməsinin özü, digər beynəlxalq məhkəmələr, habelə milli məhkəmə orqanları BMT Beynəlxalq Məhkəməsinin qərarlarına olduqca nüfuzlu mənbə kimi istinad edirlər.

Qeyd edək ki, məhkəmə qərarı dedikdə, təkcə BMT Beynəlxalq Məhkəməsinin qərarı deyil, habelə beynəlxalq arbitraj məhkəmələrinin, ixtisaslaşmış beynəlxalq məhkəmələrin (məsələn, Avropa insan hüquqları məhkəməsinin Dəniz hüququ üzrə Beynəlxalq Tribunalın), milli məhkəmələrin çıxartdığı qərarlar nəzərdə tutulur.

11. Beynəlxalq təşkilatların qətnamələri. Beynəlxalq təşkilatların öz nizamnamə fəaliyyəti çərçivəsində çıxardığı qərar və qətnamələr, prinsip etibarilə, beynəlxalq hüququn "köməkçi" mənbəyidir. Çünki onlar formal-hüquqi baxımdan məcburi norma yaratmır; bu qərar və qətnamələrdə ya beynəlxalq hüququn qüvvədə olan prinsip və normaları bəyan edilir, ya da tövsiyə xarakterli yeni normalar əks olunur. Deyilənlər müəyyən mənada BMT Baş Assambleyasının qətnamələrində də aid edilə bilər. Bu qətnamələr yekdil səslə qəbul olusa da, hüquqi cəhətdən məcburi deyildir. Yəni dövlət Baş Assambleyanın qətnaməsində öz əksini tapmış davranış qaydasına, hətta o, bu qətnamənin lehinə səs vermiş olsa da, əməl etməyə borclu deyildir. Bununla belə, bu qətnamələr beynəlxalq hüquqda çox mühüm rol oynayır və xüsusilə də dövlətlərin praktikasının müəyyə yönümdə inkişafına və opinio yuris-in formalaşmasına böyük təsir göstərir. Həmin qətnamələr ya müəyyən beynəlxalq hüquqi adətin formalaşması üçün təkan, ya da belə bir adət normasının artıq təşəkkül tapdığını göstərən ən mühüm sübut rolunu oynaya bilər. Bu baxımdan, BMT Baş Assambleyasının qətnamələri ilə qəbul olunmuş bir sıra müstəsna əhəmiyyətli sənədlər, məsələn, 1948-ci ildə qəbul

olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il Bəyannaməsini, Təcavüzün tərifi haqqında 1974-cü il Qətnaməsini müəyyən mənada müvafiq beynəlxalq adət hüququ normalarının "yaradıcısı" hesab etmək olar.

Sonda qeyd edək ki, BMT-nin Baş Assambleyasının BMT-nin daxili fəaliyyəti ilə bağlı çıxardığı qətnamələr, o cümlədən BMT-yə yeni dövlətlərin qəbul edilməsi, BMT Beynəlxalq Məhkəməsinin hakimlərinin seçilməsi, büdcə və s. məsələlər üzrə qətnamələr BMT-nin bütün üzvəri üçün məcburi qüvvəyə malikdir.

Mövzu 3. BEYNƏLXALQ HÜQUQUN ƏSAS PRİNSİPLƏRİ

Plan:

1.Beynəlxalq hüququn əsas prinsiplərinin anlayışı

2. Dövlətlərin suveren bərabərliyi prinsipi

3.Dövlətlərin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi

4. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi

5. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi

6. Sərhədlərin pozulmazlığı prinsipi

7. Ərazi bütövlüyü prinsipi

8. Xalqların özünümüəyyənetmə prinsipi

9. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi

10. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi

11. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi

Ədəbiyyat siyahısı.

Баратавшвили Д.И. *Принцип суверенного равенства государств в международном праве.* М.., 1978.

Волова Л.И. *Принцип территориалъной целостностти и неприкосновенности в современном международном праве.* Ростов-на-Дону.., 1981.

Волова Л.И. *Нерушимостъ границ – новый принцип международного права.* Ростов-на-Дону.., 1987.

Клименко Б.М., Ушаков Н.А. *Нерушимостъ границ – условие международного мира.* М.., 1978.

Левин Д.Б. *Принцип мирного разрешения международных споров.* М.., 1977.

Мартыненко А.П. *Права народов в современном международном праве.* Киев, 1993.

Менжинский В.И. *Неприменение силы в международных отношениях.* М.., 1976.

Талалев А.Н. *Хелъсинки: принцнпы и реалъностъ.* М.., 1985.

Тиунов О.И. *Принцип соблюдения международных обязателъств.* М.., 1979.

Ушаков Н.А. *Невмешателъство во внутренние дела государств.* М.., 1971.

Черникенко С.В. Принцип самоопределения народов (современная интерпретация) // *Московский журнал международного право.* 1996. № 4.

1.Beynəlxalq hüququn əsas prinsiplərinin anlayışı. Müasir beynəlxalq hüquqda bir sıra xüsusi əhəmiyyətli normalar mövcuddur ki, onlarsız beynəlxalq sistemin normal fəaliyyət göstərməsi praktik cəhətdən mümkün deyilir. Həmin normalar beynəlxalq hüququn əsas prinsipləridir.

Beynəlxalq hüququn əsas prinsipləri bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Bu prinsiplər;

c) beynəlxalq hüququn ən mühüm normalarıdır;

Beynın əlxalq hüququn əsas prinsipləri beynəlxalq hüquq sisteminin normativ hüquqi əsasını təşkil edir. Dövlətlərin beynəlxalq hüquq normalarının yaradılması və həyata keçirilməsi ilə bağlı bütün qarşılıqlı münasibətləri bu prinsiplərə söykənir.

d) ***öz mahiyyətinə görə beynəlxalq hüququn ən ümumi normalarıdır*****;**

Beynəlxalq hüququn əsas prinsipləri bir növ ori-yentir rolunu oynayır. Onlar dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin davranışının ümumi istiqamətlərini müəyyən edir. Bu prinsiplər beynəlxalq münasibətlərin istənilən sahəsinə sirayət edir və dəqiq ifadə olunmuş davranış qaydalarında konkretləşdirilir.

b) dünyayın bütün dövlətləri üçün hüquqi cəhtdən məcburi xarakter daşıyan ümumtanınmış normalardır;

Beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT Nizamnaməsinin 2-ci maddəsində BMT-nin bütün üzvləri üçün məcburi normalar kimi göstərilmişdir. Həmin maddənin 6-cı bəndində isə deyilir: "Təşkilat təmin edir ki, onun üzvü olmayan dövlətlər, bunun beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri ola bildiyi dərəcədə, bu prinsiplərə uyğun hərəkət etsinlər".

ç) ən yüksək hüquqi qüvvəyə malik olan imperativ jus cogens normalarıdır.

Beynəlxalq hüququn əsas prinsipləri bütövlükdə beynəlxalq birlik tərəfindən tanınır və qəbul edilir və yalnız beynəlxalq birliyin özü tərəfindən ləğv edilə bilər. Beynəlxalq hüququn bütün normaları beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olmalıdır.

Beynəlxalq hüququn əsas prinsiplərindən kənarda və onlarsız beynəlxalq hüququn özü də yoxdur.

Beynəlxalq hüququn əsas prinsipləri bir-biri ilə üzvi surətdə bağlıdır və bir-birini şərtləndirir. *BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970-*

ci il Bəyannaməsində qeyd edilir ki, bu prinsiplərin tətqiqi və təsfiri zamanı onların hər biri bütün digər prinsiplərin konteksində nəzərdən keçirilməlidir.

Qeyd etdiyimiz kimi, müasir beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT-nin Nizamnaməsində (2-ci maddədə) öz əksini tapmışdır. Lakin bunlardan bəziləri məqsəd və ya ümumi öhdəlik kimi ifadə olunmuşdur. Sonralar dövlətlər bu prinsiplərin məzmununu dəqiqləşdirməyə və onları məcəllələşdirməyə çalışmışlar. BU, BMT Baş Assambleyasının qətnaməsi əsasında yuxarıda adı çəkilmiş Bəyannamənin qəbul olunması ilə nəticələnmişdir. Doğrudur, Bəyannamədə beynəlxalq hüququn heç də bütün prinsipləri deyil, cəmi yeddi prinsipi əks olunmuşdur:

1) güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi;

2) beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi;

3) dövlətin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi;

4) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək prinsipi;

5) xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi;

6) dövlətlərin suveren bərabərliyi prinsipi;

7) dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi prinsipi.

Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci il tarixli Yekun aktında isə on prinsip göstərilmişdir; yuxarıda sadalanmış prinsiplərə burada daha üçü əlavə olunmuşdur:

1) sərhədlərin toxunulmamazlığı prinsipi;

2) dövlətlərin ərazi bütövlüyü prinsipi;

3) əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi.

Qeyd etmək lazımdır ki, Helsinki Yekun aktı özü-özlüyündə beynəlxalq müqavilə

deyildir və regional xarakterli bir sənəddir. Lakin onun təsbit etdiyi prinsiplər, o cümlədən bu üç prinsip onun qəbul olunmasına qədər artıq ümumi beynəlxalq adət

hüququnun bir hissəsi idi və bütün dövlətlər tərəfindən tanınmışdı. Yəni Helsinki Yekun aktı, sadəcə olaraq, müasir beynəlxalq hüququn hamılıqıa qəbul edilmiş on əsas prinsipini bəyan etmişdir.

Yadda saxlamaq lazımdır ki, hər bir prinsip özü bir hüquqi normadır və deməli, özündə konkret normativ məzmun, yəni müəyyən beynəlxalq hüquqlar və müvafiq öhdəliklər ehtiva edir. Aşağıda əsas diqqət məhz bu məqama yetirilmişdir

2. Dövlətlərin suveren bərabərliyi prinsipi. Bu prinsip öz birbaşa ifadəsini BMT nin Nizamnaməsini 2-ci maddəsinin 1-ci bəndində tapmışdır: "Təşkilat onun bütün Üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır".

Suveren bərabərlik prinsipinin məzmunu iki ünsürdən ibarətdir.

1. Hər bir dövlət tam *suverenliyə* malikdir və öz siyasi və ikdisadi sistemini sərbəst və manesiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə və siyasi müstəqilliyinə hörmət etməlidir.

2. Bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensiallından asılı olmayaraq *hüquqi cəhətdən* bərabərdir. Beynəlxalq təşkilatlarda, bir qayda olaraq, hər bir dövlət bir səsə malikdir. Beynəlxalq hüquq normaları dövlətlər tərəfindən qarşılıqlı razılıq yolu ilə bərabərhüquqlu əsasda yaradılır.

Suveren bərabərlik prinsipi bütün dövlətlərin beynəlxalq məsələlərin həllində bərabər iştirakını təmin etməyə yönəlmişdir.

3.Dövlətlərin daxili yurisdiksiyasında olan işlərə qarışmamaq prinsipi. Bu prinsip dövlətlərin suveren bərabərlik prinsipi ilə üzvi surətdə bağlıdır və əslində onu tamamlayır. Prinsipin məğzi ondan ibarətdir ki, dövlətin öz suveren hüquqlarını öz arzu və iradəsinə uyğun həyata keçirməsinə heç bir digər dövlət və ya beynəlxalq təşkilat qarışa bilməz.

BMT Nizamnaməsinin 2-cı maddəsinin 7-ci bəndində deyilir: "Bu Nizamnamənin heç bir müddəası Birləşmiş Millətlərə səlahiyyət vermir ki, hər hası bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin...".

Doğrudur, göstərilən qadağa bilavasitə Birləşmiş Millətlər Təşkilatının üzərinə qoyulmuşdur. Lakin məntiqi təfsir belə bir nəticə çıxarmağa imkan verir ki, dövlətlərin daxili işinə qarışmamaq öhdəliyi BMT-nin büyün üzvlərinə şamil olunur. Hazırda dünyanın hər bir dövləti üçün imperativ xarakter daşıyan bu prinsipin normativ məzmunu bir sıra mühüm sənədiərdə, o cümlədən *Dövlətlərin daxili işlərinə qarışmağın yolverilməzliyin, onların müstəqilliyinin və suverenliyinin qorunması haqqında BMT-nin 1965-ci il Bəyannaməsində,* yuxarıda adı çəkilmiş 1970-ci il Bəyannaməsində, Helsinki Yekun aktında açıqlanır.

Qeyd edək ki, "dövlətin daxili yurisdiksiyasında olan məsələlər" onun ərazi daxilində olan məsələlər demək deyildir. Dövlətin ərazisində baş verən bir çox məsələlər,- misal üçün, xarici səfirliyin binasına basqın edilməsi, - heç də onun daxili işi sayılmır. Digər tərəfdən, ilk baxışdan, "beynəlxalq" sayılan hər hansı məsələ,- misal üçün, dövlətin başqa bir dövlət ilə üçüncü tərəfin hüquq və mənafelərinə toxunmayan müqavilə bağlaması, - həmin dövlətlərin daxili işi hesab olunur və ona istənilən müdaxilə qadağandır. Hansı məsələnin dövlətin daxili işi olmasını beynəlxalq hüquq müəyyən emir və edə də bilməz. Lakin bir şey aydındır ki, əgər hər hansı məsələ üzrə dövlət öz üzərinə beynəlxalq öhdəlik götürmüşsə, bu, artıq onun daxili məsələsi sayıla bilməz. Daimi Beynəlxalq ədalət məhkəməsi 1930-cu ildə qeyd etmişdi ki, "dövlətin daxili səlahiyyət dairəsində olan məsələlərin" həcmi sabit deyildir və bu, beynəlxalq hüququn inkişafı ilə dəyişə bilməz. Məsələn, o vaxtlar və ondan sonrakı illərdə də dövlətlərin sirf daxili işi olan insan hüquqlarının milli qanunvericilikdə təsbiti və qorunması məsələsi bu gün prinsip etibarilə beynəlxalq məsələyə çevrilmişdir. Nəhayət, burada bir məqamı da vurğulamaq lazımdır ki, əgər bir dövlətin ərazisindəki daxili münaqişə və ya situasiya beynəlxalq sülhə və təhlükəsizliyə real qorxu yaradırsa, bu, yenə də daxili məsələ sayılmır və BMT Təhlükəsizlik Şurası bu hallarda BMT Nizamnaməsinin VII fəslinə müvafiq olaraq məcburiyyət tədbirləri tətbiq edə bilər; təbii ki, həmin kollektiv sanksiyalar qətiyyən dövlətin daxili işlərinə qarışmaq deyildir.

Sözü gedən prinsipin normativ məzmunu aşaıdakılardan ibarətdir:

1) dövlətin suverenliyinə və onun siyasi və iqtisadi əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər müdaxilə formaları qadağandır;

2) heç bir dövlət başqa bir dövlətin, onun öz suveren hüquqlarını həyata keçirməkdə özünə tabe edilməsinə və bununla ondan hər hansı imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edə bilməz;

3) başqa bir dövlətin quruluşunun zorakı yolla dəyişdirilməsinə yönəlmiş təxribatçı və ya terrorist fəaliyyətin təşkili və yaxud dəstəklənməsi yolverilməzdir;

4) başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilə qadağandır;

5) hər bir dövlət digər dövlətərin (və beynəlxalq hüququn digər subyektlərinin) müdaxiləsi olmadan öz siyasi, iqtisadi, sosial və mədəni sistemini seçmək hüququna malikdir.

4. Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi. Müasir beynəlxalq hüquq üçün müstəsna əhəmiyyətə malik olan bu prinsip öz birbaşa ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində tapmışdır. Burada deyilir ki, Birləşmiş Millətlər Təşkilatının bütün Üzvləri "öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı, yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər". Prinsipi özündə əks etdirən sənədlər sırasında *Təcavüzün tərifi haqqında BMT Baş Assambleyasının 1974-cü il qətnaməsini, Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il Bəyannaməsini* xüsusilə qeyd etmək lazımdır.

"Güc" dedikdə, BMT Nizamnaməsində hərbi, silahlı güc başa düşülür. Ədəbiyyatda bəzən rast gəlinən və bu terminin məna yükünün genişləndirilməsi, iqtisadi, və hətta ideoloji gücün də bu termin vasitəsilə əhatə olunmasını nəzərdə tutan fikirləri birmənalı qəbul etmək olmaz və demək olar ki, bu fikirlər pozitiv beynəlxalq hüquqa söykənmir.

BMT Nizamnaməsinin göstərilən müddəasının bəzən belə bir təfsiri verilir ki, dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı olmayan, hər hansı

“bəraətverici” məqsədlə, məsələn, insan hüquqlarının kütləvi pozulması hallarının qarşısını almaq üçün birtərəfli qaydada güc tətbiq olunması (buna *“humanitar müdaxilə”* deyilir) beynəlxalq hüquqa, daha doğrusu, sözü gedən prinsipə zidd deyildir. Doğrudur, BMT Təhlükəsizlik Şurası tərəfindən sanksiyalaşdırılmamış humanitar müdaxiləyə mənəvi baxımdan, humanizm nöqteyi-nəzərindən haqq qazandırmaq olar, lakin dövlətlərin müvafiq praktikası güc tətbiqinin, BMT Nizamnaməsində əks olunmuş və aşağıda şərh olunacaq iki istisnadan başqa, bütün hallarda yolverilməzliyini təsdiq edir.

Sözü gedən prinsipə görə, aşağıdakı hərəkətlər hüquqazidd hesab olunur:

- digər dövlətin beynəlxalq sərhədlərini pozmaq məqsədilə və ya beynəlxalq

mübahisələri, o cümlədən ərazi və yaxud sərhəd mübahisələrini həll etmək üçün güc tətbiq etmək və ya güc tətbiqi ilə hədələmək;

- silahlı güc tətbiq etməklə əvəzçıxma təzyiq tədbirləri;

burada,qadağan olunmuş əməllər sırasında bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin limanlarını blokadaya almasını (buna *“dinc blokada”*deyilir) göstərmək olar.

- qeyri-nizami qüvvələrin və ya silahlı bandaların təşkili və ya təşkilinə dəstək

verilməsi;

- digər dövlətlərin ərazisində vətəndaş müharibəsinin və yaxud terror aktlarının

təşkil edilməsi, onlara yardım edilməsi və ya onlarda birbaşa iştirak edilməsi;

- digər dövlətin ərazisinin qeyri-qanuni güc tətbiq etməklə işğal edilməsi;
- güc tətbiq etməklə və ya güc tətbiqi ilə hədələməklə digər dövlətin ərazisinin ələ

keçirilməsi;

- xalqları özünümüəyyənetmə güqugundan, azadlıq və müstəqillikdən məhrum

edən zorakı hərəkətlərin törədilməsi.

Güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin ən ağır pozuntusu *silahlı təcavüz* hesab olunur. Təcavüz və onun ən təhlükəli forması olan silahlı

əcavüzü, əlbəttə ki, qarışdırmaq olmaz. Dövlət aktı kimi (fərdin törətdiyi beynəlxalq cinayət kimi yox) təcavüzün anlayışı barədə beynəlxalq müqavilə olmasa da, BMT Baş assambleyasının XXIX sessiyasında (14 dekabr 1974-cü il) qəbul olunmuş 3314 saylı qətnamə mövcuddur. *"Təcavüzün tərifi"* adlanan bu qətnaməyə görə, aşağıdakı aktlardan hər biri təcavüz sayılır.

8) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı işğal;

9) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardıman etməsi və ya onun ərazisinə qarşı hər hansı silahın tətbiq edilməsi;

10) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;

11) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dənizz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etmısi;

12) bir dövlətin,başqa bir dövlətin ərazisində onunla razılaşma əsasında yerləşən silahlı qüvvələrinin bu razılaşmanın şərtlərini pozmaqla istifadə edilməsi və habelə həmin silahlı qüvvələrin bu razılaşmanın xitam olunmasından sonra göstərilən ərazidə qalmaqda hər hansı formada davam etməsi;

13) dövlətin öz ərazisini, həmin ərazini üçüncü bir dövlətə qarşı təcvüz aktı törətmək üçün istifadə istifadə edən başqa bir dövlətin sərıncamına verməsi;

14) bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar hə-yata keçirən silahlı bandaların, qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi.

Qeyd etmək lazımdır ki, təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir (BMT Nizamnaməsinin 39-cu maddəsi). Təhlükəsizlik Şurasının bu preroqativi, habelə "Təcavüzün tərifi haqqında"

qətnamədə və Beynəlxalq cinayə məhkəməsinin Nizamnaməsində ifadə olunmuşdur. Lakin, yaxşı məlum olduğu kimi, siysi mülahizələr ucbatından çoxsaylı təcavüz aktları, birbaşa basqin faktları da daxil olmaqla, Təhlükəsizlik Şurası tərəfindən lazımi tövsifini almışdır. Buna ən bariz misal kimi Ermənistanın Azərbaycana qarşı törətdiyi məlum hərəkətləri göstərmək olar. Bu açıq-aşkar təcavüz aktları nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizə qədəri işğal olunmuşdur. Təəssüflər olsun ki, konfiliktlə bağlı Təhlükəsizlik Şurasının çıxardığı dörd qətnamənin heç birində (822, 853, 874 və 884) təcavüz aktı barəsində, Ermənistanın təcavüzkar dövlət elan olunması barəsində heç nə deyilmir.

Yuxarıda göstədiyimiz kimi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipindən iki müstəsna halmövcuddur, yəni beynəlxalq hüquq yalnız iki halda silahlı gücün tətbiqinə yol verilir:

3. *Özünümüdafiə.*

Dövlət silahlı basqından özünü müdafiə etmək məqsədilə fərdi qaydada və ya başqa dövlətlərlə birgə və proporsionallıq prinsipinə əməl etmək şərtilə güc tətbiq edə bilər. BMT Nizamnaməsinin 51-ci maddəsində deyilir: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin Üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlə görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdaafiə hüququna xələl gətirmir".

4. *Sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı olduqda, BMT Təhlükəsizlik*

Şurasının qərarına əsasən.

BMT Nizamnaməsinin 42-ci maddəsinə müvafiq olaraq, BMT Təhlükəsizlik Şurası "...hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər".

5. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi. BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndinə görə, Birləşmiş Millətlər

Təşkilatının bütün Üzvləri "öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın".

Əsas bir cəhəti qeyd etmək lazımdır ki, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi yuxarıda şərh etdiyimiz güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi ilə sıx surətdə bağlılıq və onun məzmununu tamamlayır. Doğrudur, sözü gedən prinsip ümumi beynəlxalq hüquq norması kimi bir qədər əvvəl- hələ ikinci dünya müharibəsindən qabaq formalaşmışdır. *Beynəlxalq toqquşmaların dinc həlli haqqında 1907-ci il Haqa Konvensiyasında* (1-ci və 2-ci maddələr) və Millətlər Liqaının Sttutunda (12-ci, 13-cü, 15-ci və 17-maddələr) məhdud çərçivədə təsbit olunmuş bu prinsip bu günkü anlamda, yəni heç bir qeyri-şərtsiz və imperativ formada ilk dəfə olaraq *1928-ci il Brain-Kelloq Paktında* öz əksini tapmışdır. Paktın II maddəsində birbaşa göstərilirdi ki, müqavilənin iştirakçısı olan dövlətlər öz aralarında ortaya çıxan bütün mübahisə və ya münaqişələri, onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız dinc vasitələrlə həll etməlidirlər. Sonralar BMT Nizamnaməsində təsbit olunmuş bu mühüm norma, həmçinin əsas regional təşkilatların nizamnamələrində də birbaşa əks olunmuşdur.

Prinsipin normativ məzmununa keçməzdan qabaq "beynəlxalq mübahisə" anlayışını açıqlamağa ehtiyac vardır.

Heç bir müvafiq beynəlxalq sazişdə , o cümlədən BMT Nizamnaməsində beynəlxalq mübahisənin tərifi verilmir. Beynəlxalq Məhkəmə iki dəfə bu məsələ ilə qarşılaşmışdır. Daimi Beynəlxalq ədalət məhkəməsi *Mavromatis işində* (1924-cü il) qeyd edilmişdi ki, "mübahisə- iki şəxs arasında hər hansı hüquq normasına və ya fakta görə fikir müxtəlifliyidir". Oxşar tərif *Cənub-qərbi Afrika işində (ilkin etirazlar mərhələsi, 1962-ci il)* də verilmişdir. Sadəcə belə demək olar ki, mübahisə o zaman mövcuddur ki, bir dövlət digər dövlətə qarşı iddia irəli sürür, o biri dövlət isə bu iddianı rədd edir. Beynəlxalq mübahisənin aşağıdakı əlamətlərini göstərmək olar:

1) iki və ya daha artıq tərəfin – beynəlxalq hüquq subyektlərinin olması;

2) mübahisənin dövlətin daxili səlahiyyət dairəsində olmaması;

3)mübahisə edən tərəfin qarşılıqlı iddialarının olması;

4) tərəflərin öz aralarında mübahisənin yaranması faktını etiraf etməsi;

5)mübahisənin taranması anının müəyyən edilməsi.

Mübahisə *"situasiya"* dan fərqləndirilməlidir. Doğrudur, çox zaman bu iki termin

bir yerdə işlədilir. Misal üçün, BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndini, habelə *Beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən mübahisə və situasiyaların qarşısının alınması və aradan qaldırlması* və *BMT-nin bu sahədə rolu haqqında Bəyannaməni* göstərmək olar. Situasiya dövlətlərin maraqlarının toqquşması nəticəsində gərginliyin yaranmasıdır, lakin bu zaman tərəflər bir-birinə qarşı iddialar irəli sürmürlər. *Situasiya zamanı sanki tərəflər olmur, yəni qarşılıqlı iddialar yoxdur.* Belə demək olar ki, hər bir mübahısə situasiyadır, lakin heç də hər bir situasiya mübahisə deyildir. Mübahisə və situasiyanın fərqləndirilməsi nəzəri məsələ deyildir; bunun olduqca mühüm praktik əhəmiyyəti vardır. Belə ki, BMT Nizamnaməsinin 27-ci maddəsinin 3-cü bəndinə görə, mübahisənin tərəfi olan Təhlükəsizlik Şurasının daimi üzvü qərar qəbul edilərkən səsvermədə iştirak etməməlidir. Bu müdda situasiyalara şamil olunmur. BMT Nizamnaməsinin 36-cı maddəsinin 1-ci bəndinə əsasən, Təhlükəsizlik Şurası həmin mübahisənin, həm də situasiyanın istənilən mərhələsində müvafiq nizamlama prosedurları və ya metodları tövsiyə edə bilər. 37-ci və 38-ci maddələrə görə isə, Təhlükəsizlik Şurası tərəflərə situasiyanın yox, mübahisənin həlli şərtlərini töfsiyə edə bilər. Nəhayət, BMT Beynəlxalq Məhkəməsinə iş situasiya ilə deyil, yalnız mübahisə ilə bağlı verilə bilər.

Lakin istənilən halda, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi həm beynəlxalq mübahisəlrə, həm də beynəlxalq situasiyalara şamil olunur.

Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinin məzmunu dövlətlərin aşağıdakı hüquq və öhdəliklərində öz ifadəsini tapır:

6. Dövlətlər öz mübahisələrini, onların xarakterindən və mənşəyindən asılı

olmayaraq, yalnız yə yalnız dinc vasitələrlə həll etməlidirlər. Lakin prinsipin məzmunundan belə alınmır ki, dövlətlər öz beynəlxalq mübahisələrini mütləq həll etməlidirlər. Beynəlxalq hüquqda dövlətlərdən bunu imperativ şəkildə tələb edən norma yoxdur. Beynəlxalq hüququn tələb etdiyi budur ki, əgər dövlət öz mübahisəsini nizamlamaq qərarına gəlibsə, bunu yalnız dinc yolla etməlidir.

7. Dövlətlər öz mübahisələrini həll edərkən dinc vasitələrdən hər hanı birini seçmək hüququna malikdirlər. Lakin dövlətlər qabaqcadan konkret beynəlxalq müqavilədə hər hansı nizamlama vasitəsinə razılaşa bilərlər. Məsələn, *Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasında* mübahisələrin nizamlanmasının dörd məcburi proseduru nəzərdə tutulmuşdur ki, bunlardan hər birini hər hansı dövlət Konvensiyanı imzalayarkən və ya ratifikasiya edərkən yazılı bəyanat vasitəsilə seçə bilər: 1) Dəniz hüququ üzrə Beynəlxalq tribunal; 2) BMT-nin Beynəlxalq məhkəməsi; 3) Konvensiyaya VII Əlavəyə müvafiq olaraq yaradılan arbitraj və 4) Konvensiyaya VIII Əlavəyə müvafiq olaraq yaradılan xüsusi arbitraj.

8. Dövlətlər arasında olan mübahisəni həll olunmaq üçün hər hansı üçüncü tərəfə

təqdim etməyə məcbur oluna bilməzlər. Lakin bu norma beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən mübahisələrə aid deyildir.

9. Dövlətlər aralarında olan mübahisənin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinməlidirlər. Mübahisənin həllini çətinləşdirə bilən, beynəlxalq sülhə və təhlükəsizliyə qorxu yarada bilən, habelə mübahisənin tərəflərindən birinin vəziyyətini pisləşdirə bilən hərəkətlər qadağan olunur.

10. Dövlətlər öz mübahisələrini beynəxalq hüquq və ədalət əsaında həll etməlidirlər.

6. Sərhədlərin pozulmazlığı prinsipi. Sərhədlərin pozulmazlığı prinsipi güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi və ya suveren bərabərlik prinsipi ilə sıx surətdə bağlıdır. Helsinki Yekun Aktında o, müstəqil prinsip kimi təsbit olunmuşdur. Sərhədlərin pozulmazlığı prinsipi digər regionlarda - afrika və Cənubi Amerikada da imperativ norma kimi tanınmişdır. Dövlətin razılığı olmadan onun sərhədləri heç bir halda dəyişdirilə bilməz. Azərbaycan

Respublikasının Konstitusiyasına görə, belə bir razılıq yalnız referendum vasitəsələ ifadə oluna bilər.

Sərhədlərin pozulmazlığı prinsipinin məzmunu aşağıdakı ünsürlərdən ibarətdir:

1) mövcud sərhədlər beynəlxalq hüquqa müvafiq olaraq müəyyən olunmuş sayılır;

4) dövlət başqa bir dövlətə qarşı hər hansı ərazi iddiasından imtina etməlidir;

5) dövlət başqa bir dövlətin sərhədlərinə qarşı istənilən qəsdlərdən imtina etməlidir.

7. Ərazi bütövlüyü prinsipi. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində dolayı yolla əks olunmuşdur. Müstəqil prinsip kimi o, Helsinki Yekun Aktında təsbit olunmuşdur. Göstərilən prinsipin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir- birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa bir dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətin ərazisi qanunsuz gqc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Ərazi bütövlüyü prinsipi özündə digər bir prisipi – hələ xıx əsrdə Latın Amerikasında Formalaşmış və 1986- cı ildə *Burkina Faso /Mali işində* BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən ümumi beynəlxalq hüquq norması kimi xarakterizə edilmiş *uti possidetis prinsipini* ehtiva edir. Uti prossidest prinsipinin məğzi ondan ibarətdir ki, müstəmləkələrin və ya federasiya subyektlərinin əvvəlki sərhədləri tehi müstəqil dövlətlərin beynəlxalq sərhıdləri olur və müvafiq razılıq olmadan dəyişilə bilməz. Azərbaycanla bağlı demək olar ki, onun SSRİ dövründə malik olduğu ərazisinin bütövlüyünə istənilən iddia və ya qəsd sözü sözü gedən prinsipə tamamilə ziddir.

8. Xalqların özünümüəyyənetmə prinsipi. Bu prinsip BMT Nizamnaməsində, *Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi*

haqqında 1960-cı il Bəyannaməsində, İnsan hüquqları haqqında 1966-cı il Beynəlxalq Paktlarının 1-ci maddələrində, 1970-ci il Bəyannaməsində, Helsinki Yekun aktında, habelə BMT-nin Beynəlxalq Məhkəməsinin bir sıra qərar və məsləhət xarakterli rəylərində öz əksini tapmışdır. *Şərqi Timor haqqında işdə* (1995-ci il) Beynəlxalq Məhkəmə qeyd etmişdir ki, xalqların özünümüəyyənetmə hüququ erga omens hüququdur, yəni bütün dövlətlər bu hüquqa hörmət etməlidirlər və onun həyata keçirilməsinə maneə törətməməlidirlər.

Prinsipin məzmununu açıqlamaq üçün iki anlayış – "xalq" və "özünümüəyyənetmə" anlayışlarının məna yükünü düzgün bilmək lazımdır.

Göstərilən prinsipin kontekstində və ümumiyyətlə, beynəlxalq hüquqda "xalq", bir qayda olaraq, etnik anlamında başa düşülmür. Beynəlxalq-hüquqi anlayış kimi "xalq" hər hası milli və ya etnik qrupu deyil, məhz dövlətin (və ya dövlətçilikdən qeyri-qanuni məhrum edilmiş ərazinin) bütün əhalisini bildirir. Yəni "xalq" etnos kimi deyil, demos kimi başa düşülmür. Yalnız xalq bütövlükdə bu hüququn daşıyıcısıdır. Xalqın bir hissəsinin, o cümlədən, milli azlıqların belə bir hüququ yoxdur. Bu, beynəlxalq hüquqda birmənalı olaraq qəbul edilmişdir.

"Özünümüəyyənetmə" o deməkdir ki, hər bir xalq xaricdən müdaxilə olmadan sərbəst olaraq özü öz siyasi statusunu müəyyən edə bilər və öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirə bilər. Müstəmləkə altında olan və ya ışğal olunmuş ərazinin bütün əhalisi üçün bu:

d) müstəqillik əldə edilməsində və suveren dövlət qurulmasında;
e) hər hansı bir müstəqil dövlətə qoşulmaqda, yaxud
f) hər hansı bir müstəqil dövlətələ birləşməkdə ifadə oluna bilər.

Təbii ki, müstəqil dövlətlərin xalqı (əhalisi) da özünümüəyyənetmə hüququna malikdir. Həmin xalq üçün özünümüəyyənetmə, hər şeydən öncə, *demakratik idarəetmə hüququ* deməkdir. Yəni xalq daxildən və xaricdən təzyiq və ya müdaxilə olmadan demokratik vasitələrlə öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirmək imkanına malik olmalıdır. Əlbəttə ki, bu xalq öz siyası statusunu sərbəst surətdə özləri müəyyən edə bilərlər.

Xüsusi vurğulanmalıdır ki, özünümüəyyənetmə hüququnun həyata keçirilməsi dövlətlərin suvernliyi və ərazi bütövlüyü ilə uzlaşmalıdır və sesessiyanı (dövlətdən müəyyən ərazinin ayrılmasını) sanksiyalaşdıra bilməz. Başqa sözlə, bu hüququn həyata keçirilməsi müstəqil, demokratik dövlətin parçalanması üçün əsas ola bilməz.

9. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi. Bu olduqca mühüm prinsip ilk dəfə olaraq BMT Nizamhaməsində (1-ci, 55-ci və 56-cı maddələr) ümumi formda təsbit olunmuş, sonralar bir sıra mühüm beynəlxalq sənədlərdə, o cümlədən 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində dəqiqləşdirilmişdir. Yuxarıda göstərmişdik ki, beynəlxalq hüququn müstəqil prinsipi kimi, o, Helsinki Yekun aktında əks olunmuşdur. Prinsipin dövlətlərin üzərinə qoyduğu başlıca öhdəlik ondan ibarətdir ki, onlar insan hüquqlarına hörmət etsinlər və bun beynəlxalq səviyyədə *dəstək versinlər*. Bu gün, bütün insan hüquqlarına *əməl etmək* və onların həyata keçirilməsini *təmin etmək* kimi ümumi beynəlxalq hüquq normalarının mövcudluğundan danışmaq hələ tezdir. Belə ki, əsas etibarilə, biz hər hansı bir dövlətin insan hüquqlarını kobud və kütləvi surətdə pozduğu halda sözü gedən prinsipə əməl olunmamasından danışa bilərik.

10. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsində təsbit olunmuşdur. Beynəlxalq sülhün və təhlükəzliyin qorunmasında və iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində əməkdaşlıq etmək dövlətlərin həm hüququ, həm də vəzifəsidir. Dövlətlərin əməkdaşlığı onların siyasi, iqtisadi, və sosial sistemlərindəki fərqlərdən asılı olmayaraq həyata keçirilməlidir.

11. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi beynəlxalq hüququn ən qədim prinsipidir və daha çox pacta sunt servanda ("müqavilələr yerinə yetirilməlidir") kimi məlumdur. O, BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində birbaşa təsbit olunmuşdur. Burada deyilir ki, Birləşmiş Millətlər Təşkilatının bütün Üzvləri "Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün,

bu Nizamnaməyə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər". Sözügedən prinsip habelə çox mühüm beynəlxalq müqavilədə - *Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında* (26-cı maddə) öz əksini tapmışdır.

Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi bütün beynəlxalq hüquq sisteminin fəaliyyəti üçün əhəmiyyəti danılmazdır. Dövlət BMT Nizamnaməsinə uyğun olaraq, öz üzərlərinə götürdükləri bütün öhdəlikləri, o cümlədən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarından, beynəlxalq müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəlikləri yerinə yetirilməlidir. Onlar heç bir əsas olmadan özbaşına öz beynəlxalq öhdəliklərindən imtina edə bilməzlər. Beynəlxalq öhdəliklərin yerinə yetirilməməsi müvafiq dövlətin beynəlxalq məhsuliyyətini doğurmur. Dövlətlər elə etməlidirlər ki, onların daxili qanunvericiliyi və inzibati praktikası üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərə uyğun olsun. Belə bir norma mövcuddur ki, beynəlxalq müqaviləni yerinə yetirmədiyinə bəraət qazandırmaq üçün dövlət öz daxili hüququnun müddəalarına istinad edə bilməz (Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 27-ci maddəsi)

Mövzu 5 BEYNƏLXALQ HÜQUQ VƏ DÖVLƏTDAXİLİ HÜQUQ

Plan:

1.Beynəlxalq hüququn və dövlətdaxili hüququn qarşılıqlı münasibətinə dair nəzəriyyələr

2.Beynəlxalq hüququn dövlətdaxili hüquq sistemində implementasiyası.

3. Milli qanunvericiliyin beynəlxalq huquq normalarına uyğunlaşdırılması

4. Azərbaycan Respublikasının daxili hüquq sistemi və beynəlxalq hüquq

5. Beynəlxalq müqavilələrin milli məhkəmələr tərəfindən tətbiqi

Ədəbiyyat siyahısı.

Буткевич В.Г. *Соотношение внутригосударственного и международного права.* Киев, 1981.

Гусейнов Л.Г. Конституция Азербайджанской Республики, права человека и международное право // Beynəlxalq hüquq. Bakı. 1998. №1. С. 16-46.

Даниленко Г.М. Применение международного права во внутренней правовой системе России: Практика Конституционного Суда //*Государство и право.*1995. №11.

Игнатенко Г.В. *Взаимодействие внутригосударственного и международного права.* Свердловск,1981.

Лукашук И.И. *Международное права в судах государсв.* СПб, 1993.

Лукашук И.И. *Конституции государств и международное право.* М., 1998.

Мюллерсон Р.А. *Соотношение международного и национального права.* М., 1982.

*Реализация международно- правовых норм во внутреннем праве(*Отв. ред. В.Н.Денисов, В.И.Евинтов). Киев: 1992.

Buenrgenthal T. Self-Executing and Non-Self- Executing Treaties in National and . International Law//*Collected Courses of the Hague Academy of . International Law.*1992.

Cassese A. Modern Constitutions and International Law // *Collected Courses of the Hague Academy of . International Law.*1985.

Conforti B. . *International Law and the Role of Domestic Legal Systems.* 1993.

Erades V. *Interactions Between International and Municipal Law A Comparative Case Law Study.* Leiden, 1993.

Frowein J.A. The Implementaition and Promotion of International Law Through National Courts // *International Law as a Language for International Relations.-Proceedings of the U nited Nations Congress on Public International Law.* New York, 13-17 March 1995. P. 85-93.

Vereshchetin V.S. New Constitutions and the Old Problem of the Relationship between International Law and National Law //*European Journal of International Law.* 1996. vol. 7. P. 29-41.

1. Beynəlxalq hüququn və dövlətdaxili hüququn qarşılıqlı münasibətinə dair nəzəriyyələr. Yuxarıda qeyd etmişdik ki, beynəlxalq hüquq və dövlətdaxili (milli) hüquq müstəqil fəaliyyət göstərən, lakin bir-birilə əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən hüquq sistemləridir. Lakin bu fikir beynəlxalq hüquq elmində və praktikasında heç də birmənalı qəbul olunmur. Beynəlxalq hüququn və dövlətdaxili hüququn qarşılıqlı münasibətini izah edən aşağıdakı nəzəriyyələr mövcuddur:

1. Monizm nəzəriyyəsi.

Bu nəzəriyyənin nümayəndələri (əsas nümayəndəsi görkəmli hüquqşünas alim *H. Kelzendir*) belə hesab edirlər ki, beynəlxalq hüquq və dövlətdaxili hüquq "hüquq" adlanan vahid sistemin iki komponentidir. Hər iki normalar sistemi bir mühitdə fəaliyyət göstərir və eyni məsələni nizama salır. Eyni zmanda eyni məsələ ilə bağlı olduqlarına görə, iki sistem arasında ziddiyyət ola bilər. Bu zaman

beynəlxalq hüquq üstünlüyə malik olur. Praktiki baxımdan bu, o deməkdir ki, dövlətin qanunverici orqanı və məhkəmələri daxili hüququn beynəlxalq hüquqa uyğun olmasını təmin etməlidir. Əgər belə bir uyğunluq yoxdursa, milli məhkəmə beynəlxalq hüquq normasını tətbiq etməlidir.

Monizm nəzəriyyəsində bir cərəyan mövcuddur ki, onun əsasını alman filosofu Hegel qoymuşdur. Bəzi mənbələrdə "tərsinə monizm" adlanan bu doktrinaya görə, milli hüquq beynəlxlq hüquq üzərində üstünlüyə malikdir. Burada beynəlxalq hüquq milli hüquq sisteminin tərkib hissəsi, onun sahələrindən biri kimi götürülür; beynəlxalq hüquq xarici dövlət hüququ kimi səciyyələndirilir.

2. *Dualizm nəzəriyyəsi.*

Bu nəzəriyyəyə görə (əsas nümayəndəsi məşhur alman alimi *Tripeldir*), beynəlxalq hüquq və dövlətdaxili hüquq bir-birindən ayrıldıqda mövcud olan və fəaliyyət göstərən iki tamamilə müstəqil hüquq sistemləridir. Beynəlxalq hüquq dövlətlər arasındakı münasibətləri nizama salır, dövlətdaxili hüquq isə dövlətin ərazisində fərdlərin hüquq və vəzifələrini müəyyən edir. Dualizm beynəlxalq hüququn və dövlətdaxili hüququn eyni sahədə fəaliyyət göstərməsini inkar edir, lakin qəbul edir ki, onların eyni predmeti vardır. Bu predmeti beynəlxalq hüquq beynəlxalq səviyyədə, milli hüquq isə dövlət daxilində tənzimləyir. Məsələn, əgər fərdin beynəlxalq hüquqla təminat verilən hər hansı hüququ dövlət tərəfindən pozulubsa, milli məhkəmə bu zaman milli hüququ tətbiq edəcəkdir. Dövlət öz öhdəliklərini beynəlxalq səviyyədə poza bilər, lakin bu, beynəlxalq məhkəməyə aid olacaqdır. Başqa sözlə, beynəlxalq məhkəmələr beynəlxalq hüququ, milli məhkəmələr isə milli hüququ tətbiq edir. Dualizm doktirinasından belə alınır ki, dövlətin hərəkəti öz ərazisində tam qanuni ola bilər, lakin bununla belə həmin davranış beynəlxalq məsuliyyət doğura bilər.

3. *"Koordinasiya" nəzəriyyəsi.*

Bu nəzəriyyənini nümayəndələri *(Antsilotti, Fitsmoris)* beynəlxalq hüququn və dövlətdaxili hüququneyni sahədə fəaliyyət göstərməsini və eyni predmet olmasını inkar edirlər. Onların fikrincə, bu iki hüquq sistemi heç vaxt ziddiyyətdə olmur. Hər sistemin "öhdəlikləri" koliziyada ola bilər və hansı öhdəliyin üstün olmasını

hüquq sistemi özü müəyyən edir. Belə ki, milli hüquq məsələnin həllini beynəlxalq hüquqa "göndərmirsə", müvafiq milli hüquq norması tətbiq edilir və əksinə. Göründüyü kimi, bu yanaşma dualizm nəzəriyyəsi ilə, demək olar ki, eynidir və praktiki baxımdan onlarin arasında çox cüzi fərq vardır. Fərq, əsas etibarilə, nəzəri cəhətdəndir: indi haqqında danışdığımız nəzəriyyənin məğzində duran ideya ondan ibarətdir ki, - bu, onun adından bəllidir, - beynəlxalq hüquq və dövlətdaxili hüquq sistem kimi bir-biri ilə ziddiyyətdə olmur; monizm və dualizm isə, "konfrontasi-ya" nəzəriyyələridir.

2.Beynəlxalq hüququn dövlətdaxili hüquq sistemində implementasiyası.Beynəlxalq hüquq normaları daxili hüquq sistemlərinin "vasitəçiliyi" olmadan lazımi qaydada həyata keçirilə bilməz. Xüsusilə insan hüquqları, cinayətkarların verilməsi, iqtisadi münasibətlər, regional inteqrasiya və bu kimi məsələləri nizama salan beynəlxalq hüquq müddəalarının *implementasiyası,* yəni həyata keçirilməsi, prinsip etibarilə, yalnız milli qanunvericinin və milli məhkəmənin "iştirakı" ilə mümkündür. Bu "iştirak"ın forma və metodları müxtəlifdir və dövlətdən- dövlətə fərqlənir: beynəlxalq hüquqda bununla baölı vahid normativ sxem yoxdur. Beynəlxalq hüquq baxımından, dövlətin öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri milli səviyyədə *necə* həyata keçirilməsi və bütövlükdə beynəlxalq hüquqla milli hüququn qarşılıqlı münasibəti problemini necə həll etməsi,prinsip etibarilə, vacib deyildir. Vacib cəhət ondan ibarətdir ki,- bu, əslində ümumi beynəlxalq hüququn imperativ tələbidir, - dövlətlər beynəlxalq hüquq normalarına əməl etsinlər və lazımi hallarda onların dövlətdaxili qüvvəsini təmin etsinlər. Təkrar edirik ki, bu tələbin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi hər bir dövlətin öz konstitusiya qanunvericiliyində və praktikasında müəyyən olunur.

Dövlətlərin konstitusiya praktikasından çıxış edərək, beynəlxalq hüquq normalarının dövlətdaxili implementasiyasının iki əsas üsulunu göstərmək olar:

1. *İnkorporasiya* ("daxiletmə").

Bu zaman beynəlxalq hüquq normaları, onların məcburiliyi dövlət tərəfindən

müvafiq qaydad tanındıqdan sonra heç bir dövlətdaxili akt olmadan birbaşa milli hüquqa daxil edilir və milli hüquq normaları kimi tətbiq edilir. İnkorporasiya aşağıdakı qaydada formulə edilir: "beynəlxalq hüquq milli hüququn tərkib hissəsidir". Dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycan Respublikasında bu üsuldan istifadə olunur.

2. *Transformasiya* ("çevirmə").

Bu halda beynəlxalq hüquq ipso fakto milli hüququn hissəsi sayılmır. Beynəlxalq
hüquq milli hüquqa ayrı-ayrı qanunvericilik aktları *vasitəsilə* daxil edilir (yeni beynəlxalq hüquq milli hüquqa "çevrilir" , "transformasiya edilir"). Deməli, beynəlxalq normanı milli hüquq sisteminə gətirən qanun verilməyibsə, milli məhkəmə həmin normanı heç cür tətbiq edə bilməz. Böyük Britaniyada, Skandinaviya ölkələrində, Tailandda və bir sıra digər dövlətlərdə transformasiya üsulu əsas götürülür.

3. Milli qanunvericiliyin beynəlxalq huquq normalarına uyğunlaşdırılması. Hər bir dövlət öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək üçün daxili qanunvericilik sisteminin bu öhdəliklərə uyğun olmasını təmin etməlidir. Əslində bu, beynəlxalq hüquq normalarının həyata keçirilməsinin ən optimal yoludur.

Çox zaman zəruri qanunvericilik tədbirlərinin həyata keçirilməsi beynəlxalq müqavilələrdə bir tələb kimi iştirakçı dövlətlərin üzərinə qoyulur. İfadə formasına görə bu göstərişlər iki cür olur:

1) ümumi göstərişlər.

Əsas etibarilə insan hüquqları haqqında beynəlxal konvensiyalara daxil edilən bu
cür müddəalarda ümumi şəkildə göstərilir ki, iştirakçı dövlətlər bu konvensiyalarda bəyan edilmiş hüquq və azadlıqlara əməl olunmasını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri həyata keçirməlidirlər.

Qeyd edək ki, bu cür ümumi göstərişlərin yerinə yetirilməsi özü-özlüyündə beynəlxalq hüququn pozulması kimi tövsif edilə bilməz. Beynəlxalq hüquq pozuntusundan o zaman danışmaq olar ki, dövlət öz öhdəliklərini hər hansı bir konkret halda yerinə yetirməmişolur. İnsan hüquqları ilə bağlə bizim misalımızda, dövlədaxili hüququn beynəlxalq hüquqa zidd olması o halda beynəlxalq hüquq pozuntusu sayılır ki, bu zaman konkret şəxsin hər hansı hüquq və ya azadlığı pozulmuş olur.

2) konkret göstərişlər.

Bu halda müəyyən qanunvericilik tədbirlərinin həyata keçirilməsi – müvafiq qanunların və digər aktların qəbul olunması və ya ləğv edilməsi – müqavilə iştirakçılarının üzərinə birbaşa vəzifə kimi qoyulur. Beynəlxalq hüquqda bu cür öhdıliklərə *davranış öhdəlikləri* deyilir. Dövlətin bu öhdəliyi yerinə yetirməməsi birbaşa beynəlxalq hüquq pozuntusu doğurur.

4. Azərbaycan Respublikası daxili hüquq sistemi və beynəlxalq hüquq. Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası beynəlxalq hüquq normalarının həyata keçirilməsinin *inkorporasiya* yolunu seçmişdir. Belə ki, Kostitusiyamızın 148-ci maddəsinin II bəndinə görə, "Azərbaycan Respublikasının tərafdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir". Göstırilən maddə bütün beynəlxalq müqavilələtin, yəni təkcə dövlətlərarası deyil, habelə hökumətlərarası və idarələrarası sazişlərin də ümumi inkorporasiyasını nəzərdə tutur.

Azərbaycan Respublikasının Konstitusiyası milli hüquqa daxil edilmiş beynəlxalq müqavilələrin normativ ranqı haqqında məsələdən yan keçməmişdir. Həmin məsələnin həlli 151-ci maddədə öz əksini tapmışdır. Maddədə deyilir: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar (Azərbaycan Respublikasının Konstitusiyası və referendum yolu ilə qəbul edilmiş aktlar istisna olunmaqla) və Azərbaycan Respublikasının tərafdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyət yarandıqda, beynəlxalq müqavilələr tətbiq olunur". Göründüyü kimi, bu maddədə yalnız Azərbaycan Respublikasının tərəfi olduğu dövlətlərarası müqavilələr nəzərdə tutulmuşdur. Hökumətlərarası

müqavilələrin hüquqi qüvvəsinə gəldikdə isə, 130- cu maddənin III bəndinin 6-cı yarımbəndindən belə bir nəticə çıxır ki, normativ ierarxiyada olan Azərbaycan Respublikasının Konstitusiya və qanunlarından aşağıda dayanır.

Ilk baxışdan belə bir təssüürat yaranır ki, Konstitusiya həmin bu maddədən beynəlxalq hüququn primatını (üstünlüyünü) müəyyən etmişdir. Lakin əslində 151-ci maddədə beynəlxalq müqavilənin müddəaları ilə Azərbaycan Respublikasının normativ-hüquqi aktları arasında mümkün ziddiyyətləri həll etmək rolunu oynayır. Belə bir ziddiyyət olduqda, məhkəmə bu müddəaları ləğv edə və ya dəyişdirə bilməz, yalnız həmin müddəaların tətbiqindən imtinanı elan edir. Dövlətdaxili hüquq norması qüvvdə qalır, doğrudur bu zaman Azərbaycanın öz qanunvericiliyini beynəlxalq hüquqa uyğunlaşdırmaq kimi beynəlxalq öhdəliyi haqqında məsələ aktuallaşır.

151-ci maddənin mənasına əsasən, beynəlxalq müqavilə və milli qanun arasındakı kolliziyalar lex posteriori derogat legi priori prinsipi əsasında həll olunmalıdır; beynəlxalq müqavilə həm Azərbaycan Respublikası üçün qüvvəyə minməzdən qabaq, həm də ondan sonra qəbul olunmuş istənilən normativ-hüquqi aktlara münasibətdə üstünlüyə malikdir.

5. Beynəlxalq müqavilələrin milli məhkəmələr tərəfindən tətbiqi.

İnkorporasiya yolu ilə eynəlxalq müqavilənin milli hüquqa daxil edilməsi onun birbaşa təbiq oluna bilməsi demək deyil. Başqa sözlə, məhkəmədən tələb etmək olmaz ki, o, dövlətin iştirakçısı olduğu beynəlxalq müqaviləni hər hansı işin həlli üçün birbaşa tətbiq etsin. Beynəlxalq hüququn dövlətdaxili hüququn bir hissəsi elan edildiyi bütün ölkələrin məhkəmə təcrübəsində, adətən, müvafiq beynəlxalq müqavilənin özü icra olunan (“self-executing”) və ya özü icra olunmayan (“non-self-executing”) müqavilə olub-olmaması haqqında məsələ ortaya çıxır.

Özü icra olunan o müqavilələrə (müqavilə müddəalarına) deyilir ki, onlar milli hüquq subyektlərinin iştirakı ilə olan münasibətləri avtomatik tənzimləyən dəqiq hüquqi öhdıliklər və milli məhkəmələrdə bilavəsitə iddia ilə təmin oluna bilən hüquq və vəzifələr yaradır. *Özü icra olunmayan* müqavilələr isə özündən sonra müəyyən qanunvericilik aktlarının verilməsini tələb edir. Nəzərə almaq lazımdır ki,

beynəlxalq hüquqi normaların böyük əksəriyyəti, ilk növbədə, bu normaları qəbul etmiş dövlətlərin özünə yönəlmişdir və onların orqanları üçün qanunvericilik, təşkilati və digər xarakterli müvafiq öhdəliklər yaradır. Qeyri-müəyyən olduğuna görə, bu normalar məhkəmə tətbiqi üçün zəruri hüquqi standartlar nəzərdə tutmur. Xüsusilə, bu proqram arakteri daşıyan, yəni yalnız ən ümumi istiqamətlər, davranış sərhədləri müəyən edən, adekvat qanunvericilik və ya inzibati tədbirlərin həyata keçirilməsi zərurətini birbaşa və ya dolayı yolla göstərən müqavilələrə aiddir. Ona görə də milli məhkəmə bu müqavilələri özü-özlüyündə tətbiq edə bilməz. Misal üçün, insan hüquqları sahəsində universal müqavilə olan İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı götürək. Bu müqavilə Razılığa gələn tərəfin niyyətinə görə özü icra olunan sayıla bilməz. Belə bir nəticə Paktın 2-ci maddəsinin 1-ci bəndindən birbaşa irəli gəlir. Burada deyilir ki, iştirakçı dövlətlər Pakda bəyan olmuş hüquqları "öz ehtiyatlarınnın maksimal hədlərində", "tədricən" və "bütün müvafiq üsullarla, o cümlədən qanunvericilik tədbirləri qəbul etməklə" həyata keçirməyi öz öhdələrinə götürürlər. Beləliklə, həmin öhdəliklərin həyata keçirilmənin başlıca üsulu kimi milli qanunvericiliyə istinadın olması Paktda ehtiva olunmuş normaların özü icra olunan olduğunu istisna edir.

Qeyd edilməlidir ki, özü icra olunan və olunmayan müqavilələrin tərifi və habelə müəyyən olunmuş siyahısı yoxdur və praktiki cəhətdən bu, heç mümkün də deyil. Bu və ya digər beynəlxalq müqavilələrin özü icra olunan olub-olmaması haqqında məsələ dövlətdaxili hüququn məsələsidir və onun həlli dövlətdən dövlətə fərqlənir, yəni kostitutsiyalardan, məhkəmə praktikasından, hüquqi ənənələrdən və s. asılıdır. Doğrudur, özündən sonra dövlətdaxili qanunvericilik tədbirlərini açıq-aydın tələb edən və olduqca ümumi və proqram xarakterli öhdəliklər nəzərdə tutan müqavilələr, çox güman ki, bütün ölkələrdə özü icra olunmayan müqavilələr kimi elan olunacaqdır. Bəzi dövlətlərdə "özü icra olunmayan" müqavilə anlayışı məhkəmələr tərəfindən bu və ya digər beynəlxalq sazişin tətbiqindən boyun qaçirmaq üçün istifadə olunur (daha doğrusu, sui-istifadə olunur). Məsələn, bu hala ABŞ-da tez-tez rst gəlinir, halbuki məlumdur ki, ABŞ-ın Konstitusiyası (VI maddə) beynəlxalq müqavilələri "ölkənin ali hüququnun" bir hissəsi elan etmişdir.

Beynəlxalq müqavilənin özü icra olunmasının müəyyən edilməsi problemi ilə qarşılaşan məhkəmələr, adətən, bir-biri ilə sıx əlaqəli iki suala cavab verməli olurlar: 1) müqavilə, onun dili, məqsədi və konteksti nəzərə alınmaqla, birbaşa tətbiq oluna bilərmi; 2) razılığa gələn dövlətlər fərdlərə məhkəmədə müdafiə oluna bilən hüquq və vəzifələri bilavəsitə vermək niyyətində olmuşlarmı. Belə ki, beynəlxalq müqavilənin iştirakçısı olan dövlətlər müqavilənin özündə razılaşa bilərlər ki, müqavilə bütövlükdə və ya onun ayrı-ayrı müddəaları birbaşa milli məhkəmələrdə tətbiq olunacaqdır. Məsələn, Avropa İqtisadi Birliyinin yaradılması haqqında müqavilənin 189-cu maddəsində nəzərdə tutulmuşdur ki, Birliyin Şurasının və ya Avropa Komissiyasının qərarı məcburidir və bütün iştirakçı dövlətlərdə birbaşa tətbiq olunur.

Bəzi dövlətlər qanunvericilik qaydasında – ya konstitusiya səviyyəsində (Niderland, Fransa, Yunanıstan, Cənubi Afrika Respublikası və b.), ya da xüsusi qanunlarda, bir qayda olaraq, beynəlxalq müqavilələr haqqında qanunlarda (məsələn, Rusiya) özü icra olunan müqavilələrin anlayışını vermiş və bununla öz məhkəmələri üçün hansı beynəlxalq müqavilələrin birbaşa tətbiq olunması barədə ümumi rəhbər müddəa müəyyən etmişlər. Lakin Azərbaycan qanunvericiliyində bu barədə göstəriş yoxdur. Nə "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və xitam olnuması haqqında" 13 iyun 1995-ci il tarixli Qanun, nə də "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il tarixli Qanun bu məsələyə aydınlıq gətirməməşdir. İkinci Qanun "məhkəmələr işə baxarkən... habelə Azərbaycan Respublikasının tərafdar olduğu beynəlxalq müqavilələri rəhbər tutr" müddəası (4-cü maddənin 3-cü hissəsi), göründüyü kimi, özü icra olunan müqavilələr haqqında məsələni həll etmir. Biz yuxarıdakı deyilənlərdən belə başa düşürük ki, "məhkəmə qanunu əldə rəhbər tutur" və "məhkəmə beynəlxalq müqaviləni əldə rəhbər tutur" ifadələri heç də eyni deyildir. Axırıncı ifadənin sadə şərhi belədir: milli məhkəmə yalnız o beynəlxalq müqaviləni tətbiq edir ki, həmin müqaviləni tətbiq etmək olar.

Beynəlxalq müqavilə normalarının milli məhkəmələr tərəfindən tətbiqi müxtəlif formalar kəsb edə bilər; bu beynəlxalq hüququn müstəqil və ya əlavə hüquqi dəlil

kimi istifadə olunmasından asılıdır. Praktikaya əsaslanaraq, *beynəlxalq müqavilələrin tətbiqinin üç formasını* göstərmək olar:

1) contra legem (qanunun ziddinə olaraq);

2) praeter legem (qanunla yanaşı olaraq);

3) secundum legem (qanuna əlavə olaraq).

Birinci halda məhkəmə beynəlxalq müqaviləni ona zidd olan milli qanunvericilik
normasının əvəzinə tətbiq edir. Beynəlxalq hüquq normasının contra legem tətbiqi, məsələn, Azərbaycan Respublikası Kostitutsiyasının yuxarıda nəzərdən keçirdiyimiz 151-ci maddəsini və demək olar ki, bütün cari qanunlarda ehtiva olunmuş analoji müddəanın əsasında ola bilər.

Ikinci halda məhkəmə beynəlxalq müqaviləyə milli qanunvericilikdə olan boşluqların doldurulması məqsədilə və yaxud onun aydın olmayan müddəaları ilə bağlı müraciət edə bilər.

Beynəlxalq müqavilənin *secundum legem* tətbiqi zamanı müqavilə əlavə dəlil kimi, milli hüquq normalarının təfsirinin köməkçi vasitə kimi çıxış edir. Bu halda məhkəmə öz dəlillərinin gücünü artırmaq üçün beynəlxalq hüquqa "üz tutur". Buna görə də konkret işin həlli üçün bu cür istinad elə bir həlledici əhəmiyyət kəsb etmir.

Mövzu 6: BEYNƏLXALQ HÜQUQDA MƏSULİYYƏT

Plan:

1. Beynəlxalq-hüquqi məsuliyyətin anlayışı

2. Beynəlxalq-hüquqi məsuliyyətin əsasları

3. "Dövlətin beynəlxalq cinayəti" anlayışı

4. Dövlətlərin məsuliyyətini istisna edən hallr

5. Beynəlxalq-hüquqi məsuliyyətin növləri və formaları

6. Beynəlxalq-hüquqi məsuliyyətinhəyata keçirilməsi

7. Beynəlxalq hüquqla qadağan olunmayan əməllərə görə dövlətlərin məsuliyyəti

8. Beynəlxalq təşkilatların məsuliyyəti

Ədabiyyat siyahısı.

Василенко В.А. *Ответственностъ государств за международные правонарушения.* Киев, 1976.

Василенко В.А. *Международно-правовые санкции.* Киев, 1982.

Василенко В., Давид В. *Механизм охраны международного правопорядка.* Брно, 1986.

Верещетин В.С. Новый шаг на пути кодификации права ответственности государств // *Российский ежегодник международного право.* 1992. СПб.., 1994.

Hüseynov L.H. Təcavüz nəticəsində vurulan zərərin hesablanmasının beynəlxalq-hüquqi əsası //*Dövlət və hüququ (elmi məqalələr toplusu).* I buraxılış, Bakı: 1995.

Hüseynov L.H. Beynəlxalq ekoloji hüquq pozuntusunun anlayışı //*Bakı Univ. Xəbərləri: Sosial-siyasi elmlər seriyası.* Bakı, 1995. №1.

Гусейнов Л.Г. К вопросу о роли ООН в установлении факта совершения международного преступления //*Держава и право (ежегодник научных трудов молодых ученых).* Выпуск 1. Киев: 1997.

Гусейнов Л.Г. Ответсвенность государств за нарушение договорных обязательств в области прав человека. // *Московский журнал международного право. 1998. специальный выпуск. С. 140-168.*

Гусейнов Л.Г., Гаджиев Б.З. Контрмеры в международгом праве: некоторые вопросы теории // Актуальные вопросы гуманитарных наук (Межвузовский сборник научных трудов). Новосибирск, 1999.

İbayev V.*Beynəlxalq humanitar hüquqda məsuliyyət məsələləri.* – Bakı. 2000.

Колосов Ю.М. *Ответственность в международном праве. М., 1975.*

Курис П.М. *Международные правонарушения и ответсвенность государства.* Вильнюс. 1973.

Манийчук Ю.В. *Последствия междунароного правонарушения. Киев, 1987.*

Нешатаева Т.В. *Санкции системы ООН (международно-правовой аспект). Иркутск, 1992.*

Раскалай С.Б. *Объективная ответственность государств в международном праве.* Киев, 1985.

Ушаков Н.А. *Основания международной ответственности государств.* М., 1983.

Интернатионал Жримес оф Статес: А Жритикал Аналйсис оф тще Интернатионал Лаw Жоммиссион′ с Драфт Артжле 19 он тще Стате Респонсибилитй (Едс. Weилер-Жассесе-Спинеди). Берлин-Hew-Йорк, 1989.

Камминэа М.Т. *Интер-Стате Респонсибилитй фор Виолотионс оф Щуман Риэщтс.* Рщилоделпщиа, 1992.

1. Beynəlxalq-hüquqi məsuliyyətin anlayışı. ***Beynəlxalq-hüquqi məsuliyyət – beynəlxalq hüquq pozuntusu nəticəsində digər dövlətə və ya dövlətlərə (və yaxud beynəlxalq hüququn başqa subyektlərinə) vurulmuş zərərin nəticələrini aradan qaldırmaq vəzifəsidir.***

Dövlətlərin beynəlxalq məsuliyyətini nizama salan normalar bu günə qədər

məcəllə ləşdirilməmişdir. Faktiki olaraq 1956-cı ildən BMT Beynəlxalq hüquq komissiyası müvafiq konvensiya layihəsi – Dövlətlərin məsuliyyəti haqqında maddələr Layihəsi üzərində işləyir. Layihədə,artıq adət kimi tanınmış və beynəlxalq təcrübədə geniş istifadə olunan bir sıra mühüm normalar ız əksini tapmışdır.

Beynəlxalq-hüquqi məsuliyyət, əsa etibarilə, beynəlxalq adət normalarına və presedentlərə əsaslanır. Əksər beynəlxalq müqavilələrdə, onların pozulmasına görə hansı neqativ hüquqi nəticələrin ortaya çıxması göstərilmir. Bununla belə,bir sıra müqavilələr mövcuddur ki,onlarda beynəlxalq hüquq pozuntusu törətmiş dövlətin (delikvent dövlətin) məsuliyyət məsələləri bu və ya digər şəkildə öz həllini tapmışdır: Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında 1972-ci il Konvensiyası; insan hüquqları sahəsində bəzi müqavilələr (məsələn,Avropa İnsan Hüquqları Konvensiyası) və s.

Beynəlxalq məsuliyyət institutu beynəlxalq hüququn ümumi institutudur; o, beynəlxalq hüququn bütün sahələrinə "xidmət edir", dövlətlərarası münasibətlərin bütün sahələrində hüquq qaydasının qorunmasını təmin edir.

2. Beynəlxalq-hüquqi məsuliyyətin əsasları. "Məsuliyyətin əsası" anlayışı, adətən, iki mənada işlədilir: müsuliyyət nəyin əsasında və nəyə görə ortaya çıxır. Bundan irəli gələrək , məsuliyyətin hüquqi əsasını və faktik əsasını fərqləndirirlər.

Beynəlxalq məsuliyyətin hüquqi əsasları. Dövlətin beynəlxalq məsuliyyəti onun beynəlxalq-hüquqi öhdəliyinin pozulmasına görə ortaya çıxır. Beynəlxalq öhdəliklər təkcə beynəlxalq hüququn mənbələrindən deyil, habelə hüququ tətbiqetmə aktlarından (məsələn, BMT Təhlükəsizlik Şurasının qətnamələrindən, beynəlxalq məhkəmə orqanlarının qərarlarından və s.) və dövlətin birtərəfli aktlarından irəli gələ bilər. Deməli, beynəlxalq məsuliyyətin mənbəyi anlayışı beynəlxalq hüququn mənbəyi anlayışından daha genişdir. Bu mənada beynəlxalq məsuliyyətin hüquqi əsası kimi beynəlxalq hüquq normasının deyil, beynəlxalq öhdəliyin pozulmasından danışmaq lazımdır.

Əlavə edək ki, dövlətin hər hansı əməlinin beynəlxalq hüquq pozuntusu kimi tövsif edilməsi yalnız beynəlxalq hüquq əsasında həyata keçirilir; bu əməlin dövlətdaxili hüquqa görə qanuni olması qətiyyən şərt deyildir.

Beynəlxalq məsuliyyətin faktik əsası. Beynəlxalq məsuliyyətin yeganə faktik əsası beynəlxalq hüquq pozuntusudur (BMT Beynəlxalq hüquq komissiyasının terminologiyasına görə, - beynəlxalq hüquqa zidd əməldir (internationally wrongful act
)). Beynəlxalq hüquq pozuntusunun iki ünsürü vardır. Dövlətlərin məsuliyyəti haqqında məqalələr Layihəsinin 3-cü maddəsinə əsasən, beynəlxalq hüquq pozuntusundan o zaman danışmaq olar ki: 1) dövlətin hər hansı bir əməli onun beynəlxalq öhdəliyi pozmuş olsun (obyektiv ünsür); 2) bu əməl dövlətin özünə aid edilmiş olsun (subyektiv ünsür). Elmi ədəbiyyatda, daxili hüququla analogiya əsasında, beynəlxalq hüquq pozuntusunun zərər və təqsir kimi əlamətləri də göstərilir. Zərərlə bağlı qeyd etmək lazımdır ki, bu ünsür hüquqa zidd davranış anlayışı ilə əhatə olunduğundan onun beynəlxalq hüquq pozuntusunun zəruri komponentləri sırasına daxil edilməsi artıq hesab olunmalıdır. Digər tərəfdən, dövlətin hər hansı əməlinin beynəlxalq hüquq pozuntusu olması qərarına gəlmək üçün həmin dövlətin müəyyən beynəlxalq öhdəliyinin pozulmuş olduğunu aşkara çıxarmaqla kifayətlənmək olar. Məsələn, öz ərazisində əsas insan hüquqlarını pozan dövlətin bu əməlində beynəlxalq hüquq pozuntusu faktını müəyyən etmək üçün bununla hansı dövlətə və hansı zərərin vurulmasını axtərmaq lazım deyil. Bu halda konkret müqavilə müddəasının və ya beynəlxalq adət normasının pozulduğunu ortaya çıxarmaq kifayətdir. Təqsirə gəldikdə isə, o, yalnız kokret normada göstərildiyi halda (məsələn, insan hüquqlarının müdafiəsi sahəsindəki bir sıra müddəalarda) beynəlxalq-hüquq məsuliyyətin ilkin şərti kimi çıxış edə bilər. Bütün digər hallarda dövlətin hər hansı əməlini beynəlxalq hüquq pozuntusu kimi tövsif etmək üçün təqsiri müəyyən etməyə çalışmaq lüzumsuzdur. İkinci bir tərəfdən, psixoloji kateqoriya olan təqsirin dövlət anlayışına aid edilməsinin özü olduqca mübahisəlidir. Beləliklə, hər hansı bir əməli dövlətin beynəlxalq hüquq pozuntusu hesab etmək üçün iki şərtin olması zəruridir və eyni zamanda kifayətdir:

1) bu əməl dövlətin beynəlxalq öhdəliyinə ziddir və 2) əməl dövlətin özünə aiddir, onun "öz" əməlidir.

Hər hansı əmənin bütövlükdə dövlətə aid edilməsi beynəlxalq hüquqda olduqca mühüm məsələdir. Dövlətin ərazisində baş verən və xarici dövlətin hüquq və qanuni mənafelərinə zərər yetirən hər bir əməl heç də mütləq beynəlxalq hüquq pozuntusu deyildir. Və yaxud: dövlətə mənsub olan istənilən fiziki və ya hüquqi şəxsin xarici dövlətin ərazisində törətmiş olduğu hüquqa zidd əməllər hər bir halda həmin dövlətin beynəlxalq hüquq pozuntusu kimi tövsüf edilə bilməz. Dövlət daxili qanunvericiliyində müəyyən etdiyi orqanlar vasitəsilə öz funksiyalarını həyata keçirir və yalnız bu orqanların əməlləri dövlətin əməlləri hesab olunur. Belə demək olar ki, dövlət öz orqanlarına görə, yalnız öz orqanlarına görə və bütün öz orqanlarına görə məsuliyyət daşıyır. Digər fiziki və ya hüquqi şəxslərin, yəni dövlətin adından çıxış etməyən şəxslərin hüquqi hüquqi zidd əməllərinə görə (məsələn, bir qrup şəxsin xarici dövlətin səfirliyinə basqın etməsi) dövlət, ümumiyyətlə götürdükdə, beynəlxalq məsuliyyət daşımır. Bu əməllərlə bağlı (bu əməllərə yox) dövlət o zaman müvafiq dövlət qarşısında məsuliyyət daşıya bilər ki, o, həmin əməllərin qarşısını almaq və ya təqsirli şəxsləri cəzalandırmaq üçün lazımi səy göstərməmiş və zəruri tədbirlər görməmişdir. Başqa sözlə, bu halda dövlətin beynəlxalq hüquqa zidd əməli hərəkətsizlikdə ifadə olunur.

3. "Dövlətin beynəlxalq cinayəti" anlayışı. Müasir beynəlxalq hüquqda, demək olar ki, hamılıqla qəbul olunmuşdur ki, beynəlxalq cinayətlər beynəlxalq hüquq pozuntularının xüsusi kateqoriyasıdır.

Xüsusi sosial-hüquq hadisə kimi beynəlxalq cinayət bir neçə mühim əlamətlərə malikdir; məhz bu əlamətlərə görə o, bütün digər beynəlxalq hüquq pozuntularından fərqlənir. Bunlar aşağıdakılardır: a) pozulmuş öhdəliklərin xaraqteri, yəni beynəlxalq birliyin həyatı maraqlarını əks etdirən öhdəliklərin pozulması; b) göstərilən öhdəliklərin pozulmasının ciddiliyi; c) əmənin bütün beynəlxalq birlik tərəfindən beynəlxalq cinayət sayılması, yəni communis opinio-nun olması.

Şübhəsiz ki, beynəlxalq cinayətin başlıca ünsürü kimi yuxarıda sadalanmış əlamətlərdən birincisi, yəni pozulmuş beynəlxalq öhdəliklərin obyekti çıxış edir.

Təcavüz, genosid və s. kimi cinayətlər törədilərkən dövlətlər bütün beynəlxalq birlik qarşısında öhdəliklərini (erga omnes öhdəlikləri) pozmuş olurlar və bu zaman bütün dövlətlər zərərçəkmiş tərəf sayılır.

İkinci meyar yəni beynəlxalq öhdəliklərin ciddi və ya ağır pozulması beynəlxalq cinayətlərin təhlükəli beynəlxalq hüquq pozuntularından fərqləndirilməsi üçün müstəsna əhəmiyyət daşıyır. Məsələ burasındadır ki, erga omens öhdəliklərinin heç də bütün pozuntuları beynəlxalq cinayət deyildir. Bu öhdəliklərin yalnız ciddi, ağır pozulduğu halda (əlbəttə ki, digər zəruri ünsürlərlə yanaşı) beynəlxalq cinayət törədilməsi faktından danışmaq olar. Dövlətin öz öhdəliklərini pozmasının ciddiliyinin maddi ifadəsi kimi onun hüquqa zidd əməli nəticəsində vurulmuş böyük miqdarda zərər çıxış edir. Vurulmuş zərərinxaraqteri və həcmi əməlin düzgün tövsifi üçün olduqca mühüm meyardır. Beləliklə, ciddilik anlayışını təyin etməyin iki metodu mövcuddur: onlardan biri cinayətin xaraqterinə, ikincisi isə onun nəticələrinə əsaslanır.

Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, beynəlxalq sülhə təhlükə törədən, jus cogens normalarını pozan beynəlxalq hüquq pozuntularının heç də hamısı beynəlxalq cinayət deyildir; yalnız o əməllər beynəlxalq cinayət kimki tövsif oluna bilər ki, onlar bütün beynəlxalq birlik tərəfindən beynəlxalq cinayət sayılır və beynəlxalq cinayət kimi nəzərdən keçirilir. Daha ağır nəticələr doğurduğuna görə "obyektiv olaraq" beynəlxalq cinayət kimi nəzərdən keçirilməsi üçün beynəlxalq hüquqa zidd əməl "subyektiv olaraq" bütövlükdə beynəlxalq birlik tərəfindən cinayət sayılmalıdır. Beynəlxalq birlikanlayışı o demək deyil ki, bu birliyin bütün üzvlərinin yekdil rəyi olmalıdır və hər bir dövlətə beləliklə veto hüququ verilməlidir. Digər tərəfdən, bu və digər beynəlxalq hüquqa zidd əməlin "beynəlxalq cinayət" xaraqteri hər hansı dövlətlər qrupu tərəfindən deyil, beynəlxalq birliyin bütün əsas komponentləri tərəfindən tanınmalıdır.

Beynəlxalq cinayət törədilərkən həmin cinayəti törətmiş dövlət üçün xüsusi məsuliyyət rejimi ortaya çıxır. Bu rejim adi beynəlxalq hüquq pozuntusu

törədildiyi zaman meydana çıxan beynəlxalq məsuliyyət rejimindən tamamilə fərqlənir: 1) əgər birinci halda söhbət dəymiş zərərin sadəcə ödənilməsindən gedirsə, ikinci halda isə zərərin ödənilməsindən əlavə, cinayəti törətmiş dövlətin suverenliyinin və beynəlxalq-hüquqi subyektliyinin müxtəlif cür məhdudlaşdırılması mümkün ola bilər (məsələn, İraqın Küveytə qarşı təcavüzündən sonra BMT Təhlükəsizlik Şurasının özünün 687 saylı qətnaməsində müəyyən etdiyi bir sıra tədbirlərlə İraqın suverenliyini əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdı); 2) beynəlxalq cinayət törədilərkən müvafiq dövlətin məsuliyyəti ilə yanaşı, habelə həmin cinayətin törədilməsində təqsirli olan fərdlərin beynəlxalq cinayət məsuliyyəti də ortaya çıxır. Buna əlavə etmək lazımdır ki, beynəlxalq cinayət törədilməsinə görə dövlətin vəzifəli şəxslərindən başqa, adi şəxslər də məsuliyyətə cəlb oluna bilərlər. Doğrudur, bu, beynəlxalq cinayətin xaraqterindən asılıdır. Bir sıra cinayətlər, məsələn, təcəvüz, müstəmləkəçilik və aparteid həmişə, dövlətin siyasi və ya hərbi aparatında yaxud onun maliyyə və ya iqtisadi sferalarında rəhbər mövqe tutan adamlar tərəfindən törədilir və, deməli, yalnız bu şəxslər beynəlxalq cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Genosid hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərin obyektiv tərəfini təşkil edən əməllər isə istənilən fiziki şəxs tərəfindən törədilə bilər; bu halda dövlətin beynəlxalq məsuliyyəti ilə yanaşı, bütün təqsirkar şəxslərin fərdi cinayət məsuliyyəti də ortaya çıxır (fiziki şəxslərin beynəlxalq məsuliyyəti barədə XVII fəsildə ətraflı bəhs edilmişdir).

4. Dövlətlərin məsuliyyətini istisna edən hallar. Yuxarıda ümumi qayda kimi göstərdik ki, dövlətin istənilən beynəlxalq hüquqa zidd əməli onun beynəlxalq məsuliyyətini ortaya çıxarır. Lakin bəzən elə hallar baş verir ki, dövlət öz beynəlxalq öhdəliklərini lazımi qaydad və müddətdə yerinə yetirə bilmir və yaxud məcburi pozmalı olunr. Bu zaman həmin dövlətin əməlində formal olaraq beynəlxalq hüquq pozuntusu tərkibi olsa da, o, beynəlxalq məsuliyyətdən azad edilir. Bu hallar aşağıdakılardır: razılıq; əks tədbirlər; fors-major və qabaqcadan görünə bilməyən hadisə; fəlakət; son zərurət; özünümüdafiə.

Razılıq. Əgər bir dövlət başqa bir dövlətin formal olaraq beynəlxalq hüquq pozuntusu hesab edilən əməlinə özü razılıq vermişsə, bu halda ikinci dövlətin beynəlxalq məsuliyyəti istina edilir. Məsələn, məlumdur ki, dövlətin öz qoşunlarını xarici dövlətin ərazisinə yeritməsi büynəlxalq hüququn ciddi pozuntusu kimi nəzərdən keçirilir. Lakin əgər qoşunların yeridilməsi həmin xarici dövlətin xahişi və ya razılığı ilə həyata keçirilirsə, onda göstərilən əməlin büynəlxalq hüquqa ziddiliyi istisna olunur. Əlavə edək ki, dövlətin razılığı hüquqi cəhətdən etibarlı olmalıdır, yəni belə bir razılıq səhv, şantaj və ya güc tətbiqi nəticəsində verilməməlidir.

Əks tədbirlərin hüquqi təbiəti barədə aşağıda ətraflı bəhs ediləcəkdir.

Fors-major və qabaqcadan görünə bilməyən hadisə. Əgər dövlətin öz beynəlxalq öhdəliyini pozmasına qarşısıalinmaz qüvvə ("fors-major") və ya qabaqcadan görünə bilməyən hadisə səbəb olubsa, həmin dövlət bu halda beynəlxalq məsuliyyət daşımayacaqdır. Məsələ burasındadır ki, fors-major halında (məsələn, zəlzələ, sel, yanğın və s.) dövlət başqa bir dövlətə vurulan zərərin qarşısını heç cür ala bilmir. Dövləti beynəlxalq məsuliyyətdən azad edən əsas kimi fors-major Dəniz hüququ üzrə1982-ci il BMT Konvensiyasında (98-ci maddə), Neftlə çirklənmədən dəyən zərərə görə mülki məsuliyyət haqqında 1992-ci il Beynəlxalq Konvensiyasında (111-ci maddə) nəzərdə tutulmuşdur.

Fəlakət. Bu, o hallardır ki, dövləti təmsil edən orqan və ya şəxslər təbiət qüvvələrinin və ya qəzaların təsiri altında, özlərinin və yaxud onlara etibar olunmuş adamların həyatını xilas etməyə başqa imkanları olmadığından, həmin dövlətin beynəlxalq öhdəliyini pozmuş olurlar. Fors-majordan fərqli olaraq, fəlakət halında, faciəvi nəticələrdən yan qaçmaq üçün beynəlxalq hüquq norması şüurlu surətdə, başa düşülərək pozzulur (məsələn, fəlakətə uğrayan gəminin kapitanı icazəsiz xarici dövlətin limanını daxil olur; labüd qəzadan yan və sərnişinlərin həyatını xilas etmək üçün təyyarənin pilotu icazəsiz əcnəbi dövlətin ərazisinə enməli olur və s.) Bütün bu hallarda beynəlxalq hüquq pozulsa da, dövlətin məsuliyyəti istisna olunur.

Son zərurət. Dövlət son zərurət halına aşağıdakı şərtlər daxilində istinad edə bilər: dövlətin formal hüquq pozuntusu sayılan əməli onun həyatı marağının qorunması zərurətindən doğmalıdır; dövlətin bu marağı ciddi vı labüd təhlükəyə məruz qalmalıdır; dövlətin törətmiş olduğu əməl bu marağın müdafiəsi üçün yeganə mümkün vasitə olmalıdır; törədilmiş əməl başqa dövlətə ciddi zərər yetirməməlidir.

BMT Beynəlxalq Məhkəməsi Qabçikovo-Nadmaroş (Slovakiya/Macarıstan) işi üzrə 1997-ci ildə çıxardığı qərarında son zərurətin nə olduğunu şərh edərkənməhz bu şərtləri sadalamışdır.

Özünümüdafiə. Əgər dövlətin törətdiyi əməl BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə xaraqteri daşıyırsa, bu əməlin beynəlxalq hüquqa ziddiliyi istisna olunur. Göstərilən maddəyə əsasən, silahlı basqına məruz qalan dövlətin fərdi və ya kollektiv özünümüdafiə hüquqi vardır və deməli, bu məqsədlə o, istənilən tədbirə, o cümlədən hərbi gücə əl ata bilər.

5. Beynəlxalq-hüquqi məsuliyyətin növləri və formaları.

Beynəlxalq-hüquqi məsuliyyətin iki növü vardır: qeyri-maddi məsuliyyət (bəzən buna siyasi məsuliyyət də deyirlər) və maddi məsuliyyət. Zərərin xaraqteri ilə (mənəvi və ya maddi zərər) məsuliyyətin növü arasında qəti uyğunluq yoxdur; belə ki, maddi zərər qeyri-maddi məsuliyyət də doğura bilər. Hər iki növ məsuliyyət müxtəlif formalarda ifadə oluna bilər. Beynəlxalq adət hüququnda tanınmış və BMT Beynəlxalq hüquq komissiyasının Layihəsində öz əksini tapmış bu formalar aşağıdakılardır:

1) *restitusiya;*
2) *kompensasiya;*
3) *satisfaksiya;*
4) *təkrar etməmə təminatları* (anoloji hüquq pozuntusunu təkrar törətməmək barədə

təminat vermə).

Restitusiya hüquq pozuntusu törədilməmişdən qabaq mövcud olmuş vəziyyətin (status quo ante-nin) bərpa edilməsidir. Bu məsuliyyət formasına misal olaraq

aşağıdakıları göstərmək olar: zəbt edilmiş ərazinin bütünlüklə azd edilməsi; qeyri-qanuni ələ keçirilmiş əmlakın geri qaytarılması; qeyri-qanuni həbs edilmiş və ya həbsdə saxlanılan şəxsin azad edilməsi və s.

Kompensasiya dövlətə və ya beynəlxalq hüququn digər subyektinə vurulmuş maddi (daha doğtusu, iqtisadi baxımdan qiymətləndirilə bilən) zərərin pul formasında ödənilməsidir.

Satisfaksiya beynəlxalq hüquq pozuntusu törətmiş dövlətin qeyri-maddi məsuliyyətinin əsas formasıdır. Əksər hallarda o, qeyri-maddi (mənəvi) zərərin vurulması ilə əlaqədar, yəni digər dövlətin şərəf və ləyaqətinə toxunan hüquqa zidd əməllərlə bağlı tətbiq olunur. Satisfaksiya aşağıdakı formalarda ifadə olunur: zərərçəkmiş dövlətdən rəsmi üzr istənilməsi; təəssf ifadə olunması; törədilmiş əməlin hüquqa zidd olmasının etiraf edilməsi; təqsirli şəxslərin məsuliyyətə cəlb olunması və cəzalandırılması və s.

Təkrar etməmə təminatları (guarantees of non-repetition) delikvent dövlətin bu cür hüquq pozuntularına gələcəkdə bir daha yol verməyəcəyi barədə öz üzərinə görürdüyü xüsusi öhdəlikdir. Bəzən beynəlxalq-hüquqi məsuliyyətin bu forması satisfaksiyanın bir növü kimi nəzərdən keçirilir.

6. Beynəlxalq-hüquqi məsuliyyətin həyata keçirilməsi. Delikvent dövlət başqa dövlətə (dövlətlərə) vurduğu zərəri könüllü ödəməklə, öz beynəlxalq-hüquqi məsuliyyətini həyata keçirmiş olur. Əgər o, hüquqa zidd əməlinin davam etdirərsə və ya bu əməl nəticəsində dəymiş zərəri ödəməkdən boyun qaçırarsa, onda onun beynəlxalq məsuliyyətini həyata keçirmək üçün zərərçəkmiş dövlət (dövlətlər) məcburiyyət vasitələrinə - əks tədbirlərə (sanksiyalara) əl atmaq hüququ qazanır. ***Əks tədbirlər*** (countermeasures) – ***hər hansı dövlətin beynəlxalq hüquqa zidd əməli müqabilində zərərçəkmiş dövlət (və ya səlahiyyətli beynəlxalq təşkilat) tərəfindən tətbiq olunan cavab tədbirləridir.*** Əks tədbirlərə aşağıdakı misalları göstərmək olar: embarqo; boykot; müqavilənin digər iştirakçı dövlət tərəfindən pozulmasına cavab olaraq həmin müqaviləyə birtərəfli qaydada xitam verilməsi və s.)

Əks tədbirlər beynəlxalq-hüquqi məsuliyyətin forması deyildir (ədəbiyyatda əks fikirlər çoxdur). O, məsuliyyətin həyata keçirməsini təmin etməli olan xüsusi tədbirlərdir. Məsuliyyət və əks tədbirlər, əsas etibarilə, onunla fərqlənir ki, məsuliyyət əgər hüquq pozuntusunu törətmiş dövlətin hərəkətidirsə, əks tədbirlər isə zərərçəkmiş dövlətin hərəkətidir; ikincisi, məsuliyyət – delikvent dövlətin üzərinə qoyulan vəzifədir və o, bu vəzifəni mütləq yerinə yetirməlidir; əks tədbirlər isə - zərərçəkmiş dövlətin hüququdur və, deməli, o, bu tədbirlərə əl atmaya da bilər.

Əks tədbirlər özü-özlüyündə "beynəlxalq hüquq pozuntusudur", çünki belə bir tədbirə əl atmaqla, dövlət delikvent dövlət qarşısında əvvəllər öz üzərinə götürdüyü beynəlxalq öhdəliyini pozmuş olur. Əslində isə, başqa dövlətin beynəlxalq hüquqa zidd əməlinə proporsional cavab olduğundan, əks tədbir hüquqauyğun xaraqter alır. Yuxarıda göstərdiyimiz kimi, əks tədbirlər məsuliyyəti aradan qaldıran hallardan biridir. Belə ki, beynəlxalq hüquqda başqa bir məcburiyyət tədbiri sayılan retorsiyadan əks tədbir onunla fərqlənir ki, retorsiya təkcə beynəlxalq hüquq pozuntusuna görə tətbiq olunmur və, ən başlıcası, bu zaman belə bir tədbirə əl atan dövlət heç bir konkret öhdəliyini pozmur. Retorsiya, əsas etibarilə, digər dövlətin qeyri-dost hərəkətlərinə cavab olaraq tətbiq edilir. Bu tədbirlər beynəlxalq hüquqla qorunmayan hüquqların məhdudlaşdırılmasına (pozulmasına) yönəlmişdir; məsələn, gömrük rüsumlarının qaldırılması, idxalın azaldılması, həmin dövlətdəki səfirin geri çağrılması və s.).

Əks tədbirlər cəza deyildir. Onların kokret məqsədi vardır və bu məqsəd əldə olunan kimi əks tədbirlər dayandırılmalıdır.

Əks tədbirlər beynəlxalq hüquqla müəyyən olunmuş şərtlər çərçivəsində tətbiq olunur.

Birincisi, bu tədbirlər yalnız hüquqa zidd əməlin dayandırılması və ya dəymiş zərərin ödənilməsi barədə ilkin tələbdən sonra tətbiq edilə bilər. Bu yönümdə ortaya çıxan problemləri, ən əsası, zərərin ödənilməsini problemin həll etmək üçün əvvəlcə zərərçəkmiş dövlət delikvent dövlətlə danışığa girməli və ya digər dinc nizamasalma vasitəsinə əl atmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, yalnız bu

vasitələr bir nəticə vermədikdə, yəni irəli sürülmüş müvafiq iddialar rədd edildikdən sonra zərərçəkmiş dövlət əks tədbirlərə əl ata bilər.

İkincisi, əks tədbirlərin intensivliyi və miqyası törədilmiş hüquq pozuntusunun ciddiliyinə və vurulmuş zərərin xaraqterinə uyğun olmalıdır.

Üçüncüsü, əks tədbirlər tətbiq edilən zaman müəyyən qadağalara əməl olunmalıdır. Belə ki: əks tədbirlər: a) güclə hədələməyə və ya güc tətbiqinə əsaslanmamalıdır (bu qadağa fərdi əks tədbirlərə şamil olunur); b) beynəlxalq hüququn ümumi imperativ normalarından irəli gələn hüquqları pozmamalıdır; c) dövlətin ərazi bütövlüyünü və ya siyasi müstəqilliyini təhlükə altına atmamalıdır; ç) əsas insan hüquqlarına və diplomatik və konsul agentlərinin toxunulmazlığına xələl gətirməməlidir.

Əks tədbirlər iki cür olur: 1) fərdi tətbirlər və 2) kollektiv tədbirlər (beynəlxalq təşkilatlar çərçivəsində). Kollektiv tədbirlərə aşağıdakıları misal göstərmək olar: dövlətin təşkilatda üzvülüyünün dayandırılması; dövlətin təşkilatdan çıxarılması, kollektiv silahlı tədbirlər və s.).

7. Beynəlxalq hüquqla qadağan olunmayan əməllərə görə dövlətlərin məsuliyyəti. Yuxarıda ümumi prinip kimi qeyd etdi ki, dövlətlərin məsuliyyətinin yeganə faktik əsası beynəlxalq hüquq pozuntusudur. Lakin xüsusi sazişlərə dəqiq müəyyən edilmiş hallarda dövlətin üzərinə, onun beynəlxalq hüquqa zidd olmayan əməli nəticəsində başqa dövlətə (dövlətlərə) vurulmuş zərəri ödəmək vəzifəsi qoyula bilər. Beynəlxalq müqavilələrdə belə məsuliyyət, əsas etibarilə, yüksək təhlükə mənbəyi olan fəaliyyət növləri ilə əlaqədar (məsələn, kosmik fəaliyyət, atom enerjisindən istifadə və s.) nəzərdə tutulur.

Göstərilən hallarda dövlət mütləq məsuliyyət daşıyır: dövlətin əməli nəticəsində, - bu

əməl həmin dövlətin beynəlxalq öhdəliklərinə uyğun olsa da, - əgər başqa dövlətlərə zərər dəymişsə, o, bu zərəri ödəməyə borcludur. Məsələn, Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında 1972-ci il Konvensiyasının 11-ci maddəsində dövlətlərin mütləq məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddəyə görə, kosmik obyekri buraxan dövlət bu obyektə

“yerin səthində və ya uçuşda olan hava gəmisinə vurulan zərərin müqabilində kompensasiya ödəməyə görə mütləq məsuliyyət daşıyır”.

Beynəlxalq-hüquqi məsuliyyətin bu xüsusi növü, qeyd edildiyi kimi, yalnız müqavilə hüququna söykənir və hər hansı bir müqavilədə nəzərdə tutulmuş bütün digər hallara tətbiq oluna bilməz.

8. Beynəlxalq təşkilatların məsuliyyəti. Bir sıra mövcud beynəlxalq müqavilələrdə beynəlxalq təşkilatların məsuliyyəti haqqında müvafiq müddəalar təsbit olunmuşdur.

Beynəlxalq təşkilatların məsuliyyəti onların orqanlarının və ya vəzifəli şəxslərinin əmelləri nəticəsində dövlətlərə, digər beynəlxalq təşkilatlara və fiziki şəxslərə vutulan zərərə görə ortaya çıxır.

Beynəlxalq təşkilat həm maddi, həm də qeyri-maddi məsuliyyət daşıya bilər. Maddi

məsuliyyətə gəlincə, beynəlxalq təşkilatlarin vəsaiti üzv-dövlətlərin üzvlük haqqından təşkil olunduğundan, ödənilməli olan pul məbləği, əsasən, beynəlxalq təşkilat ilə üzv-dövlətlər arasında bölünür.

Mövzu 8 BEYNƏLXALQ MÜQAVİLƏLƏR HÜQUQU

Plan:

1. Beynəlxalq müqavilələr hüququnun anlayışı və mənbələri

2. Beynəlxalq müqavilənin anlayışı.

3. Beynəlxalq müqavilədə tərəflər

4. Beynəlxalq müqavilələrin təsnifatı

5. Beynəlxalq müqavilənin strukturu

6. Beynəlxalq müqavilələrin bağlanması

7. Müqavilənin məcburiliyinə razılığın ifadə olunması

8. Beynəlxalq müqaviləyə qeyd-şərtlər

9. Beynəlxalq müqavilənin qeydə alınması və dərc edilməsi

10. Beynəlxalq müqavilənin qüvvədə olması

11. Beynəlxalq müqavilənin təvsiri

12. Beynəlxalq müqavilələrin etibarlılığı

13. Beynəlxalq müqavilənin xitam olunması

Ədəbiyyat siyahısı.

Гусейнов Л.Г. Особенности толкования международных договоров о правах человека //*Белорусский журнал международного права и международных отношений.* 1999.№2.

Дружков М.П. *Заключение международных договомеров в рамках и под эгидой международных организаций.* Киев, 1996.

Евинтов В.И. *Многосторонние договоры в современном международном праве.* Киев, 1979.

Евинтов В.И. *Многоязычные договоры в современном международном праве.* Киев, 1981.

Талалаев А.Н. *Право международных договоров: общие вопросы* . М., 1980.

Талалаев А.Н. *Право международных договоров: действие и при Менение договоров* . М., 1985.

Талалаев А.Н. *Право международных договоров: договоры с участием международных организаций* . М., 1989.

Талалаев А.Н. *Венская конвенция о праве международных договоров. Коментарий* . М., 1997.

Ульянова Н.Н. *Общие многосторонние договоры в современных международных отношениях: некоторые вопросы теории.* Киев, 1981.

Frowein J.A Reservations and the International Ordre Public // *Theory of International Law at the Threshold of the 21st Century. Essays in honour of Krzystztof Skubiszewski.* 1996. P. 403 ff.

Horn F. *Reservations and Interpretative Declarations to Multilateral Treaties.* Amsterdam-New York-Oxford-Tokyo. 1988. P. 145-160.

Klabbers J. *The Concept of Treaty in International Law. The Hauge, 1996.*

Konton M. *The Termination and Revision of Treaties in the Light of New Customary International Law.* N.Y.., 1994.

Redgwell C. Universality or Integrity? Some Reflections on Reservations to General Multilateral Treaties // *British Yearbook of International Law.* 1993. vol. 64. P.245-282.

Simma B. Reservations to Human Rights Treaties-Some Recent Developments // *Liber Amicorum. Professor I. Seidl-Hohenveldernin honour of his 80 th birthday (G. Hafner et al. eds.).* The Hague-London-Boston. 1998. P. 659-682.

1. Beynəlxalq müqavilələr hüququnun anlayışı və mənbələri. ***Beynəlxalq müqavilələr hüququ beynəlxalq müqavilələrin bağlanması, icrası və xitam olunması qaydasını nizama salan beynəlxalq-hüquqi normaların məcmusuna deyilir.***

Beynəlxalq müqavilələr hüququ beynəlxalq hüququn aparılması sahəsi hesab olunur.

Bunu belə izah etmək olar. Əgər beynəlxalq hüququn bütün həyatı, əsas etibarilə, müqavilə ilə nizama salinarsa, müqavilənin özünün bütün həyatı isə məhz indi nəzərdən keçirdiyimiz beynəlxalq müqavilələr hüququ ilə nizama salınır. Beynəlxalq hüququn istənilən sahəsində biz müvafiq müqavilənin necə və nə vaxt qüvvəyə mindiyi, hansı ərazidə qüvvədə olması, etibarlılığı, təfsiri, hansı əsaslarla

xitam oluna bilməsi və s. kimi suallarla qarşılaşırıq. Bütün bu suallara beynəlxalq müqavilələr hüququ cavab verir.

Beynəlxalq müqavilələr hüququ uzun müddət ərzində beynəlxalq adət normalarına söykənmişdir. Müqavilələrin bağlanması, qüvvədə olması, təfsiri və xitam olunması ilə bağlı dövlətlərin dəfələrlə təkrar olunan və eyni cür praktikası nəticəsində müəyyən normalar təşəkkül tapmışdır. Bu normaların böyük əksəriyyəti bu gün də beynəlxalq hüquqi adətlər kimi qüvvədədir. Sonralar bu adət normaları bir yerə toplanmış və məcəllə şəklinə salınmışdır. Beynəlxalq müqavilələr hüququ sahəsində ilk belə məcəllələşdirilmiş akt Müqavilələr haqqında Havana Konvensiyası olmuşdur; 1928-ci ildə bağlanmış bu Konvensiyasiya yalnız Latın Amerikası ölkələri arasında qüvvədə olmuşdur.

Beynəlxalq müqavilələr hüququ sahəsində hazırda iki başlıca akt mövcuddur: 1) *Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyası və* 2) *dövlətlər ilə beynəlxalq təşkilatlar arasında və beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında 1986-cı il Vyana Konvensiyası.*

Əslində bu iki Konvensiyadan yalnız birincisi beynəlxalq müqavilələr hüququnun mənbəyi sayıla bilər, çünki ikinci Konvensiya hələ qüvvəyə minməmişdir. *Beynəlxalq müqavilələr hüququnun mühüm mənbəyi kimi müvafiq beynəlxalq adət normalarını da qeyd etmək lazımdır:* əvvəla, ona görə ki, bəzi dövlətlər indiyə qədər 1969-cu il Konvensiyasının iştirakçısı deyillər; ikincisi isə bir sıra məsələlər (müharibələrin beynəlxalq müqavilələrə təsiri və s.) bu Konvensiyada öz əksini tapmamışdır. Yeri gəlmişkən, sözü gedən Konvensiyaların hər ikisində birbaşa qeyd olunur ki, bu konvensiyaların müddəalarında öz həllini tapmayan məsələlər əvvəlki kimi beynəlxalq adət hüququ normaları ilə nizama salınır.

2. Beynəlxalq müqavilənin anlayışı. Beynəlxalq müqavilənin tərifini beynəlxalq hüququn mənbələrini şərh edərkən vermişdik. Lakin yuxarıda göstərilmiş konvensiyalar müqaviləyə bir qədər başqa cür tərif verir; yəni beynəlxalq müqavilələr hüququ ilə bağlı aşağıda nəzərdən keçirəcəyimiz bütün normalar

yalnız bu tərifə uyğun gələn beynəlxalq müqavilələrə şamil olunur. Hər iki Konvensiyanın 2-ci maddəsinə görə:

beynəlxalq müqavilə- dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yazılı formada bağlanılan və beynəlxalq hüquqla nizama salınan beynəlxalq razılaşmadır; bu razılaşmanın bir və ya iki. Yaxud daha çox bir-biri ilə bağlı aktlarda ehtiva olunması və nə cür adlandırılması əhəmiyyət kəsb etmir.

Beləliklə, şifahi sazişlərə ("centlmen sazişləri") və habelə dövlətdaxili hüquql nizama salınan müqavilələrə (məsələn, kommersiya razılaşmalarına) göstərdiyimiz Konvensiyaların müddəaları bilavasitə tətbiq olunmur. Bundan əlavə, daha bir mühüm şərt vardir ki, o da tərəflərin həmin razılaşma vasitəsi ilə hüquqi münasibətlər, daha doğrusu, özləri üçün *məcburi öhdəliklər yaratmaq niyyətinin* olmasıdır. Belə bir niyyət olmamışsa, razılaşmanın özü və onun bağlanması prossesi bütün müvafiq tələblərə cavab versə belə, beynəlxalq müqavilədən danışmaq olmaz. Məsələn. 1975-ci il Helsinki Yekun akti müqavilə sayılmır.

Hər bir beynəlxalq müqavilənin müəyyən obyekti və məqsədi olur. *Müqavilənin obyekti* dedikdə, həmin müqavilənin yönəldiyi maddi və ya qeyri-maddi nemət, hərəkət və ya müəyyən hərəkətdən çəkinmə başa düşülür. Bir qayda olaraq, müqavilənin obyekti onun adında öz əksini tapır. *Müqavilənin məqsədi* isə müqaviləni qəbul edən dövlətlərin (və ya beynəlxalq təşkilatların) nəyi həyata keçirmək və ya nəyə nail olmaq istədiklərini göstərir. Müqavilənin məqsədi və ya məqsədləri, bir qayda olaraq, müqavilənin preambulasında və yaxud ilk maddələrdə ifadə olunur. Məsələn, BMT Nizamnaməsinin 1-ci maddəsində Nizamnamənin qəbul olunmasına məqsədləri bəyan olunmuşdur.

3.Beynəlxalq müqavilədə tərəflər.1969-cu il və 1986-cı il Konvensiyalarına görə, müvafiq olaraq dövlətlər və beynəlxalq təşkilatlar beynəlxalq müqavilənin tərəfi ola bilər.

1969-cu il Konvensiyasına görə, " hər bir dövlət müqavilələr bağlamaq hüquq qabiliyyətinə malikdir" (6-cı maddə). Dövlətlərin hüquq qabiliyyəti, artıq qeyd edildiyi kimi, universal xarakter daşıyır. Dövlət istənilən sahədə müqavilə bağlaya

bilər və istənilən digər müqaviləyə qoşula bilər. Düzdür, ikinci halda bu, müqavilə qapalı olmadığı halda mümkündür; belə ki, bəzi beynəlxalq sazişlərə yalnız müəyyən regionda yerləşən dövlətlər (məsələn, bu, Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmuşdur) və ya sazişin bütün iştirakçılarının razılığı ilə hər hansı dövlət tərəf ola bilər(məsələn, Avropa İqtisadi Birliyinin yaradılması haqqında 1957-ci il Roma müqaviləsi). Beynəlxalq təşkilatlara gəldikdə isə, onlar həm dövlətlərlə, həm də digər beynəlxalq təşkilatlarla müqavilələr bağlaya bilər. 1986-cı il Konvensiyasında deyilir: "beynəlxalq təşkilatların müqavilələr bağlamaq hüquq qabiliyyəti bu təşkilatın qaydaları ilə tənzimlənir" (6-ci maddə). Göründüyü kimi, beynəlxalq təşkilatın hansı müqaviləyə tərəf ola bilməsi, əsas etibarilə, həmin təşkilatın təsis aktından asılıdır.

Beynəlxalq hüququn digər subyektləri də bu və ya digər dərəcədə beynəlxalq müqavilə bağlaya bilərlər. Məsələn, xarici işğaldan və ya müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizə aparan xalqı rəsmi təmsil edən qurumlar beynəlxalq sazişlərdə iştirak edə bilərlər. Fələstin azadlıq Təşkilatının bir sıra beynəlxalq sazişə tərəf olması bizə yaxşı məlumdur.

1986-cı ildə bağlanmış Nüvə qəzası barəsində operativ xəbırvermə haqqında Konvensiyada nəzərdə tutulur ki, bu Konvensiya bütün dövlətlər, regional təşkilatlar da daxil olmaqla, beynəlxalq təşkilatlar və Namibiya (1990-cı ildə müstəqilliyi elan olunmuş Namibiyanı nəmin Konvensiya ilə danışıqlarda Namibiya üzrə BMT Şurası təmsil edirdi) tərəfindən imzalanmaq üçün açıqdır.

"Müqavilənin tərəfi" anlayışından danışarkən, sözü gedən Vyana Konvensiyalarında

işlədilmiş digər uyğun terminləri də bilmək lazımdır. Bu terminlər aşağıdaklardır: *"danışıqlarda iştirak edən dövlət"* (və ya beynəlxalq təşkilat) – yəni müqavilənin mətninin hazırlanmasında və qəbul edilməsində iştirak etmiş dövlət (və ya beynəlxalq təşkilat); *"razılaşan dövlət"* – yəni müqavilənin qüvvəyə minib-minməməsindən asılı olmayarq, müqavilənin məcburiliyinə öz razılığını vermiş dövlət; "iştirakçı dövlət" –yəni müqavilənin məcburiliyinə öz razılığını vermiş və

müqavilənin onun üçün qüvvəyə mindiyi dövlət; *"üçüncü dövlət"* – yəni müqavilənin tərəfi olmayan dövlət.

4. Beynəlxalq müqavilələrin təsnifatı.Beynəlxalq müqavilələri aşağıda göstərilmiş əsaslara görə ayrı-ayrı növlərə bölmək olar:

I – iştirakçıların dairəsinə görə:

1) ikitərəfli müqavilələr (iki dövlətin iştirak etdiyi müqavilələr);

2) çoxtərəfli müqavilələr (ikidən artıq dövlətin iştirakçısı olduğu beynəlxalq müqavilələr). Çoxtərəfli müqavilələr arasında dünya dövlətlərinin ümumi mənafeyini əks etdirən, ümumi məsələlərin həllinə yönəlmiş *universal müqavilələr* xüsusi yer tutur.

II – dövlətlərin həmin beynəlxalq müqavilələrdə iştirak etmək imkanına görə:

1) *açıq müqavilələr* (istənilən dövlət bu müqavilələrə heç bir hüquqi maneə olmadan

tərəf ola bilər):

2) *qapalı müqavilələr* (bu müqavilələrin anlayışı yuxarıda vermişdik).

III – məzmununa görə:

1) siyasi müqavilələr. Bu müqavilələrə, əsasən aşağıdakılar aiddir:

müttəfiqlik haqqında müqavilələr – bu cür müqavilələrin iştirakçısı olan dövlətlər

özlərinin müəyyən mənafelərini qorumaq məqsədilə birgə fəaliyyət göstərməyı öhdəsinə götürürlər;

qarşılıqlı yardım haqqında müqavilələr – iştirakçı dövlətlər bir-birinə bu və ya digər sahədə yardım göstərmyi öz üzərlərinə öhdəlik kimi götürürlər;

neytirallıq haqqında müqavilələr – bu müqavilələr vasitəsilə iştirakçı dövlətlər öz

üzərlərinə öhdəlik götürürlər ki, hər hansı hərbi əməliyyatlarda iştirak etməsinlər və müəyyən əraziləri hərbi bazaya çevirməsinlər;

ç) sülh müqavilələri – bu müqavilələr müharibə vəziyyətini hüquqi baxımdan başa çatdırır və müharibədən sonrakı siyasi və digər münasibətləri müəyyən edir.

2) iqtisadi müqavilələr. Buraya daxildir:

a) ticarət müqavilələri;

b) əmtəə göndərilməsi və əmtəə dövriyyəsi haqqında sazişlər;

c) texniki yardım haqqında və ya elmi-texniki əməkdaşlıq haqqında sazişlər;

ç) beynəlxalq hesablaşmalar haqqında sazişlər;

d) gömrük məsələləri və s. üzrə sazişlər:

3) xüsusi məsələlər üzrə sazişlər. Bu qrupa aşağıdakı sahələrdə bağlanmış müqavilələri daxil etmək olar:

a) nəqliyyat sahəsində;

b) rabitə sahəsində;

c) kənd təsərrufatı sahəsində;

ç) elmi əməkdaşlıq məsələləri üzrə;

d) hüquqi məsələlər üzrə;

e) ətraf mühitin mühafizəsi sahəsində;

ə) mədəniyyət sahəsində və s.

5. Beynəlxalq müqavilənin strukturu

Hər bir beynəlxalq müqavilənin mətni, bir qayda olaraq, aşağıdakı quruluşda tərtib olunur:

1. Müqavilənin adı.

Beynəlxalq müqavilə təcrübəsində "müqavilə" ümumi anlayışı altında müxtəlif konkret adlardan istifadə olunur; (məsələn, konvensiya, saziş, nizamnamə, pakt, xartiya, bəyannamə, traktat, statut, konkordat və s.).

2. Preambula.

Preambula müqavilənin giriş hissəsinə deyilir. Burada, adətən, müqavilənin məqsədləri əks olunur. Müqavilənin ayrı-ayrı müddəalarının təfsiri zamanı preambula müəyyən rol oynaya bilər.

3. Əsas hissəsi.

Müqavilənin bu hissəsində tərəflərin müqavilənin obyekti ilə bağlı olan hüquq və vəzifələri ifadə olunur. Əsas hissə ardıcıl olaraq bölmə və ya fəsillərdən, maddələrdən, hissələrdən, bəndlərdən və yarımbəndlərdən ibarət olur.

4. yekun hissə.

Bu hissədə müqavilənin qüvvəyə minməsi və xitam olunması şərtləri, müqaviləyə yenidən baxılması qaydası, müqavilənin tərtib olunduğu dil və s. kimi məsələlər öz əksini tapır.

5. Səlahiyyətli şəxslərin imzaları.

6. Bəzi hallarda beynəlxalq müqavilələrin protokollar, əlavə protokollar, texniki şərtlər, standartlar, xəritələr və s. şəklində *Əlavələri* də olur. Əgər müqavilənin özündə göstərilirsə, Əlavələr həmin müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur.

6. Beynəlxalq müqavilələrin bağlanması

Beynəlxalq müqavilənin bağlanması bir neçə ardıcıl *mərhələdən* ibarət olan bir prosesdir. Bu mərhələlər aşağıdakılardır:

1. Müqavilənin mətninin tərtib olunmaı və qəbulu.
2. Müqavilənin mətninin autentikliyinin müəyyən olunması.
3. Müqavilənin məcburiliyinə razılığın ifadə olunması.

Dövlətlər arasında müqavilələr onların nümayəndələri tərəfindən bağlanılır. Müqavilənin bağlanmasında, daha doğrusu, yuxarıda göstərilmiş ilk iki mərhələdən birində və ya hər ikisində iştirak etmək üçün həmin nümayəndəyə xüsusi sənəd – *vəkalət* verilir. Vəkalət milli qanunvericiliyə müvafiq olaraq, dövlətin səlahiyyətli orqanları tərəfində verilir. Dövlətin müəyyən vəzifəli şəxslərinə, onların vəzifə mövqeyinə görə xüsusi vəkalət lazım deyil. 1969-cu il Vyana Konvensiyasına görə, bu şəxslər aşağıdakılardır: 1) dövlətlərin başçıları; 2) hökumətlərin başçıları; 3) xarici işlər nazirləri; 4) diplomatik nümayəndəliklərin başçıları və 5) dövlətlərin beynəlxalq konfranslardakı və beynəlxalq təşkilatlardakı nümayəndələri. Diplomatik nümayəndəliyin başçısı yalnız öz dövləti ilə akkreditə olunduqları dövlət arasındakı müqavilənin, dövlətin beynəlxaq konfranslardakı və beynəlxalq təşkilatlardakı

nümayəndəsi isə yalnız bu konfrans və ya təşkilat çərçivəsində bağlanılan *müqavilənin mətninin qəbul olunması* ilə bağlı hərəkətləri həyata keçirə bilər.

Beynəlxalq təşkilatın iştirakı ilə müqavilələr bağlanılması üçün həmin təşkilatın qaydalarına əsasən onu təmsil edən şəxsə vəkalət tələb olunmur (1986-cı il Vyana Konvensiyasının 7-ci maddəsi).

Vəkaləti olmayan şəxs tərəfindən və ya vəkalətin pozulması ilə, beynəlxalq müqavilənin bağlanılması ilə əlaqədar hər hansı hərəkətin həyata keçirilməsi, əgər müvafiq dövlət bundan sonra bu hərəkəti təsdiq etmirsə, heç bir hüquqi əhəmiyyətə malik olmur.

Beynəlxalq müqavilənin mətninin tərtib olunması və qəbulu aşağıdakı üç formadan biri vasitəsilə həyata keçirilir:

danışıqlar;

beynəlxalq konfranslar;

Məsələn, Beynəlxalq Cinayət Məhkəməsinin Statutu 1998-ci il iyulun 17-də Roma Beynəlxalq diplomatik konfransında qəbul olunmuşdur.

beynəlxalq təşkilatlar;

Beynəlxalq konfranslarda və beynəlxalq təşkilatlarda son zamanlar müqavilə mətnləri *konsensus* vasitəsilə, yəni iştirakçılardan heç birinin etirazı olmadıqda, səsvermə keçirilməməklə qəbul olunur.

Müqavilə mətninin autentikliyinin müəyyən olunması və autentifikasiyası (yunanca bu söz "həqiqilik", "əslinə uyğunluq" deməkdir) o deməkdir ki, beynəlxalq müqavilənin mətni son və qəti variantda razılaşdırılmışdır və ona heç bir dəyişiklik edilə blməz. Bu, üç yolla həyata keçirilir:

1) paraflama (inisial qoyma) – müqavilə mətninin hər səifəsində vəkalətli şəxsin öz inisiallarını qoyması.

2) ad referendum imza atma (şərti imza atma) – bu qaydada qoyulmuş imza hələ bundan sonra müvafiq dövlət orqanı (və ya müvafiq beynəlxalq təşkilat) tərəfindən təsdiq olmalıdır. Onun inisial qoymadan ilə fərqi ondan ibarətdir ki, təsdiq olunduqdan sonra ad referendum imza atma tam və ya qəti imzalama hesab olunur; inisial qoymadan sonra isə müqavilə hələ qəti imzalanmağa verilməlidir.

3) imzalma. İmzalama o zaman müqavilə mətninin autentifikasiyası rolunu oynayır ki, həmin müqavilə sonradan ratifikasiya olunmalıdır. İmzalama müəyyən

hüquqi nəticələr doğurur; belə ki, bundan sonra imzalamış dövlət; 1) həmin müqaviləni təsdiq etmək hüququ əldə edir; 2) müqavilənin qüvvəyə minməsinə qədər, onun obyektini və məqsədini heçə endirə biləcək hərəkətləri etməmək vəzifəsi daşıyır (1969-cu il Konvensiyasının 18-ci maddəsi).

Vyana Konvensiyalarına görə, hansı autentifikasiya usulunun seçilməsini razılaşan tərəflər özləri müəyyən edirlər.

7. Müqavilənin məcburiliyinə razılığın ifadə olunması. Bildiyimiz kimi, dövlətin razılığı əgər yoxdursa, o, heç bir müqavilə ilə bağlı ola bilməz. Buna görə də müqaviləyə razılığın ifadə olunması həmin müqavilənin qüvvəyə minməsi üçün zəruri mərhələdir. 1969-cu il Vyana Konvensiyasının 11-ci maddəsinə görə, belə bir *razılıq* aşağıdakı *üsullardan biri ilə ifadə oluna bilər:*

müqavilənin imzalanması;

müqaviə sənədlərinin dəyişdirilməsi;

ratifikasiya;

təsdiq etmə;

qəbul etmə;

müqaviləyə qoşulma.

Buna əlavə, 11-ci maddədə göstərilir ki, müqavilənin tərəfləri müqavilənin məcburiliyinin tanınmasının digər üsulu barədə razılığa gələ bilərlər.

Müqavilənin məcburiliyinə razılıq o zaman *imzalama* vasitısi ilə ifadə olunur ki,

həmin müqavilə bundan sonra ratifikasiya və ya təsdiq edilməli olmasın. Əgər müqavilənin sonradan ratifikasiya və ya təsdiq olunması nəzərdə tutulubsa, onda bu halda imzalama, yuxarıda qeyd edildiyi kimi, yalnız müqavilə mətninin autentikliyinin müəyyən edilməsi rolunu oynayır. Beynəlxalq müqavilənin məcburiliyinə razılığın məhz imzalama vasitəsilə ifadə olunması, adətən, həmin müqavilənin özündə göstərilir.

Müqavilə sənədlərinin mübadiləsi, yəni müvafiq dövlətlərin nümayəndələrinin bir

birinə nota və ya məktub göndərməsi müqavilənin məcburiliyinə razılığı bildirməyin sadələşdirilmiş üsuludur. Məhz üsula əl atılması bu barədə xüsusi razılaşma olduqda olur.

Müqavilənin məcburiliyinə razılığın ieadə olunmasının ən geniş yayılmış üsulu *ratifikasiyadir*. Ratifikasiya ali hakimiyyət orqanı (adətən, parlament, və ya dövlətin başçısı) tərəfindən müqavilənin təsdiq olunmasıdır. Ratifikasiya həm dövlətdaxili aktda (qanunda, fərmanda və s.), həmdə beynəlxalq aktda (ratifikasiya sənədində) öz əksini tapir. Beynəlxalq təşkilatların özünün hər hansı müqaviləsi ilə bağlı rəsmi təsdiq aktı ratifikasiyaya bərabər tutulur.

1969-cu il Vyana Konvensiyasının 14-cü maddəsinə görə, müqavilənin məcburiliyinə razılıq aşağıdakı hallarda ratifikasiya vasitəsilə ifadə olunur:

a) müqavilənin özündə bu birbaşa nəzərdə tuulubsa;

b) başqa cür müəyyən olunbsa ki, danışıqlarda iştirak edən dövlətlər ratifikasiyanın zəruriliyi haqqında razılığa gəlmişlər;

c) dövlətin nümayəndəsi müqaviləni ratifikasiya olunmaq şərtilə imzalamışdırsa;

ç) dövlətin müqaviləni ratifikasiya olunmaq şərtilə imzalamaq niyyəti onun nümayəndəsinin vəkalətindən irəli gəlirsə və yaxud danışıqlar zamanı ifadə olunmuşdursa.

Hər bir dövlət öz qanunvericiliyində, imzalamış olduğu hansı beynəlxalq müqavilələrin və hansı qaydada ratifikasiya olunmasını müəyyən edir.

Burada qeyd edək ki, dövlətin müqaviləni imzalayıb sonra onu ratifikasiya etməməsi beynəlxalq hüquq pozuntusu hesab olunmyr.

Dövlət hər hansı müqavilənin ratifikasiya olunması haqqında qərar çıxardıqdan sonra *ratifikasiya sənədi* tərtib edir. Ratifikasiya sənədində aşağıdakılar göstərilir; a) müqaviləni ratifikasiya etmiş dövlət orqanının adı; b) müqavilənin bütöv mətni (əgər qeyd-şərtlər və ya bəyanatlar edilmişsə, onlar da bu hissəyə əlavə olunur); c) həmin müqavilənin vicdanla yerinə yetiriləcəyi haqqında dövlətin bəyanatı.

Ikitərəfli müqavilə bağlanarkən onun iştirakçısı olan dövlətlər öz ratifikasiya sənədlərini bir-birinə verir. Çoxtərəfli müqavilələrdə isə radifikasiya sənədləri

depozitariyə saxlanmağa verilir. *Depozitari* müqavilənin əslini və onunla bağlı bütün sənədləri saxlamaq üçün tərəflərin razılığı ilə müəyyən olunan dövlət (adətən, müqavilənin imzalandığı dövlət), beynəlxalq təşkilat və ya bu təşkilatın baş vəzifəli şəxsi deməkdir. Məsələn, BMT çərçivəsində qəbul olunmuş müqavilələrin(o cümlədən, sözü gedən 1969-cu il və 1986-ci il Vyana Konvensiyalarının) depozitarisi, bir qayda olaraq, BMT-nin Baş Katibidir.

Vyana Konvensiyalarına görə, depozitari bu funksiyaları yerinə yetirir: a) vəkalətlər, ratifikasiya sənədləri, qoşulma sənədləri kimi sənədlərin saxlanılması; b) müqavilənin əslindən təsdiq olunmuş nüsxələrin hazırlanması və müqavilənin iştirakçısı olan və iştirakçısı olmaq hüququ olan dövlətlərə və beynəlxalq təşkilatlara göndərilməsi; c) hər bir saxlanılmağa verilmiş ratifikasiya sənədi, habelə qeyd-şərtlər və onlara etirazlar və müqavilənin qüvvəyə minməsi haqqında müqavilənin iştirakçılarına məlumat verilməsi və s.

Təsdiq etmə qəbul etmə ratifikasiyaya çox yaxındır, lakin nisbətən sadələşdirilmiş prosedur hesab olunur. Müqavilənin məcburiliyinə bu yollarla razılıq, adətən, dövlət başçısı və parlament tərəfindən deyil, dövlətin digər orqanları tərəfindən verilir.

Nəhayət, beynəlxalq müqavilənin məcburiliyinə razılıq həmin müqaviləyə *qoşulmaq* vasitəsilə ifadə oluna bilər. Dövlət, adətən, artıq qüvvəyə minmiş müqaviləyə qoşulur. Müqaviləyə həm onun mətninin hazırlanmasında və qəbul edilməsində iştirak etməmiş dövlətlər, həm də müqaviləni artıq imzalamış, lakin həmin müqavilənin qüvvəyə minməsinə qədər, onun məcburiliyinə razılıq verməmiş dövlətlər qoşula bilər. Hər bir müqaviləyə necə qoşulmaq qaydası müqavilənin özündə müəyyən olunur. Qoşulma, bir qayda olaraq, ratifikasiya sənədinin və ya qoşulma haqqında digər sənədin (nota, məktub və s.) saxlanılmağa verilməsi yolu ilə həyata keçirilir.

8. Beynəlxalq müqaviləyə qeyd-şərtlər.*Beynəlxalq müqavilənin məcburiliyinə hər hansı yolla razılıq verərkən dövlət(və ya beynəlxalq təşkilat) bəyan edə bilər ki, müqavilənin hər hansı müddəasını qəbul etmək istəmir. Belə bir bəyanat vasitəsilə dövlət həmin müddəanı ya, ümumiyyətlə, qəbul etmir, ya da onun*

məzmununu özü üçün dəyişdirir. Buna beynəlxalq müqavilələr hüququnda qeyd-şərt deyilir.

Müqaviləyə qeyd-şərt irəli sürmək imkanı dövlətin suveren iradəsinin ifadəsidir, belə ki, dövlət müqavilənin bütün mətnini qəbul etdiyi halda, onun hər hansı norması ilə razılaşmaya bilər. Lakin bu sərbəstlik qeyri-məhdud deyil; əgər: 1) qeyd-şərt müqavilənin obyekti və məqsədi ilə bir araya sığmırsa; 2) müqavilə qeyd-şərtlərin edilməsini, ümumiyyətlə, qadağan edirsə (məsələn, Dəniz hüququ üzrə 1982-ci il Konvensiyası; Köləliyin, kölə alverinin və köləliyə oxşar olan institut və adətlərin ləğv edilməsi haqqında 1956-cı il Əlavə Konvensiyası və s.) və 3) məhz belə bir qeyd-şərtin edilməsi konkret müqavilədə yol verilmirsə.

Qeyd-şərt yazılı formada olmalı və müqavilənın iştirakçısı olan bütün digər dövlətlərin diqqətinə çatdırılmalıdır.

Qeyd-şərt ilə razı olmayan dövlət müqavilədə göstərilmiş müddətdən gec olmayaraq buna yazılı formada etiraz edə bilər. Lakin belə bir etirazın edilməsi bu dövlətlə qeyd-şərti etmiş dövlət arasında müqavilənin qüvvəyə minməsinə maneə yaratmır. Bu iki dövlət arasında yalnız qeyd-şərtin aid olduğu müddəa qüvvəyə minmir. Bununla belə, qeyd-şərtə etiraz edən dövlət bəyan edə bilər ki,müqavilə bütövlükdə iki müvafiq dövlətin arasında qüvvəyə minməyəcəkdir.

Qeyd-şərt və etirazlar istənilən vaxt, yazılı formada bildirilməklə,geri götürülə bilər.

Müqaviləni imzalayarkən, ratifikasiya edərkən və s. dövlətlər bəzən bu və ya digər müddəanın necə başa düşülməsi və ya onun əhəmiyyəti ilə bağlı *bəyanatlar* verirlər; bunlar qeyd-şərtlərdən fərqləndirilməlidir. Belə ki, bu cür bəyanaylar müqavilənin hər hansı müddəasını dəyişdirmir və ya onu aradan götürmür.

9. Beynəlxalq müqavilənin qeydə alınması və dərc edilməsi.BMT Nizamnaməsinin 102-ci maddəsinə görə, BMT üzvləri tərəfindən bağlanmış hər bir beynəlxalq müqavilə BMT-nin Katibliyində qeydə alınmalıdır. Qeydə alınma müqavilənin hüquqi qüvvəsinə təsir etmir; sadəcə olaraq, bu cür qeydə alınmamış müqavilələrə dövlətlər BMT-nin orqanlarında istinad edə bilməzlər.

Qeyd alınmış beynəlxalq müqavilələri Katiblik “Treaty Series” adlı topluda dərc edir

Bəzi dövlətlərdə iştirakçıları olduqları beynəlxalq müqavilələrin dərc olunması qaydası qanunvericilikdə müəyyən olunur.

10. Beynəlxalq müqavilənin qüvvədə olması. Yalnız qüvvəyə minmiş beynəlxalq müqavilə tərəflər üçün məcburi sayılır. Müqavilənin qüvvəyə mindiyi an, adətən, müqavilənin özündə göstərilir. Burada bir sıra qaydalar mövcuddur. Belə ki, ratifikasiya və ya təsdiq edilməli olmayan müqavilə aşağıdakı müddətdə qüvvəyə minir: a) imzalandığı andan etibarən; b) imzalandığı andan müəyyən müddət keçdikdən sonra və ya c) müqavilədə dəqiq göstərilmiş andan etibarən.

Ratifikasiya və ya təsdiq edilməli olan müqavilələrin isə qüvvəyə minməsi qaydası aşağıdakı kimidir:

1 – ikitərəfli müqavilələr: a) ratifikasiya sənədlərinin dəyişdirildiyi gündən və ya b) ratifikasiya sənədlərinin dəyişdirildiyi gündən müəyyən müddət keçdikdən sonra;

2 – çoxtərəfli müqavilələr: a) depozitariyə müəyyən sayda ratifikasiya sənədləri verildiyi gündən və ya b) depozitariyə müəyyən sayda ratifikasiya sənədləri verildiyi gündən müəyyən müddət keçdikdən sonra.

Müqavilənin qüvvədə olması müəyyən müddət üçün (məsələn, 5 il, 10 il və s.) və ya

müddətsiz nəzərdə tutula bilər. Müəyyən müddətə bağlanılan müqavilə həmin müddət bitdikdən sonra müqavilənin özündə göstərilən şərtlərlə (məsələn,tərəflərdən biri bu müddət bitən ərəfədə müqavilədən çıxmaq haqqında öz istəyini bildirməyibsə) və ya tərəflrin xüsusi razılığı ilə uzadıla bilər; buna *prolonqasiya* deyilir.

Müqavilə müəyyən məkanda qüvvədə olur. Əgər müqavilənin özündə başqa hal nəzərdə tutulmayıbsa, o, müvafiq dövlətin ərazisində qüvvədə olur.

11. Beynəlxalq müqavilənin təvsiri.***Müqavilənin təvsiri onun müddəalarının mənasının aydınlaşdırılması və ya izah edilməsi deməkdir.***

Beynəlxalq müqavilənin təvsiri bir sıra prinsiplərə söykənir. Müqavilə hər şeydən əvvəl, vicdanla təvsir edilməlidir. Müqavilədə istifadə olunan terminlər adi mənasında və habelə müqavilənin obyekti və məqsədləri kontekstində başa düşülməlidir. Hər hansı terminə yalnız o zaman xüsusi məna verilə bilər ki, müqavilənin tərəflərinin məhz belə niyyəti olsun. Müqavilə, onun preambulası, əlavələri və ona aid olan istənilən sazişlə birgə, həmin müqavilənin tətbiqi praktikası nəzərə alınmaqla,təfsir edilməlidir. Əgər müqavilə hər biri autenik olan iki və ya daha artıq dildə tərtib olunmuşsa, bu halda hər bir dildəki mətn bərabər qüvvəyə malik olur. Lakin onların müqayisəsi zamanı müxtəliflik ortaya çıxırsa, onda bu mətnləri daha çox uzlaşdıran mənaya üstünlük verir.

Təfsirin subyektlərinə görə üç növü vardır:

1) müqavilənin ayrı-ayrı iştirakçıları tərəfindən edilən təfsir. Bu, birtərəfli aktdır və təbii ki, müqavilənin digər iştirakçıları üçün məcburi xarakter daşımır.

2) autentik təfsir – müqavilənin iştirakçıları tərəfindən razilaşdırılmış təfsir. Nota mübadiləsi, protokol və s. formada həyata keçirilən bu təfsir məcburi xarakter daşıyır.

3) beynəlxalq təfsir – beynəlxalq orqanlar tərəfindən həyata keçirilən təfsir. Bəzi müqavilələrdə (məsələn, Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası), onların təfsiri ilə bağlı mübahisələrolarkən, tərəflərin BMT-nin Beynəlxalq Məhkəməsinə və ya digər müvafiq orqana müraciət etməli olması nəzərdə tutulmuşdur. Bu orqanların verdikləri təfsirmübahisənin tərəfləri üçün məcburi xarakter daşıyır.

Təfsirin bir neçə üsulu vardır:

1) qrammatik təfsir;

2) məntiqi təfsir;

3) sistematik təfsir;

4) tarixi təfsir;

5) teleoloji təfsir;

6) dinamik və ya evolyutiv təfsir.

12. Beynəlxalq müqavilələrin etibarlılığı.*Beynəlxalq müqavilələrin etibarlılığı onun məzmununun və bağlanması qaydasının beynəlxalq hüquq normalarına uyğun olması deməkdir.*

Yalnız etibarlı müqavilələr hüquqi nəticələr doğurur və tərəflər üçün qanuni hüquq və öhdəliklər yaradır. Beləliklə, beynəlxalq müqavilənin formal qüvvədə olması hələ onun etibarlı olması demək deyil. Doğrudur, qüvvəyə minmiş hər bir beynəlxalq müqavilənin etibarlı olması güman edilir, yəni müqavilənin hüquqi cəhətdən etibarsız olması hər bir halda müəyyən olunmalıdır. Başqa sözlə, beynəlxalq hüquqda müqavilənin etibarlılığı *prezumpsiyası* mövcuddur.

Beynəlxalq müqavilənin etibarsızlığı *mütləq* və *nisbi* ola bilər.

Mütləq etibarsızlıq müqavilənin, tərəflərin iradəsindən asılı olmayaraq, yəni onlar bu müqaviləni hüquqauyğun hesab edib-etməməsindən asılı olmayaraq, *bağlandığı andan* (ab initio) tamamilə etibarsız olması deməkdir. Müqavilə aşağıdakı əsaslarla mütləq etibarsızdır: 1) əgər müqavilə jus cogens normasına ziddirsə; 2) müqavilə güclə hədələmə və ya güc tətbiqi vasitəsilə bağlanmışsa; 3) müqavilə dövlət nümayəndəsinə qarşı məcburiyyət tətbiq etməklə bağlanmışsa.

Nisbi etibarsızlıq müqavilənin, yalnız tərəfindən birinin onun hüquqauyğunluğunu şübhə altına alması ilə ortaya çıxır. Nisbi etibarsızlığın əsasları bunlardır: 1) dövlətdaxili qanunvericiliyin, beynəlxalq müqavilə bağlamaq səlahiyyətini müəyyən edən xüsusi əhəmiyyətli normasının açıq şəkildə pozulması; 2) müqavilənin bağlaması mövcud olmuş və müqavilənin məcburiliyinə razılıq verməsinin əsasını təşkil etmiş fakt və ya situasia ilə bağlı səfin olması; 3) dövlət nümayəndəsinin qeyri-qanuni yolla ələ alınması; 4) dövlətin danışıqlarda iştirak edən digər dövlət tərəfindən aldadılması.

Etibarsız müqavilənin əsas *nəticələri* ondan ibarətdir ki, o, öz hüquqi qüvvəsini itirmiş olur. Bu cür müqaviləyə pacta sunt servanda prinsipi şamil olunmur və o, birtərəfli qaydada ləğv edilə bilər. Belə müqavilənin əsasında artıq hansısa hərəkətlər törədilmişsə, bu zaman hər bir tərəf, bu hərəkətlərin törədilməsindən qabaq mövcud olmuş vəziyyətin (status quo antenin) mümkün olan dərəcədə bərpa edilməsini tələb edə bilər.

13. Beynəlxalq müqavilənin xitam olunması. Beynəlxalq müqavilənin xitam olunması onun tərəflər üçün öz məcburi qüvvəsini itirməsi deməkdir. Müqvilə aşağıdakı əsaslarla xitam oluna bilər:

1) müqavilənin bağlandığı müddətin başa çatması.

Müddətli müqavilə, əgər hər hansı bir yolla prolonqasiya edilməmişsə, o, göstərilən müddət bitdikdən sonra xitam olunmuş sayılır.

2) müqavilə öhdəliklərinin icra olunması.

Tərəflərin müqavilədə nəzərdə tutulmuş öz öhdəliklərini tam icra etməsi ilə, əgər müqavildə bu, xsusi olaraq göstərilibsə, həmin müqavilə xitam olunmuş sayılır.

3) müqavilənin bütün iştirakçılarının razılığı ilə.

Betnəlxalq müqavilə onun iştirakçılarının ümumi razılığı ilə istənilən vaxt ləğv edilə bilər.

Məsələn, Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1955-ci il Varşava Müqaviləsinin iştirakçısı olan dövlətlər 199-ci il iyulun 1-də bu Müqavilənin xitam olunması barədə protokol imzalamışdılar.

4) eyni məsələ üzrə və eyni dövlətlər arasında yeni müqavilənin bağlanması.

Lex posteriori derogat legi priori prinsipinə görə, bu halda əvvəlki müqavilə öz hüquqi əhəmiyyətini itirmiş olacaqdır.

5) denonsasiya.

Denonsasiya dövlətin, müqavilədə göstərilən şərtlərlə, digər iştirakçı dövlətləri qabaqcadan xəbərdar etməklə, müqavilədən imtina etməsi deməkdir. Deməli, müqavilənin özündə əgər belə imkan nəzərdə tutulmayıbsa, o, denonsasiya oluna bilməz.

Müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyalarında belə bir müddəa nəzərdə tutulmuşdur ki, bu Konvensiyaların müharibə zamanı, sülh bağlanana qədər denonsasiyasına yol verilmir.

6) müqavilənin birtərəfli qaydada ləğv edilməsi.

Bu halda dövlət iştirakçısı olduğu beynəlxalq müqavilədən, ciddi əsas gətirməklə,

birtərəfli qaydada imtina edir. Müqavilədən birtərəfli imtinaya, ümumiyyətlə, yol verilmir. Beynəlxalq hüquq bunu yalnız üç halda mümkün hesab edir.

1) müqavilənin digər iştirakçı dövlət tərəfindən əsaslı pozulması. Lakin bu əsas insan hüquqları haqqında beynəlxalq müqavilələrin birtərəfli qaydada xitam olunması və bu müqavilələrin qüvvəsinin müvəqqəti dayandırılması üçün istifadə oluna bilməz.

2) müqavilənin bağlandığı vaxt mövcud olmuş halların əsaslı surətdə dəyişməsi (rebus sic stantibus prinsipi). Lakin buna o zaman istinad etmək olar ki, belə halların mövcud olması vaxtilə müqavilənin məcburiliyinə razılıq verilməsinin əsasını təşkil etmişdi və vəziyyətin belə dəyişməsi hələ yerinə yetirilməli olan müqavilə öhdəliklərinin həcmini köklü surətdə dəyişir. Qeyd edək ki, rebus sic stantibus prinsipi dövlət sərhədini müəyyən edən müqavilələrə şamil edilmir. Bu prinsip habelə o zaman tətbiq olunur ki, vəziyyətin əsaslı surətdə dəyişməsi göstərilən prinsipə istinad edən dövlətin öz beynəlxalq öhdəliklərini pozması nəticəsində baş vermişdir.

3) müqavilənin yerinə yetirilməsinin qeyri-mümkünlüyü.

Bu, əsasən, müqavilənin obyektinin məhv olduğu və ya yoxa çıxdığı zaman (məsələn, adanın suya batması, çayın quruması və s.) baş verir.

Mövzu 9: BEYNƏLXALQ TƏŞKİLATLAR HÜQUQU

Plan:

1. Beynəlxalq təşkilatlar hüququnun anlayışı və mənbələri

2.Beynəlxalq təşkilatın hüquqi təbiəti

3. Beynəlxalq təşkilatların fuksiyaları

4. Beynəlxalq təşkilatda üzvlük

5. Beynəlxalq təşkilatların sanksiyaları

6. Beynəlxalq təşkilatların təşkilati strukturu

7. Birləşmiş Millətlər Təşkilatı (BMT)

8. BMT-nin ixtisaslaşdırılmış təsisatları

9. Regional təşkilatlar

Ədəbiyyat siyahısı.

Зайцева О. Г. *Международные организации: принятие решений*. М. , 1989.

Костенко М. Л. , Лавренова Н.В. ЕС после Маастрихта: федерация, конфедерация или международная организация? // *Государство и право* . 1994. №4

Кривчикова Э.С. *Основы теории права международных организаций*. М., 1979.

Крылов Н.Б. *Принципы участия государств в системе ООН*. М., 1986.

Крылов Н.Б. *Правотворческая деятельность международных организаций*. М., 1988.

Маргиев В.И. *Внутреннее право международных организаций.* Владикавказ, 1995.

Международные организации. Под ред. И.П. Блищенко. М., 1994

Международные организации системы ООН. Отв. ред. В.Ф. Петровский . М., 1990.

Моравецкий В. *Функции международной организации*. М., 1976

Нешатаева Т.Н. *Международные организации и право. Новые тенденции в международно-правовом регулировании*. М., 1998.

Правила процедуры многосторонней дипломатии. Сб. документов. М., 1986

Толстухин А.Э. О национальном характере Европейского Союза //*Московский журнал международного права.* 1997. №4.

Топорнин Б.Н. *Европейское право*. М., 1988.

Шибаева Е.А. *Право международных организаций: Вопросы теории.* М., 1986

Шибаева Е.А. Поточный М. *Правовыевопросы структуры и деятельности международных организаций.* М., 1988.

Шреплер Х.А. *Международные организации. Спра вочник.* М., 1995.

Basic Facts About the United Nations. N.Y., 1995.

Bowett D.W. *The Law of International Institutions.* 4th ed. London, 1982.

Osmanczyk F. *The Encyclopedia of the United Nations and International Agreements*. London, 1985.

Simma B.(ed.) *The Charter of the United Nations: A Commentary.* Oxford. 1995.

1. Beynəlxalq təşkilatlar hüququnun anlayışı və mənbələri.

Beynəlxalq təşkilatlar hüququ – dövlətlərarası (hökumətlərarası) təşkilatların statusunu, strukturunu, onların orqanlarının səlahiyyətlarini və fəaliyyət qaydasını nizama salan normalrın məcmusuna deyilir.

Dövlətlərarası əməkdaşlığın ən mühüm təşkilatı formalarnıdan biri kimi beynəlxalq təşkilatlar XIX əsrin ikinci yarısında meydana gəlməyə başlamışdır. İlk beynəlxalq təşkilatlar aşağıdakılar idi: 1) Torpağın ölçülməsi üzrə Beynəlxalq ittifaq (1864); 2) Beynəlxalq teleqraf ittifaqı (1874); 3) Ümumdünya poçt ittifaqı (1874); 4) Beynəlxalq ölçü və çəki komitəsi (1875); 5) Sənaye mülkiyyətinin mühafizəsi üzrə Beynəlxalq ittifaq (1883); 6) Ədəbi və bədii mülkiyyətin mühafizəsi üzrə Beynəlxalq ittifaq (1886); 7) Gömrük tariflərinin nəşri üzrə

Beynəlxalq ittifaq (1890); 8) Kölelik əleyhinə Beynəlxalq ittifaq (1890); 9) Dəmiryol mal daşımaları üzrə Beynəlxalq ittifaq (1890).

Hal-hazırda 300-dən artıq beynəlxalq hökumətlərarası təşkilat mövcuddur. Geniş mənada beynəlxalq təşkilatların (qeyryi-hökumət təşkilatları da daxil olmaqla) sayı isə 4 mindən də artıqdır.

Beynəlxalq təklilatlar hüququ sahəsində vahid məcəllələşdirilmiş akt toxdur. Ona görə də beynəlxalq təklilatların statusu, təşkili və fəaliyyəti ilə bağlı normaları müxtəlif xarakterli beynəlxalq müqavilələrdə tapmaq olar:

1) Beynəlxalq təklilatlarin təsis aktları (nizamnamələri).

Hər bir beynəlxalq təklilat təsisçi dövlətlərin işləyib hazırladığı və qəbul etdiyi beynəlxalq müqavilə (nizamnamə) əsasında yaradır və fəaliyyət göstərir. Nizamnamədə müvafiq beynəlxalq təklilatın məqsəd və vəzifələri, strukturu, onun orqanlarının səlahiyyətləri və fəaliyyət qaydası təsbit olunur, təşkilata üzvlük, təşkilatdan çıxarılma, inzibati və büdcə məsələləri və s. öz həllini tapır.

2) Beynəlxalq təklilatların statusu ilə bağlı ayrı-ayrı məsələləri nizama salan aşağıdakı universal sazişlər: *Dövlətlərin universal xarakterli beynəlxalq tışkilatlarla münasibətlərində nümayəndəlikləri haqqında 1975-ci il Vyana Konvensiyası və Dövlətlər ilə beynəlxalq tışkilatlar arasında və beynəlxalq tışkilatlar arasında müqavilələr hüququ haqqında 1986-ci il Vyana Konvensiyası.*

3) Beynəlxalq təklilatların, onların mənzil-qərargahlarının yerləşdiyi dövlətlərlə bağladığı müqavilələr (məsələn, *Birləşmiş Millətlər təşkilatı və ABŞ Hökuməti arasında 26 iyun 1947-ci il tarixli Saziş*).

2. Beynəlxalq təşkilatın hüquqi təbiəti. Yuxarıda qeyd etmişdik ki, beynəlxalq tışkilatlar beynəlxalq hüququn törəmə subyektidir; onların beynəlxalq-hüquqi subyektliyi fuksional xarakter daşıyır. Beynəlxalq təklilatların aşağıdakı əlamətləri vardır:

a) müqavilə əsasında yaradılır;

b) müvafiq təşkilati struktura malikdir;

c) müəyyən məqsəd və vəzifələri vardır;

ç) beynəlxalq hüquq və öhdəliklərə malikdir;

Beləliklə, ***beynəlxalq təşkilat – müəyyən məqsədləri həyata keçirmək üçün beynəlxalq müqavilə əsasında yaradılmış, daimi fəaliyyət göstərən, müvafiq orqanlar sisteminə malik olan, üzv-dövlətlərin hüquq və öhdəliklərindən fərqli hüquq və vəzifələrə malik olan dövlətlər birliyinə deyilir.***

Beynəlxalq təklilatların aşağıdakı növləri vardır:

I – üzv-dövlətlərin əhatə dairəsinə görə:

1) universal təşkilatlar (Birlaşmiş Millətlər Təşkilatı, Beynəlxalq əmək təşkilatı, YUNESKO və b.).

2) regional təşkilatlar (Avropa Şurası, İslam konfransı təşkilatı, Amirika dövlətləri təşkilatı və b.).

II – malik olduqları səlahiyyətlərin həcminə və xarakterinə görə:

1) ümumi səlahiyyətə malik təşkilatlar (Birlaşmiş Millətlər Təşkilatı, ATƏT, Amirika dövlətləri təşkilatı və b.).

2) xüsusi səlahiyyətə malik təşkilatlar (Ümumdünya ticarət təşkilatı, Beynəlxalq əmək təşkilatı, Ümumdünya səhiyyə təşkilatı və b.).

III – təşkilata daxil olma qaydasına görə:

1) açıq təşkilatlar (istənilən dövlət onların üzvü ola bilər)

2) qapalı təşkilatlar (bu təşkilatın üzvlüyünə qəbul təsisçi dövlətlərin dəvəti ilə həyata keçirilir; məsələn, NATO).

3. Beynəlxalq təşkilatların fuksiyaları. Beynəlxalq təşkilatlar,bir qayda olaraq, aşağıdakı fuksiyaları həyata keçirir:

1) normayaratma funksiyası:

- beynəlxalq hüquq normalarının yaradılmasında bilavəsitə iştirak edir;
- dövlətlərin normayaratma prosesində iştirak edir.

2) *məcəllələşdirmə funksiyası* (bax, o cümlədən: BMT Nizamnaməsinin 13-cü maddəsi).

3) informasiya funksiyası:

- təşkilatın fəaliyyətinin məqsədlərinə və əsas istiqamətlərinə aid sənədlərin nəşrini

təşkil edir:

- aktual beynəlxalq məsələlərə dair xüsusi materiallar (məruzələr, icmalar, referatlar) nəşr edir.

4) nəzarət funksiyası:

müvafiq beynəlxalq hüquq normalarının dövlətlər tərəfindən yerinə yetirilməsinə -

bəzi hallarda bu məqsədlə yaradılmış xüsusi orqanlar vasitəsilə - nəzarət edir.

5) operativ fuksiyalar (öz sərəncamında olan insan və maddi resusların köməyi ilə müəyyən vəzifələri özü həyata keçirir: məsələn, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üzrə BMT əməliyyatları; BMT və ixtisaslaşdırılmış təsisatlar tərəfindən inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərilməsi; kommersiya-istismar fəaliyyəti, maliyyə əməliyyatları və s.).

Hər bir beynəlxalq təşkilat öz təşkilatdaxili münasibətlərini, yəni təşkilatla heyət arasındakı və təşkilatın orqanları arasındakı münasıbətləri nizama salmaq məqsədilə müəyyən hüquqi normalar qəbul edir. Bu normaların məcmusuna ***beynəlxalq təşkilatın daxili hüququ*** deyil.

4. Beynəlxalq təşkilatda üzvlük. Beynəlxalq təşkilatın üzvləri iki cür olur:

1. *İlkin üzvlər* (beynəlxalq təşkilatın yaradılmasında əvvəldən iştirak etmiş və ya

onun təsis aktını imzalamış dövlətlər)

2. *Qoşulmuş dövlətlər.* BMT-nin ixtisaslaşdırılmış təsisatlarında iki kateqoriya fərqləndirilir:

1) BMT üzvü olan dövlətlər: bu dövlətlər üçün müvafiq təşkilatın nizamnaməsinə qoşulmağın sadələşdirilmiş qaydası nəzərdə tutulmuşdur;

2) BMT üzvü olmayan dövlətlər; onlar üçün daha sərt üzv olma qaydaları müəyyən edilmişdir.

Hər hansı dövlətin BMT üzvlüyünə qəbul edilməsi BMT Nizamnaməsinin 4-cü maddəsinin 1-ci bəndinə əsasn həyata keçirilir. Həmin maddəyə görə, "Təşkilatın üzvlüyünə qəbul nu Nizamnamədə göstərilmiş öhdəlikləri öz üzərinə götürməyə hazır olan bütün sülhsevər dövlətlər üçün açıqdır". 4-cü maddəsinin 2-ci bəndinə görə, BMT üzvlüyünə qəbul Təhlükəsizlik Şurasının təqdimatına əsasən Baş

Assambleyanın qərarı ilə həyata keçirilir (bax, habelə: BMT Beynəlxalq Məhkəməsinin 3 mart 1950-ci il tarixli məsləhət xarakterli rəyi).

Bundan əlavə, bir sıra beynəlxalq təşkilatlarda *daimi müşahidəçi missiyası* mövcuddur. Dövlətin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərdə nümayəndəlikləri haqqında 1957-ci il Vyana Konvensiyasının 5-ci maddəsinə görə, daimi müşahidəçi missiyası aşağıdakı funksiyaları həyata keçirir: a) Təşkilatla əlaqədar saxlanması; b) Təşkilatın fəaliyyətinin bilavasitə öyrənilməsi və bu barədə göndərən dövlətin hökumətinə xəbər verilməsi; c) Təşkilatla əməkdaşlığa və onunla danışıqlar aparılmasına kömək göstərilməsi.

Beynəlxalq təşkilatda üzvlüyə iki üsulla xitam verilir: *1) təşkilatdan çıxma* (yazılı ərizə əsasında; çıxmadan qabaq maliyyə öhdəlikləri yerinə yetirilməlidir). Ərizənin qüvvəyə minməsi üçün müəyyn müddət nəzərdə tutulur.

2) təşkilatdan xaric etmə. Bu, təşkilatın nizamnamə müddəalarını kobud və ya sistematik qaydada pozan dövlətlərə qarşı sanksiya kimi tətbiq oluna bilər (məsələn, BMT Nizamnaməsinin 6-cı maddəsində deyilir: "Bu Nizamnamədə göstərilmiş prinsipləri sistematik qaydada pozan Təşkilat üzvü, Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Assambleya tərəfindən Təşkilatdan xaric edilə bilər" (misallar: OAPEK-dən (Neft ixrac edən ərəb ölkələri Təşkilatı)) Misirin 1979-cu ildə çıxarılması; Ümumdünya Poçt İttifaqından Cənubi Afrika Respublikasının 1979-cu ildə çıxarılması).

Beynəlxalq təşkilatda üzvlük aşağıdakı hallarda *müvəqqəti dayandırıla bilər*:

1) sanksiya kimi (əsasən, maliyyə öhdəliklərini pozmağa görə tətbiq edilir. Məsələn, 1968-ci ildə Haiti və Dominikan Respublikasının BMT-də üzvlüyü dayandırılmışdı);

2) üzv olan dövlətin iradəsi ilə (məsələn, İndoneziya 1964-1966-cı illərdə BMT ilə faktik əməkdaşlığı kəsmişdi).

5. Beynəlxalq təşkilatların sanksiyaları. Beynəlxalq təşkilatlar üzv-dövlətlərə qarşı müəyyən sanksiyalar tətbiq edə bilər:

I. *Maddi normaların pozulmasına görə:*

(Məsələn, təşkilatın nizamnaməsində təsbit olunmuş məqsəd və prinsiplərin pozulması; aralarında əməkdaşlıq haqqında saziş olan başqa bir təşkilata qarşı olan istınilən öhdəliklərin (məsələn, maliyyə öhdəliklərinin) pozulması və s.):

a) Təşkilata üzvlükdən irəli gələn hüquq və imtiyazların (səsvermə hüququ, texniki yardım almaq hüququ və s.) dayandırılması;

b) BMT-nin ixtisaslaşdırılmış təsisatlarının orqanlarının işində iştirakdan kənar etmə.

II. *prosesual normaların pozulmasına görə:*

(Məsələn: dövlətin, Təşkilatlardakı nümayəndəsinin səlahiyyətlərini rəsmləşdirməməsi, Təşkilatın iclaslarının aparılması qaydasına, səsvermə qaydasına riayət etməməsi və s.):

a) səsvermə hüququndan və sessiya və ya iclasın yekun aktını imzalamamaq hüququndan məhrum etmə;

b) Təşkilatın orqanının işində iştirak etməkdən kənar etmə;

c) dövlətin nümayəndəsinin çıxış müddətinin məhdudlaşdırılması və ya çixiş hüququndan məhrum edilməsi;

ç) səsvermənin nəticələrinin etibarsız hesab olunması.

6. Beynəlxalq təşkilatların təşkilati strukturu. Bir qayda olaraq, beynəlxalq təşkilat aşağıdakı orqanlardan ibarət olur:

1) ali orqan;

2) icra orqanı;

3) inzibati orqan (beynəlxalq təşkilatların katibliyi);

4) xüsusi komitə və komissiyalar.

Ali orqan (məsələn, Konqres (Ümumdünya Poçt İttifaqı); Assambleya (İKAO, İMO,

Ümumdünya Səhiyyə Təşkilatı); Baş Konfrans (YUNESKO, Beynəlxalq Əməkdaşlıq Təşkilatı) və s.) üzv olan bütün dövlətləri əhatə edir. O, adətən, aşağıdakı səlahiyyətləri hətata keçirir: a) Təşkilata yeni üzvlərin qəbul edilməsi; b) Təşkilatın baş vəzifəli şəxinin seçilməsi; c) icra orqanı üzvlərinin seçilməsi; ç)

büdcənin müəyyən edilməsi; ğ) Təşkilatın fəaliyyəti barədə hesabatların dinlənilməsi; d) Təşkilatın fəaliyyəti ilə bağlı bütün məsələlərin müzakirəsi.

Icra orqanı (məsələn, Şura (Beynəlxalq Mülki Aviasiya Təşkilatı İKAO), Beynlxalq Dəniz Təşkilatı (İMO), Ərzaq və Kənd təsərrüfatı Təşkilatı(FAO)); İcra Şurası (Ümumdünya Poçt İttifaqı), İnzibati Şura (Beynəlxalq Elektron Rabitəsi İttifaqı və s.) ali orqanın sessiyaları arasındakı müddətdə Təşkilatın fəaliyyətinə rəhbərlik edir. O, ali orqan tərəfindən, üzv olan dövlətlərin sırasından seçilir. İcra orqanının əsas fuksiyaları aşağıdakılardır: a) Təşkilatın səmərəli fəaliyyətinin təmin edilməsi; b) üzv olan dövlətlərlə və digər beynəlxalq təşkilatlarla əlaqənin həyata keçirilməsi; c) Təşkilatın müdcəsinin tərtib olunması; ç) ali orqanın iclaslarının gündəliyinin hazırlanması; d) heyətlə bağlı məsələlərə baılması.

Icra orqanlarında dövlətlərin təmsil olunması müəyyən prinsiplərə (meyarlara) söykənir:

1) ədalətli coğrafi təmsil olunma prinsipi (BMT Təhlükəsizlik Şurası, Ümumdünya Meteorologiya Təşkilatı);

2) xüsusi maraqlar prinsipi (İMO);

3) üst-üstə düşməyən maraqları olan dövlətlər qrupunun bərabər təmsilolunma prinsipi (dənizin dibi üzrə Orqanın Şurası);

4) daha çox maliyyə töhvəsi prinsipi (Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Bərpa və İnkişaf Bankı, İNMARISAT və s.).

İnzibati orqan (beynəlxalq təşkiatın *katibliyi*) bu cür funksiyalar həyata keçirir: a) Təşkilatın orqanları tərəfindən qəbul edilmiş sənədlərin dərc edilməsi; b) Təşkilatın fəaliyyəti barədə hesabatların trtib edilməsi; c) Təşkilatın fəaliyyətinə aid olan bütün məsələlər üzrə məlumat toplanması; ç) büdcənin layihəsinin hazırlanması və s.

Inzibati orqana, bir qayda olaraq, aşağıdakı əməkdaşlar daxildir:

a) ali inzibati vəzifəli şəxslər; baş katib və onun müavinləri;

b) mütəxəssislər;

c) xidməti heyət.

Xüsusi komitə və komissiyalar təşkilatın fəaliyyəti ilə bağlı bu və ya digər konkret

məsələni həll etmək üçün daimi və ya müvəqqəti əsasda yaradılır və köməkçi orqan kimi çıxış edir (məsələn, BMT-də; Tərksilah üzrə Komissiya, Təbii ehtiyatlar üzrə Komitə, Kosmik fəzadan dinc məqsədlərlə istifadə üzrə Komitə; İKAO-da Avronaviqasiya Komissyası).

7. Birləşmiş Millətlər Təşkilatı (BMT). BMT bütün dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanması və dövlətlər arasında əməkdaşlığınınkişaf etdirilməsi məqsədilə yaradılmış universal beynəlxalq təşkilatdır. BMT-nin Nizamnaməsi 1945-ci il iyunun 26-da imzalanmış və 1945-ci il oktyabrında qüvvəyə minmişdir. Birləşmiş Millətlər Təşkilatının özünün xüsusi statusunu, siyasi çəkisini və beynəlxalq həyatdakı rolunu, onun Nizamnaməsinin xüsusi növ (sui generis) beynəlxalq müqavilə olduğunu və hüquqi qüvvəsini (bu barədə bax: Nizamnamənin 103-cü maddəsi) nəzərə alaraq, Nizamnaməni beynəlxalq birliyin *Konstitusiyası* adlandırmaq olar.

Hazırda BMT-nin 191 üzvü vardır.

BMT-nin altı əsas orqanı bunlardır: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq şurası, Beynəlxalq Məhkəmə və Katiblik.

Baş Assambleya BMT-nin nüayəndəli orqanıdır; BMT-nin bütün üzvləri Baş Assambleyada təmsil olunmuşdur. Baş Assambleyanın səlahiyyətinə BMT Nizamnaməsinin tətbiq dairəsində olan istənilən məsələ aiddir. O, sülhün və beyn əlxalq təhlükəsizliyin qorunub saxlanması ilə bağlı dövlətlərin əməkdaşlığının ümumi prinsiplərini, o cümlədən tərksilah məsələlərini nəzərdən keçirə bilər, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə əməkdaşlıq m əsələlərini, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə dəstək verilməsi, beynəlxalq hüququn mütərəqqi inkişafı və onun məcəllələşdirilməsiməsələlərini müzakirə edə bilər və Birləşmiş Millətlərin Üzvlərinə və ya Təhlükəsizlik Şurasına hər hansı bu cür məsələ və ya işlər üzrə tövsiyələr verə bilər.

Baş Assambleya beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına aid olan, Təhlükəsizlik Şurası və ya hər hansı dövlət tərəfindən ona təqdim

olunmuş istənilən məsələni müzakirə edə bilər və müvafiq tövsiyələr verə bilər. Barəsində tədbir görülməli olan hər hansı belə məsələ Baş Assambleya tərəfindən Təhlükəsizlik Şurasına verilir. Təhlükəsizlik Şurası, hər hansı bir mübahisə və ya situasiya ilə bağlı bu Nizamnamənin onun üçün nəzərdə tutduğu funksiyaları yerinə yetirdiyi zaman, Baş Assambleya, əgər Təhlükəsizlik Şurası, ondan bu barədə xahiş etmirsə, həmin mübahisə və ya situasiya ilə bağlı heç bir tövsiyə verə bilməz.

Baş Assambleya BMT-nin büdcəsini nəzərdən keçirir və təsdiq edir. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərini, İqtisadi və Sosial Şuranın üzvlərini seçir, köməkçi orqanlar yaradır. Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Assambleya BMT-yə yeni üzvlərin qəbul edilməsi və üzvlükdən çıxarılması, BMT üzvlərinin zö hüquq və imtiyazlarını həyata keçirməsinin müvəqqəti dayandırılması məsələlərini həll edir, Baş Katibi təyin edir, Təhlükəsizlik Şurası ilə paralel Beynəlxalq Məhkəməsinin üzvlərini seçir.

Baş Assambleya öz müntəzəm illik sessiyalarını və vəziyyət tələb etdikdə, xüsusi sessiyalara yığışır. Müntəzəm sessiyalar hər il sentyabr ayının üçüncü çərşənbə axşamı açılır. Xüsusi sessiyalar Baş Katib tərəfindən Təhlükəsizlik Şurasının və ya BMT üzvlərinin əksər hissəsinin tələbi ilə çağrılır.

Baş Assambleyanın yeddi əsas komitəsi vardır. Birinci komitə (siyasi məsələlər və təhlükəsızlik məsələləri, o cümlədən tərkisilah məsələləri); Xüsusi siyasi komitə (eyni məsələlər); İkinci komitə (iqtisadi və maliyyə məsələləri); Üçüncü komitə (sosial və humanitar məsələlər); Dördüncü komitə (qəyyumluq və özü-özünü idarə etməyən ərazilərin məsələləri); Beşinci komitə (inzibati və büdcə məsələləri); Altıcı komitə (hüquqi məsələlər).

Baş Assambleyanın mühüm məsələlər üzrə qərarı onun sessiyada və səsvermədə iştirak edən üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Bu məsələlərə aşağıdakılar daxildir: beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə əlaqədar tövsiyələr, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərinin seçilməsi, İqtisadi və Sosial Şuranın üzvlərinin seçilməsi, Qəyyumluq Şurası üzvlərinin seçilməsi, Birləşmiş Millətlərə yeni Üzvlərin qəbul olunması, Təşkilat

Üzvlərinin hüquq və imtiyazlarının müvəqqəti dayandırılması, Üzvlərin Təşkilatdan çıxarılması, qəyyumluq sisteminin fəaliyyətinə aid olan məsələlər və büdcə məsələləri.

Digər məsələlər üzrə qərarlar sessiyada və səsvermədə iştirak edən üzv-dövlətlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Təhlükəsizlik Şurası BMT orqanları sistemində xüsusi yer tutur. Büynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında başlıca məsuliyyət məhz onun üzərinə qoyulmuşdur. Bu məqsədlə müəyyən tədbirlər görərkən Təhlükəsizlik Şurası bütün üzv-dövlətlərin adından şıxış edir.

Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. Onlardan beşi *daimi üzvlərdir* – ABŞ, Böyük Britaniya, Rusiya, Fransa və Çin. Qalan on dövlət isə - bunlar *qeyri – daimi üzvlərdir* – Baş Assambleya tərəfindən iki il müddətinə seçilir.

Təhlükəsizlik Şurasının geniş səlahiyyətləri vardır. O, beynəlxalq ixtilafa gətirib çıxara bilən və beynəlxalq mübahisəyə səbəb ola bilən istənilən mübahisəni və ya situasiyanı, həmin mübahisənin və ya situasiyanın davam etməsinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcəyini müəyyən etmək məqsədilə tədqiq edə bilər.

Sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasının müəyyən edilməsi Təhlükəsizlik Şurasının müstəsns səlahiyyətinə aiddir. Belə bir faktı müəyyən etdikdən sonra Təhlükəsizlik Şurası iki cür qərar qəbul edə bilər:

1) silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlər barəsində (41-ci maddə); 2) silahlı tədbirlər barəsində (42-ci maddə). Silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlər iqkisadi münasibətlərin və dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini əhatə edə bilər. Nizamnamənin 42-ci maddəsinə görə, əgər Təhlükəsizlik Şurası hesab etsə ki, 41-ci maddədə nəzərdə tutulmuş tədbirlər kifayət olmaya bilər və ya artıq kifayət olmamışdır, o, hava, dəniz və ya quru qüvvələrinin vsitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər; həmin

tədbirlər Birləşmiş Millətlərin Üzvlərinin hava, dəniz və ya quru qüvvələrinin nümayişlərini, blokadasını və digər əməliyyatlarını əhatə edə bilər.

Bundan əlavə, Təhlükəsizlik Şurasının praktikada geniş həyata keçirdiyi, lakin BMT Nizamnaməsinin özündə birbaşa göstərilməyən daha bir mühüm səlahiyyəti vardır: potensial və ya mövcud münaqişə rayonuna müvafiq dövlətin razılığı ilə sülhməramlı qüvvələrin göndərilməsi *(sülhün bərpa edilməsi və ya qorunub saxlanması üzrə əməliyyatlar).*

Baş Assambleyanın aktlarından fərqli olaraq, Təhlükəsizlik Şurasının qətnamələri məcburi xarakter daşıyır və bütün dövlətlər tərəfindən yerinə yetirilməildir. Təssüf ki, onların xeyli hissəsinə praktikada siyasi mülahizələr ucbatından əməl olunmur. Məsələn, hamımıza yaxşı məlumdur ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurasının çıxardığı dörd qətnamə (822, 853, 874 və 884) indiyə qədər kağız üzərində qalır.

Təhlükəsizlik Şurası elə təşkil olunur ki, fasiləsiz fəaliyyət göstərə bilsin. Təhlükəsizlik Şurasının hər bir üzvü bu məqsədlə Təşkilatın olduğu yerdə hər an təmsil olunmalıdır.

Təhlükəsizlik Şurasının hər bir üzvü bir səsə malikdir. Təhlükəsizlik Şurasının prosedur məsələlər üzrə qərarı doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur. Təhlükəsizlik Şurasının bütün digər məsələlər üzrə qərarları, daimi üzvlərin uyğun gələn səsləri də daxil olmaqla, doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur. Şuranın hər hansı bir daimi üzvü qərarın əleyhinə səs vürərsə, qərar qəbul olunmur. Təhlükəsizlik Şurasının daimi üzvlərinin bu müstəsna hüququ veto hüququ adlanır. Əgər daimi üzvlərdən biri və ya bir neçəsi səsvermə zamanı bitərəf qalırsa və ya səsvermədə iştirak etmirsə, doqquz üzvün lehinə səs verdiyi qərar qəbul olunmuş sayılır.

İqtisadi və Sosial Şura (EKOSOK) BMT-ninvə onun ixtisaslaşdırılmış təsisatlarının iqtisadi və sosial sahələrdə fəaliyyətini əlaqələndirən orqandır. O, Baş Assambleya tərəfindən üç il müddətinə seçilən 54 üzv dövlətdən ibarətdir; bu tərkibin üçdə biri, yəni 18 üzv dövlət hər il yenidən seçilir.

EKOSOK Beynəlxalq iqtisadi və sosial problemləri müzakirə etmək və müvafiq tövsiyələr işləyib hazırlamaq üçün mərkəzi form rolunu oynayır. O, iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və yanaşı sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar aparır və məruzələr edir və ya istənilən belə məsələlərə aid Baş Assambleyaya, Birləşmiş Millətlərin Üzvlərinə və maraqlı ixtisaslaşdırılmış təsisatlara tövsiyələr vürir, Baş Assambleyaya təqdim etmək üçün konvensiya layihələri hazırlayır, beynəlxalq konfranslar çağırır.

EKOSOK-un ən mühüm səlahiyyətlərindən biri BMT-nin ixtisaslaşdırılmış təsisatlarının fəaliyyətini əlaqələndirməkdən biridir. EKOSOK bu təşkilatlarla xüsusi sazişlərə girir, onlarla məsləhətləşmələr aparır və tövsiyələr verir, onlardan müntəzəm məruzələr alır.

EKOSOK iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar təsis edir. Hal-hazırda onun 9 funksional komissiyası vardır: İnsan hüquqlrı üzrə Komissiya, Sosial inkişaf komissiyası, Cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsı üzrə komissiya, Statistika komissiyası, Qadınların vəziyyəti üzrə komissiya və b. Bundan əlavə, köməkçi orqan kimi EKOSOK-un 5 regional komissiyası vardır: Afrika üzrə İqtisadi komissiyası, Asiya və Sakit okean üzrə İqtisadi və sosial komissiya, Avropa iqtisadi komissiyası, Latın Amerikası və Karib hövzəsi üzrə İqtisadi komissiya və Qərbi Asiya üzrə İqtisadi və sosial komissiya.

EKOSOK öz səlahiyyətləri çərçivəsində olan məsələlərlə məşğul olan qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparır.

EKOSOK BMT-nin hər hansı bir Üzvünü, həmin dövlət üçün xüsusi maraq kəsb edən istənilən məsələnin müzakirəsində, səsvermə hüquqi olmadan, iştirak etməyə dəvət edir. EKOSOK-un hər bir üzvü bir səsə malikdir. Onun qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

Qəyyum Şurası BMT Nizamnaməsində formal olaraq qalsa da, artıq fəaliyyət göstərmir. O, beynəlxalq qəyyumluq sisteminə daxil olan ərazilərin siyasi, iqtisadi və sosial tərəqqisinə, onların özünüidarəyə və müstəqilliyə doğru inkişafına dəstək vermək üçün yaradılmışdı. Şuranın fəaliyyəti dövründə 11 qəyyumluq altında olan

ərazinin hamısı müstəqillik qazanmışdır (Qana, Somali, Kamerun, Toqo, Ruanda, Burundi, Tanzaniya, Samoa, Nauru, Papua-Yeni Qvinea və Palua). 1994-cü ildə axırıncı belə ərazi kimi Paluanın BMT-yə üzv qəbul edilməsi və Qəyyumluq haqqında Sazişin qüvvədə olma müddətinin bitməsi ilə Qəyyumluq Şurası öz vəzifəsini tam yerinə yetirmişdir. Həmin il qəbul olunmuş qərara görə, Qəyyumluq Şurası gələcəkdə yalnız vəziyyət tələb etdikdə, yığışa bilər. Hal- hazırda Qəyyumluq Şurasının tamamilə ləğv olunması və onun əvəzinə ya insan hüquqları ya da ətraf mühitin mühafizəsi üzrə Şura yaradılması təklifləri geniş müzakirə olunur.

Beynəlxalq Məhkəmə Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanıdır. O, BMT Nizamnaməsinə əlavə olunan və onun ayrılmaz tərkib hissəsini təşkil edən Statuta uyğun olaraq f əaliyyət göstərir. Beynəlxalq Məhkəmə dövlətlər arasındakı mübahisələri həll edir və hüquqi məsələlər üzrə məsləhət xarakterli rəylər çıxarır. Hər bir dövlət, tərəf kimi çıxış etdiyi işdə Beynəlxalq Məhkəmənin qərarına əməl etməlidir.

BMT-nin bütün Üzvləri ipso facto Beynəlxalq Məhkəmənin Statutunun iştirakçılarıdır. BMT Üzvü olmayan dövlət, Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən müəyyən olunan şərtlərlə, Beynəlxalq Məhkəmənin Statutunun iştirakçısı ola bilər.

Beynəlalq Məhkəməyə 15 hakim daxildir; onlar Baş Assambleya və Təhlükəsizlik Şurası tərəfindən seçilir. Məhkəmənin yerləşdiyi yer Niderlandın Haaqa şəhəridir.

BMT Katibliyinin başlıca vəzifəsi bütün Təşkilatın normal fəaliyyətini təmin etməkdən ibarətdir.

Katiblik Baş Katibdən və Təşkilat üçün tələb olunan ştatdan ibarətdir (Nizamnamənin 97-ci maddəsi). Baş Katib tərəfindən Baş Assambleyanın müəyyən etdiyi qaydalarla əsasən tıyin olunan Katibliyn işçiləri (hal-hazırda onların sayı 9 minə qədərdir) beynəlxalq vəzifəli şəxslər hesab olunur. Katibliyn əmkdaşlarını işə qəbul edərkən əsas tələblər kimi onların yüksək iş qabiliyyəti səviyyəsi, səlahiyyətliliyi və təmizliyi ön plana çəkilir. Heyətin mümkün qədər

geniş coğrafi əsasda seçilməsinin vacibliyinə lazımi diqqət yetirilməlidir. Öz vəzifələrini icra edərkən Baş Katib və Katibliyn əmkdaşları hər hansı hökumətdən və ya BMT üçün kənar olan hər hansı digər orqandan göstəriş istəyə və ya ala bilməzlər. BMT-nin hər bir Üzvü Baş Katib və Katiblik əmkdaşlarının vəzifələrini sırf beynəlxalq xaraketrinə hörmət etməli və onlara öz vəzifələrini yerinə yetirərkən heç bir təsir göstərməməlidir.

BMT-nin Baş Katibi Təşkilatın baş inzibati vəzifəli şəxsidir. O, Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən 5 illik müddətə təyin olunur. O, əsasən icra-sərəncam funksiyalarını yerinə yetirir.

Indiyə qədər aşağıdakı şəxslər BMT-nin Baş katibi olmuşlar: Trüqve Li (Norveç) – 1945-1953; Daq Hammerşeld (İsveç) -1953-1961; U Tan (Birma) – 1961-1971; Kurt Valdhaym (Avstriya) – 1971-1981; Xavyer Peres de Kuelyar (Peru) – 1982-1991; Butros Butros Qali (Misir) – 1991-1997 və Kofi Annan – 1 yanvar 1997-ci ildən (2001-ci ildən o, ikinci müddətə təyin olunmuşdur).

Baş Katib Baş Assambleyanın, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın və Qəyyumluq Şurasının bütün iclaslarıda fəaliyyət göstərir və bu orqanlar tərəfindən ona həvalə olunan digər funksiyaları icra edir. O, Təşkilatın işi barədə Baş Assambleyaya illik məruzə təqdim edir.

Baş Katibin mühüm səlahiyyətlərindən biridə ondan ibarətdir ki, o, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasına təhlükə törədə bilən istənilən məsələni

Təhlükəsizlik Şurasının nəzərinə çatdıra bilər. Baş Katib beynəlxalq mübahisələrin və situasiyaların nizamlanmasında mühüm rol oynayır.

8. BMT-nin ixtisaslaşdırılmış təsisatları. ***BMT-nin ixtisaslaşdırılmış təsisatları – beynəlxalq əməkdaşlığın bu və ya digər konkret sahəsində (iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və s.) fəaliyyət həyata keçirən, Birləmiş Millətlər Təşkilatı ilə əlaqəsi olan universal xarakterli beynəlxalq höhumətlətarası təşkilatlardır.***

İxtisaslaşdırılmış təsisatların BMT ilə əlaqəsi BMT-nin əsas orqanlarından biri olan

EKOSOK vasitəsilə həyata keçirilir. EKOSOK ixtisaslaşdırılmış təsisatlarla sazişlər bağlayır; məsləhətləşmələr aparmaq və tövsiyələr vermək yolu ilə ixtisaslaşdırılmış təsisatların fəaliyyətinin ümumi koordinasiyasını həyata keçirir; ixtisaslaşdırılmış təsisatlardan, onların fəaliyyəti haqqında və verdiyi tövsiyələrin icra olunması üçün görülmüş tədbirlər haqqında məruzələr alır; öz işində və ya yaratdığı komissiyaların işində iştirak etmək üçün ixtisaslaşdırılmış təsisatların nümayəndələrini dəvət edir. Hal –hazırda 16 ixtisaslaşdırılmış təsisat mövcuddur. Onları aşağıdakı qruplara ayırmaq olar;

a) sosial xaraqterli təşkilatlar – Beynəlxalq əmək təşkilatı (BƏT), Ümumdünya səhiyyə təşkilatı (ÜST);

b) mədəni və humanitar xaraqterli təçkilatlar – Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNESKO), Ümumdünya əqli mükiyyət təşkilatı (ÜƏMT);

c) iqtisadi təşkilat – Sənaye inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNİDO);

ç) maliyyə təşkilatları – Beynəlxalq bərpa və inkişaf bankı (BİİB) və ya Dünya bankı və onun tam müstəqil təşkilat sayılan üç filialı – Beynəlxalq maliyyə korparasiyası, Beynəlxalq inkişaf assosiasiyası və İnvestisiya təminatları üzrə çoxtərəfli agentlik (İTÇA), Beynəlxalq valyuta fondu (BVF);

d) kənd təsərrüfatı sahəsində təşkilat – Ərzaq və kənd təsərrüfatı təşkilatı (ƏKTT).

e) nəqliyyat və rabitə sahəsində təşkilatlar – Beynəlxalq mülki aviasiya təşkilatı (İKAO), Beynəlxalq dəniz təşkilatı (İMO), Ümumdünta poçt ittifaqı (ÜPİ), Beynəlxalq elektron rabitəsi ittifaqı (BERİ);

ə) meteorologiya sahəsində təşkilat – Ümumdünya meteorologiya təşkilatı (ÜMT). İxtisaslaşdırılmış təsisatların tərkibinə BMT-nin üzvlərindən başqa digər dövlətlər də daxil ola bilər; lakin onların üzvlüyə qəbul olunması üçün daha mürəkkəb mexanizm müəyyən olunmuşdur.

İxtisaslaşdırılmış təsisatların əsas fəaliyyət istiqamətləri aşağıdakılardır; beynəlxalq əməkdaşlığın ayrı-ayrı sahələri üzrə beynəlxalq konvensiya və

reqlamentləri işlənib hazırlanması; dövlətlərinbu sahədə fəaliyyətnın koordinasiyası; inkişaf etməkdə olan dövlətlərə texniki yardımın göstərilməsi; informasiya mübadiləsi və s.

9. Regional təşkilatlar. Universal xarakterli beynəlxalq təşkilatlardan başqa, üzvləri, əsasən, müəyyən coğrafi regionu təmsil edən regional təşkilatlar da mövcuddur. Onlar regional əməkdaşlıq çərçivəsində müxtəlif məsələləri (kollektiv müdafiə, iqtisadi, sosial, mədəni və s.) birgə həlli üçün yaradılır. BMT Nizamnaməsinin 52-ci maddəsinə görə, "beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə bağlı olan və regional tədbirlər üçün münasib olan məsələlərlə məşğul olmaq məqsədilə" regional təşkilatlar təsis oluna bilər. Həmin maddə tələb edir ki, bu təşkilatların nizamnamələri və fəaliyyəti Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə uyğun olmalıdır. 53-cü maddədə imperativ qaydada göstərilir ki, Təhlükəsizlik Şurasının vəkaləti olmadan regional təşkilatlar tərəfindən heç bir məcburiyyət tədbiri görülə bilməz. Nizamnamənin IX fəslində ("Beynəlxalq iqtisadi və sosial əməkdaşlıq") iqtisadi, sosial, mədəni və digər xüsusi sahələrdə fəaliyyət göstərən beynəlxalq təşkilatlara, o cümlədən regional təşkilatlara qarşı müəyyən tələblər irəli sürülmüşdür. Belə ki, onların yaradılması və fəaliyyəti BMT-nin məqsəd və prinsiplərinə uyğun olmalıdır və bu təşkilatlar iqtisadi, sosial, mədəni və digər problemlərin həllində BMT-yə yardım etməlidirlər.

Hal-hazırda mövcud olan çoxlu sayda regional təşkilatların içərisində ümumi səlahiyyətə malik təşkilatlar, məsələn, Ərəb dövlətləri liqası, Afrika birliyi təşkilatı, Amerika dövlətləri təşkilatı və b. xüsusi yer tutur.

Ərəb dövlətləri liqası (ƏDL). Ərəb dövlətləri liqası yaradılması haqqında müqavilə (Pakt) 1945-ci il martın 22-də imzalanmışdır. Təşkilatın hal-hazırda 22 üzvü vardır. ƏDL-in əsas məqsədi iqtisadi, maliyyə, mədəni və sosial sahələrdə, səhiyyə sahəsində, vətəndaşlıq, pasportlar, vizalar, məhkəmə qərarlarının icrası ilə bağlı məsələlərin həllində üzv-dövlətlərin əməkdaşlığını təşkil etməkdən ibarətdir (Paktin 2-ci maddəsi).

ƏDL-in orqanları aşağıdakılardır: Ərəb ölkələri dövlət və hökumət başçılarının Müşavirəsi; Şura; Birgə Müdafiə Şurası; İqtisadı Şura; Ərəb ölkələri informasiya nazirləri Şurası; Komitələr (iqtisadiyyat, maliyyə, nəqliyyat, rabitə, mədəniyyət, səhiyyə məsələləri üzrə); Baş Katib başda olmaqla Baş Katiblik.

ƏDL-in Paktına görə, üzv-dövlətlər öz aralarındakı mübahisələri həll etmək üçün Şuraya müraciət edə bilərlər. Şuranın qərarları mübahisənin tərəfləri üçün məcburidir. Liqanın üzvləri arasında müharibəyə gətirib çıxara bilən mübahisələri həll etmək üçün Şura öz xidmətlərini təklif edir. Şura, habelə arbitraj və barışdırıcı orqan qismində çıxış edə bilər; bu halda Şuranın qərarları səs çoxluğu ilə qəbul olunur (5-ci maddə).

Liqanın üzvü olan dövlətlərdən hər hansı birinə qarşı təhlükəsi olduqda, hücuma məruz qalmış və ya təcavüz təhlükəsi altında olan dövlət Şuranın dərhal çağrılmasını tələb edə bilər. Şura yekdil razılıq olduqda, təcəvüzün və ya təcəvüz təhlükəsinin aradan qaldırılması üçün zəruri tədbirlər müəyyən edir.

Afrika birliyi təşkilatı (ABT). Afrika birliyi təşkilatı ən iri regional təşkilatdır. 1963-cü ildə yaradılmışdır. Hal-hazırda 53 üzvü vardır. BMT yanında daimi müşaihidəçi statusuna malikdir.

ABT-nin əsas məqsədləri aşağıdakılardır: a) Afrika dövlətləri arasında əməkdaşlığın möhkəmləndirilməsi və onların siyasət, elm, texnika, maarif və mədəmiyyət, səhiyyə, habelə müdafiə və təhlükəsizlik sahəsində fəaliyyətinin koordinasiyası; b) Afrika dövlətlərinin suverenliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qorunması; c) Afrika qitəsində müstəmləkəçiliyin bütü növlərinin ləğv edilməsi; ç) BMT Nizamnaməsinə və Ümumdünya İnsan Hüquqları Bəyənnaməsinə müvafiq olaraq beynəlxalq əməkdaşlığın həvəsləndirilməsi (ABT-nin Nizamnaməsinin 2-ci maddəsi).

ABT aşağıdakı sturuktura malikdir: Dövlət və hökumət başçılarının Konfransı; Nazirlər Şurası; Baş Katiblik; Vasitəçilik, barışdırma və agrbitraj üzrə Komissiya. ABT-nin Nizamnaməsində habelə ixtisaslaşdırılmış komissiyaların təsis olunması nəzərdə tutulmuşdur (məsələn: iqtisadi və sosial komissiya, maarif və mədəmiyyət üzrə; elm, texnika və tədqiqatlar üzrə və s. komissiyalar).

Amerika dövlətləri təşkilatı (ADT). 1948-ci ildə yaradılmışdır. Təşkilatın təsis sənədləri üçt aktdan ibarətdir: 1) Qarşılıqlı yardım haqqında 1947-ci il Ümumamerika müqaviləsi; 2) ADT-nin Nizamnaməsi (30 aprel 1948-ci ildə qəbul olunmuş, 13 dekabr 1951-ci ildə qüvvəyə minmişdir). 3) Mübahisələrin dinc həll olunması haqqında 1948-ci il Ümumamerika müqaviləsi (Boqota Paktı). Hazırda 35 dövlət ADT-nin üzvüdür.

Təşkilatın əsas məqsədi Amerika dövlətlərinin həmrəyliyini möhkəmləndirilməsindən və onların suverenliyinin, ərazi bütövlüyünün müstəqilliyinin qorunmasından ibarətdir (AD-nin Nizamnaməsinin 1-ci maddəsi).

Nizamnamə üzv-dövlətlərin kollektiv təhlükəsizliyini nəzərdə tutur. Amerika dövlətlərindən birinin ərazi bütövlüyünə və ya siyasi müstəqilliynə qarşı hər hansı bir dövlətin təcavüzü bütün qalan Amerika dövlətləri əleyhinə təcəvüz aktı sayılır (27-ci maddə). İstənilən Amerika dövlətinin toxunulmazlığı, ərazi bütövlüyü və ya suverenliyi, habelə siyasi müstəqilliyı silahlı basqın nəticəsində və yaxud Amerika dövlətləri arasında münaqişə nəticəsində və yaxud Amerikada sülhü təhlükə altına qoya bilən hər hansı digər fakt və ya situasiya nəticəsində pozularsa, Amerika dövlətləri özlərinin kollektiv özünümüdafiə hüququnun həyata keçirilməsi çərçivəsində tədbirlər görürlər (28-ci maddə).

ADT-nin aşağıdakı orqanları vardır: Baş Assambleya; Xarici işlər nazirlərinin Konsultativ müşavirəsi; Şuralar (Daimi Şura, Amerika İqtisadi, Təhsil, Elm və Mədəniyyət Şurası); Ümumamerika hüquqi komitəsi; Ümumamerika İnsan hüquqları komissiyası; Baş Katiblik.

Cənub-şərqi Asiya dövlətləri assosiasiyası (ASEAN). 1967-ci ildə yaranmışdır. ASEAN-ın təsis sənədləri Cənub-şərqi Asiyada dostluq və əməkdaşlıq hüqqında Müqavilə və ASEAN Razılıq Bəyannaməsidir. 10 üzvü vardır.

ASEAN-in əsas məqsədləri Cənub-şərqi Asiyada iqtisadi, sosial və digər sahələrdə əməkdaşlığı təşkil etməkdən, sülhün və sabitliyin bərqərar olmasına yardım etməkdən ibarətdir.

Təşkilatın aşağıdakı orqanları vardır: Dövlət və hökumət başçılarının Konfransı; Xarici işlər nazirlərinin Konfransı; Daimi komitə (onun tərkibinə üzv-

dövlətlərin xarici işlər nazirləri və səfirləri daxildir); Katiblik; sahəvi komitələr (ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat və s. üzrə).

ASEAN-in çərçivədə hər il bu təşkilat və digər ölkələr arasında (ABŞ, Yaponya, Kanada, Koreya, Rusiya, Çin və s.) Asiya-sakit oken regionunda müxtəlif məsələlərlə bağlı əməkdaşlıq barəsində məsləhətləşmələr keçirilir.

Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatı (ATƏT). ATƏT vahd təsis akt olmayan, formalaşmaqda olan regional təşkialatdır. Onun təsis aktları aşağıdakılardır; 1975-ci il Helsinki Yekun Aktı; Yeni Avropa üçün Xartiya (1990-cı il); Helsinki (1992-ci il) və Budapeşt (1994-cü il) sammitlərinin qərarları. Budapeşt sammitinin qərarlarına müvafiq olaraq, təxminən iyirmi il mövcud olmuş beynəlxalq konfrans-Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə beynəlxalq təşkilata-Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına çevrilmişdir, onun məqsədləri dəqiqləşdirilmiş və strukturu təkminləşdirilmişdr.

ATƏTİN-in başlıca məqsədləri aşağıdakılardı; uzunmüddətli sülhün təmin edilməsi üçün şəraitin yaradılması; təhlükəsizlik, tərksilah, münaqişəli situasiyaların qarşısının alınması, iqtisadiyat, mədəniyyət, insan hüquqları və digər sahələrdə əməkdaşlıq və s.

ATƏT hal-hazırda belə sturuktura malikdir; iki ildən bir çağrılan Dövlət və hökumət başçılarının müşavirəsi (ali orqan); ildə bir dəfə çağrılan xarici işlər nazirlərindən ibarət olan Nazirlər Şurası (mərkızi rəhbər orqan); Daimi şura (siyasi məsləhətləşmələrin aparılması və carı qərarların qəbul edilməsi üçün ATƏT-in sturukturunda əsas orqan); Katiblik (ona üç il müddətinə seçilən Baş Katib başçılıq edir); Demokratik institutlar və insan hüquqları üzrə Büro; Münaqışələrin qarşısının alınması üzrə Mərkəz; Milli azlıqlar üzrə Ali Komissar; Parlament Assombleyası.

ATƏTİN-in axırıncı zirvə toplantısı 1999-cu ildə İstanbulda olmuşdur. Toplantıda üç sənəd qəbul olunmuşdur: XXI əsr üçün Avropada Təhlükəsizlik Xartiyası, Adi silahlar haqqında uyğunlaşdırılmış müqavilə və İstanbul Yekun Bəyannaməsi.

Avropa Şurası. 1949-cu ildə on Avropa dövləti tərəfindən yaradılmışdı. Avropa Şurasını Nizamnaməsi 5 may 1949-cu ildə Londonda imzalanmış, 3avqust 1949-cu ildə qüvvəyə minmişdir. Hazırda (1 sentiyabr 2002-ci il üçün) 44 üzvü vardır. Azərbaycan Respublikası 2000-ci il yanvarın 25-dən bu mötəbər qurumum tam hüquqlu üzvüdür.

Avropa Şurasının başlıca məqsədi Təşkilatın "üzvləri arasında, onların ümumi sətvəti olan ideal və prinsiplərin müdafiəsi naminə daha sıx birliyin əldə edilməsinə nail olmaqdan və onların iqtisadi və sosial tərəqqisinə dəstək verməkdən ibarətdir" (Nizamnamənin birinci maddəsi). Təşkilat bu məqsədlə insan hüquqlarının müdafiəsi və demokratiyanın genişləndirilməsi; hüquq, mədəniyyət, təhsil, informasiya, ətraf mühitin mühafizəsi və səhiyyə sahələrində əməkdaşlıq kimi vəzifələri həyata keçirir.

Avropa Şurasının Nizamnaməsində bu Təşkilata daxil olmaq istəyən dövlət üçün (Təşkilat yalnız Avropa dövlətləri üçün açıqdır) üç başıca şərt göstərilmişdir: plüralist demokratiya, insan hüquqlarının təmin edilməsi və qanunun aliliyi. Bundan əlavə, Avropa Şurasının mərkəzi orqanlarının qərarlarına müvafiq olaraq, Mərkəzi və Şərqi Avropa dövlətləri üçün bir sıra əlavə tələblr irəli sürülür: milli azlıqların hüquqlarının qorunması; üzv- dövlətlərin ərazi bütövlüyünün tanınması; Avropa İnsan Hüquqları Konvensiyasını imzalamağa və mümkün qədər tez müddətdə onu tatifikasiya etməyə hazır olmaq və s. Avropa Şurasına yeni qəbul olunan dövlətlərin üzərinə məyyən müdətlər ərzində yerinə yetirilməli olan konkret öhdəliklər qoyulur. Azərbaycan üçün bu cür öhdəliklər Avropa Şurası Parlament Assambleyasının 222 (2000) nömrəli Rəyində müəyyən olunmuşdur.

Avropa Şurası çərçivəsində indiyə qədər insan hüquqlarına təhsil, mədəniyyət, səhiyyə, sosial təminat, idman və mülki, inzibati, cinayət hüququ və prosesi məsələlərinə həsr olunmuş 170-ə qədər konvensiya, protokol və saziş qəbul olunmuşdur. Onlardan ən əsası 1950-ci ildə qəbul olunmuş və 1953-cü ildə qüvvəyə minmiş Avropa İnsan Hüquqları Konvensiyasıdır. Bu Konvensiyasız və onun əsasında yaradılmış mexanizmsiz (Avropa İnsan Hüquqları Məhkəməsi) Avropa Şurasını təsəvvür etmək mümkün deyildir. Konvensiyaya indiyə qədər on

üç Protokol əlavə olunmuşdur. 11-ci Protokol Konvensiyaya olduqca mühüm dəyişikliklər və əlavələr etmişdir.

Avropa Şurasını əsas orqanları aşağıdakılardır: Nazirlər Komitəsi; Parlament Assambleyası, Avropa yerli və regional hakimiyyətlər Konqresi, Katiblik.

Nazirlər Komitəsi Şurasının ali orqanıdır. O, üzv-dövlətlərin xrici işlər nazirlərindən ibarətdir. Nazirlər səviyyəsində Komitə ildə iki dəfədən az olmayaraq sessiyalar keçirir, üzv-dövlətlərin daimi nümayəndələri səviyyəsində isə müntəzəm fəaliyyət göstərir. Nazirlər Komitəsi əməkdaşlığın siyasi asbektlərini müzakirə edir, Avropa Şurasının fəaliyyət proqramını işləyib hazırlayır, cari büdcəni təsdiq edir, Parlament Assambleyasının tövsiyələrini nəzərdən keçirir, yekdillik prinsipi əsasında üzv-dövlətlərə tövsiyələr qəbul edir. Müəyyən məsələlər üzrə Nazirlər Komitəsinin qərarları məcburi xarakter daşıyır.

Parlament Assambleyası məşvərətçi orqandır və qanunvericilik səlahiyyətinə malik deyildir. O, hər bir üzv dövlətin parlamentindən seçilən (təyin olunan) nümayəndələrdən ibarətdir. Hər bir nümayəndə heyəti öz ölkəsinin müxtəlif siyasi dairələrini, o cümlədən muxalifət partiyalarının mənafelərini ifadə etməlidir. Dövlətlərin Parlament Assambleyasındakı nümayəndələrin sayı eyni deyildir (2-dən 18-ə kimi); məsələn, Almaniya, Böyük Britaniya, İtaliya və Rusiyadan – 18, İspaniya, Türkiyə və Ukraynadan - 12, Yunanıstan və Belçikadan – 7, Azərbaycandan – 6, Moldovadan – 5 və s. Parlament Assambleyası öz sesiyalarını ildə dörd dəfə keçirir. O, Nazirlər Komitəsinə və üzv-dövlətlərin hökumətlərinə bu və ya digər məsələlər, üzrə tövsiəyələr verir, konfranslar, kollokviumlar təkil edir, Avropa Şurasının Baş Katibini və Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərini seçir.

Avropa yerli və regional hakimiyyətlər Konqresi üzv-dövlətlərin müvafiq ərazi qurumlarını nümayəndələrindən ibarətdir. Nümayəndələrin sayı Parlament Assambleyasındakı kvotaya uyğundur.

Katiblik Avropa Şurasının inzibati orqanıdır. Ona Parlament Assambleyası tərəfindən 5 il müddətinə seçilən Baş Katib rəhbərlik edir.

İslam konfransı təşkilatı (İKT). Bu təşkilat regional təşkilatltr çərçivəsindən kənara çıxır, çünki müxtəlif regionalrda yerləşən müsəlman dövlətlərini özündə birləşdirir. İKT 1969-cu ildə yaradılmışdır. Onun Nizamnaməsi 1972-ci ildə qəbul olunmşdur. Hal-hazırda 55 dövlət butəşkilatın üzvüdür. Onların içərisində Azərbaycan da vardır. Qeyri-müsəlman ölkələrindəki müsəlman azlıqları öz nümayəndələrini bu təşkilata müşahidəçi qismində göndərə bilərlər. Yalnız müsəlman dövlətləri İKT-nin üzvü ola bilərlər. Lakin İKT-ni qətiyyən dini təşkilat hesab etmək olmaz. Onun başlıca vəzifəsi ən mühüm beynəlxalq problemlər üzrə müsəlman dövlətlərinin mövqeyini yaxınlaşdırmaq, onların siyasətini əlaqləndirməkdir. İKT-nin BMT yanında daimi müşahidəçi statusu vardır.

İKT-nin aşağıdakı məqsədləri vardır: müsəlman həmrəyliyinin möhkəmləndirilməsi; iqtisadi, sosial, mədəni, elmi sahələrdə əməkdaşlığın inkişafı; irqçiliyin və müstəmləkəçiliyin ləğvinə dəstək vermək; beynəlxalq təşkilatlarda üzv-dövlətlər arasında məsləhətləşmələr aparmaq; müsəlman xalqlarının, onların milli müstəqillik uğrunda mübarizəsində birləşdirilməsi; öz ərazisinin azad edilməsi uğrunda mübarizə aparan fələstin xalqına kömək göstərmək.

İKT-nin ali orqaın *dövlət və hökumət başçılarının konfransıdır.* Konfrans üç ildən bir çağırılır. Təşkilatın fəaliyyətinin cari problemlərini müzakirə etmək üçün hər il *xarici işlər nazirlərinin konfransı çağırılır.* 1980-ci ildə daimi fəaliyyət göstərən *Nazirlər Komitəsi* yaradılmışdır. Onun tərkibinə 11 nazir və İKT-nin Baş Katibi daxildir. Komitənin başlıca funksiyasi üzv-dövlətlərin birində baş vermiş fövqəladə situasiyanı və ya böhranı nəzərdən keçirmək, müsəlman ölkələri arasında olan münaqişə və mübahisələri nizamlamaqdır. İKT çərçivəsində bir sıra *daimi komitə və komissiyalar* fəaliyyət göstərir. *Baş Katibliyə,* iki il müddətinə seçilən Baş Katib rəhbərlik edir.

Mövzu10: DİPLOMATİYA VƏ KONSULLUQ HÜQUQU

Plan:

1. Diplomatiya və konsulluq hüququnun anlayışı və mənbələri

2. Xarici əlaqələri həyata keçirən dövlət orqanları

3.Diplomatik nümayəndəliyin anlayışı və funksiyaları

4. Diplomatik nümayəndəliyin heyəti

5. Diplomatik missiyanın başlanması və sona yetməsi

6. Diplomatik korpus

7. Diplomatik imtiyaz və immunitetlər

8. Dövlətlərin beynəlxalq təşkilatlar yanındanümayəndəlikləri

9. Xüsusi missiyalar

10. Beynəlxalq təşkilatların və onların əməkdaşlarının imtiyaz və immunitetləri

11. Konsulluqlar: anlayışı və funksiyaları

12. Konsulun təyin olunması və onun funksiyalarının xitam olunması

13. Konsulluqların və onların heyətinin imtiyaz və immunitetləri

Ədəbiyyat siyahısı.

Блищенко И.П. *Дипломатическое право.* М., 1990.

Бобылев Г.В., Зубков Н.Г. *Основы консульской службы.* М., 1986.

Ганюшкин Б.В. *Дипломатическое право международных организаций.* М., 1972.

Демин Ю.Г. *Статус дипломатических представительств и их персонала.* М., 1995.

Ковалев А. Г. *Привилегии и и ммунитеты в современном международном праве.* М., 1986.

Кузнецов С.А. *Представители государств в международных организациях.* М., 1980.

Петренко Р.И. *Основы консульского права.* М., 1986.

Сандровский К.К. *Право внешних сношений.* Киев, 1986.

1. Diplomatiya və konsulluq hüququnun anlayışı və mənbələri.*Diplomatiya və konsulluq hüququ – dövləti beynəlxalq ünsiyyətdə təmsil edən dövlət orqanlarının statusunun və funksiyalarını tənzimləyən beynəlxalq hüquq normalarının məcmusuna deyilir.*

Beynəlxalq hüquq bu ən qədim və ənənəvi sahəsinin məzmunu indiki dövrdə xeyil genişlənmişdir; diplomatiya və konsulluq hüququna hazırda həmçinin bir sıra digər yeni məsələləri, o cümlədən dövlətlərin beynəlxalq təşkilatlardakı nümayəndəliklərinin, təntənəli tıdbirlərdə, danışıqlar aparılmasına və s. iştirak etmək üçün digər dövlətlərə göndərilən xüsusi missiyaların funksiyalarını, beynəlxalq təşkilatların və onların əməkdaşlarının imtiyaz və immunitetlərini nizama salan normalar da daxildir.

Diplomatiya və konsulluq hüququnun əsas mənbələri kimi beynəlxalq müqavilə və beynəlxalq hüquqi adət çıxış edir. Dövlətlər arasında diplomatiya və konsulluq münasibətləri uzun tarixi dövr ərzində beynəlxalq adət normalarına söykənmişdir. İkinci dünya müharibəsindən sonrakı illərdə bu normalar bir neçə universal konvensiya şəklində məcəllələşdirilmişdir. Diplomatiya və konsulluq hüququ sahəsində əsas beynəlxalq konvensiyalar aşağıdakılardır: *1) Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyası; 2) Konsulluq münasibətləri haqqında 1963-cü Vyana Konvensiyası; 3) Xüsusi missiyalar haqqında 1969-cu il Vyana Konvensiyası; 4) Beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyası;5) Dövlətlərin universal xaraqterli beynəlxalq təşkilatlarla münasibətlərdə nümayəndikləri haqqında 1975-ci Vyana Konvensiyası.*

Diplomatiya və konsulluq hüququ sahəsində bir sıra digər sənədlər də mövcuddur. Məsələn, beynəlxalq təşkilatların imtiyaz və immunitetləri ilə bağlı iki mühüm konvensiyanı göstərmək olar: *1) BMT-nin imtiyaz və immunitetləri haqqında 1946-cı il Konvensiyası və 2) BMT-nin ixtisaslaşdırılmış imtiyaz və immunitetləri haqqında 1947-ci il Konvensiyası.* Bundan əlavə, müvafiq normalar beynəlxalq təşkilatların nizamnamələrində və habelə yerləşdikləri dövlətlərlə bağladıqları imtiyaz və immunitet məsələləri üzrə ikitərəfli müqavilələrdə təsbit olunmuşdur. Diplomatiya və konsulluq hüququnun mənbələri sırasında ikitərəfli konsulluq konvensiyalarını da qeyd etmək lazımdır.

2. Xarici əlaqələri həyata keçirən dövlət orqanları. Dövlətin digər dövlətlərlə və beynəlxalq təşkilatlarla xarici əlaqələrinin həyata keçirən orqanlar *dövlətdaxili* və xarici orqanlara ayrılır.

Dövlətdaxili orqanlar daim həmin dövlətin ərazisində fəaliyyət göstərən xarici əlaqə orqanlarıdır. Bu orqanlar öz növbəsində iki növə ayrılır:

1) *dövləti bütün məsələlər üzrə təmsil edən orqanlar;*
2) *dövləti hər hansı bir sahə üzrə təmsil edən orqanlar.*

Birinci dövlət başçısı, hökumət və xarici işlər nazirliyi daxildir. Dövlət başçısı, hökumət başçısı və xarici işlər naziri həmin dövləti onun xarici əlaqələrini bütün məsələlər üzrə ex officio (yəni vəzifəsinə görə) təmsil edirlər.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan Respublikasının *Prezidenti* "ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir" (8-ci maddənin I hissəsi). 109-cu maddəyə əsasən, Prezident "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır (15-ci bənd)"; xarici ölkələrin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir (16-cı bənd); dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

təsdiqnamələri imzalayır (17-ci bənd); Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır (30-cu bənd).

Azərbaycan Respublikasının *Hökuməti* xarici siyasətin həyata keçirilməsinin təmin edilməsi üzrə tədbirlər həyata keçirir. Hökumətlərarası və idarələrarası müqavilələr müvafiq olaraq baş nazir və nazirlik və ya idarə başçısı tərəfindən imzalanır və hökumət tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikasının *Xarici İşlər Nazirliyi* bilavəsitə xarici əlaqələri həyata keçirən əsas orqandır və 2001-ci il iyunun 8-də qəbul olunmuş "Diplomatik xidmət haqqında" Qanunun 2.2-ci maddəsinə əsasn, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbəhlik edir. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 9 aprel tarixli 660 saylı Fərmanı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında" Əsasnamədə* göstərilir ki, "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələrinə rəhbərlik edən dövlət idarəetmə orqnıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının xarici əlaqələr sahəsində işin təşkili və vəziyyəti üçün məsuliyyət daşıyır".

Parlamentə gldikdə isə, qeyd etmək lazımdır ki, xarici siyasət məsələlərində bu orqan əslində mühüm rol oynayır. Parlament bu və ya digər aktual beynəlxalq məsələlərə öz münasibətini bildirir, digər ölkələrin parlamentlərinə müraciət qəbul edir, beynəlxalq parlament təşkilatlarının (məsələn, Avropa Parlamentinin, Avropa Şurasının Parlament Assambleyasının və s.) işində iştirak edirlər. Buna baxmayaraq, parlament beynəlxalq münasibətlərdə dövlətin təmsilçisi kimi çıxış edir. O, dövlət adından müqavilələr bağlamaq səlahiyyətinə malik deyildir. Parlament nümayəndələrinin verdikləri bəyanatlar müvafiq dövlət üçün beynəlxalq öhdəliklər doğurmur.

Xarici əlaqələr həyata keçirən dövlətdaxili orqanların ikinci qurupuna, əsas etibarilə, Azərbaycan Respublikasının nümunəsində, İqtisadi inkişaf nazirliyi (Xarici investisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamenti), Dövlət

Gömrük komitəsi və b. aiddir. Digər nazirlik və idarələr də dövlətdaxili qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövləti onun xarici əlaqələrində təmsil edirlər.

Xarici orqanlar dövlətin ərazisindən kənarda yerləşən və dövlətin özünün, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafelərini həyata keçirən dövlət orqanlarıdır. Bu orqanlar öz növbəsində aşağıdakı növlərə bölünür.

daimi: dövlətin diplomatik nümayəndəlikləri, konsulluq nümayəndəlikləri, beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlikləri;

müvəqqəti; təntənəli tədbirlərdə, danışıqlar aparılmasında və s. iştirak etmək etmək üçün digər dövlətlərə göndərilən xüsusi missiyalar, beynəlxalq konfranslarda və ya beynəlxalq orqanların işində iştirak etmək üçün göndərilən nümayəndə heyətləri və b.

3.Diplomatik nümayəndəliyin anlayışı və funksiyaları.

Diplomatik nümayəndəlik dövlətin başqa bir dövlətin ərazisində yerləşən, həmin dövlətlə diplomatik münasibətləri həyata keçirən orqandır. Diplomatik nümayəndəliklər müvafiq iki dövlət arasında razılaşmaya əsasən təsis olunur. Çox hallarda belə bir razılaşmanın əldə olunması həmin dövlətlər arasında diplomatik münasibətlərin qurulması ilə eyni vaxta düşür.

Beynəlxalq praktikada diplomatik nümayəndəliklərin iki növü məlumdur:

1) *səfirliklər* – ən yüksək səviyyəli diplomatik nümayəndəliklərdir; onların başında

fövqəlada və sılahiyyətli səfir dayanır.

2) *missiyalar – daha aşağı səviyyəli* diplomatik nümayəndəlik hesab olunur; onlara

fövqəlada və sılahiyyətli elçi və ya müvəqqəti işlər müvəkkili rəhbərlik edir.

Diplomatik nümayəndəlik öz dövlətinin qəbul edən dövlətdə bütün məsələlər üzrə rəsmi təmsilçisidir. Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasına görə (3-cü maddə), diplomatik nümayəndəlik aşağıdakı *fuksiyaları* həyata keçirir:

1) akkreditə edən dövlətin qəbul edən dövlətdə təmsil olunması;

2) akkreditə edən dövlətin özünün və onun vətəndaşlarının mənafelərinin müdafiəsi;

3) qəbul edən dövlətin hökuməti ilə danışıqlar aparılması;

4) bütün qanuni vasitələrlə, qəbul edən dövlətdə olan şəraitin və hadisələrin öyrənilməsi və onlar barəsində öz hökumətinə məlumat verilməsi (informasiya funksiyası);

5) akkreditə edən dövlətlə qəbul edən dövlət arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi.

Bunlardan əlavə, diplomatik nümayəndəlik bəzi hallarda konsulluq funksiyaları da həyata keçirir; bu məqsədlə səfirliklərin və ya missiyaların tərkibində konsulluq şöbələri təsis olunur.

4. Diplomatik nümayəndəliyin heyəti. Diplomatik nümayəndəliyin *başçısı* təmsil olunan dövlətin qəbul edən dövlətdə daimi əsasda fəaliyyət göstərən bütün nümayəndələri ilə müqayisədə ən yüksək təmsilçisi hesab olunur. O, öz dövlətini, qəbul edən dövlətdə bütün məsələlər üzrə təmsol edən yeganə şəxsdir. 1961-ci il Vyana Konvensiyasi diplomatik nümayəndəliklərin başçılarının üç *dərəcəsini* müəyyən etmişdir: 1) dövlət başçıları yanında akkreditə olunan səfir və nuntsilər; 2) dövlət başçıları yanında akkreditə olunan elçi və internuntsilər və 3) xarici işlər nazirləri yanında akkreditə olunan işlər müvəkkilləri. Əslində son illərin praktikasında elçilərin və daimi işlər müvəkkillərinin təyin olunmasına çox az-az rast gəlinir.

1961-ci il Vyana Konvensiyasi görə, diplomatik nümayəndəliyin heyəti üç kateqoriyaya bölünür:

diplomatik heyət;

inzibati-texniki heyət;

xidmətçi heyət.

Diplomatik heyətə aşağıdakılar daxildir: səfirlər, elçilər, müşavirlər, ticarət nümayəndələri və onların müavinləri, xüsusi attaşelər (hərbi, hərbi-dəniz və hərbi-hava) və onların müavinləri, birinci, ikinci və üçüncü katiblər və attaşelər. Diplomatik heyətin üzvləri akkreditə edən dövlətin vətəndaşları olmalıdır. Lakin

qəbul edən dövlətin razılığı ilə yerli vətəndaşlar və üçüncü dövlətin vətəndaşları təmsil olunan dövlətin diplomatik heyətinə daxil edilə bilər. Diplomatik heyətin üzvlərinə milli qanunvericiliklə müəyyən olunmuş qaydada diplomatik rütbələr verilir. "Diplomatik xidmət haqqında" Qanunun 8.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında aşağıdakı diplomatik rütbələr mövcuddur: a) fövqəladə və səlahiyyətli səfir; b) 1-ci dərəcəli fövqəladə və səlahiyyətli elçi; c) 2-ci dərəcəli fövqəladə və səlahiyyətli elçi; ç) 1-ci dərəcəli müşavir; d) 2-ci dərəcəli müşavir; e) 1-ci dərəcəli birinci katib; ə) 2-ci dərəcəli birinci katib; f) 1-ci dərəcəli ikinci katib; g) 2-ci dərəcəli ikinci katib; ğ) üçüncü katib və h) attaşe.

İnzibati-texniki heyət dəftərxana müdirlərindən, hesabdarlardan, tərcüməçilərdən, kargüzarlardan, makinaçılardan və başqalarından ibarət olur.

Xidmətçi heyətə isə sürücülər, aşbazlar, kuryerlər və başqaları daxil olur.

İnzibati-texniki və xidmətçi heyətə bəzən yerli vətəndaşlar təyin olunur.

5. Diplomatik missiyanın başlanması və sona yetməsi. İki dövlət arasında diplomatik nümayəndəliklər mübadiləsi haqqında razılaşma əldə olunduqdan sonra diplomatik missiyanın fəaliyyətə başlaması ilə bağlı ortaya çıxan əsas praktik məsələ nümayəndəliyin başçısının təyin olunmasıdır. Bu, aşağıdakı *mərhələlərdən* ibarət olur:

1) qəbul edən dövlətdən, konkret şəxsin diplomatik nümayəndəliyin başçısı təyin olunmasına öz razılığını verməsinin – *aqremanın* xahiş edilməsi. Aqreman verilməsə, şəxs göstərilən vəzifəyə təyin oluna bilməz. İmtina edən dövlət bunun motivlərini bəyan etməyə borclu deyildir.

2) aqreman alındıqdan sonra şəxsin diplomatik nümayəndəliyin başçısı təyin olunması barədə müvafiq dövlətdaxili aktın verilməsi.

3) diplomatik nümayəndəliyin başçısı təyin olunmuş şəxsin, qəbul edən dövlətin

müvafiq vəzifəli şəxsinə onun rəsmi statusunu təsdiq edən sənədin – *etimadnamənin* təqdim olunması.

Etimadnamə akkreditə edən dövlətin başçısı tərəfindən imzalanır və diplomatik nümayəndəni qəbul edən dövlətin başçısına ünvanlanır.

Dövlət diplomatik nümayəndəliyin başçısını eyni zamanda bir neşə dövlətə və ya müvafiq beynəlxalq təşkilata diplomatik nümayəndə təyin edə bilər; doğrudur, bu halda bu dövlətlərdən heç biri və ya həmin beynəlxalq təşkilat buna etiraz etməməlidir. Buna diplomatiya və konsulluq hüququnda *kumulyasiya* deyilir. Kumulyasiya dövlətimizin diplomatik təcrübəsində də istifadə olunur. Diplomatik nümayəndəliyin kumulyasiyasının başqa bir variantı da mümkündür: bu halda bir şəxs iki və daha artıq dövləti, qəbul edən dövlətdə (əlbəttə ki, əgər o, buna etiraz etmirsə) təmsil edir.

Diplomatik heyətin qalan üzvlərinə aqreman tələb olunmur. Onları dövlətin xarici
işlər idarəsi təyin edir. Həmin şəxslər qəbul edən dövlətə gəldikləri və həmin dövlətin xarici işlər idarəsinə bu barədə məlumat verdikləri andan öz vəzifələrinin icrasına başlamış hesab olunurlar. Hərbi attaşelərin təyin olunmasına isə əksər dövlətlərdə aqreman tipli razılıq tələb olunur.

Diplomatik nümayəndənin funksiyalarının *xitam olunması*, əsasən, bu hallarda olur:

akkreditə edən dövlət tərəfindən geri çağırılması;

qəbul edən dövlət rərəfindən *persona non grata (arzuolunmaz şəxs*) elan olunması;

akkreditə edən dövlətlə qəbul edən dövlət arasında diplomatik münasibətlərin kəsilməsi;

akkreditə edən dövlətlə qəbul edən dövlət arasında müharibə başlanması;

akkreditə edən dövlətin və ya qəbul edən dövlətin beynəlxalq hüququn subyekti kimi yoxa çıxması.

6. Diplomatik korpus. “Diplomatik korpus” ifadəsi dar mənada və geniş mənada işlədilir.

Dar mənada diplomatik korpus dövlətdə olan bütün diplomatik nümayəndəliklərin başçılarının cəmi kimi başa düşülür. Geniş mənada isə bu

termin dövlətdəki xarici diplomatik nümayəndəliklərin diplomatik heyətinin üzvlərini əhatə edir. Diplomatik korpus, əsasən, qəbul edən dövlətdə müəyyən təntənələr zamanı birgə çıxışlar edir.

Diplomatik korpusa diplomatik nümayəndələrdən öz dərəcəsinə və akkreditə vaxtına görə ən böyüyü – *duayen* rəhbərlik edir.

7. Diplomatik imtiyaz və immunitetlər. Diplomatik nümayəndəliklər öz funksiyalarını normal həyata keçirmək üçün qəbul edən dövlətin nəzarətindən kənarda olmalıdırlar. Dövlətin malik olduğu immunitet, təbii ki, onu rəsmi təmsil edən orqanlara və ya şəxslərə də təmin olunmalıdır. Bu baxımdan, xarici diplomatik nümayəndəliklərə və onların əməkdaşlarına beynəlxalq hüquq normaları əsasında xüsusi güzəşt və üstünlüklər verilir ki, bunlara ***diplomatik imtiyaz və immunitetlər*** deyilir. Tərifdən göründüyü kimi, diplomatik imtiyaz və immunitetlər iki qrupa ayrılır: 1) diplomatik nümayəndəliklərin imtiyaz və immunitetləri və 2) şəxsi imtiyaz və immunitetlər.

Diplomatik nümayəndəliklər aşağıdakı imtiyaz və immunitetlərə malikdir:

1) nümayəndəliyin binalarının toxunulmazlığı;

Qəbul edən dövlətin hakimiyyət orqanları diplomatik nümayəndəliyin başçısının icazəsi olmadan nümayəndəliyin ərazisinə və onun binalarına daxil ola bilməzlər. Binaların özü, onların içində olan əmlak, habelə nəqliyyat vasitələri axtarışa, rekvizisiyaya, həbsə və icra hərəkətlərinə məruz qala bilməz. 1961-ci il Konvensiyasında (22-ci maddə) göstərilir ki, qəbul edən dövlət diplomatik nümayəndəliyin binalarını istənilən müdaxilədən və ya zərər yetirilməsindən qorumaq, nümayəndəliyin rahatlığının hər cür pozulması hallarının və ya onun ləyaqətinin təhqir edilməsinin qarşısını almaq üçün bütün müvafiq tədbirləri görməlidir.

2) fiskal immuniteti;

Nümayəndəliyin binaları bütün dövlət və bələdiyyə vergi və rüsumlarından (konkret xidmətlərə görə ödəniş haqqından başqa) azaddır.

3) arxiv və sənədlərin toxunulmazlığı;

Nümayəndəliyin bütün arxivləri, sənədləri və habelə rəsmi yazışmaları toxunulmazdır.

4) nümayəndəliyin öz dövlətinin hökuməti və digər diplomatik nümayəndəlikəri ilə əlaqədə olmaq azadlığı;

Bu əlaqələri həyata keçirmək üçün nümayəndəlik bütün müvafiq vasitələrdən, o cümlədən diplomatik kuryerlərdən sərbəst və maneəsiz istifadə edə bilər. 1961-ci il Vyana Konvensiyası habelə diplomatik poçtu təyinatı üzrə çatdırdığı ana qədər immunitetə malik olan müvəqqəti (ad hoc) kuryerlərin təyin olunmasını mümkün sayır.

5) gömrük imtiyazları;

Diplomatik nümayəndəlik öz rəsmi istifadəsi üçün ölkəyə gətirdiyi və ölkədən çıxardığı mallara görə gömrük rüsumları ödəməkdən azaddır.

6) *bayraq və emlemdən istifadə hüququ*;

Diplomatik nümayəndəlik və onun başçısı nümayəndəliyin binları üzərində və nəqliyyat vasitələrində öz dövlətinin bayraq və emlemindən sərbəst istifadə edə bilər.

Şəxsi imtiyaz və immunitetlər, yəni *diplomatik nümayəndəliyin başçısının diplomatik heyətinin digər üzvlərinin* (habelə onların ailə üzvlərinin) imtiyaz və immunitetləri aşağıdakılardan ibarətdir.

1) şəxsiyyət toxunulmazlığı;

2) mənzil toxunulmazlığı;

3) yurisdiksiya immuniteti;

4) fiskal immuniteti;

5) gömrük imtiyazları;

6) hərbi və digər şəxsi mükəlləfiyyətlərdən azad olunma.

Inzibati-texniki heyətin üzvləri də, demək olar ki, eyni imtiyaz və immunitetlərdən istifadə edirlər. Bu şəxslərin mülki-hüququ və inzibati yurisdiksiyadanimmuniteti onlar yalnız öz xidməti vəzifələrini icra etdiyi zaman qüvvədə olur.

Xidmətçi heyətin üzvləri xidməti vəzifələrini icra etdikləri zaman törətdikləri hərəkətlərlə bağlı immunitetə malikdirkər və onlar aldıqları məvacibdən vergi və rüsum odəməkdən azaddırlar.

8. Dövlətlərin beynəlxalq təşkilatlar yanında nümayəndəlikləri.

Dövlətlərin beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlikləri diplomatiya və konsulluq hüququnun nisbətən yeni institutu hesab edilir. Bu institutun yaranması və inkişafı müxtəlif səpkili beynəlxalq təşkilatların meydana gəlməsi və beynəlxalq məsələlərin həllində onların artan rolu, dövlətlərlə həmin beynəlxalq təşkilatlar arasındakı əlaqələrin səmərəli qurulması zərurəti ilə əlaqədardır. Dövlətlərin Birləşmiş Millətlər Təşkilatında, BMT-nin ixtisaslaşdırılmış təşkilatlarında, regional təşkilatlarda daimi nümayəndəlikləri vardır. Təşkilatın nizamnaməsi bunu nəzərdə tutursa, həmin təşkilatın yanında onun üzvü olmayan dövlətlərin daimi müşahidəçi missiyaları olur.

Beynəlxalq təşkilat yanında nümayəndə təşkilatın mənzil-qərargahının yerləşdiyi dövlətdə akkreditə olunmur, o, öz dövlətini beynəlxalq təşkilatda (onun orqanında) təmsil edir. Bu faktın özündən aşağıdakı hüquqi nəticələr ortaya çıxır: a) həmin nümayəndənin təyin olunması üçün beynəlxalq təşkilatdan və ya təşkilatın yerləşdiyi dövlətdən aqreman alınması tələb olunmur; b) bu nümayəndələr ikitərəfli diplomatiyada tətbiq olunan qaydalar əsasında persona non grata elan oluna bilməzlər; c) təşkilatın yerləşdiyi dövlət onlarla bağlı qarşılıqlı əsasda hər hansı tədbir görə bilməz.

Beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin *funksiyaları* bunlardır: a) nümayəndəliyi göndərən dövlətin təmsil olunması; b) təşkilatda həmin dövlətin mənafelərinin qorunması; c) təşkilatla əlaqədar saxlanılması; ç) öz dövlətinə təşkilatın fealiyyəti haqqında məlumat verilməsi və s.

Beynəlxalq təşkilatlar yanında nümayəndəliklərin və onların əməkdaşlarının imtiyaz və immunitetləri diplomatik nümayəndəliklərin və onların diplomatik heyətinin malik olduğu imtiyaz və immunitetlərlə ümumən üst-üstə düşür.

9. Xüsusi missiyalar. ***Xüsusi missiya dedikdə, müəyyən məsələlər üzrə danışıqlar aparmaq və ya hər hansı konkret vəzifəni yerinə yetirmək məqsədilə (məsələn, yubley təntənələrində və ya dəfn mərasimlərində iştirak etmək üçün) başqa bir dövlətə onun razılığı ilə göndərilən rəsmi nümayəndə heyəti başa düşülür.*** Beynəlxalq konfransların və ya beynəlxalq təşkilatların orqanlarının işində iştirak etmək üçün göndərilən nümayəndə heyətləri buraya aid edilmir.

Xüsusi missiyaların hüquqi statusu beynəlxalq adət normaları ilə və az sayda iştirakçısı olan Xüsusi missiyalar haqqında 1969-cu il Konvensiyası ilə nizama salınır. Konvensiyada prinsip etibarilə qəbul edilir ki, diplomatik nümayəndəliklərin və onların diplomatik heyətinin malik olduğu imtiyaz və immunitetlər xüsusi missiyalara və onların heyətinə şamil edilir. Bununla belə, Konvensiyada bir sıra məhdudiyyətlər öz əksini tapmışdır. Belə ki, 25-ci maddəyə görə, yerli hakimiyyət nümayəndələri, yanğın və digər təbii fəlakət olduqda, xüsusi missiyanın yerləşdiyi binalara missiyanın başçısının razılığı olmadan daxil ola bilərlər.

Konvensiyada (21-ci maddə) nəzərdə tutulur ki, xüsusi missiyaya dövlət başçısı, hökumət başçısı, xarici işlər naziri və ya dövlətdə yüksək mövqe tutan digər şəxs rəhbərlik etdiyi və yaxud onun işində iştirak etdiyi hallarda bu şəxslər qəbul edən dövlətdə və ya hər hansı üçüncü dövlətdə, beynəlxalq hüquqla (faktiki olaraq, beynəlxalq adət normaları ilə) tanınan imtiyaz və immunitetlərə malik olurlar.

10. Beynəlxalq təşkilatların və onların əməkdaşlarının imtiyaz və immunitetləri. Beynəlxalq təşkilatlar və onların əməkdaşları öz funksiyalarını normal həyata keçirmək üçün müvafiq dövlətin (və ya dövlətlərin) hakimiyyət orqanlarının nəzarətindən kənarda qalmalıdırlar. Bununla əlaqədar beynəlxalq hüquq normalarında onlar üçün diplomatik imtiyaz və immunitetlər müəyyən olunmuşdur.

Beynəlxalq təşkilatların, məsələn, Birləşmiş Millətlər Təşkilatının və BMT-nin ixtisaslaşdırılmış təsisatlarının imtiyaz və immunitetləri diplomatik nümayəndəliklərin yuxarıda şərh etdiyimiz imtiyaz və immunitetləri ilə tam üst-üstə düşür.

Beynəlxalq təşkilatların əməkdaşlarının imtiyaz və immunitetlərinə gəlincə isə, diplomatik imtiyaz və immunitetlər tam həcmdə yalız bu təşkilatların ən yüksək icraçı şəxsləri üçün nəzərdə tutulmuşdur. Qalan əməkdaşların imtiyaz və immunitetlərinin əsasında funksional zərurət prinsipi durur. Öz xidməti vəzifələrini yerinə yetirərkən onlar yerli yurisdiksiyadan immunitetə malikdirlər, habelə vergi immunitetindən, gömrük imtiyazlarından və s. istifadə edirlər.

Birləşmiş Millətlər Təşkilatı üçün müəyyən missiyanı həyata keçirən ekspertlər tapşırığın yerinə yetirilməsi müddətində bir sıra imtiyaz və immunitetlərə malik olurlar: a) həbsə alınmadan və ya tutulub saxlanmadan immunitet; b) törətdikləri istənilən hərəkərə görə məhkəmə-prosesual immuniteti; c) sənədlərin toxunulmazlığı; ç) şifrədən istifadə etmək və kuryer vasitəsilə rəsmi yazışmalar aparmaq hüququ; d) şəxsi baqajla bağlı diplomatik nümayəndələrə verilən eyni güzəştlər və s.

11. Konsulluqlar: anlayışı və funksiyaları. Səfirliklər (və ya daimi missiylar) kimi konsulluqlar da dövləti onun sərhədlərindən kənarda təmsil edən daimi nümayəndəliklərdir. Lakin konsulluqlar aşağıda şərh edəcəyimiz funksiyalarına görə diplomatik nümayəndəliklərdən fərqlənir. Bundan əlavə, onlar qəbul edən dövlətin bütün ərazisində deyil, onun yalnız bir hissəsini əhatə edən və qarşılıqlı razılıq əsasında müəyyən olunan konsulluq dairəsində fəaliyyət göstərir. Beləliklə, bir dövlətin ərazisində başqa bir dövlətin bir neçə konsulluq ola bilər. Konsulluq münasibətləri müvafiq dövlətlər arasında diplomatik münasibətlər olmadığı halda da qurula bilər, digər rərəfdən, diplomatik münasibətlərin kəsilməsi hələ konsulluq münasibətlərinin xitam olunması demək deyildir. Konsulluq idarələrinə konsullar rəhbərlik edir. Diplomatik nümayəndədən fərqli olaraq, konsulluq öz dövlətinin qəbul edən dövlətdə səlahiyyətli nümayəndəsi sayılmır. O, öz dövlətinin müəyyən məsələlər üzrə və yalnız öz konsulluq dairəsində təmsil edir.

Konsulluq funksiyaları xüsusi konsulluq idarələri tərəfindən və ya tərkibində konsulluq şöbələri olan diplomatik nümayəndəliklər tərəfindən həyata keçirilir. Konsulluq idarələrinin dörd növü vardır: 1) baş konsulluqlar; 2) konsulluqlar; 3) vitse- konsulluqlar və 4) konsul agentləri. Buna uyğun olaraq, dörd konsul dərəsi mövcuddur: 1) baş konsul; 2) konsul; 3) vitse-konsul və 4) konsul agenti.

Bəzi dövlətlər öz praktikasında *fəxri və ya ştatdan kənar konsullardan* istifadə edir. Adətən, fəxri konsullar konsulluğun yerləşdiyi dövlətdə daimi yaşayan şəxslərin sırasından təyin olunur. Onlar təyin edən dövlətin dövlət qulluqçuları ştatında hesab olunmurlar və bu işə görə məvacib almırlar.

Konsulluq münasibəti haqqında 1963-cü il Vyana Konvensiyasına görə, konsulluqlar aşağıdakı *funksiyaları* həyata keçirir:

1) öz dövlətinin, onun hüquqi şəxslərinin və vətəndaşlarının mənafelərini qorumaq;
2) öz dövləti ilə qəbul edən dövlət arasında ticarət, iqtisadi, mədəni, elmi və digər

əlaqələrin inkişafına yardım göstərmək;

3) konsulluq dairəsinin iqtisadi, hqüuqi və siyasi həyatına dair məlumat toplamaq və

öz dövlətinin xarici işlər nazirliyinə çatdırmaq;

4) öz dövlətinin vətəndaşları üçün inzibati və notariat funksiyaları həyata keçirmək;

5) öz dövlətinin dəniz və hava gəmilərinə, digər nəqliyyat növləri və onların heyəti

ilə bağlı müəyyən vəzifələr yerinə yetirmək;

6) öz dövlətinə səfər edən əcnəbilərə vizalar vermək və s.

1963-cü il Konvensiyasına görə, konsulluq idarəsinin heyəti *üç kateqoriyaya* bölünür:

1) konsulluq xidmətinə olan və konsulluq funksiyalarını yerinə yetirən vəzifəli şəxslər;

2) inzibati-texniki iş yerinə yetirən konsul qulluqçuları;

3) xidmətçi heyət.

Azərbaycan Respublikasının konsulluqlarının heyəti, funksiyaları, funksiyaların həyata keçirilməsi qaydası və digər məsələlər Azərbaycan Respublikasının 8 fevral 1994-cü il tarixli Qanunu ilə təsdiq edilmiş *Azərbaycan Respublikasının Konsul Nizamnaməsində öz* əksini tapmışdır.

12. Konsulun təyin olunması və onun funksiyalarının xitam olunması. Konsullar, bir qayda olaraq, xarici işlər idarəsi tərəfindən təyin olunur. Təyin olunmuş şəxsə onun səlahiyyətlərini təsdiq edən xüsusi sənəd – *konsul patenti* verilir. Bu sənəddə həmin şəxsin adı, rütbəsi, tutduğu vəzifə, konsul dairəsi və konsulluğun yerləşdiyi yer göstərilir. Konsul patenti diplomatik kanallar vasitəsilə qəbul edən dövlətin hökumətinə göndərilir. Həmin dövlət (adətən, xarici işlər idarəsi), əgər təyin olunmuş şəxsə etirazı yoxdursa, onun öz vəzifəsinin icrasının başlanmasına icazə - *ekzekvatura* verir. Ekzekvatura ya ayrıca sənəd, ya da konsul patentinin üzərində təsdiqləyici yazı şəklində olur. Ekzekvaturanın verildiyi andan konsul missiyasi başlamış sayılır.

Konsulluq dairəsinin hüdudları və ya konsulluq idarəsi başçısının dərəcəsi dəyişərkən, o, yeni ptent və ekzekvatura almalıdır. Konsulluq heyətinin digər üzvləri üçün bu, tələb olunmur; lakin qəbul edən dövlətin xarici işlər idarəsi onların təyinatı barədə məlumatlandırılmalıdır.

Diplomatik nümayəndəliklərin konsul şöbələrinin müdirləri üçün, bir qayda olaraq, konsul patentinin göndırilməsinə və ekzekvaturanın alınmasına ehtiyac yoxdur. Diplomatik heyətin digər üzvləri kimi, onların təyin olunması haqqında qəbul edən dövlətin müvafiq orqanına sadəcə olaraq məlumat verilir.

Konsulun missiyası aşağıdakı hallarda *sona yetir:*

- onu təyin etmiş dövlət tərəfindən konsulun geri çağırılması;
- konsulun persona non qrata elan olunması;
- konsul patentinin müddətinin başa çatması;
- konsulluq dairəsinin yerləşdiyi ərazinin qəbul edən dövlətin suverenliyindən çıxması;
- konsulluq idarəsinin bağlanması;

- konsulluq münasibətlərinin xitam olunması;
- təmsil olunan dövlət ilə qəbul edən dövlət arasında müharibə başlaması.

13. Konsulluqların və onların heyətininimtiyaz və immunitetləri. Konsul imtiyaz və immunitetləri, 1963-cü il Vyana Konvensiyasının preambulasında göstərildiyi kimi, "ayrı-ayrı şəxslərin mənfəəti üçün deyil, konsulluq idarələri tərəfindən öz funksiyalarının səmərəli həyata keçirilməsini təmin etmək üçün verilir". Konvensiyaya görə, konsulluqlar aşağıdakı imtiyaz və immunitetlərə malikdirlər:

konsulluğun binalarının toxunulmazlığı ("təxirə salınmaz müdafiə tədbirlərinin görülməsinin tələb edən yanğın və ya digər təbii fəlakət hallarindan" başqa);

arxivlərin, sənədlərin və rəsmi yazışmaların toxunulmazlığı;

konsulluğa mənsub olan əmlakın və nəqliyyat vasitələrinin toxunulmazlığı;

bütün vergi və rüsumlardan azad olunma;

öz dövlətinin hökuməti, diplomatik və konsulluq nümayəndəlikləri ilə sərbəst və maneəsız əlaqə saxlanılması (o cümlədən diplomatik və konsul kuryer və şifrlərindən istifadə etmək hüququ);

bayraq və emblemdən istifadə etmək hüquq.

Konsulların heyəti üçün hansı imtiyaz və immunitetlərin nəzərdə tutulması ikitərəfli konsulluq konvensiyalarında müxtəlif cür həll olunur. Bir sıra bu cür konvensiyalarda, 1963-cü il Vyana Konvensiyasının əksinə olaraq, konsulluqların əməkdaşları üçün, demək olar ki, bütün diplomatik imtiyaz və immunitetlər nəzərdə tutulur. Vyana Konvensiyasının özündə isə bəzi məhdudiyyətlər əks olunmuşdur. Məsələn, 41 ci maddədə deyilir; "1. Konsulluğun vəzifəli şəxsləri, ağır cinayətlər törətdiklərinə görə səlahiyyətli məhkəmə orqanlarının qərarı ilə mümkün olan hallardan başqa, həbs edilə və ya həbsdə saxlanıla bilməzlər. 2. Bu maddənin 1-ci bəndində göstərilən hallar istisna olmaqla, yalız qanuni qüvvəyə minmış məhkəmə qərarını icra edildiyi hallardan başqa, konsulluğun vəzifəli şəxslərinin azadlığı heç bir formada məhdudlaşdırıla bilməz". Konvensiyanın 44-cü maddəsinə əsasən, göstərilən şəxslər ifadə vermək üçün məhkəməyə çağrıla bilərlər. Doğrudur, məhkəməyə gəlməkdən imtinaya görə onlara cəza tədbirləri

tətbiq oluna bilməz. Qeyd edilənlərdən başqa, konsulluqların əməkdaşları və onların ailə üzvləri aşağıdakı imtiyaz və immunitetlərdən istifadə edirlər; a) müəyyən vergi güzəştləri; b) gömrük imtiyazları; c) hərbi və digər şəxsi mükəlləfiyyətlərdən azad olunma və s.

Mövzö 11: BEYNƏLXALQ İNSAN HÜQUQLARI HÜQUQU

Plan:

1. Beynəlxalq insan hüquqlari hüququnun anlayışı və inkişaf tarixi

2.Beynəlxalq insan hüquqları hüququnun mənbələri

3.İnsan hüquqlarının təsnifatı

4. İnsan hüquqları sahəsində dövlətlərin beynəlxalq öhdəliklərinin təsnifatı

5. İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanızmləri

Ədəbiyyat siyahısı.

Гусейнов Л.Г. *Международная ответственность государств за нарушения прав человека.* Киев, 200.

Гусейнов Л.Г. *Международные обязательства государств в области прав человека.* Баку,1998.

Гусейнов Л.Г. Ответственность государств за нарушения догоаорных обязательств в области прав человека (на примере Европейской Конвенции о защите прав и основных свобод человека) //*Московский журнал международного права. 1998. специальный выпуск.* С. 140-168.

Даниленко Г.М. *Международная защита прав человека. Вводный курс.* М., 200

Карташкин В.А. *Прав человека в международном и внутригосударственном праве.* М., 1995.

Мюллерсон Р.А. *Права человека: идеи, нормы,реальрость.* М., 1991.

Энтин М.Л. *Международные гарантии прав человека.Практика Совета Европы.* М., 1992.

Van Boven T. General Course on Human Rights // *Collected Courses of European Law.* 1993. vol.IV.Book 2.

Buergenthal T. The Normative and Institutional Evolution of International Human Rights // *Human Rights Quarlerly.* 1997. vol.19. P.703-723.

Davidson S. *The Inter-American Human Rights System.* Dartmounth: Aldershot-Broofield USA-Singapore-Sydney.1997.

Frowein J.A.General Course: The European Convention on Human Rights as the Public Order of Europe //*Collected Courrses of the Academy of European Law.*1990. vol. 1. Book 2. P.267-358.

Gomien D, Harris D., Zwaak L. *Law and Practice of the European Convention on Human Rights and the European Social Charter.* Council of Europe Pulbishing: 1996.

Harris D.J., O'Boyle M., Warbrik C. *Law of the European Convention on Human Rights.* London-Dublin-Edinburgh.1995.

International Human Rights in Context: *Law, Politics, Morals*(H.J.Steiner and P.Alston eds.). Oxford. 1996.

Kamminga M.T. *Inter-State Responsibility for Violations of Human Rights*. Philadelphia. 1992.

Meron T. *Human Rights and Humanitarian Norms as Customary Law.* Oxford. 1991

Novak M. *UN Covenant on Civil and Political Rights: CCPR Commentary.* Kehl-Strasbourg-Arlington. 1996.

1. Beynəlxalq insan hüquqlari hüququnun anlayışı və inkişaf tarixi.

İnsan hüquqlarının müdafiəsi ideyası özü-özlüyündə dövlətdaxili hüququn məhsuludur. Bu ideyanın məğzi ondan ibarətdir ki, istənilən fərd məhz insan varlığı olduğuna görə doğulduğu andan müəyyən ayrılmaz hüquqlara malikdir və dövlət bərabər əsasda, heç bir ayrı-seçkilik olmadan bu hüquqları qanunvericilikdə

və praktikada təmil etməlidir. Göstərilən ideyanın hüquqi normada öz ifadəsini tapması (yəni pozitivləşməsi) dövlətdaxili hüquq sistemilərinə çoxdan məlumdur. Müasir beynəlxalq hüququ səciyyələndirən məqamlardan biri kimi biz dərsliyin I fəslində göstərmişdik ki, *insan hüquqları ideyası ikinci dünya müharibəsindən sonra beynəlxalq səviyyəyə çıxmış və dövlətlərin müvafiq öhdilikləri şəklində təsbit olunmuşdur.* Əsas etibarilə, suveren və müstəqil dövlətlər arasında münasibətləri tənzimləmək missiyasını yerinə yetirən beynəlxalq hüquqda fərqlərin əsas hüquq və azadlıqlarını nizamlayan normaların inkişaf etməsi çox böyü əhəmiyyət kəsb edir. Bu normaların məcmusu ***beynəlxalq insan hüquqları hüququnu*** (international human riqhts law) təşkil edir.

Beynəlxalq hüququn bu sahəsi ədəbiyyatda müxtəlif cür adlandırılır: "insan hüquqlarının beynəlxalq müdafiəsi", "beynəlxalq hüquqda insan hüquqları", "beynəlxalq humanitar hüquq" və s. Bundan sonrakı fəsildə biz görəcəyik ki, beynəlxalq humanitar hüquq beynəlxalq hüququn digər bir müstəqil sahəsidir və müharibə adət və qanunlarını əhatə edir. Beynəlxalq hüquq elmində, demək olar ki, hamılıqla qəbul olunmuş bu termini genişləndirmək və onunla insan hüqularına da əhatə etmək və ya onu yalnız insan hüquqlarına aid etmək, zənnimizcə, doğru deyildir və bu ideya qətiyyən mövcud beynəlxalq sənədlərə və praktikaya söykənmir. İlk iki termin isə formal-hüquqi baxımından qəbul edilə bilməz. Əgər biz beynəlxalq münasibətlərin deyil, beynəlxalq hüququn sahələrindən danışırıqsa, onda müvafiq normal məcmusunu "hüquq" adlandırmalıyıq: məsələn, dəniz hüququ, beynəlxalq müqavilələr hüququ, diplomatiya hüququ, beynəlxalq cinayət hüququ və s. (yeri gəlmişkən, bəzi dərsliklərdə bu günə kimi "beynəlxalq cinayət hüququ" əvəzinə "cinayətkarlıqla beynəlxalq mübarizə" ifadəsi işlədilir).

İnsan hüquqlarının beynəlxalq-hüquqi müstəviyə çıxmasından danışarkən bir məqamı xüsusilə vurğulamaq lazımdır: heç bir mövcud beynəlxalq müqavilə bilavəsitə fərdlərə hüquq və azadlıqlar vermir. İnsan hüquqları sahəsindəki müqavilələrdə işlədilən "hər kəsin... hüququ vardır" konstruksiyası birbaşa fərdlərə deyil, dövlətlərə ünvanlanmışdır. Dövlət müqavilənin iştirakçısı olan *digər dövlətlər qarşısında* öz üzərinə öhdəlik götürür ki, müəyyən hüquq və azadlıqları

yurisdiksiyası çərəivəsində hər bir şəxsə təmin etsin. Belə bir sual ortaya çıxa bilər: əgər hər bir dövlətdə əsas insan hüquları təsbit olunursa, onda beynəlxalq-hüquqi tənzimləməyə nə ehtiyac vardır? Beynəlxalq hüququn bu sahədə rolunu biz aşağıdakılarda görürük: a) insan hüquqlarının təbii xarakter daşımasını və dövlətin qanunvericiliyindən kənarda və ondan asılı olmayaraq mövcud olmasını bəyan etmək; b) insan hüquqlarının müdafiəsi məsələsinin dövlətin daxili işi olmadığını bəyan etmək; c) dövlətlər üçün ümumi standartlar müəyyən etmək (əsas insan hüquq və azadlıqlarının "kataloqunu" müəyyən etmək); ç) dövlətlərin insan hüquqları sahəsindəki öhdəliklərini yerinə yetirmələri üzərində nəzarət mexanizmləri müəyyən etmək.

Beləliklə, ***insan hüquqlarının müdafiəsi sahəsində ümumi standartlar müəyyənləşdirən və bu standartların dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarət məqsədilə xüsusi mexanizmlər müəyyən edən normaların məcmusuna beynəlxalq insan hüquqları hüququ deyilir.***

Beynəlxalq insan hüquqları hüququnun tarixi BMT Nizamnaməsindən başlamışdır.

Bundan əvvəl ayrı-ayrı aktlar mövcud olsa da (məsələn, köləliyin ləğvi, milli azlıqların müdafiəsi və s. ilə bağlı), insan hüquqlarının universal səviyyədə müdafiəsi ideyası ilk dəfə olaraq məhz BMT Nizamnaməsində öz əksini tapmışdır. Burada "irqinə, cinsinə, dilinə, və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi" BMT-nin əsas məqsədlərindən biri kimi, bəyan edilir (1-ci maddə). "Bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verilməsi" (55-ci maddə) və bunun üçün BMT ilə birgə və ya müstəqil tədbirlər görülməsi (56-cı maddə) dövlətlərin üzərinə vəzifə kimi qoyulur. Gördüyümüz kimi, bu öhdəliklər dəqiq və birmənalı ifadə olunmamışdır. Daha doğrusu, söhbət burada insan hüquqlarının təmin edilməsi və ya insan hüquqlarına hörmət edilməsi vəzifəsindən deyil, bu hüquqlara hörmətin "dəstəklənməsi və həvəsləndirilməsi" vəzifəsindən gedir. Bu vəzifənin məzmununu konkret situasiyalara tətbiq etmək olduqca çətindir. Praktik olaraq bu

o deməkdir ki, yalnız insan hüquqlarına tam etinasız yanaşan, bu hüquqları kobud və kütləvi şəkildə pozan dövlət yuxarıda göstərilən Nizamnamə öhdəliyini yerinə yetirməmiş olur.

İkinci bir tərəfdən, BMT Nizamnaməsində konkret insan hüquq və azadlıqları sadalanmır. Hansı hüquqların əsas insan hüquqlarına aid olduğunu və onların "beynəlxalq kataloqunu" müəyyən etmək üçün 10 dekabr 1948-ci il tarixdə BMT Baş Assambleyasının 217 (III) saylı qətnaməsi ilə *Ümumdünya İnsan Hüquqları Bəyannaməsi* qəbul edildi. 58 BMT üzvündən 48-i Nizamnamənin lehinə səs vermiş, 8 dövlət, o cümlədən SSRİ bitərəf qalmışdı (iki dövlət isə, ümumiyyətlə, iştirak etmirdi). 30 maddədən ibarət olan bu sənəddə vətəndaş və siyasi hüquqlardan başqa, bir sıra iqtisadi, sosial və mədəni hüquqlar da (məsələn, işləmək hüququ, təhsil hüququ, istirahət hüququ və s.) təsbit olunmuşdur. Bəyannamə beynəlxalq insan hüquqları hüququnun, habelə bütövlükdə beynəlxalq hüququn inkişafında misilsiz rol oynamışdır. Onun başlıca müddəaları bir çox konstitusiyalarda və digər qanunvericilik aktlarında öz əksini tapmış, xeyli sayda milli məhkəmə qərarlarının əsasını təşkil etmişdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin hüquqi xarakteri barədə müxtəlif fikirlər mövcudur. Hər şeydən öncə, qeyd edək ki, Bəyannamə BMT Baş Assambleyasının qətnaməsidir və onun bilavəsitə hüquqi qüvvəsi yoxdur; müqavilə əvəzinə qətnamə qəbul etməklə, dövlətlər öz üzərlərinə məcburi öhdəliklər götürmək istəməmişlər. Lakin Bəyannamənin əksər müddəaları bu gün adət kimi hamılıqla tanınmışdır. Bilavəsitə olmasa da, dövlətlərin ümumi praktikası (müvafiq müqavilələrdə iştirak, Bəyannamənin milli qanunvericiliyə bu və ya digər şəkildə daxil edilməsi, məhkəmə qərarlarında Bəyannaməyə istinad edilməsi və s.) *vasitəsilə* bu müddəalar ümumi beynəlxalq adət hüququnun bir hissəsinə çevrilmişdir. Lakin bu deyilənləri bütövlükdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə aid etmək düzgün olmazdı: məsələn, sığınacaq hüququnu (14-cü maddə), işsizlikdən müdafiə hüququnu (23-cü maddəsinin 1-ci hissəsi), asudə vaxt hüququnu (24-cü maddə) və bir sıra digər hüquqları heç də bütün dövlətlər üçün məcburi olan normalar kimi qəbul etmək olmaz.

Əsas insan hüquq və azadlıqlarını *hüquqi sənəd* çərçivəsində təsbit etmək məqsədilə 1966-cı ildə iki universal müqavilə imzalandı – *İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt* (3 yanvar 1976-cı ildə qüvvəyə minmişdir) və *Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt* (23 mart 1976-cı ildə qüvvəyə minmişdir). Adlarından göründüyü kimi, birinci Paktda iqtisadi, sosial və mədəni hüquqlar, ikinci Paktda isə vətəndaş və siyasi hüquqlar öz əksini tapmışdır. Formal-hüquqi baxımdan Vətəndaş və siyasi hüquqlar haqqında Pakt daha mükəmməldir və o, iştirakçı dövlətlər üçün daha aydın və dəqiq müəyyən olunmuş öhdəliklər nəzərdə tutur. Paktda nəzərdə tutulmuş başlıca öhdəlik ondan ibarətdir ki, dövlət öz ərazi hüdudlarında və yurisdiksiyası çərçivəsində olan hər bir şəxsin bu Paktda təsbit olunmuş hüquqlarına *hörmət etməli* və onları *təmin etməlidir* (2-ci maddənin 1-ci hissəsi). Paktdan irəli gələn öhdəliklərini həyata keçirmək üçün dövlət zəruri qanunvericilik, inzibati və digər tədbirlər görməli (2-ci maddənin 2-ci hissəsi) və habelə pozulmuş hüquların müdafiəsi və bərpası məqsədilə şəxsə effektiv dövlətdaxili hüquqi müdafiə vasitələri təmin etməlidir (2-ci maddənin 3-cü hissəsi). Vətəndaş və siyasi hüquqlar haqqında Paktın daha bir üstün cəhəti ondadır ki, o, iştirakçı dövlətlərin öz öhdəliklərini yerinə yetirmələrinə nəzarət etmək məqsədilə xüsusi mexanizm nəzərdə tutur. Bu, 28-ci maddənin əsasında təsis olunmuş İnsan hüquqları komitəsidir (bu barədə aşağıda bəhs ediləcəkdir). Pakta iki protokol əlavə olunmuşdur: İnsan hüquqları komitəsinə fərdi şikayətlərə baxmaq səlahiyyəti verən *1966-cı il Fakultativ Protokolu və Ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakultativ Protokol (1989-cu il).*

Beynəlxalq insan hüquqları hüququnun sonrakı inkişafı ayrı-ayrı insan hüquqlarına həsr olunmuş müqavilələrin bağlanması və insan hüquqları sahəsində beynəlxalq mexanizm və prosedurların inkişaf etdirilməsi və təkminləşdirilməsi ilə əlamətdardır. Bu gün beynəlxalq insan hüquqları hüququ beynəlxalq hüququn ən intensiv inkişaf edən və dövlətdaxili hüquq ilə ən sıx "əməkdaşlıq edən"sahəsidir.

2.Beynəlxalq insan hüquqları hüququnun mənbələri. Insan hüquqları sahəsindəki beynəlxalq öhdəliklər, əsas etibarilə, müqavilə

mənşəlidir. Müqavilənin üstünlüyüondadır ki, o, dövlətlərin konkret insan hüquqlarının müdafiəsi ilə bağlı öhdəliklərini dəqiq müəyyən edir və ən əsası, bu öhdəliklərin yerinə yetirilməsini təmin etməli olan xüsusi mexanizm və prosedurlar nəzərdə tutur.

Hal-hazırda insan hüquqları sahəsində 70-dən artıq beynəlxalq müqavilə mövcuddur. Bundan əlavə, Beynəlxalq əmək təşkilatı (BƏT) çərçivəsində bəzən sosial ədalətin corpus yuris-i adlandırılan çoxlu sayda konvensiyalar qəbul olunmuşdur.

Insan hüquqları sahəsindəki mövcud beynəlxalq müqavilələri dörd kateqoriyaya bölmək olar:

1) Ümumi müqavilələr. Bu müqavilələrdə, demək olar ki, bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunur. Ümumi müqavilələr həm universal, həm də regional səviyyədə mövcuddur. Universal müqavilələrə *İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktı və Vətəndaş və siyasi hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktı aiddir.* Ümumi regional müqavilələr aşağıdakılardır. *İnsan hquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası); Avropa Sosial Xartiyası; Amerika İnsan Hüquqları Konvensiyası; İqtisadi, sosial və mədəni hüquqlar sahəsində Amerika İnsan Hüquqları Konvensiyasına 1988-ci il Əlavə Protokolu; İnsan və xalqların hüquqları haqqında 1981-ci il Afrika Xartiyası.*

2) Xüsusi müqavilələr. Bu müqavilələr kokret insan hüquqlarının müdafiəsinə yönəlmişdir. Xüsusi müqavilələr də həmçinin universal və regional səviyyədə bağlanır. Universal müqavilələr, əsasən, bunlardır: *Genosid cinayətin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası; 1926-cı il Kölelik Konvensiyası; Köləliyin, qul ticarətinin və köləliyə oxşar institut və adətlərin ləğv edilməsi haqqında 1956-cı il Əlavə Konvensiyası; Zorla işlətməyin ləğv olunması haqqında 1957-ci il 105 saylı BƏT Konvensiyası; İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə 1984-cü il Konvensiyası.* Regional səviyyədə bağlanmış xüsusi müqavilələrə bir sıra misallar

gətirək: *İşgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair 1987-ci il Avropa Konvensiyası; İşgəncənin qarşısının alınması və cəzalandırılmasına dair 1985-ci il Amerika Konvensiyası; Sosial təminat haqqında 1972-ci il Avropa Konvensiyası.*

3) Ayrı-ayrı qrupların müdafiəsinə yönəlmiş müqavilələr. Cəmiyyətin ayrı-ayrı təbəqələrinin hüquqlarını qorumaq məqsədi güdən bu müqavilələrə misal olaraq aşağıdakıları göstərmək olar: *Qadınların siyasi hüquqları haqqında 1952-ci il Konvensiyası; Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası; Bütün miqrant-işlərinin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Beynəlxalq Konvensiyası; Miqrant işlərinin hüquqi statusu haqqında 1977-ci il Avropa Konvensiyası; Milli azadlıqların müdafiəsinə dair 1995-ci il Çərçivə Konvensiyası; Müstəqil ölkələrdə köklü və tayfa xalqlarına dair 1989-cu il 169 saylı BƏT Konvensiyası və s.*

4) Ayrı-seçkilik məsələlərinə aid olan müqavilələr. Bu müqavilələr irqi və ya cinsi əsaslara görə, təhsil, işədüzəlmə və s. sahələrdə ayrı-seçkiliyin qarşısını almaq məqsədi daşıyır. Bu məsələ ilə bağlı bir sıra universal müqavilələr mövcuddur; məsələn: *İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyası; Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Beynəlxalq Konvensiyası; Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyası; Təhsil sahəsində ayrı-seçkilik əleyhinə 1960-cı il YUNESKO Konvensiyası və s.*

Insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində *adət normalarının* da müəyyən rolu vardır. Beynəlxalq hüquqi adətin bu sahədə rolu müvafiq müqavilə müddəalarının qeyri-iştirakçı dövlətlərə şamil edilməsi və həmin müqavilələrdə nəzərdə tutulmamış hüquqi müdafiə vasitələrinin təmin edilməsi ilə məhdudlaşır. Əsas insan hüquqlarının müəyyən hissəsi artıq ümumi beynlxalq adət hüququnun bir hissəsinə çevrilmişdir və hər hansı bir müqavilənin iştirakçısı olub-olmamaqdan asılı olmayaraq bütün dövlətlər üçün məcburidir. Məsələn, indi heç bir dövlət Vətəndaş və siyasi hüquqlar haqqında 1966-cı il Paktında iştirak

etmədiyini bəhanə gətirərək (belə dövlətlərin sayı 40-dan artıqdır), işgəncələr tətbiq edə bilməz və ya şəxsi özbaşına və ya qanuni əsas olmadan həyatdan məhrum edə bilməz. Dövlətlərin aşağıdakı hüquqa zidd əməlləri beynəlxalq adət hüququnun pozuntusu kimi tövsif edilə bilər: genosid; aparteid; köləlik; bir sıra insan hüqüqlarının aşağıdakı sistematik və ya kobud pozuntuları – şəxsin qanunsuz həyatdan məhrum edilməsi; işgəncə; irqi ayrı-seçkilik; uzunmüddətli özbaşına həbs; şəxsin zorla müəyyən ərazidən çıxarılması; minimal məhkəmə təminatlarının pozulması; qanunun geriyə tətbiqi.

İnsan hüquları sahəsində *tövsiyə xarakterli* sənədlər köməkçi hüquq mənbəyi kimi böyük əhəmiyyətə malikdir. Bu cür sənədlərə misal olaraq aşağıdakıları göstərmək olar:

BMT Baş Assambleyasının qətnamələri; o cümlədən bu qətnamələrlə qəbul olunmuş aktlar (məsələn, "*Dözümsüzlüyün və din və ya əqidələr əsasında ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında "1981-ci il Bəyannaməsi; Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin Minimal standart qaydaları (1985-ci il); Mill,etnik,dil və dini azdlıqlara mənsub olan şəxslərin hüquqları haqqqında 1992-ci il Bəyannaməsi və s.*); beynəlxalq konfransların aktları (məsələn, 30 sentyabr 1990-cı il tarixdə Uşaqlar naminəyüksək səviyyədə Ümumdünya görüşü zamanı qəbul olunmuş *Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında Ümumdünya Bəyannaməsi;* İnsan hüquqları üzrə Ümumdünya Vyana Konfransında (14-25 iyun 1993-cü il) qəbul olunmuş Vyana Bəyannaməsi və Hərəkət Proqramı və s.) ; ATƏM (indiki ATƏT) çrçivəsində qəbul olunmuş və özündə siyasi öhdəliklər ehtiva edən sənədlər və b.

Bu sənədlərdə həm bütövlükdə insan hüquqlarının müdafiəsi, həm də konkret insan hüquqlarının həyata keçirilməsi ilə bağlı tövsiyə xarakterli standartlar müəyyən olunur. Adətən, dövlətlər bu standartlara riayət etməyə çalışır, bəzi hallarda isə onları hətta öz qanunvericiliyinə daxil edirlər.

3.İnsan hüquqlarının təsnifatı. İnsan hüquqlarının ən sadə təsnifatı onların vətəndaş, siyasi, iqtisadi, sosial və

mədəni hüquqlara ayrılmasıdır. Universal və regional səviyyədə bağlanan müqavilələr şox zaman bu bölgüyə uyğunlaşdırlır. Geniş yayılmış daha bir təsnifat isə tarıxı meyara söykənir. Söhbət fransız alimi K.Vasak tərəfindən irəli sürülmüş "*insan hüquqlarının üç nəsli* " *konsepsiyasından* gedir. Bu konsepsiyaya görə, hazırda mövcud olan bütün əsas insan hüquqları öz inkişaf tarixində üç mərhələ keçmişdir və bu mərhələlər əsasında üç nəsil fərqləndirilir.

Birinci nəsil vətəndaş hüquqları və siyasi hüquqlar aiddir; Qərb ölkələrinin məhşur sənədlərində yalnız bu hüquqlar öz əksini tapmışdır. Bu hüquqlar aşağıdakılardır: yaşamaq hüququ; işgəncəyə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmaq hüququ; köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ; azadlıq və toxunulmazlıq hüququ; sərbəst hərəkət etmək hüququ; fikir, vicdan və din azadlığı; sərbəst toplaşmaq hüququ; birləşmək hüququ; dövlət işlərinin aparılmasında iştirak etmək hüququ; və s.

XX əsrin əvvəllərində Meksikanın (1917-ci il) və Rusiyanın (1918-ci il) Konstitusiyalarında insan hüquqlarının *ikinci nəsil* – sosial-iqtisadi və mədəni hüquqlar ortaya çıxır və ikinci dünya müharibəsindən sonra isə bu hüquqlar bir sıra beynəlxalq müqavilələrdə (1961-ci il Avropa Sosial Xartiyasında; İqtisadi, Sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktında və s.) ayrıca təsbit olunur. Söhbət burada aşağıdakı hüquqlardan gedir: işləmək hüququ; həmkarlar ittifaqı yaratmaq hüququ; tətil hüququ; sosial təminat hüququ; minimal həyat səviyyəsi hüququ; istirahət hüququ; sağlamlığın qorunması hüququ; təhsil hüququ; mədəni həyatda iştirak etmək və mədəni sətvətlərdən istifadə etmək hüququ və s.

Üçüncü nəsil yaranması son dövrün inkişaf xüsusiyyətləri ilə izah edilir. Bu izaha görə, indi obyektiv olaraq elə hüquqlar meydana gəlmişdir ki, onlar ayrılıqda fərdə və ya fərdlər qrupuna yox, bütövlükdə məcmuya, xalqa məxsusdur: məsələn, inkişaf hüququ; sülh hüququ; sağlam ətraf mühitdə yaşamaq hüququ və s. Bu hüquqlar "kollektiv hüquqlar" və ya "həmrəylik hüquqları"adlanır. Lakin göstərilən hüquqlar tam formalaşmamışdır və onlar dəqiq normativ məzmuna malik deyldir. Məsələ burasındadır ki, bu hüquqları fərdin dövlətə qarşı subyektiv tələbi şəklində formulə etmək, demək olar ki, qeyri-mümkündür. Məsələn, inkişaf

hüququnu və ya sülh hüququnu iddia qaydasında məhkəmədə necə müdafiə etmək olar? Hüquq yalnız o yerdə var ki, orada onun müdafiəsi vasitəsi vardır (ubi jus ibi remedium). İkinci bir tərəfdən, bu hüquqlar, prinsip etibarilə, ayrıca götürülmüş bir dövlətdə tam həyata keçirilə bilməz.

İnsan hüquları içərisində habelə *mütləq hüquqlar və dövlətlərin müəyyən hallarda geri çəkilə bildiyi hüquqlar* fərqləndirilir. Mütləq hüquqlar o insan hüquqlarıdır ki, dövlət heç bir halda, o cümlədən fövqəlada vəziyyət şəraitində onlardan geri çəkilə bilməz. Avropa İnsan Hüquqları Konvensiyasına görə, bu aşağıdakı hüquqlardır: yaşamaq hüququ (maddə 2); işgəncələrə məruz qalmaq hüququ (maddə 3); köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ (maddə 4) və qanunsuz cəzaya yol verilməməsi (maddə 7).

4. İnsan hüquqları sahəsində dövlətlərin beynəlxalq öhdəliklərinin təsnifatı. Yuxarıda qeyd etdik ki, beynəlxalq səviyyəyə çıxmaqla, insan hüquqları dövlətlərin beynəlxalq öhdəlikləri şəklində təsbit olunur. Yəni "hər kəsin.... hüququ vardır" konstruksiyasında əks tərəf, istənilən halda, müvafiq öhdəlik daşıyan dövlətdir. Beynəlxalq-hüquqi təhlil üçün "medalın bu ikinci tərəfi" daha böyük maraq kəsb edir. Başqa sözlə, həmin konkret insan hüququna, həm də bütövlükdə insan hüquqalrının müdafiəsi ideyasına dövlətlərin beynəlxalq öhdılikləri prizmasından baxmaq daha məqsədəuyğun sayıla bilər. Biz aşağıda görəcəyik ki, dövlətlərin insan hüquqları sahəsindəki beynəlxalq öhdəlikləri ilə fərdin hüquq və azadlıqları, onların hüquqi məzmun baxımından heç də üst-üstə düşmür.

İnsan hüquqları sahəsində dövlətlər öz üzərlərinə müxtəlif xarakterli beynəlxalq öhdəliklər götürürlər. Hər şeydən əvvəl, onların iki qrupunu fərqləndirmək lazımdır: 1) maddi öhdəliklər və 2) implementasiya öhdəlikləri. İkinci qrup öhdəliklər – beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş mexanizmlərin fəaliyyəti ilə bağlı dövlətlərin həyata keçirməli olduqları vəzifələrdir: beynəlxalq orqana (məsələn, Vətəndaş və siyasi hüquqlar haqqında Paktın 40-cı maddəsi əsasında İnsan hüquqları komitəsinə) dövrü məruzələr təqdim

edilməsi: beynəlxalq orqanın (məsələn, Avropa insan hüquqları məhkəməsinin) fərdi şikayət üzrə çıxardığı qərarın icra edilməsi və s.

Maddi öhdəliklər, əlbəttə ki, əsas kütləni təşkil edir və çox zaman dövlətlərin insan hüquqları sahəsindəki beynəlxalq öhdəlikləri dedikdə, məhz onlar nəzərdə tutulur. Bu öhdəliklər həm bütövlükdə insan hüquqlarını, həm də ayrı-ayrı hüquq və azadlıqları əhatə edir. Müxtəlif meyarlar tətbiq etməklə, göstərilən öhdəlikləri aşağıdakı *növlərə* ayırmaq olar:

1) müqavilə öhdəlikləri və beynəlxalq adətdən irəli gələn öhdəliklər;

2) ümumi və kokret öhdəliklər; konkret öhdəliklər öz növbəsində əsas və törəmə öhdəliklərə bölünür;

3) nəticə öhdəlikləri və davranış öhdəlikləri;

4) pozitiv və neqativ öhdəliklər;

5) "dərhal" və "tədricən" yerinə yetirməli olan öhdəliklər.

Ümumi və konkret öhdəliklər. Bu və ya digər müqavilənin iştirakçısı olmaqla, dövlət öz üzərinə konkret insan hüquqları ilə bağlı öhdəliklərlə yanaşı, müqavilədə təsbit olunmuş bütün hüquqlara aid olan *ümumi öhdəliklər* də götürür; məsələn, insan hüquqlarına hörmət etmək; insan hüquqlarının tədricən həyata keçirilməsinə səy göstərmək; insan hüquqlarını təmin etmək; insan hüquqlarını həyata keçirərkən ayrı-seçkiliyə yol verməmək; qanunvericilik və digər tədbirləri həyata keçirmək; effektiv dövlətdaxili hüquqi müdafiə vasitələri təmin etmək və s. (Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsi; İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsi; Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci maddəsi və s.).

Ayrı-ayrı insan hüquqlarına uyğun olan *konkret öhdəlikləri* öz növbəsində əsas və törəmə öhdəliklərlə ayırmaq olar. *Əsas öhdəlik* insan hüquqnun bilavəsitə məzmununu təşkil edir. İnsan hüquqlarının pozulması – ilk növbədə, əsas öhdəliyin pozulmasıdır. Məsələn, yaşamaq hüququnun pozulması, hər şeydən əvvəl, dövlət tərəfindən şəxsin özbaşına və ya qanunsuz öldürülməsində ifadə olunur. *Törəmə öhdəliklər* isə birbaşa və ya dolayı yolla əsas öhdəliklərin məzmunundan irəli gəlir və onları tamamlayır. Məsələn, yaşamaq hüququ ilə bağlı

olan aşağıdakı törəmə öhdəlikləri göstərmək olar: insan həyatının mühafizəsinə yönəlmiş qanunvericilik aktlarının qəbul edilməsi; qəsdən adamöldürmə aktının təhqiq edilməsi; təqsirli şəxslərin cəzalandırılması və s. Təbii ki, bu öhdəliklər pozulanda da dövlət məsuliyyət daşıyır.

Nəticə öhdəlikləri və davranış öhdəlikləri. Nəticə öhdəlikləri dövlətdən müəyyən nəticənin və ya məqsədin əldə olunmasını tələb edir; dövlət bu nəticəyə nail olmaq üçün özü istədiyi davranış variantını seçə bilər. Əslində insan hüquqları sahəsindəki öhdəliklərin böyük əksəriyyəti nəticə öhdəlikləridir, belə ki, qanunvericilik, inzibati və özünün lazım bildiyi digər tədbirləri görməklə, dövlət *son nəticədə* fərdin hüququnu təmin etməlidir. Məsələn, əgər polis hər hansı şəxsı özünə yaşayış yeri seçmək azadlığından qanunsuz olaraq məhrum edirsə, yuxarı inzibati orqan və ya məhkəmə vasitəsilə dövlət hələ bu vəziyyəti düzəldə bilər və həmin qadağanı ləğv edə bilər. Ylnız əks halda dövlətin beynəlxalq məsuliyyəti ortaya çıxa bilər. Davranış öhdəlikləri isə dövlətdən müvafiq normada konkret müəyyən olunmuş əməlin həyata keçirilməsini tələb edir. Bunu etməməklə, dövlət öz beynəlxalq öhdəliyini pozmuş olur. Misallara müraciət edək. Vətəndaş və siyasi hüquqlar haqqında Paktın 25-ci maddəsində deyilir ki, "hər cür müharibə təbliğatı *qanunla* qadağan edilir". Avropa Sosial Xartiyasının 7-ci maddəsinin 2-ci bəndində dövlətlərin üzərinə belə bir vəzifə qoyulur ki, *qanunvericilik qaydasında* uşaqların təhlükəli və zərərli işlərə buraxılmasının minumal yaş həddini müəyən etsinlər. Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinin 1-ci bəndində göstərilir ki, "hər bir kəsin həyatı *qaunla* qorunur ". Bütün gətirilən misallarda davranış öhdəliyi müvafiq qanunun qəbul olunmasıdır. Belə bir qanunun qəbul edilməməsi dövlətin beynəlxalq öhdəliyinin pozulması deməkdir.

"Pozitiv" və "Neqativ" öhdəliklər. Mühüm praktik əhəmiyyətə malik olan bu bölgünün əsasıda bu və ya digər insan hüququnun həyata keçirilməsi üçün dövlətdən tələb olunan davranışın xaraqteri dayanır. Əgər fərdin hüququnun təmin olunması üçün dövlətdən yalnız müəyyən hərəkətləri etməkdən (şəxsi özbaşına öldürməkdən, işgəncə tətbiq etməkdən, şəxsi həyata müdaxilə etməkdən və i.a.) çəkinmək tələb olunursa, bu, neqativ öhdəlikdir. Pozitiv öhdəliklər isə, əksinə,

dövlətdən "aktiv müdaxilə", yəni müəyyən qanunvericilik, inzibati, təşkilati və digər tədbirlərin görülməsini tələb edir. Hal-hazırda elə bir insan hüququ yoxdur ki, onun tam təmin edilməsi dövlət tərəfindən hansısa pozitiv hərəkətlər olmadan mümkün olsun. Bu, həm "klassik" hüquqlara həm də ikinci nəsi hüquqlara aiddir. Doğrudur, bu zaman dövlətdən tələb olunan "müdaxilənin" *dərəcəsi* müxtəlif ola bilər: təbii ki, iqtisadi hüquqların həyata keçirilməsi üçün daha əhatəli və daha intensiv səylər tələb olunur.

"Dərhal" və "tədricən" yerinə yetirilməli olan öhdəliklər. Dövlətlərin insan hüquqları sahəsindəki öhdəliklərinin bu təsnifatına İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın 2-ci maddəsi "səbəb olmuşdur". Həmin maddənin 1-ci hissəsində deyilir: "Bu Pakta iştirak edən hər bir dövlət öz üzərinə vəzifə götürür ki, Paktda tanınmış hüquqların *tədricən* tam həyata keçirilməsini təmin etmək üçün, fərdi qadada və beynəlxalq yardım və əməkdaşlıq çərçivəsində, *özündə olan ehtiyatlardan maksimum istifadə etməklə... tədbirlər görsün* ". Bu müddəa, sözü gedən Paktın mərkəzi müddəası olmaqla, müqavilədən irəli gələnbütün digər öhdəliklərin təbiətini müəyyən edir. Verdiyimiz ayırmalardan görünür ki, iqtisadi, sosial və mədəni hüquqlar müəyyən hallardan – dövlətin lazımi ehtiyatlara (maddi ehtiyatlar, insan ehtiyatları və s.) malik olmasından və beynəlxalq yardımın olmasından asılı olaraq tədricən də həyata keçirilə bilər, yəni iştirakçı dövlətlərin Paktda təsbit olunmuş hüquqlara *təminat vermək* kimi birbaşa hüquqi öhdəliyi yoxdur (bu deyilənlər Paktin 8-ci maddəsinə (həmkarlar ittifaqları yaratmaq və onlara daxil olmaq) və 3-cü maddəsinə (qadın və kişilərin hüquq bərabərliyi) şamil olunmur). Başqa sözlə, fərdə qısa müddətdə, tutaq ki, işləmək hüququnun və ya minimal həyat səviyyəsi hüququnun təmin edilməsi dövlətin öz beynəlxalq öhdəliyini pozması kimi tövsif edilə bilməz. Dövlət əsaslı surətdə göstərə bilər ki, o, ehtiyaylarını maksimum səfərbər etməklə bütün zəruri tədbirləri görür və bu hüquqlar tədricən həyata keçiriləcəkdir.

Şübhəsiz ki, deyilənlər İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın "zəif" cəhətidir və bu, özü-özlüyündə həmin hüquqların xarakteri ilə bağlıdır. Əgər sözü gedən müddəanı Vətəndaş və siyasi hüquqlar haqqında Paktın ekvivalent

müddəası ilə müqayisə etsək, biz əhəmiyyətli fərqi görə bilərik. Həmin Paktın 2-ci maddəsində, yuxarıda göstərdiyimiz kimi, iştirakçı dövlətlərin bütün müvafiq hüquqları *təmin etmək* vəzifəsi təsbit olunmuşdur. Deməli, Vətəndaş və siyasi hüquqlar haqqında Paktdan irəli gələn öhdəliklərin yerinə yetirilməsini dövlət özü istədiyi kimi, tutaq ki, maliyyə çətinliklərinə və yaxud da ölkədə siyasi və ya iqtisadi sabitliyin olmamasına istinad etməklə, təxirə sala bilməz. Bu öhdəliklər dərhal yerinə yetirilməli olan öhdəliklərdir.

5. İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanızmləri.

Beynəlxalq insan hüquqları hüququnun yuxarıda verdiyimiz tərifindən aydın görünür ki, bu sahədə mövcud olan normativ massivi iki hissəyə ayırmaq olar: 1) hüquqi mexanizm (dövlətlərin maddi xarakterli öhdəliklərini nəzərdə tutan normalar); 2) implementasiya mexanizmi (insan hüquqlarının həyata keçirilməsi üzərində nəzarət mexanizmlərini (bunlara bəzən *institusional mexanizmlər* də deyirlər) müəyyən edən normalar). Bu bölgü əksər beynəlxalq müqavilələrin sturukturunda öz əksini tapmışdır. Belə ki, müqavilələrin ilk bölmələlərində, adətən, maddi normalar təsbit olunur, qalan hissədə isə müvafiq nəzarət orqanının təşkili və fəaliyyətinin hüquqi əsasları müəyyən edilir. Məsələn, üç bölmədən ibarət olan Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci bölməsi ayrı-ayrı insan hüquqlarına, ikinci bölməsi isə Avropa insan hüquqları məhkəməsinə həsr olunmuşdur. Burada bir şeyi əlavə edək ki, *institusional mexanizmlər* digər beynəlxalq sənədlərdə, məsələn, beynəlxalq orqan və ya təşkilatların qətnamələrində də nəzərdə tutula bilər.

İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində mövcud olan mexanizmlər müxtəlif xaraqterə malikdir. Bu mexanizmlər həm universal həm də regional səviyyədə mövcuddur. Yaradılması əsasına görə institusional mexanizmlər *müqavilə və qeyri-müqavilə mexanizmlərinə* bölünür.

Müqavilə mexanizmləri beynəlxalq müqavilələrdə nəzərdə tutulmuşur. Bu mexanizmlər, bir qayda olaraq, aşağıdakı səlahiyyətlərə malik olur: a) dövlətlərin müvafiq müzafiq müqavilələrdən irəli gələn öhdəliklərinin yerinə yetirilməsi haqqında məruzələrinin dinlənilməsi; b) yerlərdə ümumi situasiyanın öyrənilməsi

və ya konkret problemin həlli ilə bağlı təhqiqatların aparılması; c) insan hüquqlarının pozulması iddia edən fərdi və ya dövlətlərarası şikayətlərə baxılması.

Universal səviyyədə mövcud olan müqavilə mexanizmləri aşağıdakılardır; İnsan hüquqları komitəsi; İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə; İşgəncə əleyhinə komitə; Uşaq hüquqları komitəsi; Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitə; Üçlər qrupu. Buraya habelə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın yerinə yetirilməsinə nəzarət edən, amma əslində Paktın əsasında deyil, EKOSOK-un qətnaməsinə uyğun olaraq 1985-ci ildə təsis olunmuş İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitəni və BƏT və YUNESKO çərçivəsində fəaliyyət göstərən insan hüquqlarının müdafiəsi mexanizmlərini də əlavə etmək olar. Yuxarıda sadalanan orqanlardan yalız ilk üçü həm fərdi, həm də dövlətlərarası şikayətlərə baxmaq səlahiyyətinə malikdir. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitəyə isə yalız fərdi şikayətlərə baxmaq hüququ verilmişdir.

Insan hüquqları komitəsi Vətəndaş və siyasi hüquqlar haqqında Paktın 28-ci maddəsi əsasında yaradılmışdır. Komitə Paktın iştirakçıları tərəfindən 4 il müddətinə seçilən, amma öz dövlətlərini təmsil etməyən 18 ekspertdən ibarətdir. Paktın 40-cı maddəsinə görə, Komitə iştirakçı dövlətlərdən öz öhdəliklərini yerinə yetirmək-ləri barədə dövrü (5 ildən bir) məruzələr alır və bu məruzələrlə bağlı öz qed və təkliflərini irəli sürür.

Paktın 41-ci maddəsinə müvafiq olaraq, İnsan hüquqları komitəsi bir iştirakçı dövlətin digər iştirakçı dövlətə qarşı verdiyi və həmin dövlətin Paktdan irəli gələn öhdəliklərini pozduğunu iddia edən şikayətə baxmaq səlahiyyəti vardır. Lakin bu prosedurdan yalnız onu xüsusi formada qəbul edən, yəni 41-ci maddənin əsasında bəyanat təqdim edən dövlətlər istifadə edə bilərlər. Paktın 144 iştirakçısından yalnız 45-i indiyə qədər belə bəyanat vermişdir. Pakta görə, belə bir şikayət qəbul edən Komitə əvvəlcə vasitəçilik cəhdi edir, bir nəticə hasil olmadıqda isə, o, tərəflərin razılığı ilə məsələni *ad hoc* razılaşma komissiyasına göndərə bilər. Komitənin axır mərhələdə çıxardığı qərar məcburi xarakter daşımır. Qeyd edək ki, siyasi mülahizələr ucbatından dövlətlərarası şikayət proseduru bir dəfədə olsun istifadə olunmamışdır.

İnsan hüquqları komitəsinin daha bir səlahiyyəti 1966-cı ildə qəbul olunmuş *Fakultativ Protokolla* müəyyən olunmuşdur. Protokolun 1-ci maddəsinə görə, Komitə, özünü Paktda təsbit olunmuş hər hansı bir hüququn pozulmasının qurbanı hesab edən şəxsdən müvafiq dövlətə qarşı şikayət qəbul edə bilər və ona baxa bilər. Protokolun adından göründüyü kimi, fərdi şikayət proseduru məcburi deyildir və o, yalnız Protokolu ratifikasiya etmiş Paktin iştirakçılarına, yəni bu günə qədər 90-dan artıq dövlətə şamil edilir. Şübhəsiz ki, İnsan hüquqları komitəsinin yuxarıda göstərilmiş ilk iki səlahiyyətinə nisbətən, fərdi ərizə proseduru daha əhəmiyyətli və daha səmərəlidir. Şəxsin onun hüququnu pozan dövlətə qarşı çıxış edə bilməsi və beynəlxalq səviyyəyə çıxması dövlət üzərində mühüm nəzarət vasitəsidir. Komitənin fərdi şikayəti qəbul etməsi üçün müəyyən şərtlər mövcuddur: a) şəxs yalız dövlətdə olan bütün effektiv hüquq müdafiə vasitələrindən (məsələn, bütün məhkəmə instansiyalarından) istifadə etdikdən və müsbət nəticə əldə etmədikdən sonra şikayət vermək hüququ qazanır; əks halda ərizə baxılmaq üçün qəbul edilməyəcəkdir; b) dövlətdaxili orqanın çıxardığı qəti qərardan sonra altı aydan artıq müddət keçməməlidir; c) ərizə anonim olmamalıdır; ç) ərizə abstrakt olmamalıdır: şəxs Paktın konkret maddəsinin pozulması nəticəsində bilavəsitə onun özünə zərər dəydiyini göstərməlidir və s. Dövlət tərəfindən insan hüquqlarının pozulduğunu müəyyən etdiyi hallarda Komitə onun qarşısında aşağıdakı tələbləri qoya bilər: hüquqa zidd əməlin dayandırılması; bu cür pozuntuları gələcəkdə təkrar etməmək barədə təminat verilməsi; əvvəlki vəziyyətin (status qou ante-nin) bərpa edilməsi (məsələn, qeyri-qanuni həbsdə saxlanılan şəxsin buraxdırılması; əmlakın iddiaçıya geri qaytarılması və i.a.); şəxsə dəyən zərərin ödənilməsi və s. *Lakin İnsan hüquqları komitəsinin çıxardığı qərarlar hüquqi cəhətdən məcburi deyildir.* Dövlət bu qərarı yerinə yetirməyə də bilər və təəssüf ki, praktikada belə hallar az deyildir; bu halda həmin dövlətə qarşı Komitənin elə bir səmərəli tədbir görmək imkanı yoxdur. Bunula belə, əksər qərarlar dövlət tərəfindən icra olunur, gələcəkdə belə pozuntulara yol verməmək üçün lazımi qanunvericilik, inzibati, təşkilati və s. tədbirlər görülür.

İşgəncə əleyhinə komitə İşgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan raftar və ya cəza növləri əleyhinə 1984-cü il Konvensiyasının əsasında (17-ci maddə) təsis olunmuşdur. Komitə Konvensiyanın iştirakçı dövlətlər tərəfindən 2 il müddətinə seçilən 10 ekspertdən ibarətdir. Dövlətlərin dövri məruzələrini qəbu etmək və insan hüquqlarının pozulması halları ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqla yanaşı, İşgəncə əleyhinə komitəyə daha bir səlahiyyət verilmişdir: dövlətin ərazisində sistematik işgəncə tətbiq olunduğu barədə əsaslı məlumat aldıqda, o, öz üzvlərindən birini və ya bir neçəsini konfidensial təhqiqat aparmaq üçün (dövlətin razılığı olduqda, habelə onun ərazisində) təyin edə bilər və bu təhqiqatın nəticələrinə uyğun olaraq, dövlətə müvafiq tövsiyələr verə bilər.

İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə Irqi ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyasının əsasında yaradılmışdır. O, iştirakçı dövlətlər tərəfindən seçilən 18 ekspertdən ibarətdir. Komitənin səlahiyyətləri İnsan hüquqları komitəsinin səlahiyyətləri ilə üst-üstə düşür. Mühüm fərq ondan ibarətdir ki, 1965-ci il Konvensiyasında nəzərdə tutulmuş dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Bu o deməkdir ki, Komitənin müvafiq səlahiyyətini tanımaq barədə heç bir ilkin bəyanat vermədən istənilən iştirakçı dövlət, öz ərazisində irqi ayrı-seçkiliyə yol verən başqa bir iştirakçı dövlətə qarşı Komitəyə ərizə ilə müraciət edə bilər.

Uşaq hüquqları komitəsi Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyasının 43-cü maddəsi əsasında yaradılmışdır. Konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən 10 ekspertdən ibarətdir. Başlıca səlahiyyəti Konvensiyada iştirak edən dövlətlərin dövri məruzələrinə baxmaqdan ibarətdir. Komitə habelə müxtəlif ölkələrdə uşaqların vəziyyəti barədə məlumat toplayır və təhlil edir, müvafiq tövsiyyələr işləyib hazirlayır.

Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitə qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyasına (17-ci maddə) müvafiq olaraq təsis olunmuşdur. Konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən 23 ekspertdən ibarətdir. Komitə qadınlara qarşı

ayrı-seçkiliyin bütün məsələlərini nəzərdən keçirir, müxtəlif təşkilatlardan və ayrı-ayrı fərdlərdən daxil olan müraciətlərə baxır və burada göstərilən problemlərin həllində dövlətlərlə əməkdaşlıq edir. Konvensiyanın 1999-cu ildə qəbul olunmuş Fakultativ Protokoluna əsasən, sözü gedən Komitəyə fərdi şikayətlər qəbul etmək və baxmaq səlahiyyəti verilmişdir.

İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın iştirakçı dövlətlərinin təqdimatı ilə EKOSOK tərəfindən seçilən 18 ekspertdən ibarətdir. Komitə dövlətlərdən Paktın həyata keçirilməsi barədə dövri məruzələr alır, habelə Paktın ayrı-ayrı müddəaları ilə bağlı mühüm əhəmiyyət kəsb edən Ümumi Şərhlər (General Comments) verir.

Üçlər qrupu Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Beynəlxalq Konvensiyasının həyata keçirilməsinə nəzarət edir.

Regional səviyyədə mövcud olan müqavilə mexanizmlərinə aşağıdakılar daxildir: Avropa insan hüquqları məhkəməsi; İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa komitəsi; Amerikaarası insan hüquqları komissiyası və Amerikaarası insan hüquqları məhkəməsi; İnsan və xalqların hüquqları üzrə Afrika komissiyası və b.

Avropa insan hüquqları məhkəməsi. 1998-ci ilin noyabrın 1-ə qədər, yəni 11 saylı Protokolun qüvvəyə minməsinə qədər Avropa insan hüquqları məhkəməsi ilə yanaşı daha bir orqan – Avropa insan hüquqları komissiyası da mövcud idi. Göstərilən andan isə daimi və vahid orqan kimi Avropa insan hüquqları məhkəməsi fəaliyyət göstərir. Qeyd edək ki, bu məhkəmə insan hüquqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq mexanizmlərin ən səmərəlisidir. O, insan hüquqlarının pozulması ilə bağlı şikayətlərə baxan və fərdin bilavasitə beynəlxalq məhkəməyə müraciətini təmin edən ilk beynəlxalq məhkəmə orqanıdır.

Avropa İnsan Hüquqları Konvensiyasının 19-cu maddəsinə görə, dövlətlərin bu Konvensiyada və Protokollarda təsbit olunmuş öhdəliklərini yerinə yetirmələrini təmin etmək üçün Avropa insan hüquqları məhkəməsi yaradılır. Məhkəmənin tərkibinə daxil olan hakimlərin sayı Konvensiyanın iştirakçı dövlətlərinin sayına bərabərdir. Hakimlər öz dövlətlərini təmsil etmirlər. Onlar Parlament

Assambleyası tərəfindən Avropa Şurası üzvlərinin irəli sürdüyü şəxslərin siyahısından səs çoxluğu ilə seçilir. Hakimlər altı il müddətinə seçilirlər.

Məhkəmənin yurisdiksiyasına fərdi və dövlətlərarası şikayətlər aiddir. Hör iki prosedur məcburidir; Konvensiyanın iştirakçısı olan hər bir dövlətə qarşı həm fərdi, həm də dövlətlərarası şikayət irəli sürülə bilər. Məhkəmə fərdi şikayətləri yalnız müəyyən şərtlər daxilində öz icratına daxil edə bilər: a) bütün dövlətdaxili hüquq müdafiə vasitələri tükəndikdən sonra; b) müvafiq dövlətdaxili orqanın qəti qərarı qəbul edildiyi andan altı ay ərzində; c) ərizə anonim olmadıqda; ç) ərizə Məhkəmə tərəfindən artıq baxılmış şikayət ilə mahiyyətcə eyni olmadıqda və yaxud digər beynəlxalq orqan tərəfindən baxılmamış olduqda və s.

Məhkəmə ilk mərhələdə işin dostcasına həlli üçün səy göstərir.

Avropa İnsan Hüquqları Konvensiyasının 41-ci maddəsinə müvafiq olaraq, dövlət tərəfindən Konvensiyada nəzərdə tutulan hər hansı insan hüququnun pozulduğunu aşkar etdikdə, Məhkəmə öz qərarı ilə zərərçəkmiş tərəfə "ədalətli satisfaksiya" təqdim edir. Bu, əsasən, o deməkdir ki, Məhkəmə dövlətin üzərində şəxsə dəymiş maddi və mənəvi zərəri ödəmək vəzivəsini qoyur. Lakin Məhkəmə dövlətin üzərinə belə bir vəzifə qoymaya da bilər; məsələn, bəzi hallarda fərdin hüququnun pozulması faktının Məhkəmə tərəfindən bəyan edilməsinin özü "ədalətli satisfaksiya" hesab olunur. Qeyd edək ki, Avropa insan hüquqları məhkəməsi dövlətə müəyyən qanunu və ya inzibati aktı dəyişmək və ya onu ləğv etmək, habelə hər hansı məhkəmə qərarını ləğv etmək göstərişi verə bilməz. Lakin praktikada dövlətlər gələcəkdə analoji pozuntulara yol verməmək üçün özləri bu cür qanun və ya qərarları dəyişdirir və ya ləğv edirlər.

Məhkəmənin iş üzrə çıxardığı qərar qətidir və dövlətlər onu icra etməlidirlər. Qərarların icrası üzərində nəzarəti Avropa Şurasının Nazirlər komitəsi həyata keçirir.

Avropa insan hüquqları məhkəməsi insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinə, insan hüquqlarının düzgün təfsirinə əhəmiyyətli töhfə vermişdir. Formal olaraq presedent sayılmasa da, bu qərarlara Məhkəmənin özünün və digər

beynəlxalq orqanların, həm də milli məhkəmələrin praktikasında bu və ya digər işlərin həllində geniş istinad edilir.

İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrş Avropa komitəsi İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair 1987-ci il Avropa Konvensiyasının əsasında yaradılmışdır. Onun üzvlərinin sayı iştirakçı dövlətlərin sayına bərabərdir. Bütün digər mövcud təsisatlardan prinsipial fərqi ondadır ki, bu Komitə müəyyən hallarda *dövlətin razılığı olmadan* onun ərazisində yerləşən penitensiar idarələrdə və ya digər müvafiq yerlərdə yoxlamalar apara bilər. Bundan əlavə, Komitə iştirakçı dövlətlərin ərazisində müntəzəm təftiş həyata keçirir.

Amerikaarası insan hüquqları komissiyası və Amerikaarası insan hüquqları məhkəməsi. Amerikaarası insan hüquqları komissiyası 1959-cu ildə Amerika dövləti təşkilatının (ADT) orqanlarından birinin – Xarici işlər nazirlərinin Məsləhət görüşünün qətnaməsi əsasında yaradılmışdır. Lakin 1967-ci ildə ADT-nin Nizamnaməsinə edilmiş dəyişikliklə o, Təşkilatın müstəqil orqanına çevrildi. Komissiya insan hüquqlarının müdafiəsinə dəstək vermək və bu məsələlərdə Təşkilatın məsləhətçi orqanı kimi çıxış etmək funksiyasi həvalə olundu. 1969-cu ildə qəbul edilmiş Amerikaarası İnsan Hüquqları Konvensiyasında Komissiyanın səlahiyyətləri genişləndirildi: insan hüquqları sahəsində tədqiqatlar aparmaq; insan hüquqlarına aid tədbirlər barədə dövlətlərdən zəruri məlumat xahiş etmək; dövlətlərin razılığı və ya dəvəti ilə yerlərdə təhqiqatlar aparmaq və nəhayət, fərdi və dövlətlərarası şikayətlərə baxmaq. Komissiya ADT-nin Baş Assambleyası tərəfindən dörd il müddətinə seçilən 7 üzvdən ibarətdir. Fərdi şikayətlərə baxdıqdan sonra Komissiya məruzə hazırlayır və zəruri hesab etdikdə, işi Amerikaarası məhkəməyə təqdim edir. O, fərdin hüququnu pozmuş dövlətin üzərinə hər hansı vəzifə (əvvəlki vəziyyətin bərpa edilməsi, kompensasiya edilməsi və s.) qoymaq səlahiyyətinə malik deyildir.

Amerikaarası insan hüquqları məhkəmsi, Komissiyadan fərqli olaraq, bilavasitə Amerika İnsan Hüquqları Konvensiyasının əsasında yaradılmışdir. Onun əsas iki funksiyası vardır: 1) şikayətlərə baxmaq və 2) Konvensiyasının müddəalarının

təfsiri və tətbiqi ilə bağlı məsləhət xaraqterli rəylər vermək. Məhkəmə altı il müddətinə seçilən yeddi hakimdən ibarəfdir. Avropa məhkəməsindən fərqli olaraq, fərdlərə Amerikaarası məhkəməyə birbaşa müraciət etmək hüququ verilməmişdir (yəni onlar Məhkəmə qarşısında locus standi-yə malik deyillər). Məhkəməyə yalnız Komissiya və Konvensiyasının iştirakçı dövlətləri müraciət edə bilər. Konvensiyanın 63-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq, Məhkəmə insan hüququnun pozulduğunu aşkar etdikdə, müvafiq dövlətdən tələb edə bilər ki, pozuntunun bütün nəticələrini aradn qldırsın və zərərçəkmiş tərəfə ədalətli kompensasiya təmin etsin. Məhkəmənin çıxardığı qərar qətidir və müvafiq dövlət tərəfindən icra olunmalıdır.

İnsan və xalqların hüquqları üzrə Afrika komissiyası İnsan və xalqların hüquqları haqqında 1981-ci il Afrika Xartiyasının əsasında yaradılmışdır. O, öz fəaliyyətinə 1987-ci ildən başlamışdır. Komissiya 11 üzvdən ibarətdir. Onun başlıca funksiyası Afrika qitəsində insan hüquqlarının müdafiəsinə dəstək verməkdir. Bununla yanaşı, Komissiyaya insan hüquqlarının pozulmasını iddia edən şikatələrə baxmaq səlahiyyəti verilmişdir. Komissiya fərdlərdən və təşkilatlardan, habelə digər iştirakçı dövlətlərdən şikayətlər qəbul edə bilər. Fərdi şikayət proseduru, Amerikaarası insan hüquqları Komissiyasında olduğu kimi, burada da məcburidir. İndiyə qədər Komissiyaya heç bir dövlətlərarası şikayət daxil olmamışdır. Qeyri-hökumət təşkilatları və ya ayrı-ayrı fərdlər tərəfindən bu günə kimi təqdim olunmuş ərizələrin sayı 300-dən artıqdır. Amerikaarası sistemdə olduğu kimi, burada da şikayətçi təşkilat və ya fərd işdə öz marağını göstərməyə də bilər və ona görə də üçüncü şəxslərin adındanda Komissiayaya ərizə təqdim edə bilər. Komissiaya, əsas etibarilə, insan hüquqlarının pozulması faktlarını bəyan etməklə kifayətlənir. Lakin bir sıra hallarda o, dövlət qarşısında qanunusuz həbsdə saxlanılan şəxslərin buraxdırılması, Afrika Xartiyasına zidd olan qanunların ləğv olunması və s. bu kimi məsələlər qoyulmuşdur. Komissiayanın çıxardığı qərarlar hüquqi baxımdan məcburi deyildir. 1998-ci il iyunun 9-da Afrika birliyi təşkilatının dövlət və hökumət başçılarının Assambleyasında *İnsan və xalqların hüquqları üzrə Afrika məhkəməsinin* yaradılması haqqında Afrika Xartiyasına

Protokolqəbul edilmışdir. 15 dövlət tərəfindən ratifikasiya olunduqdan sonra Protokol qüvvəyə minməlidir.

İnsan hüquqlarının müdafiəsi sahəsində *qeyri-müqavilə* mexanizmlərinə aşağıdakılar aiddir: BMT sistemində köməkçi təsisatlar; İnsan hüquqları üzrə BMT Ali Komissarı; "1503 proseduru"; tematik mexanizmlər və b.

İqtisadi və sosial sahələrdə dövlətlərin əməkdaşlığının əlaqələndiricisi olan EKOSOK bilavasitə insan hüquqları ilə məşğul olmaq üçün iki xüsusi orqan – İnsan hüquqları komissiyası və Qadınların vəziyyəti üzrə komissuya yaratmışdır. *İnsan hüquqları komissiyası* EKOSOK tərəfindən seçilən 53 üzv-dövlətdən ibarətdir. Komissiya siyasi orqandır. O, hər ilin əvvəlində altı həftəlik sessiyalarını keçirir. Komissiya insan hüquqlarının müdafiəsinin müxtəlif məsələləri ilə bağlı qətnamələr və qətnamə layihələri hazırlayır və onları EKOSOK-a təqdim edir, ayrı-ayrı problemlərin və konkret öhdəliklərdə insan hüquqları ilə bağlı vəziyyətin öyrənilməsi üçün xüsusi məruzəçilər və ya işçi qrupları təyin edilir. İnsan hüquqları komissiyası 26 müstəqil ekspertdən ibarət orqan – *İnsan hüquqlarına dəstək verilməsi və müdafiəsi üzrə Subkomissiya təsis etmişdir.* Subkomissiya öz səlahiyyəti çərəivəsində tədqiqatlar aparır, Komissiyaya müəyyən qətnamələrin qəbul edilməsi barədə təkliflər verir.

1993-cü ildə BMT Baş Assambleyasının 20 dekabr 1993-cü il tarixli 48/141 saylı qətnaməsi ilə İnsan hüquqları üzrə BMT-nin *Ali* Komissarı institutu təsis edilmişdır. Ali Komissar BMT-nin Baş Katibi tərəfindən 4 il müddətinə təyin olunur. İnsan hüquqları sahəsində BMT-nin fəaliyyətinə görə başlıca məsuliyyət onun üzərinə qoyulmuşdur. Ali Komissar insan hüquqları sahəsində təbliğat və təhsil proqramlarını əlaqələndirir, dövlətlərə konsultativ xidmətlər təklif edir, onlara müvafiq problemlərin həlli ilə bağlı maliyyə yardımı göstərir və s.

"1503 proseduru" öz adını EKOSOK-un 27 may 1970-ci il tarixli 1503 saylı qətnaməsindən götürmüşdür. Bu, kifayət qədər geniş istifadə olunan fərdi şikayət prosedurudur. Göstərilən qətnaməyə əsasən, BMT İnsan hüquqları komissiyasına səlahiyyət verir ki, insan hüquqlarının sistematik və kütləvi pozuntuları haqqında şəxslərdən, şəxslər qrupundan və qeyri-hökumət təşkilatlarından şikayətlər (daha

doğrusu, məlumatlar – communications) alsın və lazım gəldikdə, onları Komissiyanın sessiyyalarında müzakirəyə çıxarsın. Bu məlumatlar heç də pozuntunun qurbanı tərəfindən deyil, istənilən fərd və ya təşkilat tərəfindən təqdim oluna bilər (Amerikaarası və Afrika komissiyalarında olduğu kimi). İnsan hüquqları komissiyasının illik sesiyalarının gündəliyinə, adətən, konkret öhdəliklərdə olan situasiya (yalnız *sistematik* və *kütləvi* pozuntularla bağlı) ayrıca bənd kimi daxil edilir. Komissiya bu pozuntularla bağlı öz qeyd və təkliflərini EKOSOK-a təqdim etdiyi illik məruzəsinə daxil edə bilər.

Tematik mexanizmlər dedikdə, konkret insan hüquqlarının praktik problemlərini və ya ayrı-ayrı öhdəliklərdə insan hüquqalrının vəziyyətini öyrənmək məqsədilə BMT İnsan hüquqları komissiyası (o cümlədən İnsan hüquqlarına dəstək verilməsi və müdafiəsi üzrə Subkomissiya) tərəfindən təyin olunan *xüsusi məruzəçilər* və yaxud *işçi qrupları* başa düşülür. Xüsusi məruzəçilər və işçi qrupları öz vəzifələrini yerin yetirərkən, adətən, müxtəlif mənbələrdən məlumat alırlar. Dövlətin razılığı ilə onlar yerlərdə təhqiqat apara bilərlər. Öz təhqiqat və ya təhqiqatlarının nəticələrini onlar müvafiq tövsiyələrlə birgə məruzə şəklində İnsan hüquqları komissiyasına təqdim edirlər.

Mövzu12: BEYNƏLXALQ HUMANİTAR HÜQUQ

Plan:

1. Beynəlxalq humanitar hüququn anlayışı və mənbələri

2. Beynəlxalq humanitar hüququn tətbiq sahəsi

3. Beynəlxalq humanitar hüququn prinsipləri

4. Beynəlxalq humanitar hüququn əsas normaları

5. Müharibənin başlanmasının hüquqi nəticələri

6. Silahlı münaqişənin iştitakçıları

7. Döyüş aparılmasının qadağan edilmiş metod və vasitələri

8. Hərbi işğal rejimi

9. Mədəni mülkiyyətin mühafizəsi

10. Müharibənin sona yetməsinin hüquqi nəticələri

11. Beynəlxalq humanitar hüququn implementasiyası

Ədəbiyyat siyahısı.

Арцибасов И.Н., Егоров С.А. *Вооруженный конфликт: право, политика, дипломатия.* М., 1989.

Гассер Г.П. Международно-правовые нормы, применяемые во время военных действий, и некоторые уроки, извлеченные из недавних конфликтов // *Московский журнал международного права. 1994.№3. С.28-38.*

Гассер Г.П. *Международнще гуманитарное право. Введение. Международный Комитет Красного Креста.* М., 1995.

Гринвид К. Обеспечение исполнения права вооруженных конфликтов //*Советский ежегодник международного права, 1989-90-91.* СПб., С. 220-225.

Hüseynov L. H. *Azerbaycan Respublikasının milli qanunvericiliyi və beynəlxalq hümanitar hüquq* // Qanun. – 1996. –№6.

İbayev V. *Beynəlxalq humanitar hüquq. Dərslik.* – Bakı, 2001.

Давид Э. *Принципы право вооруженных конфликтов.* Пер. с франц. М., 2000.

Ильин Ю.Д. Международное право и война в наши дни // *Московский журнал международного право. 1996. №1. С. 48*–62.

Калугин В.Ю., Павлова Л.В., Фисенко И.В. *Международное гуманитарное право. Учебное пособие.* Минск, 1999.

Кальсховен Ф. *Ограничение методов и средств ведения войны. Международный Комитет Красного Креста.* М., 1994.

Мелков Г.М. *Международное право в период вооруженных конфликтов.* М., 1988.

Полторак А.И.,Савинский Л.И. *Вооруженные конфликтыи журнал международное право.* М., 1976.

Скакунов Э.И.,РюриковД.Б. О международно-правовых аспектах урегулирования внутренних вооруженных конфликтов //*Советский ежегодник международного права: 1992.* СПб, 1993. С.154-163.

Фуркало В.В. *Международная защита гражданского населения в условиях вооруженных конфликтов*. Киев, 1986.

Kalshaven F.,Zegveld L. *Constraints on the waging of war. An Introduction to International Humanitarian Law.*Geneva, 2001.

McCoubrey H. *International Humanitarian Law: the regulation of armed conflicts.* Dartmouth:1990.

McCoubrey H. and Nigel D. *International Law Armed conflict.* Dartmouth:1992.

Meron T. *Human Rights and Humanitarian Norms as Customary Law.* Oxford.1991.

Meron T. War crimes in Yugoslavia and Development of International Law //*American Journal of International Law.* 1998.Vol. 88. №1. P. 78-87.

1. Beynəlxalq humanitar hüququn anlayışı və mənbələri.

Beynəlxalq humanitar hüquq – silahlı münaqişələr zamaın tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmuyuna deyilir.

“Beynəlxalq humanitar hüquq” görkəmli alim *Jan Pikte* tərifindən beynəlxalq-hüquqi leksikona daxil edilmiş nisbətən yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründətətbiq edilən hüquq; müharibə hüququ (jus in bello); silahlı münaqişələr hüququ; müharibə qanun və adələtli və s.

Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, obrazlı desək, birbaşa döyüş meydanına gəlir və sırf humanist mövqedən çıxış edərək, artıq başlamış müharibəni, - onun xarakterindən və

başlama səbəblərindən asılı olmayaraq, - müəyyən normativ çərçivəyə salmağa can atır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca *məqsədini* göstərmək olar:

1. Kombatant olmayanları, yəni mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan *"Cenevrə hüququ"* həyata keçirir. "Cenevrə hüququ" termini, əsas etibarilə, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarına istinad edilərək götürülmüşdür.

2. Seçimsiz zorakılığın artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədin həyata keçirilməsinə yönəlmiş hissəsi *"Haaqa hüququ"* adlandırılır (1899 və 1907-ci illərdə Haaqa sülh konfranslarında qəbul olunmuş müvafiq sənədlərə istinadən).

Beynəlxalq humanitar hüquq, əsas etibarilə, *müqaviləyə söykənir.* Bu sahədə aşağıdakı sazişləri göstərmək olar:

- Partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında Sankt Peterburq Bəyannaməsi (11 dekabr 1868);
- Asanlıqla dönə bilən və yastılanan güllələrin istifad olunmaması haqqında Haaqa Bəyannaməsi (29 iyul 1899);
- Quru müharibəsinin qanun və adətləri haqqında IX Haaqa Konvensiyası (Quru müharibəsinin qanun və adətləri haqqında)- 18 oktyabr 1907;
- Boğucu,zəhərli və ya digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Cenevrə Protokolu (17 iyun 1925);
- Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (9 dekabr1948);
- Müharibə qurbanlarını müdafiəsinə dair Cenevrə Konvensiyalrı (12 avqust 1949);

- Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (I Konvensiya);
- Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (II Konvensiya);
- Hərbi əsirlərlə rəftara dair Cenevrə Konvensiyası (III Konvensiya);
- Müharibə zamanı mülkü səxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası (IV Konvensiya);
- Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyası (14 may 1954);
- Bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanmaı, istehsal edilməsi və ehtiyata toplanılmasının qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (10 aprel 1972);
- Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında Konvensiya (10 dekabr 1976);
- 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokollar;
- Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (I Protokol)
– 8 iyun 1977;
- Qeyri-beynəlxalq xaraqterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (II Protokol) – 8 iyun 1977;
- Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya (10 oktyabr 1980).

Konvensiya 3 rotokol əlavə olunmuşdur:

- Aşkar edilməyən qəlpələr haqqında Protokol (I Protokol).
- Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Protokol (II Protokol).
- Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (IIIProtokol);
- Kimyəvi silahların işlənib hazırlanması, istehsal edilməsi, ehtiyata toplanılması

vətətbiq edilməsinin qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (1993).

Sadalanmış bu beynəlxalq müqavilələr içərisində beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətlisi, şübhəsiz ki, *Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və onlara 1977-ci il Əlavə Protokollarıdır.*

Beynəlxalq humanitar hüquqda *adət normaları* da əhəmiyyətli rol oynayır. Bu normaların əksər hissəsi ümumi beynəlxalq hüququn bir hissəsidir və bütövlükdə beynəlxalq birlik tərəfindən jus cogens normaları kimi tanınmışdır. Bu cür normalar, hər hansı konvensiyanın iştirakçısı olub-olmadığından asılı olmayaraq, dünyanın hər bir dövləti üçün məcburidir.

Bundan əlavə, bir mühüm məqamı qeyd etmək lazımdır ki, pozitiv hüquq normalarının əhatə etmədiyi hallarda, "mülki əhali və vuruşan qüvvələr... insanlıq qanunlarının və ictimai şüurun tələblərinin... mühafizəsi altında qalırlar". Bu prinsip, 1899-cu ildə onu irəli sürmüş alimin soyadına istinadən *Martens klauzulası (qeyd-şərti)* kimi məşhurdur və IV Haaqa Konvensiyasında və I Əlavə Protokolda öz əksini tapmışdır.

2. Beynəlxalq humanitar hüququn tətbiq sahəsi. Beynəlxalq humanitar hüquq *yalnız silahlı münaqişə zamanı və istənilən silahlı münaqişə zamanı* tətbiq olunur.

Buna görə də silahlı münaqişəyə nəyin aid edildiyini bilmək olduqca zəruridir.

Beynəlxalq humanitar hüququn əsas tətbiq sahəsi *beynəlxalq silahlı münaqişələrdir*. Belə ki, 1949-cu il Cenevrə Konvensiyalarının 1977-ci ildə qəbul olunmuş Əlavə Protokollarla bir yerdə cəmisi 20 müddəası əgər daxili silahlı münaqişələrə aiddirsə, 500-ə yaxın maddəsi isə beynəlxalq müharibələrə həsr

olunmuşdur. ***Beynəlxalq silahlı münaqişə, - müharibənin elan olunub-olunmamasından, xarakterindən və tərəflərin müharibə vəziyyətini tanıyıb-tanımamasından asılı olmayaraq, - iki və ya daha artıq dövlət arasında baş verən silahlı hərbi münaqişə kimi başa düşülür.***

Özünümüəyyənetmə hüququnu həyata keçirmək üçün müstəmləkə hökmranlığına və xarici işğala və irqçi rejimlərə qarşı xalqların apardıqları silahlı mübarizə də beynəlxalq silahlı münaqişə hesab edilir (Cenevrə Konvensiyalarına I Əlavə protokolun 1-ci maddəsinin 4-cü bəndi).

Bundan əlavə, beynəlxalq humanitar hüquq *qeyri-beynəlxalq xarakterli (daxili) silahlı münaqişələrə* şamil edilir. Bu, Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddədə göstərilmişdir. Cenevrə Konvensiyalarına II Əlavə Protokolun 1-ci maddəsinin 1-ci bəndində bu cür silahlı münaqişələrin səciyyəvi cəhətləri dəqiqləşdirilmişdir:

- bir dövlətin ərazisində baş verir;
- həmin dövlətin silahlı qüvvələri ilə müxtəlif silahlı qüvvələr və ya digər mütəşəkkil silahlanmış qruplar arasında olur;
- hökümət əleyhinə olan qüvvələr məsul komandanlıq altında olmaqla, dövlətin

ərazisinin bir hissəsi üzərində elə nəzarət həyata keçirirlər ki, bu, onlara fasiləsiz və razılaşdırılmış hərbi əməliyyatlar aparmağa və müvafiq beynəlxalq humanitar hüquq normalarını tətbiq etməyə imkan verir.

Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddədə dövlətlərin suverenliyi və ərazi bütovlüyü baxımından belə bir mühüm müddəa təsbit olunmuşdur ki, *müvafiq beynəlxalq humanitar hüquq normalarının tətbiqi münaqişədə olan tərəflərin hüquqi statusuna heç bir xələl gətirmir.*

Beynəlxalq humanitar hüquq habelə son onilliklər üçün səciyyəvi olan qarışıq silahlı münaqişələr – *beynəlxalq münaqişələrin əlamətlərini kəsb edən, yəni digər dövlətin birbaşa hərbi müdaxilə etdiyi daxili silahlı münaqişələr* – dövründə də tətbiq olunur.

Beynəlxalq humanitar hüquq normaları daxili gərginlik hallarına, daxili iğtişaşlara, sporadik zorakılıq aktlarına tətbiq olunmur. Bu cür hallara beynəlxalq insan hüquqları standartları şamil edilir.

3. Beynəlxalq humanitar hüququn prinsipləri. Beynəlxalq humanitar hüquq onun məqsəd və vəzifələrini əks etdirən bir sıra *prinsiplərə* söykənir. Bu prinsiplər aşağıdakılardır:

a) silahlı münaqişələrin humanistləşdirilməsi; bu, əslində beynəlxalq humanitar hüququn başlıca prinsipidir.

b) döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlər qoyulması;

c) müharibə qurbanlarının beynəlxalq-hüquqi müdafiəsi;

ç) mülki obyektlərin və mədəni mülkiyyətin mühafizəsi;

d) hərbi zərurətin və ictimai qaydanın qorunmasının insana hörmətlə uzlaşdırılması;

e) düşmən tərəfə, müharibənin məqsədinə (məsələn, düşmənin hərbi gücünün məhv edilməsi və ya zəiflədilməsi və s.) uyğun gəlməyən ziyan vurulmasının yolverilməzliyi;

ə) neytral dövlətlərin mənafelərinin qorunması.

4. Beynəlxalq humanitar hüququn əsas normaları. Beynəlxalq humanitar hüququ təşkil edən bütün normativ massivi ən yığcam formada belə ifadə etmək olar:

1. Sıradan çıxmış şəxslər, habelə hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən şəxslər , xüsusilə mülki əhali onların həyatına və fiziki toxunulmazlığına hörmət edilməsi hüququna malikdirlər. Bütün hallarda onlarla, heç bir fərq qoyulmadan, insani rəftar edilməlidir.

2. Təslim olan və ya hərbi əməliyyatlarda artıq iştirak etməyən düşməni öldürmək və yaxud ona xəsarət yetirmək qadağandır.

3. *Yaralılar və xəstələr* yerdən götürülməli və onlara lazımi yardım göstərilməlidir. Tibbi heyət, tibbi müəssisələr və nəqliyyat vasitələri də müdafiə altındadır. Qırmızı xaç və qırmızı aypara nişanına hörmət edilməlidir.

4. Ə*sir götürülmüş* döyüş iştirakçıları (kombatantlar) və düşmən tərəfin əlində olan *mülki şəxslər* onların həyatına, ləyaqətinə, şəxsi hüquqlarına və əqidələrinə hörmət edilməsi hüququna malikdirlər. Onlar istənilən zorakılıq aktlarından müdafiə olunmalıdırlar. Onlar öz ailələri ilə məktublaşmaq və kömək almaq hüququna malik olmalıdırlar.

5. Hər kəsin əsas məhkəmə təminatlarına hüququ vardır. Heç kəs törətmədikləri hərəkətlərə görə məsuliyyət daşımır. Heç kəs fiziki və ya psixi işgəncələrə, cismani cəzalara , qəddar və ya alçaldıcı rəftara məruz qalmamalıdır.

6. Münaqişənin tərəflərinin və onların silahlı qüvvələrinin döyüş aparılmasının metod və vasitələrini seçmək hüququ qeyri-məhdud deyildir. Artıq dağıntılar və ya hədsiz əzab-əziyyət törətməyə qabil olan silahların və döyüş aparılması metodlarının tətbiqi qadağandır.

7. Münaqişənin tərəfləri mülki əhalini və mülki obyektləri qorumaq məqsədilə mülki əhali və kombatantlar arasında həmişə fərq qoymalıdırlar. Nə bütövlükdə mülki əhali, nə də ayrı-ayrı mülki şəxslər hücuma məruz qalmamalıdır. Hücum yalnız hərbi obyektlərə qarşı yönəlməlidir.

5. Müharibənin başlanmasının hüquqi nəticələri. Müharıbənin başlanmasə ilə, bir qayda olaraq, aşağıdakı hüquqi nəticələr ortaya çıxır:

1) dövlətlər arasında diplomatik, konsulluq və digər münasibətlər kəsilir;
2) səfirlik və konsulluq binalarının, onların əmlakı və arxivləri ilə bir yerdə

mühafizəsi *Himayəçi Dövlətə* (vuruşan tərəflərin təyin edildiyi və onların mənafelərini qorumalı olan hər hansı dövlət belə adlanır) və ya onu əvəz edən hər hansı qərəzsiz təşkilata, adətən, Beynəlxalq Qırmızı Xaç Təşkilatına etibar edilir (buna humanitar hüquqda *"substiut"*deyilir);

3) düşmən dövlətə məxsus olan mülikyyət (səfirlik və konsulluqların əmlakından

başqa) müsadirə edilir;

4) düşmən dövlətin vətəndaşlarına qarşı müxtəlif məhdudiyyətlərdən ibarət xüsusi

rejim tətbiq edilir (o cümlədən, *internləşdirmə* və ya müəyyən bir zonada yaşamağa məcbur etmə);

5) dinc dövr münasibətləri üçün nəzərdə tutulmuş müqavilələrin qüvvəsinə xitam

verilir və ya müvəqqəti dayandırılır və beynəlxalq humanitar hüququn normaları tətbiq edilir.

6. Silahlı münaqişənin iştitakçıları. Beynəlxalq humanitar hüquq üçün ən mühüm məsələlərdən biri mülki şəxslərlə vuruşan şəxslər, yəni *kombatantlar* arasında fərqin dəqiq müəyyən edilməsidir. Humanitar hüquq normalarına görə, yalız kombatantlar döyüş əməliyyatlarında bilavəsitə iştirak etmək hüququna malikdirlər və onlara qarşı silah işlədilməsi mümkün sayılır.

Kombatanlara və ya kombatant statusuna malik olanlara aşağıdakılar aiddir:

a) silahlı qüvvələrin tərkibinə daxil olan şəxslər (tibbi və ruhani heyətdən başqa);

b) ordunun müşayiət edən, lakin silahlı qüvvələrin tərkibinə bilavəsitə daxi olmayan

şəxslər; hərbi təyyarələrin ekipajına daxil edilmiş mülki şəxslər, hərbi müxbirlər, silahlı qüvvələrin məişət xidməti ilə məşğul olan və bununla bağlı müvafiq icazəsi və sənədi olan şəxsi heyət;

c) yığma qoşun, partizan və müqavimət dəstələrinin üzvləri olan şəxslər, bu şərtlə ki, 1) onların başında, tabeliyində olanlara görə müsuliyyət daşıyan bir şəxs durur; 2) uzaqdan aydın seçilən müəyyən fərqləndirmə nişanları olur; 3) açıq surətdə silah gəzdirirlər; 4) öz hərəkətlərində müharibənin qanun və ədalətlərinə riayət edirlər.

Xüsusi qed edilməlidir ki, muzdlu əsgərlər kombatant və ya hərbi əsir statusuna malik deyillər və beynəlxalq hüquq normaları tərəfindən müdafiə olunmurlar. I Əlavə Protokolun 47-ci maddəsinə görə, müzdlu o şəxs sayılır ki,

a) silhlı münaqişədə vuruşmaq məqsədilə xüsusi olaraq cəlb edilmişdir;

b) hərbi əməliyyatlarda faktik olaraq bilavasitə iştirak edir;

c) əsasən, şəxsiqazanc əldə etmək arzusu ilə hərbi əməliyyatlarda bilavasitə iştirak

edir;

ç) nə münaqişədə olan tərəfin vətəndaşı, nə də münaqişədə olan tərəfin öz nəzarəti

altında saxladığı ərazidə daim yaşayan şəxs deyildir;

d) münaqişənin tərəfi olmayandövlət tərəfindən, onun silahlı qüvvələrinin tərkibinə daxil olan şəxs kimi rəsmi vəzifələr yerinə yetirmək üçün göndərilməmişdir. Kombatantlar və mülki şəxslər arasında mövcud olan fərqli cəhətlər bunlardır:

I. Davranış:

1) mülki şəxs döyüş əməliyyatlarında iştirak etmir;

2) kombatant döyüş əməliyyatlarında iştirak edir.

II. Hüquqları:

1) əlinə silah götürmək və onu düşmənə qarşı işlətmək hüququ yoxdur;

2) beynəlxalq humanitar hüququn müddəaları çərçivəsində öldürmək hüququ var. *III. Məsuliyyət:*

1) təkcə əlinə silah götürdüyünə görə məsuliyyətə və cəzaya məruz qala bilər;

2) hərbi əməliyyatlarda iştirak etməsinə və humanitar hüquqa uyğun silah tətbiq

etməsinə görə təqibə məruz qala bilməz.

IV. Hücumlardan müdafiə:

1) onu hücuma məruz qoymaq qadağandır;

2) onu hücuma məruz qoymaq olar, o, hərbi hədəfdir.

V. Düşmən tərəfindən rəftar necə olmalıdır:

1) beynəlxalq humanitar hüquq ona hörmət etməyi və istənilən şəraitdə onunla humanist rəftar etməyi tələb edir;

2) əsr götürüldükdə, hərbi əsr statusuna malik olur.

7. Döyüş aparılmasının qadağan edilmiş metod və vasitələri. Beynəlxalq humanitar hüquq (“Haaqa hüququ”) döyüş aparılmasının aşağıdakı metod və vasitələrini qadağan edir:

qadağan olunmuş metodlar:

a) düşmən qoşunlarına mənsub olan şəxsləri xaincəsinə öldürmək və ya yaralamaq;

b) milli və beynəlxalq emblem,siqnal və bayraqların təyinatı üzrə istifadə edilməməsi;

c) işgəncələr,genosid, aparteid və girov götürmənin tətbiq edilməsi;

ç) parlamentyoru və onu müşayiət edən şəxsləri öldürmək;

d) şəhər və ya digər yerlərin talan edilməsi,yerli əhaliyə münasibətdə terrora əl atılması, əhali arasında aclıqdan istifadə edilməsi;

e) sanitar müəssisələrinin, qospital gəmilərinin və təyyarələrinin,sanitar işçilərinin hücuma məruz qalması,onların bombardman edilməsi və ya məhv edilməsi;

ə) düşmənin silahı yerə qoymuş və ya əsir kimi təslim olmuş şəxslərini öldürmək və ya yaralamaq;

f) düşmən tərəfə mənsub olan şəxsləri, onların öz ölkəsinə qarşı yönəlmiş hərbi əməliyyatlarda iştiraka məcbur etmək;

g) sıradan çıxmış, eləcə də fəlakətə düçar olmuş uçuş aparatını tərk etmiş şəxslərə hucum etmək;

ğ) hərbi zərurət hallarından başqa, düşmən mülkiyyətinin tələf və ya zəbt edilməsi;

h) sahil balıqçılıq və ya yerli dənizçilik gəmilərinin, qospital gəmilərinin, elmi və ya dinin funksiyalar yerinə yetirən digər gəmilərin zəbt edilməsi;

x) müdafiəsiz şəhərlərin, limanların, kəndlərin və hərbi məqsədlər üçün istifadə olunmayanmənzillərin, tarixi abidələrin, qospitalların bombardıman edilməsi;

1) heç kimi sağ qoymamaq haqqında əmr vermək və ya bununla hədələmək və yaxud bu yönümdə əməliyyatlar aparmaq;

i) mədəni mülkiyyətin, tarixi və digər abidələrin, ibadət edilən yerlərin məhv edilməsi və ya onlardan hərbi əməliyyatlarda uğur qazanmaq üçün istifadə edilməsi və s.

qadağan edilmiş vasitələr:

a) insan bədənində asanlıqla dönən və ya yastılanan güllələr;

b) yeganə təyinatı boğucu və ya zərərli qazlar yaymaqdan ibarət olan mərmilər;

c) 400 qramdan az çəkisi olan, partlama xassəsinə malik olan və ya yanar tərkiblə

təchiz edilmiş mərmilər;

ç) zəhərlər, zəhərlənmiş silahlar, boöucu, zəhərli və digər belə qazlar, bakterioloji və kimyəvi silah;

d) genişmiqyaslı və ya uzunmüddətli və ya ciddi nəticələr törədən ətraf mühitə təsir vasitələri;

e) bədəndə aşkar edilməyən qəlpələr, mina-tələlər, yandırıcı silahlar və adi silahların hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən digər növləri;

ə) nüvə silahı.

8. Hərbi işğal rejimi. Hərbi işğal rejimi *Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyasında (IV Konvensiyada)* nəzərdə tutulmuşdur. Bu rejimin əsas ünsürləri aşağıdakılardır:

a) bir dövlətin silahlı qüvvələri digər dövlətin ərazisini müvəqqəti olaraq tutur və

özündə saxlayır;

b) işğal edən dövlət yeni müvəqqəti xaraqterli hüquq normaları müəyyən etmək yolu

ilə həmin ərazidə hərbi nəzarət və mülki idarəçilik funksiyaları həyata keçirir;

c) işğal olunmuş ərazidə ictimai qayda və əhalinin həyatı təmin edilməli, burada qüvvədə olan qanunlara hörmət edilməlidir;

ç) işğal olunmuş ərazidən mülki şəxslərin işğal edən dövlətin ərazisinə və ya hər hansı üçüncü dövlətin ərazisinə deportasiya olunması, habelə öz mülki əhalisinin bir hissəsinin işğal olumuş əraziyə köçürülməsi qadağandır;

d) nəinki xüsusi, habelə dövlət mülkiyyətinin dağıdılmasına və məhv edilməsinə yol verilmir;

e) işğal edən və işğal olunan dövlətlər arasında müharibə vəziyyəti davamedir;

ə) işğal olunmuş ərazi üzərində suverenlik işğalçıya keçmir və onun əvvəlki hüquq sistemini tam ləğv etmək hüququ yoxdur;

f) işğal olunmuş ərazidə dövlətlərarası münasibətlər beynəlxalq humanitar hüququn normaları ilə nizama salınır;

g) müharibə sona yetdikdən sonra işğalla bağlı münasibətlər müqavilə qaydasında ləğv edilməlidir.

9. Mədəni mülkiyyətin mühafizəsi. Müharibə dövründə mədəni mülkiyyətin mühafizəsi məsələləri, əsas etibarilə, xüsusi beynəlxalq sazişlə - *Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası ilə* nizama salınır. Konvensiyanın 1-ci maddəsi mədəni mülkiyyətə bunları daxil edir:

a) hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan daşınar və daşınmaz mülkiyyət, məsələn, həm dini, həm də dünyavi memarlıq, incəsənət abidələri, tarixi abidələr; arxeoloji sahələr; bütövlükdə tarixi və ya bədii maraq kəsb edən bina qrupları; incəsənət əsərləri; əlyazmalar, kitablar və bədii, tarixi və ya arxeoloji maraq kəsb edən digər obyektlər; habelə elmi məcmuələr və yaxud arxivlər və ya yuxarıda göstərilmiş əmlakın reproduksiyaları;

b) başlıca məqsədi yuxarıda sadalanmış daşınar mülkiyyəti qoruyub saxlamaq və nümayiş etdirmək olan binalar, məsələn, muzeylər, böyük kitabxanalar və arxiv binaları, habelə həmin mülkiyyəti silahlı münaqişə zamanı gizlətmək üçün istifadə olunan sığınacaqlar;

c) yuxarıda sadalanmış külli miqdarda mədəni mülkiyyəti əhatə edən mərkəzlər.

Mədəni mülkiyyəti qorumaq istiqamətində Konvensiya aşağıdakıları nəzərdə tutur:

1) göstərilən mədəni mülkiyyətdən, onları qoruyub saxlamaq üçün nəzərdə tutulmuş binalardan və bitişik sahələrdən bu mülkiyyətin dağıdılmasına və ya zədələnməsinə gətirib çıxara bilən məqsədlərlə istifadə olunması qadağandır;

2) mədəni mülkiyyətin hər hansı bir formada qeyri-qanuni mənimsənilmsi, habelə bu mülkiyyətə qarşı istənilən vandalizm aktları qadağandır və bu cür hərəkətlərin qarşısı alınmalıdır;

3) mədəni mülkiyyətin rekvizisiyası və ona qarşı yönəlmiş istənilən əvəzçıxma tədbirlərinin görülməsi qadağandır.

Ən əhəmiyyətli mədəni mülkiyyət xüsusi mühafizəyə götürülür və YUNESKO-nun Baş direktoru tərəfindən aparılan Beynəlxalq mədəni mülkiyyət *reyestrinə* daxil edilir. Reyestrin nüsxəsi BMT-nin Baş katibində və münaqişənin tərəfi olan hər bir dövlətdə saxlanılır. Beynəlxalq reyestrə daxil edilmış mülkiyyət hərbi immunitet qazanır.

Xüsusi mühafizəyə götürülmüş mədəni mülkiyyətin üzərində fərqləndirmə nişanı olmalıdır.

10. Müharibənin sona yetməsinin hüquqi nəticələri. Hər şeydən öncə qeyd edək ki, müharibənin sona yetmsi iki mərhələni əhatə edir:

1. Hərbi əməliyyatların bitməsi. Bu mərhələ aşağıdakı beynəlxalq-hüquqi formalarda rəsmiləşdirilir:

a) barışıq (müddətli və ya müddətsiz ola bilər);

b) təslim olma.

2. Müharibə vəziyyətinin bitməsi. Beynəlxalq-hüquqi formalari;

a) sülh müqaviləsi;

b) birtərəfli bəyanat;

c) ikitərəfli bəyanat.

Müharibənin sona yetməsi bu cür *hüquqi nəticələr* doğurur:

a) diplomatik və konsulluq münasibətlərinin bərpası;

b) ərazi məsələlərinin həlli;

c) hərbi əsirlərin dəyişdirilməsi;

ç) dövləti (dövlətlərin) və ayrı-ayrı fərdlərin məsuliyyəti haqqında məsələlərin həlli

və s.

11. Beynəlxalq humanitar hüququn implementasiyası. ***Beynəlxalq humanitar hüququn implementasiyası beynəlxalq humanitar hüququn normalarına tam riayət olunmasını təmin etmək məqsədilə dövlətlər tərəfindən görülməli olan bütün tədbirləri əhatə edir.*** Bu tədbirlərdən bəziləri münaqişə zonasından kənarda və *dinc dövrdə* həyata keçirilməlidir.

Əsas tədbirlər aşağıdakılardır:

a) Cenevrə Konvensiyalarının və Əlavə Protokolların milli dilə tərcümələrini hazırlamaq;

b) Konvensiyaların və Protokolların mətinlərini mümkün qədər geniş – həm silahlı qüvvələrdə, həm də əhali arasında – yaymaq;

c) Konvensiyaların və Protokolların bütün pozuntuları ilə cinayət-hüquqi qaydada mübarizəni təşkil etmək, o cümlədən müharibə cinayətlərinə görə adekvat cəza nəzərdə tutan qanunvericilik qəbul etmək;

ç) Konvensiyalarla və Protokollarla qorunan şəxslərin və obyektlərin lazımi qaydada tanınmasını, yerləşdirilməsini və müdafiəsini təmin etmək;

d) qırmızı xaç, qırmızı aypara və digər nişan və emblemlərdən sui-istifadənin qarşısını almaq üçün tədbirlər görmək;

e) silahlı münaqişə zamanı əsas məhkəmə təminatlarının həyata keçirilməsinə imkan yaratmaq;

ə) beynəlxalq humanitar hüquq üzrə ixtisaslaşmış şəxslərin, o cümlədən silahlı qüvvələrin tərkibində hüquq məsləhətçilərinin təyin olunmasını və hazırlıq keçirməsini təmin etmək;

f) milli qırmızı xaç və qırmızı aypara cəmiyyətlərini və digər könüllü yardım cəmiyyətlərini, mülki müdafiə təşkilatlarını, milli məlumat bürolarını yaratmaq;

g) hərbi qüvvələri yerləşdirərkən, silahlı və hərbi taktikanı inkişaf etdirərkən beynəlxalq humanitar hüququn tələblərini nəzərə almaq;

ğ) zəruri hallarda qopital zonalarının, neytirallaşdırılmamış zonaların, təhlükəsizlik zonalarının və hərbsizləşdirilmiş zonaların yaradılmasını təmin etmək.

Mövzu13: BEYNƏLXALQ CİNAYƏT HÜQUQU

Plan:

1. Beynəlxalq cinayət hüququnun anlayışı, inkişaf tarixi və xüsusiyyətləri

2. Beynəlxalq cinayət hüququnun mənbələri

3. Beynəlxalq cinayət anlayışı

4. Ayrı-ayrı beynəlxalq cinayətlərintərkib ünsürləri

5. Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti

6. Beynəlxalq fərdi cinayət məsuliyyətinin həyata keçirilməsi mexanizmi

7. Cinayətkarlıqla mübarizə sahəsində dövlətlərin əməkdaşlığının təşkilati mezanizmi

8. Cinayətkarların verilməsi

Ədəbiyyat siyahısı.

Бахтигареева А.П. История возникновения и развития международного права. 1995. №2. С.99-111.

Блищенко И.П., Фисенко И.В. *Международный уголовный суд.* М., 1994.

Богатырев А.Г. *Международное сотрудничество государств по борьбе с преступностью.* Л., 1989.

Валеев Р.В. *Выдача преступников в современном международном праве.* Казань. 1976.

Горбунов Ю.С. Международнародно-правовое регулирование борьбы с захватом заложников //*Московский журнал международного права.* 1993.№3. С.22-35.

Hüseynov L.H. Genosid cinayətinin tərkib ünsürləri //*Hüquqi dövlət və qanun.* Bakı: 1999. №8.

Игнатенко Г.В. *Международное сотрудничество в борьбе с преступностью*. Свердловск, 1980.

Карпец И.И. *Международная преступность.* М., 1988.

Лукашук И.И., Наумов А.В. *Выдача обвиняемых и осужденных в международном уголовном праве.* М., 1998.

Лукашук И.И., Наумов А.В. *Международное уголовное право.* М., 1999.

Ляхов Е.Г. *Политика терроризма – политика насилия и агрессии.* М., 1987.

Международное уголовное право. Под ред. В.Н. Кудрявцева. М., 1998.

Наумов А.В. Преступления против мира и безопасности человечества и преступления международного характера //*Государство и право.* 1995. №6.С. 48-57.

Нюрнбергский процесс: право против войны и фашизма. Под ред. И.А.Ледях и И.И.Лукашука. М., 1985.

Решетов Ю.А. Нюрнбергский процесс и международное уголовное право // *Нюрнбергский процесс и современность.* М., 1986. С. 158-173.

Сафаров Н. *Комментарий к закону Азербайджанской Республики «О выдаче (екстрадиции) лиц, совершивших преступления».* Баку, 2001.

Сафаров Н. *Проблемы обеспечения совместимости Римского Статуса Международного уголовного суда и национальных правовых систем (опыт законодательства Азербайджанской Республики).* Баку, 2002.

Aut dedere aut judicare. The Duty to Extradite or Prosecure in International Law (Ed. M. Ch. Bassiouni, E.M. Wise).Dordrecht-Boston-London, 1995.

Bassiouni M. Ch. *Crimes against Humanity in International Criminal Law.* Dordrecht-Boston-London, 1992.

Bassiouni M. Ch. *The Law of the International Criminal Tribunal for the Former Yugoslavia.* New York, 1996.

Cigar N. *Genocide in Bosnia: the Policy of "Ethnic Cleansing"* Texas University Press: 1995.

Handbook on the International Criminal Court. Brussels, 1997.

International Criminal Law: International Crimes (Ed. M. Ch. Bassiouni).N.Y., 1986, vol.1.

International Criminal Law: Enforcement (Ed. M. Ch. Bassiouni).N.Y., 1987, vol.3.

International Criminal Law: Procedure (Ed. M. Ch. Bassiouni).N.Y., 1986, vol.2.

Karhilo J. Establisment and International Law // *International Law at a Time of perplexity: Essays in Honour of Shabtei Rosenne* (Ed. Y/ Dinstein)/ Dordrecht-Boston-London, 1989. P.797-820.

Taylor T. *the Anatomy of the Nuremberg Trials. London, 1993.*

The Law of War Crimes: National and International Approaches (Ed. T.L.H. McCormack and G.J. s*impson*). The Hague-Boston-London, 1996.

The Prosecution of International Crimes (Eds. R. Clark, M. Sann). London,1996.

War Crimes in International Law (Ed. Y Dinstein). The Hague-Boston-London, 1996.

1. Beynəlxalq cinayət hüququnun anlayışı, inkişaf tarixi və xüsusiyyətləri. ***Beynəlxalq cinayət hüququ beynəlxalq cinayətlərə görə fiziki şəxslərin cinayət məsuliyyətini müəyyən etmək yolu ilə, beynəlxalq hüquq qaydasını cinayət əməllərindən qorumaq məqsədilə yaradılan prinsip və normaların məcmusuna deyilir.***

Dövlətdaxili hüquq qaydasını cinayətkər əməllərdən qorumaq məqsədi daşıyan milli cinayət hüququ kimi, beynəlxalq cinayət hüququ da beynəlxalq hüququn müxtəlif sahələrinin xüsusilə təhlükəli pozuntularına, bir neçə dövlətin və yaxud bütün beynəlxalq birliyin mənafeyinə toxunan cinayət əməllərinə qarşı mübarizə məqsədi daşıyır: məsələn, beynəlxalq dəniz hüququnda (dəniz quldurluğu), beynəlxalq hava hüququnda (hava gəmilərinin qaçırılması, mülki aviasiyanın təhlükəsizliyinə qarşı digər cinayətlər), diplomatiya hüququnda (diplomatik

müdafiəsi olan şəxslər əleyhinə cinayətlər), beynəlxalq iqtisadi və maliyyə hüququnda (pul nişanələrinin saxtalaşdırılması) və s.

Beynəlxalq cinayət hüququ beynəlxalq hüququn yeni sahəsidir. Lakin ayrı-ayrı normalar artıq XIX əsrdə yaranmağa başlamışdır. Beynəlxalq cinayət məcəlləsinin ilk layihəsi hələ 1832-ci ildə ortaya çıxmışdı, lakin o zaman söhbət, əsas etibarilə, narkotik maddələrlə alver, qul alveri və s. kimi cinayətlərdən gedirdi. Sözü gedən hüququ sahəsinin inkişafına birinci dünya müharibəsi müəyyn təkan verdi. Belçika, İngiltərə, Rusiya və Fransa hökumətlərinin yaratdıqları xüsusi istintaq komissiyaları Almaniya tərəfindən müharibədə adət və qanunların kütləvi şəkildə və kobud pozulması faktlarını aşkara çıxardı. 1919-cu ildə bağlanmış Versal sülh müqaviləsi özünün 227-ci maddəsində alman imperatoru II Vilhelmi beynəlxalq əxlaq normalarını və beynəlxalq müqavilələri pozmaqla günahlandırır və onun üzərində xüsusi məhkəmə təsis edilməsini nəzərdə tutur. Müqavilənin 228-ci maddəsində müttəfiq dövlətlərin müharibə adət və qaunlarının pozulmasında təqsirli olan digər Almaniya dövlət numayəndələrini məhkəməyə vermək hüququ təsbit olunurdu. Lakin, məlum olduğu kimi, Versal sülh müqaviləsinin bu müddəaları həyata keçirilməmiş qaldı. Niderland hökuməti onun ərazisində qaçıb gəlmiş imperatoru müttəfiq dövlətlərə verməkdən imtina etdi. Digər cinayətkarlara gəldikdə isə, Almaniya hökuməti, Versal müqaviləsinin şərtlərinə zidd olaraq, həmin şəxsləri beynəlxalq məhkməyə və ya xarici dövlətin məhkəməsinə vermədi və bu işlərə baxan Leypis məhkəməsi müharibə cinayətlərində ittiham olunan 896 şəxsdən yalnız 6-nı, özü də yüngül cəzalara məhkum etdi.

1937-ci ildə bağlanmış *Terrorizmin qaşısının alınması və cəzalandırılması haqqında Konvensiya* "həmin Konvensiyanın müddəalarını pozmuş fiziki şəxslərin üzərində yurisdiksiyaya malik olan" beynəlxalq cinayət məhkəməsinin yaradılmasını nəzərdə tuturdu. Lakin tarixi səbələr üzündən bu məhkəmə yaradılmadı və Konvensiyanın özünü ancaq bir dövlət ratifikasiya etmişdi.

Beynəlxalq cinayət yurisdiksiyası ilk dəfə olaraq yalnız ikinci dünya müharibəsindən sonra, sülh və bəşəriyyət əleyhinə cinayətlərdə təqsirli olan alman və yapon militaristlərini cəzalandırmaq üçün təsis olunmuş Nürnberq və Tokio

tribunallarının nümunəsində həyata keçirilə bildi. Əslində "qalib dövlətlərin məhkəməsi" kimi çıxış etdiyinə və yalız bir tərəfin törətdiyi cinayətləri araşdırdığına baxmayaraq, Nürnberq və Tokio tribunalları beynəlxalq cinayət hüququnun inkişafında əhəmiyyətli rol oynadı və beynəlxalq fərdi cinayət məsuliyyətinin əsasını qoydu; ilk dəfə olaraq fiziki şəxslər beynəlxalq məhkəmə orqanı tərəfindən beynəlxalq hüquq normaları əsasında mühakimə olundular.

Soyuq müharibənin başa çatması və beynəlxalq gərginliyin azalması bütövlükdə beynəlxalq hüquqa, o cümlədən beynəlxalq cinayət məsuliyyəti institutuna pozitiv dəyişikliklər gətirdi. BMT Beynəlxalq hüquq komissiyasının uzun dövr ərzində müzakirə etdiyi Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsinin Layihəsi üzərində iş xeyli surətləndi və 1994-cü ildə ilk oxunuşda qəbul olundu. 1993 və 1994-cü illərdə müvafiq olarq Yuqoslaviya və Ruanda ad hoc beynəlxalq cinayət tribunalları təsis olundu. Bu tribunalların nizamnamələri və hökümləri elmi-praktik baxımdan olduqca diqqətəlaiqdir və beynəlxalq cinayət məsuliyyəti sahəsində presedent hüququnun inkişafına əhəmiyyətli töhfə sayıla bilər. 1998-ci ilin iyul ayında Beynəlxalq cinayət məhkəməsinin yaradılmasl haqqında Müqavilə və onun Nızmnaməsi qəbul olundu və 2002-ci il iyulun 1-də 60 ratifikasiyadan sonra Nizamnamə qüvvəyə mindi.

Beynəlxalq cinayət hüququnun bir sıra *xüsusiyyətləri* vardır:

a) beynəlxalq cinayət hüququ özündə nəinki cinayət hüququna, habelə cinayət-prosesual hüququna və məhkəmə quruluşuna aid normaları ehtiva edir. Məsələn, Yuqoslaviya və Ruanda tribunallarının və Beynəlxalq cinayət məhkəməsinin Nizamnamələrində maddi normalarla yanaşı, məhkəmə quruluşu və proseslə bağlı müddəalar təsbit olunmuşdur. Beynəlxalq cinayət hüququnun göstəriln xüsusiyyəti onunla izah olunur ki, o, hələ tam təşəkkül tapmamışdır və onun sistem ünsürləri lazımi inkişaf səviyyəsinə çatmamışdır;

b) beynəlxalq cinayətlər törətmiş şəxslərin cinayət məsuliyyəti həm beynəlxalq tribunallar, həm də milli məhkəmələr tərəfindən həyata keçirilə bilər. Həmin şəxslərə həm biavısitə beynəlxalq hüquq normaları (əsasən, birinci halda), həm də

onların implementasiyası üçün qəbul olunmuş dövlətdaxili hüquq normaları tətbiq oluna bilər;

c) beynəlxalq cinayət hüququ, bir qayda olaraq, cəza müəyyən etmir. Doğrudur, Nürnberq və Tokio tribunalların Nizamnamələrində müəyyən cəzalar nəzərdə tutulmuşdu. Yuqoslaviya və Ruanda tribunalların və Beynəlxalq cinayət məhkəməsinin nizamnamələrində də bir sıra cəzalar təsbit olunmuşdur. Milli cinayət hüququnda, məlum olduğu kimi, hər hansı bir əməlin nəinki cinayət olması, habelə onun cəzalandırılması eyni bir norma çərçivəsində qanunverici tərəfindən müəyyən olunur. Beynəlxalq cinayət hüququnda isə, dövlətlərarası sazişlər, bir qayda olaraq, bu və ya digər əməlin cinayət xaraqterini müəyyən etsə də, konkret sanksiyalar haqqında məsələni açıq qoyur. Beynəlxalq müqavilələrdə cəzanın növü və ölçüsü haqqında göstərişin olmaması ona əsas verir ki, konkret cəza tədbiri ya milli məhkəmələr, ya da beynəlxalq tribunal tərəfindən cinayət törədildikdən sonra müəyyən oluna bilər.

2. Beynəlxalq cinayət hüququnun mənbələri. Beynəlxalq cinayət hüququnun əsas mənbəyi beynəlxalq müqavilələrdir. Qeyd etmək lazımdır ki, bu günə qədər müxtəlif səviyyələrdə xeyli sayda layihələr işlənib hazırlansa da, vahid məcəllələşdirilmiş akt – beynəlxalq cinayət məcəlləsi yoxdur. Beynəlxalq cinayət hüququ ilə bu və ya digər şəkildə bağlı olan çoxsaylı müqavilələri bir neçə kateqoriyaya ayırmaq olar:

a) bilavəsitə beynəlxalq cinayət hüququna həsr olunmuş, beynəlxalq cinayətlərin kokret tərkiblərini müəyyən edən müqavilələr (məsələn, *Genasid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası; Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Konvensiyası; Beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyası; Girov götürülməsi ilə mübarizə haqqında 1979-cu il Beynəlxalq Konvensiyası; Nüvə materialının fiziki müdafiəsi haqqında 1980-cı il Konvensiyası; İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə 1984-cü il Konvensiyası; Hava*

gəmilərinin qeyri-qanuni ələ keçirilməsi ilə mübarizə haqqında 1970-ci il Haaqa Konvensiyası; Mülki aviasiyanın təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında 1971-ci il Monreal Konvensiyası və bu Konvensiyaya müəyyən əlavələr etmiş *Beynəlxalq mülki aviasiyaya xidmət edən aeroportlarda qeyri-qanuni zorakılıq aktları ilə mübarizə haqqında 1988-ci il Protokolu; Dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında 1988-ci il Konvensiyası* və həmin Konvensiyaya əlavələr etmiş *Kontinental şelf üzərində yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında 1988-ci il Protokolu; Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası; Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası; Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il BMT Konvensiyası; Birləşmiş Millətlər Təşkilatı heyətinin təhlükəsizliyi haqqında 1994-cü il Konvensiyası;* və s.);

b) tərkibində beynəlxalq cinayət hüququna aid olan müddəalar olan müqavilələr (məsələn, *Ümumdünya Poçt Konvensiyası; Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları; Dəniz hüququ haqqında 1958-ci il Konvensiyası; Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyası* və s.);

c) beynəlxalq tribunalların və beynəlxalq təşkilatların nizamnamələri (*Nürnberq, Tokio, Yuqoslaviya və Ruanda rtibunallarının Nizamnamələri; Beynəlxalq cinayət məhkəməsinin Nizamnaməsi; Beynəlxalq cinayət polisi təşkilatının (İnterpolun) Nizamnaməsi*);

ç) cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq və ya hüquqi yardım haqqında ikitərəfli müqavilələr.

Beynəlxalq cinayət hüququ sahəsində beynəlxalq adət normalarının mühüm rolu vardır. Bir çox cinayətlərin (genosid, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və s.) "beynəlxalq cinayət" statusu və bütün dövlətlər tərəfindən cəzalandırılmalı olması məhz hüquqi adət kimi tanınmışdır. Nürnberq beynəlxalq hərbi tribunalı, Yuqoslaviya tribunalı öz hökümlərində dəfələrlə beynəlxalq adətlərə bilavasitə istinad etmişlər.

Köməkçi hüquq mənbələri kimi beynəlxalq cinayət hüququnda milli qanunvericilik aktlarından, məhkəmə qərarlarından (həmin milli məhkəmələrin, həm də beynəlxalq məhkəmə orqanlarının çıxardıqları hökümlərdən), beynəlxalq təşkilatların qətnamələrindən geniş istifadə olunur.

3. Beynəlxalq cinayət anlayışı. ***Beynəlxalq cinayət – ayrı-ayrı dövlətlərin hüquqlarını və qanuni mənafelərini, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını kobud və ya kütləvi şəkildə pozan, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş, beynəlxalq hüquqa zidd olan əmələ deyilir.***

Beynəlxalq hüquq elmində "beynəlxalq cinayət" və "beynəlxalq xaraqterli cinayət"

kateqoriyaları fərqləndirilir. Bütövlükdə beynəlxalq hüquq üçün, beynəlxalq məsuliyyət rejimi baxımından və habelə siyasi nöqteyi-nəzərdən müəyyən əhəmiyyət daşısa da, fiziki şəxslərin beynəlxalq məsuliyyətinin nəzərdə tutan *beynəlxalq cinayət hüququ çərçivəsində* bu fərqləndirmə prinsipial əhəmiyyət kəsb etmir. Beynəlxalq hüquqa zidd olan, cinayət hesab olunan və beynəlxalq fərdi cinayət məsuliyyəti doğuran hər bir əməl beynəlxalq cinayətdir (yuxarıda verdiyimiz beynəlxalq cinayət hüququnun və beynəlxalq cinayətin tərəflərində biz məsələyə məhz bu cür yanaşmışıq). Belə ki, həm genosid, həm də saxta pul hazırlanması "beynəlxalq cinayət" kimi ifadə olunmalıdır; doğrudur, milli sinayət hüququnda nəzərdə tutulan cinayətlər kimi (məsələn, adamöldürmə və tutuq ki, yüngül bədən xəsarəti yetirilməsi) onların da vurduğu zərər və təhlükəliliyi müxtəlif ola bilər. Lakin bu, göstərilən hər iki cinayətin bir terminlə ifadə edilməsinə, yəni "beynəlxalq cinayət" adlandırılmasına heç bir maneə törətmir. Digər tərəfdən, müxtəlif terminlərin işlədilməsi sırf praktik baxımdan və habelə tədris məqsədləri üçün də məqsədəuyğun deyildir.

Beynəlxalq cinayətləri qəsd obyektinə görə bir neçə *qrupa* ayırmaq olar:

a) sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər (təcavüz, genosid, insanlıq əleyhinə cinayətlər, müharibə cinayıtləri, BMT heyətinə qarşı cinayətlər, aparteid, beynəlxalq terrorizm). Xüsusilə geniş miqyasda narkotik vasitələrlə qeyri-qanuni alver də bu qrupa aid edilə bilər.

b) insan ləyaqətinə qarşı yönəlmiş cinayətlər (köləlik, qul ticarəti, pornoqrafiya yayılması, işgəncə, girov götürülməsi və s.).

c)dövlətlərin iqtisadi və sosial inkişafına zərər yetirən cinayətlər (saxta pul və qiymətli kağızların hazırlanması, qaçqınçılıq və s.)

ç) açıq dəniz və kontinental şelf rejiminə qarşı yönəlmiş cinayətlər (dıniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizdə kömək göstərməmək, kontinental şelf üzərində yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizin zərərli maddələrlə çirkləndirilməsi və s.).

d) hava nəqliyyatının təhlükəsizliyinə qarşı yönəlmiş cinayətlər və s.

Aşağıda bir sıra xüsusilə təhlükəli beynəlxalq cinayətlərin anlayışı və tərkib ünsürləri ətraflı şərh olunmuşdur.

4. Ayrı-ayrı beynəlxalq cinayətlərin tərkib ünsürləri.

a) təcavüz

Təcavüz ən ağır beynəlxalq cinayət hesab olunur. Təcavüzün beynəlxalq cinayət "statusu" və beynəlxalq fərdi cinayət məsuliyyəti doğurması, hər şeydən əvvəl, beynəlxalq adət hüququndan irəli gəlir. Başlıca maddi-hüquqi əsas kimi 1928-ci il Brian-Kelloq Paktını, Nürnberq Tribunalının Nizamnaməsi və Hökmünü və müəyyən mənada, habelə hüquqi xarakterə malik olmayan, lakin çox böyük əhəmiyyət daşıyan "Təcavüzün tərifi" haqqında BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli qətnaməsini göstərmək olar. Təcavüz haqqında müvaviq müddəalar, həmçinin Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsi Layihəsində (16-cı maddə) öz əksini tapmışdır. Hal-hazırda Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsinə uyğun olaraq, təcavüz cinayətinin tərifi və ünsürləri xüsusi komissiya çərçivəsində işlənib hazırlanır və iştirakçı dövlətlər tərəfindən qəbul olunduqdan sonra Nizamnaməyə daxil ediləcəkdir.

Ümumi beynəlxalq hüquqa görə, *dövlət tərəfindən törədilən təcavüzün planlaşdırılmasında, hazırlanmasında, başlanmasında və ya həyata keçirilməsində rəhbər və yaxud təşkilatçı kimi fəal iştirak edən və ya bu barədə əmr verən şəxs təcavüz cinayətinə görə məsuliyyət daşıyır.* Qeyd edək ki, təcavüz aktını yalnız

müvafiq hakimiyyət səlahiyyətlərinə malik olan şəxslər törədə bilərlər. Başqa sözlə, bu halda söhbət "rəhbərlərdən" və ya "təşkilatçılardan" getməlidir; bu terminlər nəinki hökumət üzvlərini, habelə hərbi ierarxiyada, diplomatik korpusda, siyasi partiyalarda və ya işgüzar dairələrdə yüksək vəzifələr tutan şəxsləri də əhatə edir. Təcavüz aktının törədilməsində iştirak qəsdən olmalıdır və təcavüzkar plan və ya siyasət çərçivəsində bütün işin dərk edilməsilə həyata keçirilməlidir.

Fiziki şəxsin təcavüz cinayətinə görə məsuliyyəti təcavüzün dövlət tərəfindən törədilməsi ilə sıx və üzvi surətdə bağlıdır. Əslində dövlətin törətdiyi təcavüz cinayəti şəxsin (şəxslərin) cinayət məsuliyyətinin yaranması üçün zəruri şərtdir. Bu həm də o deməkdir ki, dövlətin təcavüz törətməsi faktı müəyyən olunması, bu və ya digər fiziki şəxs təcavüz cinayətinə görə məsuliyyətə cəlb oluna bilməz. Digər bir tərəfdən, məlum olduğu kimi, BMT Nizamnaməsinin 39-cu maddəsinə görə, təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir.

Təcavüz cinayəti özündə bir neçə mərhələni ehtiva edir:

1) təcavüz aktının törədilməsi haqqında əmr verilməsi;
2) təcavüzkar müharibənin planlaşdırılması;
3) təcavüzkar müharibənin hazırlanması;
4) müharibənin başlanması;
5) müharibənin aparılması.

Praktikada bu mərhələlər bir-birindən aydın fərqlənmir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, yalnız bir mərhələdə iştirak cinayət məsuliyyətinin yaranması üçün kifayətdir.

b) genosid

"Genosid" termini ilk dəfə, əslən polyak olan Rafael Lemkin tərəfindən işlədilmişdir. Genosid cinayətinin beynəlxalq fərdi cinayət məsuliyyəti doğurması ilk dəfə olaraq BMT Baş Assambleyasının 1946-cı ildə qəbul etdiyi 97 saylı qətnaməsində təsbit olunmuşdur. Bu cinayətin hüquqi əsasını 1951-ci ildə qüvvəyə

minmiş *Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya* təşkil edir.

Konvensiyanın 2-ci maddəsində genosidin tərifi verilmişdir; bu tərif, demək olar ki, hamılıqla qəbul edilmiş və bir neçə mühüm büynəlxalq sənəddə (məsələn, Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının Nizamnamələrində (müvafiq olaraq 4-cü və 3-cü maddələr), Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər məcəlləsinin Layihəsində (17-ci maddə), Beynəlxalq Cinayət Məcəlləsinin Nizamnaməsində (6-cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində olduğu kimi əks olunmuşdur (bax: Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 və 104-cü maddələri). Həmin maddədə deyilir: "Genosid cinayət hər hansı bir milli, etnik, irqi və ya dini qrupu bir qrup kimi tamamılə və ya qismən məhv etmək niyyətilə törədilən aşağıdakı əməllərdən biridir;

a) belə bir qrupun üzvlərinin öldürülməsi;

b) belə bir qrupun üzvlərinə ciddi bədən xəsarəti və ya əqli pozğunluq yetirilməsi;

c) qəsdən hər hansı belə bir qrup onun tamamilə və ya qismən fiziki məhvinə yönəlmiş həyat şəraitinin yaradılması;

ç) belə bir qrupun içərisində doğumun qarşısının alınmasına yönəlmiş tədbirlər;

d) zorla uşaqların bir qrupdan başqa bir qrupa verilməsi".

Gördüyümüz kimi, genosidin anlayışı iki mühüm ünsürdən ibarətdir: 1) zəruri niyyət və 2) qadağan olunmuş əməl.

Genosid üçün ən əhəmiyyətli ünsür *spesifik niyyətin* olmasıdır. Bu, genosidi, obyektiv cəhətinə görə oxşar olan digər beynəlxalq cinayətlərdən, xüsusilə insanlıq əleyhinə cinayətlərdən və habelə müharibə cinayətlərindən (silahlı münaqişə şəraitində) fərqləndirən başlıca xüsusiyyətdir. Genosid cinayətinin tövsifedici əlaməti kimi, niyyət özündə bir neçə mühüm aspekti ehtiva edir:

1) niyyət, təsadüfən bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır; Fərdin şəxsiyyəti,

yox məhz müəyyən qrupa mənsubiyyəti genosidin bilavasitə qruplarını təyin etmək üçün həlledici meyardır.

2) niyyət, qrupun bir qrup kimi, özü-özlüyündə, başqalarından fərqlənən bir ayrıca qrup kimi məhv edilməsindən ibarət olmalıdır; Bu baxımından, genosidlə adamöldürmə (homosid) cinayəti arasında fərq ondadır ki, genosid bütöv insan qruplarının mövcudluq hüququnu tanımaqdan imtina, adamöldürmə isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnu tanımaqdan imtina kimi səciyyələnir.

3) niyyət, qrupun "tamamilə və qismən" məhv edilməsindən ibarət olmalıdır;

4) niyyət yuxarıda göstərilən qruplardan birinin, məhz milli, etnik, irqi və ya dini qrupun məhv edilməsindən ibarət olmalıdır. Göründüyü kimi, digər qruplar, xüsusilə siyasi və ya sosial qruplar bu siyahıya daxil edilməmişdir. Qeyd etmək yerinə düşərdi ki, bir sıra ölkələrin (Efiopiya, Sloveniya və b.) cinayət qanunvericiliyində siyasi qruplar da genosid cinayətinin obyekti kimi nəzərdə tutulmuşdur.

Genosid haqqında Konvensiyanın IV maddəsində göstərilir ki, bu cinayət Konstitusiya əsasında məhsul olan məhsul şəxs, vəzifəli şəxslər və ya adi şəxslər tərəfindən törədilə bilər.

Genosidin obyektiv cəhətinə aid olan "məhvetmə" anlayışı qrupun fiziki və ya bioloji vasitələrlə fiziki məhv olunmasını bildirir; burada söhbət qrupun milli, dil, dini, mədəni və ya digər özünəməxsusluğunun məhv olunmasından getmir. Başqa sözlə, genosid cinayətinin obyektiv cəhətinə "mədəni genosid" (yəni bu və ya digər qrupun dilini, dinini və mədəniyyətini məhv etmək məqsədilə qəsdən törədilən istənilən əməl, məsələn, qrupun dilinin gündəlik həyatda və ya məktəblərdə istifadəsinin və ya bu dildə nəştin qadağan olunması; kitabxanaların, muzeylərin, məktəblərin tarixi abidələrin, dini sitayiş yerlərinin və digər mədəni obyektlərin məhv edilməsi və ya istifadəsinin qadağan olunması və s.) aid edilmir.

Xüsusilə vurğulanmalıdır ki, genosid cinayətinə görə məhsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb olunmur. Kifayətdir ki, yuxarıda haqqında bəhs etdiyimiz hər hansı

əməldən biri müəyyən qrupun özü-özlüyündə tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilsin.

c) insanlıq əleyhinə cinayətlər

Genosiddən və ya müharibə cinayətlərindən fərqli olaraq, insanlıq əleyhinə cinayətlərin universal müqavilə əsası yoxdur və onlar, əsas etibarilə, beynəlxalq adət hüququna və ya büynəlxalq tribunalların nizamnamə və hökümlərinə söykənir. İlk dəfə olaraq insanlıq əleyhinə cinayətlər Nürünberq Tribunalının Nızamnaməsinin 6-cı maddəsində aşağıdakı kimi təsbit olunmuşdur: "İstənilən mülki əhaliyə qarşı müharibədən qabaq və ya müharibə dövtündə, Tribunalın yurisdiksiyasında olan hər hansı cinayətlə bağlı törədilən adamöldürmə, kütləvi qırğın, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani aktlar və yaxud... siyasi, irqi və ya dini əsasda təqiblər".

Beynəlxalq praktikanın və beynəlxalq hüquq elminin sonrakı inkişaf nəticəsində insanlıq əleyhinə cinayıtlərin tərkibi bir qədər genişlənmişdir. İnsanlıq əleyhinə cinayıtlərin anlayışı mövcud beynəlxalq hüquq normalarına görə müəyyən etmək üçün mötəbər beynəlxalq sənəd olan Beynəlxalq Cinayət Məhkəməsinin Nızamnaməsinə müraciət etmək olar.

Nızamnamənin 6-ci maddəsində deyilir: "İnsanlıq əleyhinə cinayıt hər hansı mülki əhaliyə qarşı sistematik və ya geniş miqyaslı hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllərdən hər hansı biri deməkdir:

a) adamöldürmə;
b) kütləvi qırğın;
c) kölə vəziyyətinə salma;
ç) deportasiya və ya əhalinin məcburi köçürülməsi;
d) beynəlxalq hüququn əsas normalarına zidd olaraq azadlıqdan məhrum etmə;
e) işgəncə;
ə) zorlama, fahişəliyə məcbur etmə və digər cinsi zorakılıq;
f) siyasi, irqi, dini və ya etnik motivlər üzrə təqib etmə;
g) adamların zorakılıqla yoxa çıxarılması;

ğ) apariteid cinayətləri;

h) fiziki və ya pisixi toxunulmazlığa, səhhətə və ya insan ləyaqətinə ciddi zərər yetirən digər qeyri-insani əməllər.

Gördüyümüz kimi, insanlıq əleyhinə cinayətlərin obyektiv cəhəti olduqca genişdir və buraya müxtəlif xaraqterli əməllər daxildir.

Diqqətəlayiq haldır ki, Azərbaycanın Cinayət Məcəlləsində (105 – 113-cü maddələr) sözü gedən cinayətlər, Beynəlxalq Cinayət Məhkəməsinin Nızamnaməsində olduğu kimi öz əksini tapmışdır.

Nürünberq Tribunalının Nızamnaməsindən fərqli olaraq, insanlıq əleyhinə cinayətlərin müasir tərəfi belə bir şərti nəzərdə tutmur ki, əməl müharibə zamanı və ya sülh əleyhinə cinayətlərlə, yaxud müharibə cinayətləri ilə bağlı törədilməlidir. Qüvvədə olan beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlərin "avtonom" statusu qəbul olunmuşdur.

ç) müharibə cinaytləri

"Müharibə cinayətləri" termini ümumi anlayış olub, silahlı münaqişə zamanı tətbiq olunan humanitar hüquq normalarının və ya müharibə adət və qanunlarının pozuntularını bildirir. Bəzən belə hesab edirlər ki, müharibə cinayətlərinə yalnız Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarında təsbit olunmuş əməllər aiddir (Cenevrə Konvensiyalarında bu əməllər "ağır pozuntular" ("grave breaches") adlandırılmışdır). Əlbəttə, bu, yalnış fikirdir, belə ki, həmin əməllər müharibə cinayətlərinin yalız bir hissəsini və özü də ən təhlükəli və ciddi əməlləri əhatə edir. Beynəlxalq normativ və presedent təcrübəsində də vahid termindən istifadə olunmur. Məsələn, Nürünberq Tribunalı Nızamnaməsinin 6-ci maddəsində "müharibə qanun və ya adətlərin pozuntuları" ifadəsi işlədilmişdi. Bu pozuntulara aşağıdakılar daxil edilmiş edilmişdi: "işğal olunmuş ərazinin mülki əhalisinin öldürülməsi, əzab verilməsi, köləlik və ya digər məqsədlər üçün aparılması; hərbi əsirlərin və yaxud dənizdə olan şəxslərin öldürülməsi və ya onlara əzab verilməsi; girovların öldürülməsi; ictimai və ya

xüsusi mülkiyyətin qarət edilməsi; şəhər və kəndlərin mənasız dağıdılması; hərbi zərurətdən doğmayan talançılıq və digər cinayətlər”.

Beləliklə, müharibə cinayətlərinə aşağıdakı əmələr aiddir:

1) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş aşağıdakı əməllərdən hər hansı biri: a) qəsdən adamöldürmə; b) işgəncə və ya qeyri-insani rəftar, o cümlədən bioloji eksperimentlər; c) ağır əzab-əziyyət və ya ciddi xəsarət yetirilməsi; ç) hərbi zərurətlə bəraət qazandırılmayan və qeyri-qanuni və böyük miqyasda törədilən dağıntılar və əmlakın ələ keçirilməsi; d) hərbi əsirin və ya mülki şəxsin düşmən dövlətin silahlı qüvvələrində qulluq etməyə məcbur edilməsi; e) hərbi əsirin və ya mülki şəxsin qərəzsiz və normal məhkəmə araşdırmasına olan hüququndan qəsdən məhrum edilməsi; ə) girov götürülməsi.

2) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş və ölümlə nəticələnən və yaxud səhhətə ciddi zərər yetirən aşağıdakı əməllərdən hər hansı biri: a) mülki əhalinin və ya ayrı-ayrı mülki şəxslərin hücum obyekti edilməsi; b) şəxsin kombatant olmadığını və ya artıq sıradan çıxdığını (“hors de combat”) bilərək, onun hücum obyekti edilməsi; c) qırmızı xaç, qırmızı aypara və ya qırmızı şir və günəş və ya xud digər tanınmış fərqləndirmə emblemlərindən sui-istifadə edilməsi.

3) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş aşağıdakı əməllərdən hər hansı biri: a) işğal edən dövlət tərəfindən öz əhalisinin bir hissəsinin işğal etdiyi əraziyə köçürülməsi; b) hərbi əsirin və ya mülki şəxslərin geri qaytarılmasının (repatrasiyasının) əsas olmadan yubandırılması;

4) beynəlxalq humanitar hüququn pozulması ilə şəxsi ləyaqətin təhqir edilməsi, o cümlədən insan ləyaqətinin alçaldan rəftar, zorlama və məcburi fahişəlik;

5) müharibə qanun adətlərinin pozulması ilə törədilmiş aşağıdakı əməllərdən hər hansı biri: a) zəhərli silahların və yz lüzumsuz əzab-əziyyət törətmək üçün nəzərdə tutulmuş digər silahların tətbiq edilməsi; b) şəhər, qəsəbə və ya kəndlərin mənasız dağıdılması və yaxud hərbi zərurətlə əsaslandırılmayan soyğunçuluq; c) müdafiə olunmayan şəhərlərin, kəndlərin, binaların və ya yaşayış evlərinin və yaxud hərbisizləşdirilmiş zonaların istənilən vasitələrlə bombardman edilməsi; ç)

dini, təhsil, incəsənət və elm idarələrinin, tarixi abidələrin və incəsənət və elm əsərlərinin qəsd edilməsi, dağıdılması və ya onlara qəsdən ziyan vurulması; d) ictimai və ya xüsusi əmlakın talan edilməsi;

6) beynəlxalq xaraqter daşımayan silahlı münaqişə zamanı tətbiq olunun beynəlxalq humanitar hüququn pozulması ilə törədilmiş aşağıdakı əməllərdən hər hansı biri: a) adamların həyatına, səhhətinə və fiziki və ya psixi durumuna qarşı zorakı hərəkətlər, o cümlədən qəsdən adamöldürmə və habelə işgəncə, şikəstetmə kimi qəddar rəftar və yaxud bədən cəzasının istənilən forması; b) kollektiv cəzələndırma; c) girov götürülməsi; ç) terror aktları; d) şəxsi ləyaqətin təhqir edilmsi, o cümlədən insan ləyaqətini alçaldan rəftar, zorlama və məcburi fahişəlik; e) hərbi soyğunçuluq; ə) məhkəmə tərəfindən bundan qabaq elan olunmuş qərar olmadan hökm çıxarılması və hökmün icrası; f) silahlı münaqişə zamanı, ətraf təbii mühitə genişmiqyaslı, uzunmüddətli və ağır ziyan vurulması niyyəti ilə hərbi zərurətlə əsaslandırılmayan müharibə üsul və vasitələrinin tətbiq edilməsi.

Yuxarıda sadalanmış pozuntulardan hər biri özü-özlüyündə konkret cinayət əməlidir və beynəlxalq cinayət məsuliyyəti doğurur.

d) BMT heyətinə qarşı cinayətlər

1994-cü ildə qəbul olunmuş *Birləşmiş Millətlər Təşkilatı heyətinin təhlükəsizliyi haqqında Konvensiyaya* görə, “BMT orqanları və ya ixtisaslaşdırılmış təşkilatları tərəfindən ezam olunmuş və BMT əməliyyatının keçirildiyi ərazidə rəsmi sifətdə fəaliyyət göstərən hərbi, polis və ya mülki heyət əleyhinə, BMT mandatının həyata keçirilməsinə mane olmaq məqsədilə, qəsdən və ya sistematik və ya geniş miqyasda törədilən zorakı cinayətlər” (yəni adamöldürmə, bədən xəsarəti yetirilməsi və s.) sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yeni cinayət tərkibi elan olunmuşdur (bax, habelə: Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsi Layihəsinin 19-cu maddəsi).

5. Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti. ***Anlayışı və normativ məzmunu.*** Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti prinsipi müasir beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarından biridir. Ümumi beynəlxalq adət hüququnda, universal konvensiyalarda və beynəlxalq məhkəmə qərarlarında öz əksini tapmış bu prinsipin məzmunu ondan ibarətdir ki, hər hansı beynəlxalq cinayəti törətmiş və yaxud törədilməsində bu və ya digər şəkildə iştirak etmiş fiziki şəxs, cəmiyyətdə və dövlət aparatında tutduğu mövqeyindən asılı olmayaraq, həmin cinayət əməlinə görə məsuluyyət daşıyır.

Beynəlxalq cinayətlərə görə fiziki şəxslrin cinayət məsuliyyəti birbaşa beynəlxalq hüquqla müəyyən olunur. Beynəlxalq fərdi cinayət məsuliyyəti, bu və ya digər əməlin milli qanunvericilikdə kriminallaşdırmaması faktından asılı olmayaraq yaranır.

Beynəlxalq cinayətlərə görə dövlətin beynəlxalq məsuliyyəti və təqsirkar fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti arasında qarşılıqlı əlaqə belə bir ümumi prinsipə əsaslanır ki, fiziki şəxslərin məsuliytə cəlb olunması və cəzalandırılması həmin dövlətin beynəlxalq hüquq əsasında daşımalı olduğu məsuliyyətini istisna etmir.

Beynəlxalq cinayət məsuliyyəti doğuran davranış növləri. Beynəlxalq cinayət məsuliyyəti təkcə hər hansı bir beynəlxalq cinayətin fiziki şəxs tərəfindən bilavasitə törədilməsinə görə ortaya çıxmır. Şəxs, beynəlxalq cinayətin bu və ya digər şəkildə iştirak etdiyinə görə və yaxud beynəlxalq cinayətin törədilməsinə cəhd göstərdiyinə görə də məsuliyyətə cəlb oluna bilər. Bundan asılı olaraq, fərdi cinayət məsuliyyəti doğuran beynəlxalq hüquqa zidd davranışın aşağıdakı növlərinin göstərmək olar: a) beynəlxalq cinayətin qəsdən törədilməsi; b) beynəlxalq cinayətin törədilməsinə əmr verilməsi; c) beynəlxalq cinayətin törədilməsinin qarşısını almaq üçün vəzifəli şəxsin öz səlahiyyətləri daxilində zəruri tdbirlər görməməsi; ç) beynəlxalq cinayətin törədilməsinə birbaşa və əsaslı surətdə bilərəkdən köməklik göstərilməsi və ya başqa cür vasitəçilik edilməsi; d) beynəlxalq cinayətin planlaşdırılmasında və ya birgə razılaşdırılmasında birbaşa iştirak edilməsi; e) beynəlxalq cinayətin törədilməsinə başqa şəxsin (və ya

şəxslərin) birbaşa və açıq surətdə təhrik edilməsi; ə) beynəlxalq cinayətin törədilməsinə cəhd edilməsi (beynəlxalq cinayətə sui-qəsd).

Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti doğuran əməlləri həm hərəkət, həm

də hərəkətsizliklə ifadə oluna bilər. Cinayətkar hərəkətsizliyə beynəlxalq hüquqda az rast gəlinir və buna başlıca misal kimi hərbi komandirin və ya yuxarı vəzifəli mülki şəxsin, tabeçiliyində olan adamlar tərəfindən beynəlxalq cinayətin törədilməsinə yol verməsini göstərmək olar. Yuxarı vəzifəli şəxsin beynəlxalq cinayət məsuliyyəti haqqında müasir beynəlxalq hüquq normasının məzmunu belədir: "Beynəlxalq cinayətin öz tabeçiliyində olan şəxs tərəfindən törədilməsi faktı yuxarı vəzifəli şəxsi cinayət məsuliyyətindən o halda azad etmir ki, əgər, o, tabeçiliyində olan şəxsin belə bir cinayət törətdiyini və ya törətməyə hazırlaşdığını həmin şəraitdə bilirdi və ya bilməyə əsası vardı və o, həmin cinayətin qarşısını almaq üçün öz səlahiyyətləri çərçivəsində bütün zəruri tədbirləri görməmişdi".

Beynəlxalq hüquqda belə bir noma hamılıqla qəbul edilmişdir ki, beynəlxalq cinayət törətməkdə ittiham olunan fiziki şəxsin hökumətin göstərişinə və ya yuxarı vəzifəli şəxsinəmrinə əsasən hərəkət etməsi onu cinayət məsuliyyətindən azad etmir, lakin ədalət mühakiməsinin maraqları nəzərə alınmaqla, cəzanı yüngülləşdirən hal kimi nəzərdən keçirilə bilər.

Müasir beynəlxalq hüquq *"dövlət aktı doktrinası"nı* qəti surətdə rədd edir. Bu doktrinaya görə, dövlət orqanları tərəfindən əməllər yalnız dövlətə aid edilir və bu, həmin əməllərin icraçılarının fərdi təqsirini istisna edir. Şəxsi cinayət məsuliyyəti hazırda ümumi beynəlxalq hüquq norması kimi qəbul edilə bilər.

Beynəlxalq cinayət məsuliyyətinin əsas prinsipləri. Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti bir sıra mühüm prinsiplərə söykənir.

1) Həmin milli hüquq sistemində, həm də beynəlxalq hüquqda cinayət məsuliyyətinin başlıca prinsiplərindən biri ondan ibarətdir ki, əməlin cinayət olması və cəzalandırılması həmin əməlin törədildiyi vaxt qüvvədə olan qanunla müəyyən olunur: cinayət qanununun retroaktiv tətbiqinin yolverilməzliyi *nullum crimen nulla poena sine lege prinsipində* öz əksinin tapmışdır. Beynəlxalq

hüquqda bu prinsip bir sıra mühüm xüsusiyyətlərə malikdir. Birincisi, bu və ya digər əməlin beynəlxalq cinayət kimi kriminallaşdırılması heç də mütləq beynəlxalq konvensiya ilə həyata keçirilmir. Bəzi beynəlxalq cinayətlər yazılmayan mənbələrə - beynəlxalq-hüquqi adət normalarına və ya hüququn ümumi prinsiplərinə söykənir. İkincisi, kütləvi və xüsusi təhlükəli hər hansı bir əməlin cinayət xaraqteri beynəlxalq hüquqla əgər müəyyən olunmuşsa, cinayətin obyektiv cəhətinin sonradan dəqiqləşdirilməsi mümkün haldır. Üçüncüsü, yuxarıda göstərildiyi kimi, beynəlxalq hüquq normaları, bir qayda olaraq, bu və ya digər əməlin cinayət xaraqterini müəyyən edir, lakin konkret sanksiyalar haqqında məsələni açıq qoyur. Bu hal ona əsas verir ki, konkret cəza tədbiri ya milli məhkəmələr, ya da beynəlxalq tribunal tərəfindən müvafiq əməllər törədildikdən sonra müəyyən olunsun.

2) Bütün öhdəliklərin cinayət qanunvericiliyinə habelə bir prinsip məlumdur ki, cinayətin törədildiyi andan müəyyən müddət keçdiyi təqdirdə həmin əməli törətmiş şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz. Bunun əksinə olaraq, müasir ümumi beynəlxalq hüquqda belə bir norma mövcuddur ki, *beynəlxalq cinayətlərə onların törətdiyi vaxtdan asılı olmayaraq heç bir müddət tətbiq olunmur.* İkinci dünya müharibəsindən sonra bir çox dövlətlər tərəfindən beynəlxalq-hüquqi adət kimi tətbiq olunmuş bu norma müqavilə qaydasında *Müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə məsuliyyətə cəlb etmə müddətinin tətbiq olunması haqında 1968-ci il Konvensiyasında* təsbit olunmuşdur. Konvensiyanın 1-ci maddəsində birbaşa müəyyən olunmuşdur ki, "heç bir müddət" bu cinayətlərə tətbiq olunmur. Konvensiyanın iştirakçısı olan dövlətlərin üzərlərinə götürdükləri başlıca öhdəlik ondan ibarətdir ki, "qanunla və ya digər yolla müəyyən edilmiş məsuliyyətinə cəlbetmə müddətinin... Konvensiyada göstərilmiş cinayətlərə görə məsuliyyətinə cəlb etməklə və cəzalandırmaqla bağlı tətbiq olunmamasını təmin etmək üçün zəruri qanunvericilik və ya digər tədbirləri görsünlər" (Konvensiyanın 4-cü maddəsi). Azərbaycan Respublikası bu mühüm müqavilənin iştirakçısıdır: Konvensiyaya qoşulmaq haqqında aktı parlament 31 may 1996-cı il tarixdə qəbul etmişdir.

3) Ümumtanınmış norma tələb edir ki, hər hansı bir cinayət əməlini törətmiş şəxs yalnız bir dəfə cəzalandırıla bilər. Bu, *non bis inidem prinsipidir.* Belə bir sual ortaya çıxır: bir dövlətin məhkəməsi tərəfindən məhkum edilmiş şəxs sonralar eyni əmələ görə beynəlxalq məhkəmə tərəfindən cəzalandərəla bilərmi? Beynəlxalq hüquq bu suala müsbət cavab verir; müasir beynəlxalq hüquqda, göstərilən prinsipdən iki istisna mövcuddur. Belə ki, hər hansı beynəlxalq cinayətə görə milli məhkəmə tərəfindən məhkum olunmuş şəxsin işinə beynəlxalq tribunal sonralar o halda baxa bilər ki, 1) onun törətdiyi əməl adi cinayət kimi tövsif edilmişdir və ya 2) milli məhkəmə prosesi qərəzsiz və müstəqil olmamış, müttəhimi beynəlxalq cinayət məsuliyyətindən qorumaq məqsədi daşımış və yaxud işin istintaqı lazımi səylə aparılmamışdır (Yuqoslaviya tribunalı Nizamnaməsinin 10-cu maddəsi və Beynəlxalq cinayət məhkəməsi Nizamnaməsinin 20-ci maddəsi). Gördüyünüz kimi, istisnalar non in idem prinsipinə mahiyyət etibarilə xələl gətirmir və beynəlxalq cinayət məsuliyyətinin səmərəli həyata keçirilməsinə xidmət edir. Əgər doğrudan da milli məhkəmə, məsələn, genosid əməlini adamöldürmə kimi tövsif edibsə və ya bu cinayəti törətmiş öz vətəndaşını beynəlxalq məsuliyyətindən gizlətməyə çalışıbsa, onda beynəlxalq tribunalın işi öz icraatına götürməsi beynəlxalq ədalət mühakiməsinin mahiyyəti və təyinatı baxımından məntiqi görünür və əslində təqsirli şəxsin ikinci dəfə cəzalandırılması demək deyildir.

4) Beynəlxalq fərdin cinayət məsuliyyəti rejimin əsasında *universal yurisdiksiya prinsipi* dayanır. Bu prinsipin əsas məzmunu ondan ibarətdir ki, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə, yəni bütün dünya birliyinin mənafeyinə toxunan ağır beynəlxalq cinayətlər törətmiş şəxslər dünyanın istənilən dövləti tərəfindən məsuliyyətə cəlb oluna və məhkum oluna bilərlər.

Universal yurisdiksiya prinsipi öz ifadsini həm də ondə tapır ki, beynəlxalq cinayətlərdə təqsirli olan şəxslər siyasi sığınacaq və ya qaçqın statusu almağa iddia edə bilməzlər. 1967-ci il dekabrın 14-də qəbul edilmiş *Ərazi sığınacağı haqqında Bəyannamənin* 1-ci maddəsinin 2-ci bəndində deyilir: "Barəsində sülh əleyhinə cinayət və yaxud insnlıq əleyhinə cinayət törətdiyi haqda ciddi əsasların mövcud olduğu şəxs sığınacaq axtarmaq və sığınacaqdan istifadə etmək hüququna istinad

edə bilməz”. Analoji müddəa *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasında* təsbit olunmuşdur: 1-ci maddənin “e” bəndinin a) yarımbəndinə görə, həmin konvensiyanın müddəaları yuxarıda göstərilən cinayəti törətmiş şəxslərə şamil edilmir.

Universal yurisdiksiya prinsipi ilə üzvi surətdə bağlı olan, hamılıqla tanınmış və bir çox beynəlxalq sazişlərdə təsbit olunmuş *aut dedere aut yudikare prinsipinə* əsasən, istənilən dövlət müəyyən beynəlxalq cinayət əməli törətməkdə, şübhəli sayılan və onun ərazisində yerləşən fiziki şəxslə bağlı aşağıdakı suveren hüquqa və vəzifəyə malikdir: həmin şəxsi ya müvafiq dövlətə vermək, ya da özü məsuliyyətə cəlb etmək və cəzalandırmaq. Beynəlxalq cinayət törətmiş şəxsi cinayət hüququ qaydasında təqib etmək və ya müvafiq dövlətə vermək həmin şəxsin tutulub saxlandığı dövlətin üzərinə qoyulur. “Saxlayan dövlət” (“the custodial state”) bütün tədbirləri görməlidir ki, şəxs ya həmin dövlətin öz müvafiq orqanları tərəfindən, ya da işi araşdırmağa hazır olduğunu bildirən və ekstradisiya xahişi ilə müraciət edən digər dövlətin orqanları tərəfindən mühakimə olunsun.

Bundan əlavə, beynəlxalq fərdi cinayət məsuliyyəti sahəsində məlum prosessual prinsiplər də mövcuddur: qanunçuluq, ədalət, məsuliyyətin fərdiliyi, məsuliyyətin labüdlüyü və s.

6. Beynəlxalq fərdi cinayət məsuliyyətinin həyata keçirilməsi mexanizmi. Beynəlxalq cinayət törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə cəl olunmasında və mühakimə olunmasında *milli məhkəmələr* əhəmiyyətli rol oynaya bilər və əslində oynamalıdır. Bir sıra ölkələrin (Almaniya, ABŞ, Fransa, İsrail və b.) məhkəmə orqanları xüsusilə İkinci dünya müharibəsi dövründə rərədilmiş beynəlxalq cinayətlərlə bağlı xeyli sayda əhəmiyyətli hökümlər çıxarılmışdır. Göstərilən hüquq və vəzifəni adekvat həyata keçirmək üçün hər bir dövlət öz milli qanunvericiliyinə maddi və prosessual hüquqi mexanizmlər nəzərdə tutulmalıdır. Hər şeydən əvvəl, bu o deməkdir ki, dövlət müvafiq beynəlxalq sazişlərin tələblərindən çıxış edərək, beynəlxalq cinayət tərkiblərini öz cinayət qanunvericiliyinə daxil etməlidir. Diqqətəlayiq haldır ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ayrıca bölmə (Bölmə VII) sülh və

bəşəriyyət əleyhinə cinayətlərə həsr olunmuşdur. Digər beynəlxalq cinayətlər də Məcəllənin müvafiq maddələrində öz adekvat əksini tapmışdı.

Lakin beynəlxalq cinayət yurisdiksiyasının həyata keçirilməsi üçün ən optimal mexanizm daimi fəaliyyət göstərən beynəlxalq cinayət məhkəməsidir. Lakin belə bir məhkəmə bu günə qədər hələ fəaliyyətə başlamamışdır. Bununla yanaşı, konkret tarixi şəraitdə və konkret məkanda baş vermiş hadisələri araşdırmaq və ağır cinayətlər törətmiş şəxsləri mühakimə etmək məqsədilə *ad hoc əsasda* beynəlxalq tribunallar təsis olunmuşdur. Bunlar ikinci dünya müharibəsindən sonra yaradılmış *Nürnberq və Tokio tribunalları* və müvafiq olaraq 1993-cü və 1994-cü illərdə yaradılmış *Yuqoslaviya və Ruanda tribunallarıdır.* Son iki tribunal, "qalib dövlətlər" tərəfindən yaradılan Nürnberq və Tokio tribunallarından fərqli olaraq, ilk dəfə idi ki, beynəlxalq təşkilatın qərarı, daha doğrusu, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında yaradılmışdır.

Nürnberq və Tokio tribunalları. Bu iki tribunal beynəlxalq cinayətlər törətmiş şəxsləri mühakimə etmək üçün təsis olunmuş ilk beynəlxalq məhkəmə orqanları idi. Onlar ikinci dünya müharibəsi illərində törədilmiş misilsiz vəhşiliklərə cavab olaraq qalib dövlətlər tərəfindən yaradılmışdı. Nürnberq tribunalı ABŞ, Böyük Britaniya, SSRİ və Fransa arasında 1945-ci ildə bağlanmış Sazişdə nəzərdə tutulmuşdu. Sonralar daha 19 dövlətin qoşulduğu bu Sazişə *Beynəlxalq hərbi tribunalın Nizamnaməsi* əlavə olunmuşdu. Uzaq Şərq üçün Beynəlxalq hərbi tribunal 11 dövlət (ABŞ, Böyük Britaniya, SSRİ, Fransa, Çin, Avstraliya, Yeni Zelandiya, Kanada, Niderland, Filippin və Hindistan) arasında 1946-cı ildə imzalanmış Sazişə müvafiq olaraq təsis olunmuşdu. Yaponiya militaris siyasətinin aparıcı fiqurlarını cəzalandırmaq məqsədi daşıyan bu Tribunal Nürnberq tribunalının, prinsip etibarilə, eyni idi.

Nürnberq tribunalının yurisdiksiyasına sülh əleyhinə cinayətlər, müharıbə cinayətləri, və insanlıq əleyhinə cinayətlər aid edilmişdi. Bu Tribunalın Nizamnaməsi və çıxardığı hökümlər beynəlxalq cinayət hüququnun inkişafına əhəmiyyətli təkan vermişdir. Bir sıra Nürnberq prinsiplri sonralar beynəlxalq adət hüququna daxil olmuşdur; məsəln, müttəhim dövlət başçısı və ya digər məsul

vəzifəli şəxs olması onu göstərilən cinayətlərə görə məsuliyyətdən azad etmir; cinayətin yuxarı vəzifəli şəxsin və ya hərbi komandirin əmrinə əsasən törədilməsi tabeçilikdə olan şəxsi məsuliyyətdən azad etmir; lakin yüngülləşdirici hal kimi çıxış edə bilər və s. Nürnberq tribunalı nəinki fiziki şəxslərin, habelə təşkilatların da cinayət məsuliyyəti barədə məsələ qaldırmışdı. Tribunal 12 nəfəri ölüm cəzasına, 7 nəfəri azadlıqdan məhrumetmə cəzasına məhkum etmiş, 3 nəfərə isə bəraət vermişdi.

Yuqoslaviya tribunalı 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının 23 fevral 1993-cü il tarixli 808 saylı və 25 may 1993-cü il tarixli 827 saylı qətnamələri əsasında yaradılmışdır. Tribunalın öz Nizamnaməsi əsasında fəaliyyət göstərir. Nizamnamədə aşağıdakı cinayət tərkibi göstərilmişdir: Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntuları; müharibə qanun və adətlərinin pozulması (bu, əsasən, beynəlxalq humanitar hüququn "Haaqa hüququ" adlanan hissəsinin ciddi pozuntularını əhatə edir); genosid və insanlıq əleyhinə cinayətlər. 6-cı maddəyə əsasən, Tribunal yalız fiziki şəxslər üzərində yurisdiksiyaya malikdir (hüquqi şəxsıər buraya daxil edilmir). Tribunal aşağıdakı orqanlardan ibarətdir: 1) iki birinci instansiya palatası və Apellyasiya palatası; 2) Prokuror; 3) Dəftərxana (o, həm palatalara, həm də Prokurora xidmət edir). Nizamnamədə, bunlardan əlavə, aşağıdakı məsələlər öz əksini tapmışdır: ibtidai istintaq və ittihamnamənin təsdiqi; məhkəmə baxışı; müttəhimlərin hüquqları, zərərçəkənlərin və şahidlərin müdafiəsi; höküm və cəza məsələləri; apellyasiya və yeni faktların aşkara çıxarılması ilə hökmə yenidən baxılması; hökmün icrası; əfv və hökümlərin əvəz olunması; əməkdaşlıq və hüquqi yardım; Tribunalın imtiyaz və immunitetləri; Tribunalın xərcləri və s.

Yuqoslaviya tribunalının olduğu yer Niderlandın Haaqa şəhəridir.

Tribunal artıq yüzdən artıq şəxs barəsində ittiham irəli sürmüş və onlarla şəxs barəsində hökm çıxarmışdır.

Ruanda tribunalı 1994-cü il noyabrın 8-də Təhlükəsizlik Şurasının 955 saylı qətnamsi əsasında təsis olunmuşdur. Bu tribunal Ruandada və ona qonşu ölkələrdə qısa müddət ərzində törədilmiş görülməmiş vəhşiliklərə cavab tədbiri kimi

yaradılmışdır: 1994-cü ildə üç ay ərzində, əsasən, tutsi etnik qrupundan olan 500000 adam kütləvi qırğına məruz qalmışdır. Buna görə də Ruanda tribunalının yurisdiksiyasına birinci növbədə genosid cinayəti daxil edilmişdir. Ruanda tribunalının Nizamnaməsi Yuqoslaviya tribunalının Nizamnaməsini əsasən təkrarlayır.

Tribunal 1998-ci il sentyabrın 2-də beynəlxalq cinayət hüququ tarixində ilk dəfə olaraq genosidlə bağlı hökm (Taba rayonunun meri Jan Pol Akayesuya qarşı) çıarmışdır. Ruanda tribunalının bu günə kimi çıxdığı 10-na qədər hökm genosid cinayətinin düzgün tövsifi baxımından olduqca əhəmiyyətlidir.

Tribunal olduğu yer Aruşa şəhəridir (Tanzaliya).

Beynəlxalq cinayət məhkəməsi. BMT Beynəlxalq hüquq komissiyası tərəfindən işlənib hazırlanmış müvafiq Nizamnamə layihəsi 1994-cü ildə BMT Baş Assambleyasının xüsusi Hazırlıq Komitəsi tərəfindən bəyənilmiş və 1998-ci ilin iyul ayında Romada keçirilmiş diplomatik konfransda böyük səs çoxluğu ilə qəbul olunmuşdur. Nizamnaməyə görə, Beynəlxalq cinayət məhkəməsi fakultativ yurisdiksiyaya malik olacaq, milli məhkəmələr cinayət yurisdiksiyasını tamamlayacaq daimi beynəlxalq təsisat kimi nəzərdə tutulmuşdur.

Beynəlxalq cinayət məhkəməsinin yurisdiksiyası dövlətlərə deyil, yalınz fiziki şəxslərə şamil ediləcəkdir.

Məhkəmənin yurisdiksiyasına aşağıdakı cinayətlər aid edilmişdir: a) genosid; b) təcavüz; c) beynəlxalq humanitar hüququn ciddi pozuntuları və c) insanlıq əleyhinə cinayətlər.

Nizamnaməyə görə, Beynəlxalq cinayət məhkəməsinin yurisdiksiyası Nizamnamənin qüvvəyə mindiyi andan sonra baş vermiş cinayətlərə şamil olunmur.

Məhkəmə öz yurisdiksiyasını o halda həyata keçirə bilər ki, ərazisində cinayət baş vermiş dövlət və yaxud müttəhimin vətəndaşı olduğu dövlət ya Nizamnamənin iştirakçısıdır, ya da xüsusi bəyanat vasitəsilə Məhkəmənin yurisdiksiyasını qəbul edir. Məhkəmənin yurisdiksiyasının həyata keçirilməsi üçün təşəbbüskar iştirakçı dövlət, Təhlükəsizlik Şurası və ya Prokuror olabilər. Diqqətəlayiq haldır ki,

Prokuror özü istintaqa başlaya bilər. O, hətta müvafiq dövlətin razılığı olmadan onun ərazisində bir sıra məhdud xaraqterli istintaq həyata keçirmək səlahiyyətinə malikdir.

7. Cinayətkarlıqla mübarizə sahəsində dövlətlərin əməkdaşlığının təşkilati mezanizmi. Beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində dövlətlərin əməkdaşlığının müxtəlif təşkilati formaları mövcuddur. Əsas etibarilə bu əməkdaşlıq BMT sistemində həyata keçirilir.

Birinci növbədə *Cinayətkarlığın qarşısının alinması və cinayət ədalət mühakiməsi üzrə Komissiyanı (1991-ci ilə qədər – Cinayətkatlığın qarşısının alinması və onunla mübarizə üzrə Komissiya)* göstərmək lazımdır. Cinayətkarlıqla mübarızə üzrə əməkdaşlıq məsəsləri ilə məşğul olan BMT orqanları sistemində bu Komissiya mərkəzi yer tutur. Komissiya EKOSOK tərəfindən üç il müddətinə seçilən 40 dövlətin nümayəndələrindən ibarətdir. Onun başlıca funksiyaları aşağıdakılardır: göstərilən sahədə BMT-nin önəmli prinsiplərinin işlənib hazırlanması; Cinayətkatlığın qarşısının alinması sahəsində BMT Proqramının (BMT Baş Assambleyasının 46-cı sessiyasında qəbul olunmuşdur) həyata keçirilməsi gedişinə nəzarət; regional və regionlararası təsisatların fəaliyyətinin əlaqələndirilməsi.

BMT Baş Assambleyasının 1950-ci ildə qəbul etdiyi qərara əsasən, hər beş ildən bir *Cinayətkarlığın qarşısının alinması və cinayətkarlıqla rəftar üzrə BMT-nin Konqresləri* keçirilir. Bu Konqreslərdə son beş il ərzində sözü gedən sahədə dövlətlərin əməkdaşlığının nəticələri təhlil edilir, sonrakı dövr üçün fəaliyyət istiqamətləri və konkret tədbirlər müəyyən edilir. Aşağıdakı məsələlər son dövürdə keçirilmiş Konqreslərin diqqət mərkəzində olmuşdur: inkişaf kontekstində cinayətkarlığın qarşısının alınması və cinayət ədalət mühakiməsi; terrorizm, mütəşəkkil cinayətkarlıq və çirkli pulların yuyulması kimi cinayətlərlə birgə mübarizə; yetkinlik yaşına çatmamış şəxslər tərəfindən törədilən cinayətlərin qarşısının alınması və bu şəxslərə qarşı ədalət mühakiməsinin həyata keçirilməsi və s.

Bunlardan əlavə, BMT Katibliyi çərçivəsində yaradılmış *osial inkişaf və humanitar məsələlər üzrə Mərkəzi,* bu Mərkəz yanında fəaliyyət göstərən *Cinayətkarlığın qarşısının alinması və cinayət ədalət mühakiməsi üzrə Şöbəni* göstərmək olar.

BMT sistemindən kəharda da cinayətkarlıqla mübarızə üzrə təşkilat və orqan mövcuddur. Onların sırasında ən əsası və ən səmərəlisi *Beynəlxalq Cinayət Polisi Təşkilatıdır (İnterpol).* İnterpolun əsası 1923-cü ildə qoyulmuşdur. O, milli polis idarələrinin nümayəndələrindən ibarətdir. İnterpolun əsas məqsədi cinayətkarlıqla mübarızədə müxtəlif dövlətlərin polis orqanlarının səylərini birləşdirməyə yardım etməkdir. İnterpol minlərlə təhlükəli cinayətkarların kartotekasını aparır. O, aşağıdakı strukrura malikdir: Baş Assambleya, İcraiyyə komitəsi (ona Prezident rəhbərlik edir), Baş katiblik, ayrı-ayrı şöbələr (inzibati, elmi-tədqiqat, polis, texniki təminat), yarım şöbələr (ümumi cinayətlər, narkomaniya ilə mübarızə, iqtisadi cinayətkarlıq və s.), milli mərkəzi bürolar. Mənzil-qərargahı Fransanın Lion şəhərində yerləşir.

8. Cinayətkarların verilməsi. Cinayətkarların verilməsi (ekstradisiya) institutu beynəlxalq cinayətlərin ayrı-ayrı növləri ilə mübarızəyə həsr olunmuş beynəlxalq sazişlərə, dövlətlər arasında xüsusi olaraq bağlanmış regional müqavilələrlə və ekstradisiya və ya cinayət işləri üzrə hüquqi yardım göstərilməsi haqqında ikitərəfli müqavilələrlə əsaslanır.

Müasir beynəlxalq hüquqda ekstradisiya yalız artıq məhkum olnmuş və ya cinayətkar olduğu güman edilən, yeni cinatət törədilməsində ittiham edilən şəxslərə tətbiq olunur. Bir qayda olaraq, cinayətkarın verilməsini aşağıdakı dövlətlərdən hər hansı biri tələb edir; güman edilən cinayətkarın vətəndaşı olduğu dövlət; ərazisində cinayət törətmiş dövlət və yaxud cinayətdən zərər çəkmiş dövlət.

Mövcud müqavilələrə əsasən, cinayətkarlar bu şərtlərlə verilə bilər; törədilmiş əməl ekstradisiya haqqında müqavilə ilə nəzərdə tutulmuşdur; əməl hər iki dövlətin cinayət qanunvericiliyi ilə bir ildən artıq müddətə azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır; verilən şəxs yalız həmi cinayətə görə mühakimə edilə bilər; əgər

cinayətkarı verən dövlətin qanunvericiliyində ölüm cəzası nəzərdə tutulmursa, onda verilən şəxsə ölüm cəzası tətbiq edilə bilməz.

Müəyyən hallarda şəxs başqa dövlətə verilmir: a) dövlətin öz vətəndaşları; b) siyasi cinayətlər haqqında işlər üzrə; c) cinayət, şəxsi vermək xahişi ünvanlanmış dövlətdə törədildikdə; ç) şəxs sığınacaq hüququ aldıqda və ya artıq həmin cinayətə görə cəza çəkmişsə və yaxud məhkəmə tərəfindən bəraət almışsa; d) qanunla müəyyən olunmuş müddət keçdikdə; e) cinayət işi xitam edildikdə; ə) verilən şəxsə işgəncə veriləcəyi təhlükəsi olduqda və s.

Müvafiq dövlətlərarası sazişlərdə, bir qayda olaraq, cinayətkarların verilməsi proseduru müfəssəl təfsir olunur.

Cinayət işləri üzrə hüquqi yardım,o cümlədən, cinayətkarların verilməsi sahəsində Azərbaycan Respublikası indiyə qədər 14 ikitərəfli saziş imzalamışdır (Rusiya, Gürcüstan, İran,Türkiyə, Bolqarıstan, Litva, Ukrayna və başqa dövlətlərlə). Göstərilən sahədə ölkəmizdə qəbul olunmuş iki – qanunun "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" 15 may 2001-ci il tarixli Qanunun və "Cinayət işlərinə dair hüquqi yardım haqqında" 29 iyul 2001-ci il tarixli Qanunun böyük əhəmiyyəti vardır. Hər iki Qanunun müddəaları Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda tətbiq edilir.

Mövzu 14: BEYNƏLXALQ İQTİSADİ HÜQUQU

Plan:

1.Beynəlxalq iqtisadi hüququn anlayışı

2. Beynəlxalq iqtisadi hüququn subyektləri

3. Beynəlxalq iqtisadi hüququn mənbələri

4. Beynəlxalq iqtisadi hüququn prinsipləri

5. Beynəlxalq iqtisadi münasibətlərin ayrı-ayrı sahələrində əməkdaşlığın beynəlxalq-hüquqi tənzimlənməsi

6. Regional iqtisadi əməkdaşlığın təşkilati formaları

Ədəbiyyat siyahısı.

Альтшулер А.Б. *Международное валютное право.* М., 1984.

Богатырев А.Г. *Инвестиционное право.* М., 1992.

Богуславский М.М. *Международное экономическое право.* М., 1986.

Буйвалик Г.Е. *Правовое регулирование международных экономических отношений.* Киев, 1977.

Вельяминов Г.М. *Основы международного экономического права.* М., 1994.

Войтович С.А. *Принципы международно-правового регулирования межгосударственных экономических отношений.* Киев, 1988.

Додонов В. *Право международной торговли.* Словарь-справочник. М., 1997.

Ерпылева Н. *Международное банковское право.* М., 1986.

Коробова М.А. *Международное право и экономические договоры.* М., 1987.

Розенберг М.Г. *Международная купля-продажа товаров*. М., 1995.

Ушаков Н.А. *Режим наибольшего благоприятствования в международных отношениях.* М., 1995.

Шатров В.П. *Международное экономическое право.* М., 1986.

Шумилов В. *Международное экономическое право.* М., 1999.

1.Beynəlxalq iqtisadi hüququn anlayışı. ***Beynəlxalq iqtisadi hüquq – beynəlxalq ümumi hüququn bir sahəsi kimi, dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında iqtisadi münasibətləri nizama salır.***

Beynəlxalq iqtisadi münasibətlər sistemi öz subyekt tərkibinə görə müxtəlif cür

münasibətlərdən ibarətdir və bu faktın özü müxtəlif hüquqi nizamasalma metod və vasitələrinin tətbiqini şərtləndirir. Bu münasibətlərin iki səviyyəsi mövcuddur: birincisi, dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasındakı (məsələn, dövlətlər və beynəlxalq təşkilatlar arasında) münasibətlər; ikincisi, ayrı-ayrı dövlətlərin fiziki və hüquqi şəxsləri arasındakı münasibətlər (buraya, həmçinin dövlətlərlə başqa bir dövlətin fiziki və hüquqi şəxsləri arasındakı münasibətlər də daxildir). Beynəlxalq iqtisadi hüquq yalnız birinci səviyyədə olan münasibətləri – dövlətlərarası iqtisadi münasibətləri nizama salır. Dövlətlər beynəlxalq iqtisadi əlaqələrin həyata keçirilməsi üçün hüquqi əsaslar müəyyən edirlər. Əlbəttə ki, beynəlxalq iqtisadi əlaqələrin əsas hissəsi ikinci səviyyədə - fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilir. Bu əlaqələr hər bir dövlətin daxili qanunvericiliyi ilə, xüsusilə, onun tərkib hissəsi olan beynəlxalq xüsusi hüquq vasitəsilə nizama salınır. Beynəlxalq iqtisadi hüquq bu əlaqələrə dövlət vasitəsilə, dövlətlər üzərinə müəyyən öhdəliklər qoymaq yolu ilə təsir edir.

Beynəlxalq iqtisadi hüququn nizama salma obyekti daha bir xüsusiyyətə malikdir. Belə ki, dövlətlərarası iqtisadi münasibətlər məzmun etibarilə müxtəlif münasibətləri əhatə edir; buraya ticarət, nəqliyyat, maliyyə, investisiya və digər münasibətlər aiddir. Spesifik məzmuna malik olduğuna görə, bu münasibətləri nizama salan prinsip və normalar beynəlxalq iqtisadi hüquq çərçivəsində ayrı-ayrı yarımsahələr əmələ gətirir: beynəlxalq ticarət hüququ, beynəlxalq nəqliyyat hüququ, beynəlxalq maliyyə hüququ, beynəlxalq investisiya hüququ və s. Bütün bu yarımsahələr ümumi nizamasalma obyektinə, ümumi məqsəd və prinsiplərə malik olan vahid beynəlxalq hüquq sahəsində - beynəlxalq iqtisadi hüquqabirləşir.

2. Beynəlxalq iqtisadi hüququn subyektləri. Beynəlxalq ümumi hüququn bir sahəsi olan beynəlxalq iqtisadi hüququn əsas subyekti kimi, təbii ki, dövlət çıxış edir. Dövlət xarici iqtisadi mülki-hüquqi, kommersiya fəsliyyətində bilavəsitə iştirak edə bilərlər.

Beynəlxalq təşkilatlar (xüsusilə, iqtisadi xaraqterli) öz təsis aktlarınamüvafiq olaraq, beynəlxalq iqtisadi münasibətlərdə iştirak edirlər. Bu sırada dövlətlərin aşağıdakı ticarət-iqtisadi birliklərini də göstərmək olar:

a) azad ticarət zonaları (iştirakçı ölkələr arasında bütün və ya ayrı-ayrı malların ticarəti sahəsində gömrük və digər məhdudiyyətlər ləğv olunur);

b) gömtük ittifaqları (iştirakçı dövlətlərin milli gömrük tarifləri ləğv olunur və bütün ittifaq üçün ümumi tarif tətbiq edilir);

c) iqtisadi ittifaqlar (ümumi əmtəə, xidmət, kapital və işçi qüvvəsi bazarı yaradır).

Transmilli korparasiyalar da müəyyən hallarda beynəlxalq iqtisadi hüququn subyekti kimi çıxış edə bilər. Bu barədə yuxarıda, "Beynəlxalq hüququn subyektləri" fəsilində söhbət getmişdir.

3. Beynəlxalq iqtisadi hüququn mənbələri. Beynəlxalq iqtisadi hüququn əsas mənbəyi beynəlxalq müqavilələr və beynəlxalq adətlərdir.

Beynəlxalq müqavilələr içərisində çoxtərəfli müqavilələr mühüm rol oynayır. Onlara misal olaraq, 1947-ci ildə qəbul olunmuş *Tariflər və ticarət üzrə Baş Sazişi* (QATT), QATT –ın əvəzində Ümumdünya Ticarət Təşkilatının yaranmasını nəzərdə tutan 1994-cü il *Mərakeş sazişlərini*, xammallar üzrə çoxtərəfli sazişləri, beynəlxalq ticarət hüququnun unifikasiyası üzrə, nəqliyyat və rabitə üzrə və s. konvensiyaları göstərmək olar.

İqtisadi əməkdaşlıq daha çox *ikitərəfli müqavilələr* əsasında həyata keçirilir. Bunlara aşağıdakılar aiddir: a) *çərçivə xarakterli siyasi müqavilələr* (məsələn, dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilələr); b) ticarət müqavilələri (bu müqavilələrdə, adətən, dövlətlər və onların fiziki və hüquqi şəxslər arsındakı münasibətlərdə müəyyən növ ticarət-iqtisadi rejim müəyyən edilir); c) *ticarət-iqtisadi əməkdaşlıq haqqında uzunmüddətli sazişlər* (bu sazişlər müvafiq dövlətlər arasında əməkdaşlığın konkret sahə və formalarını müəyyən edir); ç) *istehsal sahəsində əməkdaşlığa dair sazişlər; d) texniki yardım göstərmək haqqında sazişlər; e)iqtisadi əməkdaşlığın maliyyə-kredit təminatı haqqında sazişlər (məsələn, əmtəə dövriyyəsi və ödınişlər haqqındd sazişlər; klirinq sazişləri,kredit sazişləri və s.).*

Beynəlxalq iqtisadi hüququn aşağıda nəzərdən keçirəcəyimiz başlıca müddəaları *beynəlxalq hüquqi adət* şəklində mövcuddur. Bu adət normaları

dövlətlərin iqtisadi inkişafının qanunauyğunluqlarına və tələblərinə cavab verir və iqtisadi əməkdaşlığın əsasını təşkil edir.

Beynəlxalq iqtisadi hüquqda köməkçi hüquq mənbələri kimi *beynəlxalq təşkilatların qətnamələrinin* əhəmiyyəti böyükdür. BMT-nin orqanları (Baş Assambleya, EKOSOK, YUNKTAD və b.), ixtisaslaşdırılmış təsisatlar (YUNİDO, ÜƏMİ və b.) iqtisadi əməkdaşlıq məsələlərinə dair tövsiyələr qəbul edirlər. Bu qətnamələr sırasında BMT Baş Assambleyasının qəbul etdiyi bir sıra müstəsna əhəmiyyətə malik sənədləri – *Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyasını, Yeni beynəlxalq iqtisadiqayda haqqında Bəyannaməni (1974), "Beynəlxalq iqtisadi təhlükəsizlik haqqında" qətnaməni (1985)* xüsusi ilə qeyd etmək lazımdır. Bəzi regional iqtisadi təşkilatların məsələn, Avropa İttifaqının qərarları məcburi xaraqter daşıyır.

4. Beynəlxalq iqtisadi hüququn prinsipləri Beynəlxalq hüququn əsas prinsipləri bütünlüklə beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində də tətbiq olunur. Bununla yanaşı, beynəlxalq iqtisadi hüququn *xüsusi prinsipləri* də mövcuddur:

a) dövlətin öz təbii ehtiyatları və bütün iqtisadi fəaliyyət üzərində tam suverenliyi prinsipi;

b) iqtisadi əməkdaşlıq sahəsində ayrı-seçkiliyə yol verilməməsi prinsipi;

c) qarşılıqlı fayda prinsipi;

ç) inkişaf etməkdə olan ölkələr üçün preferensial rejim prinsipi və s.

Bundan əlavə, beynəlxalq iqtisadi hüquq sahəsində, iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün hüquqi əsas rolunu oynayan *hüquqi rejimlər* mövcuddur. Prinsiplərdən fərqli olaraq, bu hüquqi rejimlər müqavilə rejimləridir, yəni onlar yalnız maraqlı dövlətlər bu barədə razılaşdıqda tətbiq olunur. Bunlar aşağıdakılardır:

1) *ən əlverişli rejim.* Bir dövlət başqa bir dövlətə, onun vətəndaşlarına və hüquqi şəxslərinə istənilən üçüncü dövlət üçün nəzərdə tutduğu və ya tətbiq edəcəyi hüquq və güzəştlər verir. Müvafiq müqavilələrdə tərəflər, bir qayda olaraq, göstərilən rejimin tətbiq olunacağı konkret sahəni müəyyən edirlər; malların idxal və ixracı; gömrük rüsumlaeı; nəqliyyat rejimi; tranzit və s. Ən əlverişli rejimdən,

adətən, bəzi istisnalar müəyyən olunur (məsələn, qonşu ölkələr, inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutulmuş xüsusi güzəştlər);

2) *milli rejim.* Bu rejimə müvafiq olaraq, bir dövlətin vətəndaşları və hüquqi şəxsləri başqa bir dövlətin ərazisində yerli fiziki və hüquqi şəxslərə verilmiş hüquqlardan istifadə edə bilər. Milli rejim, adətən, əcnəbilərin hüquq qabiliyyəti, o cümlədən öz hüquqlarının məhkəmə vasitəsilə müdafiəsi məsələlərinə şamil olunur;

3) *preferensial rejim.* Bu rejim hər hansı dövlətə və ya dövlətlər qrupuna xüsusi üstünlüklərin (məsələn, ticarət güzəştlərinin) verilməsini nəzərdə tutur. O, qonşu dövlətlər arasındakı münasibətlərdə və ya inteqrasiya sistemləri çərçivəsində tətbiq olunur. İnkişaf etməkdə olan ölkələrə preferensiyaların verilməsi beynəlxalq iqtisadi hüququn prinsipidir.

5. Beynəlxalq iqtisadi münasibətlərin ayrı-ayrı sahələrində əməkdaşlığınbeynəlxalq-hüquqi tənzimlənməsi.

A. Beynəlxalq ticarət hüququ

Beynəlxalq ticarət hüququ beynəlxalq iqtisadi hüququn yaranmasahəsidir: Onun əsas *mənbələri* aşağıdakılardır:

a) ticarət müqavilələri – ikitərəfli əsasda bağlanır, tərəflər arasında ticarətin ümumi hüquqi əsasını müəyyən edir; adətən, uzun müddətə və ya müddətsiz bağlanır. Tərəflər bu müqavilələrdə aşağıdakı məsələləri həll edirlər: ticarət və ya iqtisadi əlaqələri həyata keçirmək hüququ olan subyektləri müəyyən edirlər; bir-birinə bu və ya digər sahədə müvafiq hüquqi rejim verirlər; bir-birinin ərazisində öz fiziki və hüquqi şəxslərinin fəaliyyətinin hüquqi rejimini müəyyən edirlər və s.

b) əmtəə dövriyyəsi haqqında sazişlər – ikitərəfli əsasda qısa müddətə bağlanılır; tərəflər arasında əmtəə dövriyyəsini təşkil edən malların kontingentini müəyyən edir. Bu müqavilələrə əsasən, tərəflər müəyyən edilmiş malların idxal və ixracı üçün maneəsiz lisenziyalar verilməsini təmin etməlidirlər.

c) beynəlxalq əmtəə sazişləri – ticarət sahəsində çoxtərəfli sazişlərdir; mineral və kənd təsərrüfatı xammalını idxal və ixrac edən dövlətlər arasında bağlanır. Bu sazişlərdə dövlətlər müvafiq malın alqı-satqısı üzərində kvotalar müəyyən etməklə,

qiymətlərin kəskin surətdə qalxıb-enməsinin qarşısını almağa can atırlar (hazırda buğda, kakao, kofe, qənd və s. üzrə bu cür sazişlər mövcuddur). Bəzi sazişlər praktiki olaraq həyata keçirilməsi üçün beynəlxalq təşkilatlar yaradılır, məsələn, *Neft ixrac edən ölkələrin Təşkilatı (OPEK).*

Beynəlxalq ticarət hüququ sahəsində aşağıdakı *beynəlxalq təşkilatlar* və ya *orqanlar* mövcuddur:

a) Ümumdünya Ticarət Təşkilatı (ÜTT). 1994-cü ildə QATT-ın əvəzinə yaradılmışdır. Hazırda 130-dan çox dövlət bu təşkilatın üzvüdür. Əsas məqsədləri aşağıdakılardır: xarıci ticarətin liberallaşdırılması; gömrük tariflərinin aşağı salınması, ticarət sahəsində ayrı-seçkiliyə yol verilməməsi. Əsasında bütün üzv-dövlətlər üçün nəzərdə tutulmalı olan ən əlverişli rejim prinsipi durur. ÜTT-nin üzv-dövlətləri dünya ticarətinin 90%-dən çoxuna nəzarət edirlər. Təşkilata daxil olmaq istəyən dövlət bazar iqtisadiyatına malik olmalı, öz qanunvericiliyini Təşkilatın çoxsaylı sazişlərinə uyğunlaşdırmalıdır.

b) Ticarət və inkişaf üzrə BMT Konfransı (YUNKTAD). 1964-cü ildə təsis olunmuşdur. BMT-nin müstəqil orqanıdır. Əsas məqsədi beynəlxalq ticarətə, xüsusilə xammal, sənaye malları ticarətə, habelə ticarətlə bağlı maliyyələşdirmə sahəsində əməkdaşlığa dəstək verməkdən ibarətdir.

c) Beynəlxalq ticarət hüququ üzrə BMT Komissiyası (YUNSİTRAL). 1996-cı ildə təsis olunmuşdur. BMT Baş Assambleyasının köməkçi orqanıdır. Başlıca məqsədi beynəlxalq konvensiyaların və digər sənədlərin layihələrini hazırlamaq yolu ilə beynəlxalq ticarət hüququnun inkişafına dəstək verməkdir. Beynəlxalq əmtəə alqı-satqısında iddia müddəti haqqında 1974-cü il Konvensiyasını və bu Konvensiyaya 1980-cı il Əlavə Protokolunu, Dəniz yük daşıması haqqında 1974-cü il Konvensiyasını, Beynəlxalq əmtəə alqı- satqısı müqavilələri haqqında 1980-cı il BMT Konvensiyasını YUNSİTRAL hazırlamışdır.

ç) Beynəlxalq Ticarət Palatası. 1920-ci ildə təsis olunmuşdur. İşgüzar dairələrin nüfuzlu təşkilatı kimi fəaliyyət göstərir. Milli qanunvericiliyin unifikasiyası üzrə iş aparır, fakultativ xaraqterli beynəlxalq aktlar işləyib hazırlayır. Məsələn,

praktikada məşhur olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq qaydaları"nı (İnkoterms) Beynəlxalq Ticarət Palatası hazırlamışdır.

d) Oxşar funksiyalar 1926-cı ildə təsis olunmuş *Xüsusi hüququn unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNİDRUA)* tərəfindən həyata keçirilir.

B. Beynəlxalq maliyyə hüququ

Beynəlxalq maliyyə hüququ – dövlətlərarası valyuta-maliyyə münasibətlərini nizama salan beynəlxalq hüquq prinsip və normalarının məcmusuna deyilir.

Beynəlxalq maliyyə hüququnun (bəzən bu yarımsahə beynəlxalq valyuta hüququ

adlandırılır) predmeti olan valyuta-maliyyə münasibətlərinə hesablaşma, kredit münasibətləri, kommersiya əqdlərinin maliyyə təminatı, valyuta bazarının təkminləşdirilməsi və habelə valyuta-kredit təşkilatlarının yaradılması və fəaliyyəti üzrə münasibətlər daxildir.

Beynəlxalq maliyyə hüququnun əsas *müqavilə mənbələri* aşağıdakılardır: a) ticarət və ya iqtisadi əməkdaşlığa dair ümumi müqavilələr; əmtəə dövriyyəsi və ödənişlər haqqında sazişlər; b) klirinq sazişləri; c) ödəmələr haqqında sazişlər; ç)kredit sazişləri. Göstərilən sahədə bir sıra mühüm *beynəlxalq təşkilatlar* mövcuddur:

Beynəlxalq Valyuta Fondu (BVF). Beynəlxalq valyuta-maliyyə təşkilatları sistemində mərkəzi yer tutur. 1945-ci ildə yaradılmışdır. 1947-ci ildən BMT-nin ixtisaslaşdırılmış təsisat statusuna malikdir. 184 dövlət hazırda BVF-nin üzvüdür. BVF-nin əsas məqsədi – dövlətlərin valyuta-maliyyə siyasətini əlaqələndirmək və onların tədiyə balanslarını və valyuta kurslarını qoruyub saxlamaq üçün onlara kredit verməkdən ibarətdir. BVF valyuta sahəsində beynəlxalq əməkdaşlığa və dünya ticarətinin inkişafına dəstək verir, dövlətlər arasında valyuta münasibətlərinin qaydaya salınması üçün tədbirlər görür.

BVF-nin ali orqanı İdarəetmə Şurasında Təşkilatın hər bir üzvünün səsvermə hüququ onun nizamnamə kapitalındakı payından asılıdır. Bu pay dövlətin dünya

iqtisadiyyatında yeri ilə müəyyən edilir və İdarəetmə Şurası tərəfindən təsdiq edilir.

Ümumdünya Bankı BMT ilə əlaqəli olan mürəkkəb beynəlxalq qurumdur; bu sistemə habelə tam müstəqil təşkilat sayılan üç filial – *Beynəlxalq Maliyyə Korparasiyası (BMK), Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) və İnvestisiya təminatları üzrə Çoxtərəfli Agentlik (İTÇA)* daxildir. Bu təsisatların ümumi məqsədi BMT-nin az inkişaf etmiş üzvlərinin iqtisadi və sosial inkişafına maliyyə yardımı, məsləhət xidməti və kadr hazırlığına kömək göstərilməsi yolu ilə dəstək verməkdir. BVF-də olduğu kimi, Ümumdünya Bankında da üzv-dövlət Bankın nizamnamə kapitalındakı öz payına uyğun səs sayına malikdir.

C. Beynəlxalq investisiya hüququ

Beynəlxalq investisiya hüququ – beynəlxalq iqtisadi hüququn müstəqil yarımsahəsi olub, kapital qoyuluşu ilə bağlı dövlətlər arasındakı münasibətləri nizama salır.

Beynəlxalq investisiya hüququnun əsas prinsipi budur: hər bir dövlət öz ərazisində

xarici investisiyaları özünün milli maraqlarına uyğun olaraq nizama salmaq və nəzərdə saxlamaq hüququna malikdir.

Beynəlxalq investisiya münasibətləri, əsas etibarilə, ikitərəfli müqavilələrlə nizama salınır. Bu müqavilələrdə əcnəbi investorlar üçün hüquqi rejim (adətən, milli rejim) müəyyən olunur, kapital qoyulan dövlət tərəfindən verilən təminatlar sadalanır, bu dövlətlə əcnəbi investorlar arasındakı mübahisələrin həlli qaydası təsbit olunmur.

Sözü gedən sahədə *İnvestisiya təminatları üzrə Çoxtərəfli Agentlik* mühüm rol oynayır. Agentliyin əsas məqsədi istehsal məqsədləri üçün xarici investisiyaları həvəsləndirməkdən ibarətdir. O, xarici investisiyaları qeyri-kommersiya xaraqterli risklərdən (məsələn, ölkədən valyuta çıxarılmasının qadağan edilməsi,

milliləşdirmə, müharibə, dövlətdaxili ixtişaşlar) sığorta edir və bu məqsədlə investorlarla müvafiq kontrakt bağlayır.

6. Regional iqtisadi əməkdaşlığın təşkilati formaları. ***BMT çərçivəsində iqtisadi əməkdaşlıq.*** Bu əməkdaşlıq EKOSOK tərəfindən yaradılmış iqtisadi komissiyalar çərçivəsində həyata keçirilir:

a) BMT-nin Avropa iqtisadi komissiyası; buraya Avropa dövlətləri; keçmiş sovet respublikaları, habelə ABŞ və Kanada daxildir;

b) Asiya və Sakit okean üçün BMT-nin iqtisadi və sosial komissiyası (Qərbi Asiyanın ərəb ölkələrindən başqa, Asiya dövlətləri, Okeaniya dövlətləri, habelə Böyük Britaniya, ABŞ və Fransa);

c) Afrika üçün BMT-nin iqtisadi komissiyası (Afrika dövlətləri);

ç) Qərbi Asiya üçün BMT-nin iqtisadi komissiyası (Qərbi Asiyanın ərəb ölkələri, Misir, habelə Fələstin);

d) Latin Amerikası və Karib hövzəsi üçün BMT-nin iqtisadi komissiyası (Latin Amerikası ölkələri, habelə Böyük Britaniya, Niderland, İspaniya, Kanada, ABŞ və Fransa).

Göstərilən komissiyaların məqsədi müvafiq regionda yerləşən ölkələrin iqtisadi inkişafına dəstək vermək və onların əhalisinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir. Komissiyaların ali orqanı üzv-dövlətlərin nümayəndələrinin plenar sessiyasıdır. Onların tərkibində icra orqanı kimi katiblik, daimi və müvəqəti köməkçi orqanlar vardır.

Avropa bərpa və inkişaf Bankı. 1990-cı ildə təşkil olunmuşdur. Londonda yerləşir. Bank, əsas etibarilə, mühüm infrastruktur obyektlərinin (nəqliyyat şəbəkələrinin, telekommunikasiyaların və s.) yaradılması üçün vəsait ayırır. Xüsusi sektor üçün kreditlər Bank tərəfindən verilən borcun 60%-ni, dövlət sektoru üçün kreditlər isə - 40%-ni təşkil etməlidir.

İqtisadi əməkdaşliq və inkişaf Təşkilatı (İƏİT). 1948-ci ildən fəaliyyət göstərir (1960-cı ilə qədər – Avropa İqtisadi Əmıkdaçlıq Təşkilatı). 30-a qədər dövlət Təşkilatın üzvüdür. Əsas məqsədləri: üzv-dövlətlərin ümumi iqtisadi və ticarət siyasətinin reallaşdırılması; onların, inkişaf etməkdə olan ölkələrə yardımetməsi ilə

bağlı siyasətin əlaqələndirilməsi. İƏİT aşağıdakı sturuktura malikdir: daimi fəaliyyət göstərən Şura (rəhbər orqan); İcra komitəsi; Katiblik (Baş Katib rəhbərlik edir). Bundan əlavə, Təşkilatın yüzdən artıq ixtisaslaşdırılmış orqanı vardır. İƏİT-in orqanlarının qərarları tövsiyə xaraqteri daşıyır.

Avropa İttifaqı (Aİ). Unikal siyasi-hüquqi keyfiyyətə malik dövlətlər birliyidir. İlk əvvəl sırf iqtisadi məqsədlərlə yaradıldığına baxmayaraq, Avropa İttifaqı indi siyasi-iqtisadi quruma çevrilmişdir. Əsası 1951 və 1957-ci illərdə qəbul olunmuş üç müqavilə ilə qoyulmuşdur: Avropa Kömür və Polad Birliyinin yaradılması haqqında təsis müqaviləsi (1951-ci il); Atom enerjisi üzrə Avropa Birliyinin yaradılması haqqında təsis müqaviləsi (1957-ci il) və Avropa İttifaqı Birliyinin təsis olunması haqqında Roma müqaviləsi (1957-ci il). Bunlardan əlavə, Avropa İttifaqının təşkili və fəaliyyəti aşağıdakı hüquqi sənədlərə əsaslanır: 1965-ci il Brüsel müqaviləsi (üç Birliyin vahid orqanları yaradılmışdır); 1971-ci il Lüksemburq müqaviləsi (ən mühüm məsələlər üzrə qərarların yalnız ümumi razılıq əsasında qəbul olunması barədə razılıq əldə edilmişdir); 1986-cı il Vahid Avropa aktı (1993-cü ilə qədər vahid daxili bazar yaradılması və siyasi əməkdaşlığa doğru irəliləmək məqsədi qoymuşdur); 1990-cı il Şengen sazişi (1993-cü ildən bəzi Aİ ölkələri tərəfindən vahi viza rejiminə keçid nəzərdə tutulmuşdur); Avropa İttifaqı haqqında 1992-ci il Maastrix müqaviləsi (XX əsrin sonuna ümumi müdafiə daxil olmaqla, siyasi ittifaqın və vlyuta-iqtisadi ittifaqın yaradılması nəzərdə tutulmuşdur); 1997-ci il Amsterdam sazişləri (sosial sahədə əməkdaşlığın gücləndirilməsi və əhalinin miqrasiyasının liberallaşdırılması haqqında) və vahid valyuta – yevroya keçid haqqında 1998-ci il sazişi.

Bu sazişlər, Aİ-nin orqanlarının qəbul etdiyi çoxsaylı normativ aktlarla birgə "*Avropa İttifaqı hüququ*" və ya "*Avropa hüququ*" adlanan xüsusi hüquqi sistem əmələ gətirir.

Aİ-nin məqsədi gömrük, iqtisadi və habelə siyasi ittifaq yaradılması üçün inteqrasiya proseslərini ardıcıl inkişaf etdirməkdir. Bu yolda Aİ dövlətləri aşağıdakılara nail olmuşlar: qarşılıqlı ticarətdə rüsumların tamamilə ləğvi; vahid xarici gömrük tarifinin müəyyən olunması; adamların, malların və kapitalın

sərhədlərdən azad keçidi; vahid ticarət və aqrar siyasətinhəyata keçirilməsi; vahid patent sistemi; vahid valyuta və s.

Aİ-nin hazırda 15 üzvü vardır.

Aİ-nin əsas orqanları bunlardır: *Şura, Komissiya, Avropa parlamenti, Avropa məhkəməsi.*

Şura – Aİ-nin ali orqanıdır. Onun iclasları, bir qayda olaraq, dövlət və hökumət başçıları səviyyəsində keçirilir. Ən mühüm məsələlər üzrə qərarlar yekdil səslə qəbul edilir.

*Komissiya (*Avropa Komissiyası*)* – daimi fəaliyyət göstərən icra orqanıdır; o, üzv-dövlətlərdən asılı olmayan və məcburi aktlar vermək səlahiyyəti olan orqandır.

Şura və Komissiya öz səlahiyyətləri çərçivəsində aşağıdakı hüquqi aktları qəbul edə bilər:

a) qərarlar (reqlamentlər): həm üzv-dövlətlər, həm də onların fiziki və hüquqi şəxsləri üçün məcburi qüvvəyə malikdir; hər bir üzv dövlətin ərazisində birbaşa tətbiq olunmalıdır;

b) direktivlər: üzv-dövlətlər üçün məcburi qüvvəyə malikdir; onların yerinə yetirilməsinin forma və vasitələri dövlətlərin öz səlahiyyətindədir;

c) qətnamələr: yalız aidiyyəti üzrə məcburidir; fərdi xaraqter daşıyır və üzv-dövlətlərdə bilavasitə tətbiq olunur;

ç) tövsiyə və rəylər; məcburi xaraqter daşımır.

Avropa parlamenti - üzv-dövlətlərin vətəndaşları tərəfindən birbaşa seçilən deputatlardan ibarət birpalatalı orqandır. Ölkələr üçün kvotalar müəyyən olunmuşdur. Deputatlar dövlət mənsubiyyətinə görə deyil, partiya mənsubiyyətinə görə qruplaşdırılır. Avropa parlamenti Aİ-nin orqanları ilə bağlı məsləhətçi, nəzarət və büdcə səlahiyyətlərinə malikdir. Parlamentin sessiyaları hər ay keçirilir. Parlament Şuranın bəzi aktları üzərində veto hüququna malikdir və habelə Şura ilə birgə müəyyən məsələlərə aid aktlar qəbul edə bilər.

*Avropa məhkəməsi (*bəzən *Lüksemburq məhkəməsi* adlanır*)* Aİ-nin yurisdiksiyası sahəsində ali məhkəmə hakimiyyətidir. Üzv-dövlətlərin hökumətləri tərəfindən 6 illik müddətə təyin olunan 15 hakimdən və 9 baş vəkildən ibarətdir.

Məhkəmə yalniz həm üzv-dövlətlərin və Aİ-nin orqanları, həm də şəxslər tərəfindən ona təqdim olunmuş konkret işlər üzrə qərarlar çıxara bilər. Avropa məhkəməsi beynəlxalq məhkəmə təcrübəsində öz təkrarolunmaz xaraqterinə görə, beynəlxalq, konstitusiya və inzibati məhkəmə funksiyalarına malikdir.

Əsas orqanlarla yanaşı, Aİ çərçivəsində çoxlu sayda köməkçi orqanlar, habelə bir sıra xüsusi fondlar fəaliyyət göstərir. Aİ digər dövlətlərlə, əsasən, inkişaf etməkdə olan ölkələrlə 200-dən artıq əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli saziş bağlamışdır. Bunların içərisində müntəzəm olaraq yeniləşdirilən *Lome konvensiyalarını* xüsusilə qed etmək lazımdır. Afrikanın Karib hövzəsinin və Okeaniyanın 60-dan artıq inkişaf etməkdə olan ölkəsinin iştirak etdiyi bu konvensiyalarda həmin ölkələrə müəyyən güzəştlər və maliyyə dəstəyi verilir. Aİ-yə daxil olmağa hazırlaşan bəzi dövlətlər (Bolqarıstan, Macarıstan, Polşa, Slovakiya, Çexiya və s.) Aİ ilə assosiasiya haqqında sazişlər bağlamışlar.

Haqqında bəhs etdiyimiz təşkilatlardan əlavə, *Avropa azad ticarət Assosiasiyasını, Avropa iqtisadi məkanını, Şimali Amerika azad ticarət zonasını* göstərmək olar.

İnkişaf etməkdə olan ölkələr öz aralarında iqtisadi əməkdaşlıq sahəsində xeyli təşkilat yaratmışlar: *İqtisadi əməkdaşlıq təşkilatı (*Azərbaycan Respublikası bu təşkilata daxildir*), Afro – Asiya iqtisadi əməkdaşlıq təşkilatı (AFRASEK), Katib Birliyi (KARİKOM), Latın Amerikası inteqrasiya assosiasiyası, "And qrupu"* və s.

Mövzu 15: BEYNƏLXALQ HÜQUQDA ƏRAZİ

Plan:

1.Anlayışı və növləri

2. Dövlət ərazisinin tərkibi və hüquqi təbiəti

3. Dövlət sərhədləri

4. Beynəlxalq çaylar

Ədəbiyyat siyahısı.

Бабурин С.Н. *Территория государства. Правовые и геополитические проблеммы.* М., 1997.

Гуреев С.А., Тарасова И.М. *Международное речное право.* М., 1993.

Клименко Б.М. *Государственная территория: Вопросы теории и практики международного права.* М., 1974.

Клименко Б.М. *Общее наследие человечества (международно- правовые вопросы).* М., 1989.

Корбут Л.В., Баскин Ю.А. *Международно- правовой режим рек: история и современность.* М., 1987.

Постышев В.М., Даниленко Г.М. Концепция общего наследия человечества в международном праве: Два подхода к одной проблеме //*Сов. Государство и право. 1988. №6.*

Baslar K. *The Concept of the Common Heritage of Mankind in International Law* . The Hague-Boston-London. 1998.

1. Anlayışı və növləri. Beynəlxalq hüquqda genış mənada "ərazi" dedikdə, yer kürəsinin quru və su səthi, yerin təki, bütün hava məkanı, habelə kosmik fəza və orada yerləşən göy cisimləri başa düşülür. Öz hüquqi rejiminə görə bütün bu ərazi *üç növə* ayrılır:

1)dövlət ərazisi;

2)beynəlxalq rejimi olan ərazi;

3) qarışıq rejimi olan ərazi.

Dövlət ərazi – hər hansı dövlətin suverenliyi altında olan əraziyə deyilir. Həmin ərazi çərçivəsində dövlət öz ərazi üstünlüyünü həyata keçirir.

Beynəlxalq rejimi olan ərazilərdə heç bir dövlətin suverenliyi altında olmayan və bütün dünya dövlətlərinin beynəlxalq hüquq normalarına müvafiq olaraq ümumi istifadəsində olan ərazilər aiddir. Bu ərazilər aşağıdakılardır: açıq dəniz, onun

üzərindəki hava məkanı, kontinental şelfin hüdudlarından kənardaa yerləşən dəniz və okeanların dibi, Ay və digər göy cisimləri daxil olmaqla kosmik fəza, Antarktika və onun üzərindəki hava məkanı.

Qarışıq rejimi olan ərazilərə kontinental şelf və müstəsna iqtisadi zona aiddir. Bu ərazilər, bir tərəfdən, heç bir dövlətin suverenliyi altında deyildir, lakin digər tərəfdən, hər bir sahilyanı dövlət öz kontinental şelfinin və müstəsna iqtisadi zonasının təbii ehtiyatları üzərində suveren hüquqlara malikdir; həmin ehtiyatların kəşfiyyatı və emalı hüququ müstəsna olaraq müvafiq sahilyanı dövlətə məxsusdur.

2. Dövlət ərazisinin tərkibi və hüquqi təbiəti. *Dövlət ərazisinin tərkibinə daxildir: a) quru ərazi; b) daxili sular; c) ərazi suları; ç) quru ərazisinin, daxili suların və ərazi sularının təki; d) quru ərazisinin, daxili suların və ərazi sularının üzərində yerləşən hava məkanı.*

Dövlətin quru ərazisi onun sərhədləri çərçivəsində olan bütün quru hissəsidir. Buraya, təbii ki, adalar və anklavlar da daxildir.

Su ərazisinə, yuxarıda göstərildiyi kimi, daxili sular və ərazi suları aiddir. Daxili sular dedikdə, hər şeydən əvvəl, dövlətin ərazisi daxilində olan, sahilləri həmin dövlətə məxsus olan çaylar, göllər, kanallar və digər su hövzələri başa düşülür. Bundan əlavə, Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına görə, daxili sulara aşağıdakılar aiddir: a) ərazi sularının enini ölçmək üçün qəbul olunmuş düzünə başlanğıc xətlərdən sahilə doğru yerləşən dəniz suları; b) liman suları; c) sahilləri həmin dövlətə məxsus olan və eni 24 dəniz milindən artıq olmayan körfəzlərin suları; ç) tarixi körfəzlər.

Bunlardan başqa, dövlətə məxsus olan hav və dəniz gəmiləri (müvafiq olarq "uçan" və "üzən" ərazi), kosmik obyektlər, sualtı boru və kabellər, açıq dənizdə şelf üzərindəki qurğular da dövlətin ərazisi sayılır. Bunlara bəzən "kvazi-dövlət ərazisi" və ya "şərti ərazi" deyilir.

Dövlət ərazisi təkcə onun öz ali hakimiyyətini həyata keçirdiyi məkan deyildir; o, həm də quru ərazisi, sular, hava məkanı, yerin təki və habelə təbii ehtiyatlar kimi ünsürlərdən ibarət olan təbii mühitdir. Bunlar hamısı dövlət ərazisinin maddi məzmununu təşkil edir.

Hər bir dövlət öz ərazisi hüdudlarında öz ərazi üstünlüyünü həyata keçirir. *Ərazi üstünlüyü o deməkdir ki:*

a) dövlətin hakimiyyəti onun ərazisindəki bütün fiziki və hüquqi şəxslərə şamil edilir;

b) dövlətin hakimiyyəti üzərində başqa hakimiyyət ola bilməz: dövlətin ərazisində istənilən digər dövlətin və ya beynəlxalq təşkilatın hakimiyyəti istina edilir;

c) dövlət öz ərazisindən heç bir halda, hətta ən ağır cinayətə görə belə zorla məhrum edilə bilməz: dövlətin sərhədləri pozulmaz və toxunulmazdır.

ç) dövlətin ərazisi, o cümlədən yer və onun təki, dövlətin razılığı olmadan xarici dövlətlər, onların hüquqi və fiziki şəxsləri tərəfindən istifadə oluna bilməz.

Bununla belə, dövlətin öz milli qanununda və ya hər hansı beynəlxalq müqavilədə ifadə etdiyi razılığı ilə onun ərazisində başqa bir dövlətin qanunvericiliyi tətbiq oluna bilər və ya əcnəbi vətəndaşların müəyyən kateqoriyası dövlətin yurisdiksiyasından kənarda qala bilər. Dövlət öz ərazisinin müəyyən hissələrindən istifadə hüququnu, habelə ərazisində olan təbii ehtiyatların istismar edilməsi hüququnu xarici dövlətlərə, onların hüquqi və fiziki şəxslərinə verə bilər (məsələn, dövlət ərazisinin icarəyə verilməsi, dövlət ərazisindən tranzit uçuşlar və ya keçidlər, dövlətlə əcnəbi hüquqi şəxslər arasında konsessiya sazişləri).

Lakin dövlətin ərazi üstünlüyü mütləq xarakter daşımır. Belə ki, ümumi beynəlxalq hüquq bir sıra məhdudiyyət və qadağalar müəyyən edir. Məsələn, dövlət öz ərazisindən hər hansı bir dövlətə qarşı təcavüz tödədilməsi üçün istifadə olunmasına imkan verməməlidir; əks halda bu əməlin özü təcavüz aktı hesab olunur (BMT Baş Assambleyasının 1974-cü ildə qəbul etdiyi "Təcavüzün tərifi" haqqında qətnamənin 3-cü maddəsinin "f" bəndi). Bundan əlavə, dövlət öz ərazisindən elə istifadə etməlidir ki, başqa dövlətlərə zərər dəyməsin.

3. Dövlət sərhədləri. ***Dövlət sərhədi dedikdə, dövlətin ərazisnin hədlərini müəyyən edən xətt və həmin xətt üzərində yerləşən şaquli səth başa düşülür.***

Dövlət sərhədlərinin aşağıdakı *növləri* vardır: 1) quru sərhədləri; 2) su sərhədləri;

3) hava sərhədləri.

Quru sərhədləri, adətən, relyefə əsasən (dağlar və s.) müəyyən olunur. Lakin düz xətt üzrə (məsələn, bir sıra Afrika dövlətlərində olduğu kimi) və ya meridianlər üzrə (Cənubi və Şimali Koreya arasında) bölünən sırhədlər də mövcuddur.

Iki dövləti ayıran su hövzələrindən sərhədlərin (su sərhədlərinin) müəyyən olunması aşağıdakı prinsiplərə əsaslanır: gəmiçilik üçün yararlı çaylarda sərhəd kimi ya talveq (ən dərin yeləşən xətt), ya da farvaterin ortası, digər çaylarda isə çayın ortası götürülür; göllərdə sərhəd dövlətlərin quru sərhədinin gölün sahillərınə çıxış nöqtələrini birləşdirən düz xətt üzrə müəyyən olunur; dövlətin dəniz sərhədi onun ərazi sularının kənar hədləri sayılır. Bu hədləri hər bir dövlət özü müəyyən edir. Lakin beynəlxalq hüquqa görə, ərazi dənizinin eni 12 mildən artıq olmalıdır. Üzbəüz və ya yan-yana yerləşmiş dövlətlərin ərazi dənizinin sərhədi qarşılıqlı razılaşma əsasında orta xətt üzrə müəyyən olunur (bərabərdayanma prinsipi).

Dövlət sərhədinin müəyyən olunması prosesi *iki mərhələdən* ibarətdir: delimitasiya və demarkasiya. *Delimitasiya* zamanı sərhədin keçmə xətti dövlətlərarası müqavilədə ətraflı təsvir olunur və müqaviləyə əlavə olunan xətlərdə öz qrafik əksini tapır. *Demarkasiya* razılaşdırılmış sərhəd xəttinin xüsusi sərhəd nişsnları vasitəsilə yerdə müəyyən olunmasıdır. İki dövlət arasında demarkasiyanı həyata keçirmək üçün, adətən, qarışıq komissiya yaradılır.

Hər bir dövlət öz sərhədlərini toxunulmazlığını təmin etmək üçün müvafiq *hüquqi rejim* müəyyən edir; bu rejim beynəlxalq müqavilərlə və daxili qanunvericiliyə əsaslanır. Məsələn, “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Qanunun II fəsli bütövlükdə bu məsələyə həsr olunmuşdurş. Sərhəd rejimi aşağıdakı məsələlri əhatə edir: 1) dövlət sərhədinin lazımi vəziyyətdə saxlanması; 2) dövlət sərhədindən şəxslərin və nəqliyyat vasitələrinin keçmə qaydası (o cümlədən quru sərhəddində keçid məntəqələrinin və hava sərhəddində uçuş koridorlarının müəyyən olunması); 3) dövlət sərhədinin malların və yüklərin buraxılması qaydası; 4) dövlət sərhədində təsərrüfat və ya digər fəaliyyətin (ov, bağçılıq, dağ-mədən işləri və s.) həyata keçirilməsi qaydası; 5) sərhəd rejiminin pozulması ilə bağlı insidentlərin müvafiq dövlətlərlə birgə həll olunması qaydası.

Sərhəd rejiminə riayət olunmasına nəzarət etmək və sərhəd insidentlərini həll etmək üçün müvafiq dövlətlər, adətən, *sərhəd komissarları (sərhəd nümayəndələri)* təyin edirlər.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun 21-ci maddəsinə əsasən:

"Azərbaycan Respublikasının dövlət sərhədi rejiminin qorunması ilə əlaqədar məsələləri həll etmək, habelə sərhəd münaqişələrini nizama salmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti sərhəd qoşunlarının zabitləri sırasından Azərbaycan Respublikası dövlət sərhədinin müəyyən hissələri üzrə Azərbaycan Respublikasının sərhəd nümayəndələrini təyin edir.

Azərbaycan Respublikası dövlət sərhədinin Azərbaycan Respublikasının xüsusi təyin edilmiş sərhəd nümayəndələri olmayan hissələrində onların funksiyalarını sərhəd qoşunlarının müvafiq

hissələrinin komandirləri yerinə yetirir.

Azərbaycan Respublikasının sərhəd nümayəndələri Azərbaycan Respublikasının qanunları Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrini, habelə Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının qəbul etdikləri aktları rəhbər tuturlar.

Sərhəd nümayəndələri tərəfindən nizama salınmayan məsələlər diplomatik qaydada həll edilir".

Dövlət sərhədinin hüquqi rejimi özündə *sərhədboyu rejimi* ehtiva edir. Bu rejim *sərhədboyu zonada* və *sərhədboyu zonaliqda* müəyyən olunur.

Bu məsələlər "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunda öz geniş həllini tapmışdır.

Dövlət sərhədi haqqında müqavilələr olduqca mühüm bir xüsusiyyətə malikdir: onlar *daimi müqavilələr* sayılır. Belə ki,bu müqavilələr: a) müvəqqəti müddətə bağlanmır (onların məqsədi iki dövlət arasında sərhədin tam və qəti müəyyən olunmasıdır); b) denonsasiya olunmur, çünki belə müqavilələrdə denonsasiya haqqında müddəalar nəzərdə tutulmur; c) müharibənin başlanması ilə öz qüvvəsini dayandırmır; ç) müqavilənin subyektinin yox olması nəticəsində xitam olunmur; d)

birtərəfli qaydada, - hətta şəraitin köklü dəyişməsi prinsipi əsasında belə, - ləğv oluna bilməz; e) dövlətlərin varisliyi zamanı toxunulmamış qalır.

4. Beynəlxalq çaylar. ***Beynəlxalq çaylar – iki və daha artıq dövlətin ərazisi ilə axan və razılaşdırılmış qaydada istifadə olunan çaylara deyilir.***

Hər bir dövlət beynəlxalq çayın, öz ərazisində yerləşən hissəsi üzərində suverenliyə malikdir. Bununla belə, sahilyanı dövlət çayın bu hissəsindən elə istifadə etməlidir ki, hər hansı digər sahilyanı dövlətə zərər dəyməsin. Beynəlxalq çayların rejimi ilə bağlı əsas beynəlxalq-hüquqi akt *sərhədaşırı su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında 1992-ci il Helsinki Konvensiyasıdır.* Bu Konvensiya 1999-cu ildə *Su və sağlamlıq haqqında Protokol* əlavə olunmuşdur. Sahilyanı dövlətlər beynəlxalq çayların gəmiçilik, habelə sənaye və kənd təsərrüfatı məqsədləri üçün istifadəsi və hımin çayların qorunub saxlanması haqqında konkret müqavilələr bağlayır (məsələn, *Dünyada gəmiçilik rejimi haqqında 1948-ci il Konvensiyası; Argentina və Uruqvay çayının sularına dair 1946-cı il Sazişi, BƏR və Sudan arasında Nil çayının sularına dair 1959-cu il Sazişi və s.).* Bu müqavilələr, bir qayda olaraq, bütün sahilyanı dövlətlər üçün, bəzən isə bütün ölkələr üçün gəmiçilik azadlığı nəzərdə tutur. Müqavilədə nəzərdə tutulmayıbsa, qeyri dövlətlərin gəmilərinin müəyyən beynəlxalq çaydan üzüb keçməsi qadağandır.

MÖVZU 16: BEYNƏLXALQ DƏNİZ HÜQUQU

Plan:

1. Beynəlxalq dəniz hüququnun anlayışı və mənbələri

2. Dəniz məkanlarının təsnifatı

3. Daxili dəniz suları.

4. Ərazi dənizi

5. Bitişik zona

6. Müstəsna iqtisadi zona

7. Kontinental şelf

8. Açıq dəniz

9. Beynəlxalq dəniz dibi rayonu

10. Qapalı və ya yarımqapalı dəniz

11. Xəzər gölünün beynəlxalq-hüquqi statusu

12. Dənizə çıxışı olmayan dövlətlərin hüquqları

13. Beynılxalq boğazlar və Beynəlxalq kanallar

15. Beynəlxalq dəniz təşkilatları

Ədəbiyyat siyahısı.

Бекяшев К.А., Волков А.А., Каргополов С.Г. *Морское и рыболовное право.* М., 1990.

Бякишев К.А., Сапронов В.Д. *Мировое рыболовство: вопросы международного сотрудничества.* М., 1990.

Василенко В.А., Высоцкий А.Ф., Рыбальчик Д.Э. *Международное морское право.* Киев, 1988.

Высоцкий А.Ф. *Морской регионализм.* Киев, 1988.

Головатый С.П. *200-мильная экономическая зона в Мировом океане(международно-правовые проблемы).* Киев, 1984.

Колодкин А.Л. *Мировой океан: международно-правовой режим. Основные проблемы.* М., 1973.

Лазарев М.И. *Теоретические вопросы современного международного морского права.* М., 1983.

Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря как пограничного озера //*Beynəlxalq hüquq.* Bakı. 1998. №1. С. 9-15.

Мамедов Р. *Международно-правовая делимитация Каспийского моря.* Баку,2001.

Мовчан А.П. *Международное морское право(основные положения).* Учебное пособие. М., 1997.

Молодцов С.В. *Международное морское право.* М., 1987.

Открытое море. Международные прливы. Архипелажные воды. М., 1988.

Словарь международного морского права. М., 1985.

Яковлев И.И. *Международный орган по морскому дну.* М., 1986.

Brown E.D. *The International Law of the sea*. Vol. 1-2. Dartmouth:1994.

Van Zyl U. The "Common Heritage of Mankind" and the 1982 Law of the Sea Convention: Principle, Plan, Panacea. //*The Contemporary and International Law.* 1993. vol. 26. P. 49-66.

1. Beynəlxalq dəniz hüququnun anlayışı və mənbələri. ***Beynəlxalq dəniz hüququ – dəniz məkanlarının hüquqi statusunu müəyyən edən və onların tədqiq edilməsi və istifadəsi ilə bağlı dövlətlərarası münasibətləri nizama salan normaların məcmusuna deyilir.***

Uzun dövr ərzində beynəlxalq dəniz hüququ beynəlxalq adət normalarına söykənirdi.

1958-ci ildə bu sahədə ilk dəfə məcəllələşdirilmə aparıldı və nəticədə dəniz hüququ üzrə dörd mühüm saziş (Cenevrə Konvensiyaları) meydana gəldi – *Ərazi dənizi və bitişik zona haqqında; açıq dəniz haqqında; kontinental şelf haqqında; balıqçılıq və açıq dənizin canlı ehtiyatlarının mühafizəsi haqqında.* Lakin bu konvensiyalar dəniz hüququnun bütün məsələlərini həll etmirdi və xüsusilə də 1960-70-ci illərdə meydana gəlmiş yeni müstəqil dövlətlərinmənafelərini əks etdirmirdi. Buna görə də yeni kompleks aktın işlənib hazırlanması zərurəti ortaya çıxdı: 1982-ci il oktyabrın 10-da *Dəniz hüququ üzrə BMT Konvensiyası* qəbul edildi. Beynəlxalq dəniz hüququnun əsas mənbəyi olan bu Konvensiya 16 noyabr 1994-cü ildə qüvvəyə minmişdir.

Bundan əlavə, dəniz hüququ sahəsində dövlətlərarası əməkdaşlığın xüsusi məsələlərinə həsr olunmuş aşağıdakı beynəlxalq sazişləri göstərmək olar: *Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasının beynəlxalq qaydaları haqqında 1972-ci il Konvensiyası; Dənizdə insan həyatının qorunmasına dair 1974-cü il Beynəlxalq Konvensiyası; Dənizdə axtarış və xilasetməyə dair 1979-cu il*

Beynəlxalq Konvensiyası; Neftlə çirklənməyə gətirb çıxaran qəzalar zamanı açıq dənizdə müdaxiləyə dair 1969-cu il Konvensiyası; Dənizin tullantılarla və digər materiallarla çirklənməsinin qarşısının alınması haqqında 1972-ci il Konvensiyası və s.

Beynəlxalq dəniz hüququnun müqavilə mənbələri sırasında ayrı-ayrı dənizlərin hüquqi rejimini müəyyən edən lokal sazişlərin də adını çəkmək lazımdır: *Baltik dənizində balıqçılıq və canlı ehtiyatların mühafizəsi haqqında 1973-cü il Konvensiyası; Qara dənizin çirklənməsində qorunması haqqında 1972-ci il Konvensiyası və s.*

2. Dəniz məkanlarının təsnifatı. Beynəlxalq-hüquqi baxımdan bütün dəniz və okeanlar aşağıdakı iki növə ayrılır: 1) ayrı-ayrı dövlətlərin suverenliyi altında olan və onların ərazisini təşkil edən məkanlar; 2) heç bir dövlətin suverenliyi altında olamayan məkanlar.

Dəniz sahili olan dövlətin suveren ərazisinin tərkibinə a) daxili sular və b) ərazi suları (ərazi dənizi) daxildir. Tamamilə bir və ya bir neçə arxipelaqdan ibarət olan dövlətlərin ərazisinə arxipelaqın içindəki adaların arasında yerləşən arxipelaq suları da aiddir.

Dünya okeanının əsas hissəsi heç bir dövlətin suverenliyi altında olamayan ərazisidir. Burada öz hüquqi rejiminə görə bir-birindən fərqlənən dəniz məkanları mövcuddur; məsələn, müstəsna iqtisadi zona, kontinental şelf, açıq dəniz və s. Eyni zamanda nəzərə almaq lazımdır ki, dövlətin ərazisinə daxil olan daxili suların və ərazi sularının beynəlxalq-hüquqi rejimi heç də eyni deyildir. Arxipelaq sularının hüquqi rejimində də müəyyən spesifik cəhətlər vardır.

3. Daxili dəniz suları. ***Daxili dəniz suları dedikdə, sahil xətti ilə, ərazi dənizinin eyni hesablamaq üçün götürülən başlanğıc xətlər arasında yerləşən su məkanı başa düşülür.***

Daxili dəniz suları dövlətin tam suverenliyi altında olur və onun ərazisinin bir hissəsini təşkil edir. Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına görə, daxili dəniz sularına habelə aşağıdakılar aiddir: a) liman suları (ən qabağa çıxan daimi liman qurğularını birləşdirən xəttə qədər); b) eyni dövlətin quru ərazisi ilə tam

əhatə olunmuş dəniz, habelə bütün sahil bir dövlətə məxsus olan dəniz; c) sahilləri eyni dövlətə məxsus olan və eni 24 dəniz milindən artıq olmayan buxtalar, liman və körfəzlər; ç) tarixi körfəzlər (məsələn, Rusiyada Böyük Pyotr körfəzi, Kanadada Hudzon körfəzi, Norveçdə Varanğerford körfəzi və s.).

Daxili dəniz sularının hüquqi rejimi, əsas etibarilə, müvafiq dövlət tərəfindən daxili

qanunvericilik vasitəsilə müəyyən olunur. Bu sularda dövlətin icazəsi olmadan hər hansı təsərrüfat fəaliyyəti ilə məşğul olmaq və tədqiqatlar aparmaq əcnəbilərə qadağandır.

Əcnəbi gəmiləri daxili dəniz sularına müvafiq icazədən sonra daxil ola bilər. Dövlətin açıq elan etdiyi limanlarına əcnəbi qeyri-hərbi gəmiləri sərbəst surətdə girə bilər. Hərbi gəmilər isə yalnız sahilyanı dövlətin qabaqcadan icazəsi və ya dəvəti ilə girə bilər. Lakin fövqəlada hallarda (bədbəxt hadisə, qəza, kortəbii hadisə, təcili tibbi yardım göstərmək zərurəti və s.) gəmilərin icazəsiz yol verilir.

Limana girmiş bütün gəmilər sərhəd, sanitar və gömrük yoxlamasını keçməlidir. Daxili sularda və limanlarda olan əcnəbi qeyri-hərbi gəmiləri sahilyanı dövlətin yurisdiksiyası altına düşür. Sahilyanı dövlətin səlahiyyətli orqanları bu gəmilərdə baş vermiş cinatət işlərinin istintaqını apara bilər və həmin işlərə məhkəmədə baxa bilərlər, bu şərtlə ki, a) baş vermiş cinayət ağır xaraqterli olur, sahilyanı dövlətin və onun vətəndaşlarının mənafeyinə toxunur; b) sahilyanı dövlətdə ictimai asayişi və ictimai qaydanı pozur və onun təhlükəsizliyinə ziyan vurur; c) gəminin ekipajına daxil olmayan şəxslərin maraqlarına toxunur.

Mülki-hüquqi yurisdiksiya öz ifadəsini onda tapır ki, sahilyanı dövlətin məhkəmə orqanları əcnəbi gəmilərinə qarşı, o cümlədən daxili suların çirklənməsi ilə bağlı irəli sürülmüş iddialara baxa bilər və qərar çıxara bilər. Mülki iddianı təmin etmək üçün gəminin üzərinə həbs qoyula bilər. Gəminin kapitanı və ekipajın üzvləri məsuliyyətə cəlb edilə bilərlər.

Limanda yerləşən əcnəbi hərbi gəmiləri sahilyanı dövlətin yurisdiksiyasına tabe olmur. Onlara qarşı heç bir məcburiyyət tədbiri görülə bilməz. Bununla belə, bu gəmilər sahilyanı dövlətin qanun və qaydalarına riayət etməyə borcludur. Dövlətin

qanun və qaydalarını pozduğuna görə əcnəbi hərbi gəmisinə qarşı daxili suları tərk etmək tələbi irəli sürülə bilər.

4. Ərazi dənizi. ***Ərazi dənizi (və ya ərazi suları) – sahilyanı dövlətin quru ərazisinə və daxili sularına bitişik olan və onun tam suverenliyi altında olan dəniz zolağına deyilir.***

Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına görə, ərazi dənizinin eni 12 dəniz milindən artıq olmamalıdır (1 dəniz mili 1,8 km-dir).

Sahilyanı dövlətin suverenliyi ərazi dənizinin səhətinə və dibinə, habelə onun üzərindəki hava məkanına şamil edilir. Buna görə də hər bir sahilyanı dövlət öz ərazi dənizinin hüquqi rejimini öz qanunvericiliyi ilə müəyyən edir. Bununla belə, ərazi dənizini daxili dəniz sularından ayıran çox mühüm bir xüsusiyyət mövcuddur: *ərazi dənizindən əcnəbi gəmilərinin dinc üzüb getmək hüququ var* (Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının 17-ci maddəsi). Bu zaman sahilyanı dövlətin qabaqcadan icazəsini almaq tələb olunur.

Əcnəbi gəmiləri ərazi dənizindən: 1) daxili sulara daxil olmadan ərazi dənizini üzüb keçmək; 2) daxili sulara daxil olmamaq və ya oradan çıxmaq məqsədləri ilə keçə bilər. Üzüb keçmə fasiləsiz və tez olmalıdır. Sualtı nəqliyyat vasitələri suyun üzü ilə getməlidir. Dinc üzüb keçmə o deməkdir ki, sahilyanı dövlətin əmin-amanlığı və təhlükəsizliyi pozulmasın. 1982-ci il Konvensiyasına görə, üzüb keçmə aşağıdakı hallarda dinc sayılmır: a) sahilyanı dövlətə qarşı güc tətbiqi və ya güclə hədələmək; b) istənilən növ silahla manevrlər və ya təlimlər həyata keçirmək; c) sahilyanı dövlətin müdafiəsi və təhlükəsizliyinin zərərinə informasiya toplamaq və ya təbliğat aparmaq; ç) hər hansı uçuş aparatını havaya qaldırmaq və ya gəminin üzərinə qəbul etmək; d) malların və ya vlyuta yükləmək və yaxud boşaltmaq; e) sahilyanı dövlətin müəyyən etdiyi qaydalara zidd olaraq, hər hansı bir şəxsi gəmiyə mindirmək və ya düşürtmək; ə) dinc üzüb keçməklə əlaqəsi olmayan balıqçılıq, tədqiqat və digər fəaliyyət; f) rabitə sisteminə maneələr yaratmaq.

Dinc üzüb keçmə prinsipini pozan əcnəbi gəmilərinə qarşı sahilyanı dövlət zəruri tədbirlər görə bilər. Öz təhlükəsizlik maraqlarından çıxış edərək, o, dinc üzüb keçmə hüququnun həyata keçirilməsini müvəqqəti dayandıra bilər.

Sahilyanı dövlət öz ərazi dənizində gəmiçiliyin təhlükəsizliyinə və gəmilərin hərəkətinin tənzimlənməsinə aid olan qanunlar və inzibati qaydalar verə bilər. Dövlət habelə ərazi dənizində dəniz dəhlizləri müəyyən edə bilər.

Ərazi dənizindən üzüb keçən əcnəbi gəmilərdə olan şəxslərə qarşı sahilyanı dövlət müəyyən hallarda öz cinayət yurisdiksiyasını həyata keçirə bilər. Üzüb keçmə zamanı gəmidə törədilmiş hər hansı bir cinayətlə bağlı istənilən şəxs yalız aşağıdakı hallarda həbs edilə bilər və ya istintaq aparıla bilər: a) cinayətin nəyicələri sahilyanı dövlətin ərazisinə yayılarsa; b) törədilmiş cinayət həmin ölkədə əmin-amanlığa və ya ərazi dənizində müəyyən olunmuş qaydanı pozarsa; c) gəminin kapitanı, gəminin, bayrağı altında üzdüyü dövlətin diplomatik agenti və ya konsulu kömək göstərmək xahişilə yerli orqanlara müraciət edirsə; ç) bu tədbirlər narkotik vasitələrlə qeyri-qanuni ticarətin qarşısını almaq üçün zəruridirsə.

Sahilyanı dövlət *mülki-hüquqi yurisdiksiyanı* həyata keçirmək üçün öz ərazi dənizindən üzüb keçən əcnəbi gəmini dayandıra bilməz. Hər hansı mülki iş üzrə məsuliyyət tədbirləri və ya həbs yalnız üzüb keşmə zamanı ortaya çıxmış konkret öhdəliklərə görə həyata keçirilə bilər.

Xarici dövlətlərin *hərbi gəmiləri* ərazi dənizindən üzüb keçərkən sahilyanı dövlətin yurisdiksiyasına tabe olmur. Bununla belə, əgər hərbi gəmi sahilyanı dövlətin, əcnəbi gəmilərinin dinc üzüb keçməsi ilə bağlı müəyyən etdiyi qaydaları pozursa və bu qaydalara riayət etmək tələbinə məhəl qoymursa, o halda sahilyanı dövlət həmin gəmidən ərazi dənizini dərhal tərk etməyi tələb edə bilər.

5. Bitişik zona. ***Bitişik zona - əcnəbi gəmiləri tərəfindən gömrük, vergi, sanitar və immiqrasiya***

qaydalarına əməl olunmasına nəzarət həyata keçirmək məqsədilə sahilyanı dövlətin müəyyən etdiyi, onun ərazi dənizinə bitişik açıq dəniz rayonudur.

Bitişik zona açıq dənizin bir hissəsidir və sahiyani dövlətin suverenliyi altında

deyildir. Onun eni 12 dəniz milindən artıq olmamalıdır.

Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasının 33-cü maddəsinə görə, bitişik zona aşağıdakı məqsədlər üçün zəruri ola bilər: 1) sahiyani dövlətin ərazisi və ya ərazi dənizi hədlərində gömrük, fiskal, immiqrasiya və ya sanitar qaydalarının pozulmasının qarşısını almaq üçün; 2) bu qaydaların pozulmasına görə cəzalandırmaq üçün.

Bitişik zonanın aşağıdakı əsas növləri ola bilər: gömrük zonası; fiskal zonası; immiqrasiya zonası və sanitar zonası.

6. Müstəsna iqtisadi zona. ***Müstəsna iqtisadi zona - ərazi dənizinin hüdudlarından kənarda yerləşən və ona bitişik olan, eni 200 mildən artıq olmayan açıq dəniz rayonudur.***

Müstəsna iqtisadi zonanın eni ərazi dənizinin enini ölçmək üçün qəbul olunmuş düzünə başlanğıc xətlərdən hesablanır.

Müstəsna iqtisadi zonan, ilk dəfə olaraq dəniz hüququ üzrə 1982-ci il Konvensiyası ilə nəzərdə tutulmuş xüsusi hüquqi rejimə malikdir. Bir tərəfdən, o, açıq dənizin bir hissəsidir, digər tərəfdən isə, sahiyani dövlət bu zonada bir sıra iqtisadi xaraqtərli *suveren hüquqlar* həyata keçirir: 1) burada olan bütün təbii ehtiyatların kəşfiyyatı və istismarı sahiyani dövlətin müstəsna hüququdur: xarici dövlətlərin bu fəaliyyətdə iştirakı yalnız sahiyani dövlətlə razılaşma əsasında olabilər; 2) sahiyani dövlət burada iqtisadi məqsədlərlə süni adalar və qurğular yarada bilər, elmi tədqiqatlar apara bilər; 3) dəniz mühitinin qorunub saxlanması da sahiyani dövlətin yurisdiksiyasına aiddir.

Müstəsna iqtisadi zona açıq dənizin bir hissəsi olduğu üçün bütün dövlətlər burada açıq dənizin məlum azadlıqlarından (gəmiçilik, uçuş, kabel və boru çəkmək) istifadə edirlər. Bu zaman onlar sahiyani dövlətin hüquq və qanuni mənafelərini nəzərə almalıdırlar.

7. Kontinental şelf. ***Kontinental şelf dedikdə, sahilyanı dövlətin ərazi dənizinin xarici sərhədindən başlamış açıq dənizə doğru, beynəlxalq hüquqla müəyyən olunmuş həddə qədər uzanan dəniz dibi və habelə onun təki başa düşülür.***

Kontinental şelf sahiyani dövlətin quru ərazisinin dənizin dibi ilə uzanan təbii davamıdır. O, daətən, 200 dəniz mili həddində olur. İstənilən halda, 1982-ci il Konvensiyasına görə, kontinental şelfin xarici sərhədi ərazi dənizinin enini ölçmək üçün qəbul olunmuş başlanğıc xətlərdən hesablanmaqla, 350 dəniz milindən artiq olmamamlıdır.

Sahiyani dövlət təbii sərvətlərin kəşfiyatı və istismarı məqsədilə kontinental şelf üzərində suveren hüquqlar həyata keçirir. O, bu məqsədlə şelf üzərində quğular düzəldə bilər və onların ətrafinda radisu 500 m olan təhlükəsizlik zonaları yarada bilər. Bu qurğular sahiyani dövlətin yurisdiksiyası aıtında olur.

Kontinental şelfin kəşfiyyatı və istismarı bu ərazilərin başqa dövlətlər tərəfindən gəmiçilik və uçuşların həyata keçirilməsi məqsədləri ilə istifadəsi üçün maneələr yaratmamalıdır. İstənilən dövlət kontinental şelf üzərində kabel və boru kəmərləri çəkə bilər. Lakin bu zonada tədqiqatların aparılması yalız sahiyani dövlətin razılığı ilə mümkündür.

8. Açıq dəniz. ***Açıq dəniz – Dünya okeanının, heç bir dövlətin yurisdiksiyasına aid olmayan və bütün dövlətlərin istifadəsi üçün açıq olan su hissəsinə deyilir.***

Tərifdən göründüyü kimi, dəniz və okeanların dibi xüsusi hüquqi statusa malik olduğuna görə açıq dəniz anlayışına daxil deyildir.

Heç bir dövlət açıq dənizin hər hansı bir hissəsini öz suverenliyinə tabe etdirə bilməz.

Açıq dəniz həm sahilyanı dövlətlər, həm də dənizə heç bir çıxışı olmayan dövlətlər üçün azaddır. Açıq dənizin hüquqi rejiminə aşağıdakı *azadlıqlar* daxildir: *1) gəmiçilik azadlığı; 2) uçuş azadllığı; 3) balıqçılıq azadlığı; 4) sualtı kabel və boru kəmərləri çəkilişi azadlığı; 5) elmi tədqiqatlar azadlığı; 6) süni adalar və qurğular yaratmaq azadlığı.* Bu azadlıqlar beynəlxalq hüquq normalarının tələblərini və başqa dövlətlərin maraqlarını nəzərə almaqla həyata keçirilməlidir.

Gəmiçilik azadlığı o deməkdir ki, hər bir dövlətin gəmiləri, daha doğrusu, onun bayrağı altında olan gəmilər açıq dənizdə sərbəst üzə bilər. Açıq dnizdə gəmi həmin dövlətin müstəsna yurisdiksiyasına tabe olur. Dövlət gəminin və onun ekipajının üzərində inzibati, texniki və sosial məsələlərdə öz yurisdiksiyasını və

nəzarətini həyata keçirir. Gəminin kapitanına və ya ekipajın hər hansı digər üzvünə qarşı cinayət və ya inzibati məsuliyyət yalnız həmin gəminin, bayrağı altında üzdüyü dövlətin müvafiq orqanları tərəfindən qaldırıla bilər. Lakin bu prinsipdən bir sıra istisnalar mövcuddur; belə ki, hər hansı dövlətin hərbi dəniz və ya hava gəmisi əcnəbi gəmini aşağıdakı hallarda (daha doğrusu, əgər bu əməllərin törədilməsi barədə şübhələnməyə kifayət qədər əsas vardırsa) saxlaya və yoxlaya bilər: a) əcnəbi gəmisi dəniz quldurluğu ilə məşğul olursa; b) qul alveri ilə məşğul olursa; c) narkotik maddələrlə qeyri-qanuni ticarətlə məşğul olursa; ç) sualtı teleqraf kabellərini və boru kəmərlərini zədələmişsə; d) açıq dənizdən icazə verilməmiş radio və ya televiziya proqramları ötürürsə; e) sahilyanı dövlətin yurisdiksiyası altında olan sulard mövcud qaydaları pozmuşsa (*"qaynar izlər"* üzrə təqib)və s.

Uçuş azadlığı o deməkdir ki,bütün dövlətlərin hava gəmiləri açıq dəniz üzərindəki hava məkanına uçuşlar həyata keçirə bilər. Dövlətlər öz hava gəmilərinin açıq dəniz üzərində uçuşlarının təhlükəsizliyini təmin etməlidirlər. Bu uçuşlar dəniz gəmiçiliyinə və dənizin digər məqsədlərlə istifadəsinə maneə törətməməlidir.

Balıqçılıq azadlığı təkcə bilavasitə balqçılıq fəaliyyətini deyil, habelə digər canlı ehtiyatların da istismarını əhatə edir. Lakin bu azadlıq dövlətlərin öz beynəlxalq öhdəliklərini və sahilyanı dövlətlərin maraqlarını nəzərə almaqla həyata keçirilməlidir. Hər şeydən əvvəl, dənizin canlı ehtiyatları müəyyən səviyyədə qorunub saxlanmalıdır və bunun üçün dövlətlər əməkdaşlıq etməlidirlər.

Sualtı kabel və boru kəmərləri çəkmək azadlığı koninental şelfin hüdudlarından kənarda açıq dənizin dibinə şamil olunur. Kabellər və boru kəmərləri çəkərkən dövlətlər açıq dənizin sərbəst istifadəsinə mane olmamalıdırlar.

Elmi tədqiqatlar azadlığı coğrafi vəziyyətindən asılı olmayaraq bütün dövlətlərə və habelə səlahiyyətli beynəlxlq təşkilatlara məxsusdur. Dəniz elmi tədqiqatları müstəsna olaraq dinc məqsədlərlə həyata keçirilməlidir və dənizin başqa formalarda istifadəsinə maneə yaratmamalıdır.

Süni adalar və qurğular yaratmaq azadlığı həm açıq dənizin su hissəsində, həm də onun dibində (faydalı qazıntılar hasil etmək üçün) həyata küçirilir.

9. Beynəlxalq dəniz dibi rayonu. ***Beynəlxalq dəniz dibi rayonu ("Rayon")dedikdə, dəniz və okeanların dövlətlərin yurisdiksiyasından kənarda yerləşən dibi və onun təki başa düşülür.***

1982-ci il Konvensiyasında Rayon və burada yerləşən ehtiyatlar bəşəriyyətin ümumi irsi elan olunmuşdur. Bu o deməkdir ki: a) heç bir dövlət Rayonun hər hansı bir hissəsi və onun ehtiyatları üzərində suverenliyə və ya suveren hüquqların həyata keçirilməsinə iddia edə bilməz; b) heç bir dövlət, fiziki və ya hüquqi şəxs onların hər hansı bir hissəsini mənimsəyə bilməz; c) Rayonun ehtiyatları üzərində hüquqlar bütün bəşəriyyətə məxsusdur: bəşəriyyətin adından 1982-ci il Konvensiyasının bütün iştirakçı dövlətlərin üzv olduğu *Dəniz dibi üzrə Beynəlxalq Orqan ("Orqan")* çıxış edir; ç) Rayonda fəaliyyət bütün bəşəriyyətin rifahı naminə həyata keçirilir; d) Rayon ayrı-seçkilik olmadan bütün dövlətlərin müstəsna olaraq dinc məqsədlərlə ietifadəsi üçün açıqdır.

Rayonda bütün fəaliyyət Orqan tərəfindən, dünya iqtisadiyyatının və beynəlxalq ticarətin sağlam inkişafına dəstək vermək məqsədilə təşkil edilir, həyata keçirilir və nəzarət olunur. Orqan Rayondakı fəaliyyətdən əldə olunmuş maliyyə və digər iqtisadi mənfəətin ədalətli bölünməsini təmin edir; bu zaman, hələ tam müstəqilliyə və ya digər özünüidarə sttusuna çatmamış inkişaf etməkdə olan dəvlət və xalqların maraq və ehtiyacları xüsusilə nəzərə alınmalıdır.

Rayonun bilavasitə isrismarı və burada hasil olunmuş faydalı qazıntıların nəql edilməsi, emalı və realizəsi məqsədilə Dəniz dibi üzrə Beynəlxalq orqan *Müəssisə* yaradır. Müəssisə öz funksiyalarını yerinə yetirmək üçün tələb olunan bütün vasitə və texnologiya ilə təmin olunur.

Dövlətlər, fiziki və hüquqi şəxslər Rayonda Orqanla bağlanmış kontrakt əsasında fəaliyyət göstərirlər.

1982-ci il Konvensiyasına görə, Orqan aşağıdakı struktura malikdir: Orqanın bürün üzvlərindən ibarət olan Assambleya, Orqanın 36 üzvündən ibarət olan Şura, Katiblik. Şura Orqanın fəaliyyət dairəsində olan istənilən məsələ üzrə konkret

siyasəti müəyyən etmək və həyata keçirmək səlahiyyətinə malikdir. Onun üzvlərindən yarısı ədalətli coğrafi nümayəndəlik prinsipi əsasında, qalan yarısı isə digər əsaslar üzrə: xüsusi maraqları olan inkişaf etməkdə olan ölkələrdən; idxalçı ölkələrdən; quruda analoji resuslar hasil edən ölkələrdən və s. seçilir.

İnkişaf etmiş ölkələrin maraqlarına cavab vermədiyinə görə 1982-ci il Konvensiyasının Rayona həsr olunmuş XI hissəsinə 1994-cü ildə qəbul olunmuş və Konvensiya ilə bir vaxtda qüvvəyə minmiş ayrıca müqavilə ilə - *"Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasının XI hissəsinin həyata keçirilməsi haqqında Saziş"* ilə bir sıra mühüm dəyişikliklr edilmişdir. Saziş müəyyən edir ki, Rayondakı resusların hasil olunması həm də kommersiya prinsipləri əsasında həyata keçiriləcəkdir. Bundan əlavə, göstərilən sahədə inhisarlaşdırmaya yol verilməməsi ilə bağlı Konvensiyanın məlum müddəaları artıq tətbiq olunmur.

10. Qapalı və ya yarımqapalı dəniz. ***Qapalı dəniz dedikdə, bir neçə dövlətin sahilini yuyan və öz coğrafi vəziyyətinə görə başqa dənizə tranzit keçid kimi istifadə olunmayan dəniz kimi başa düşülür.***

Açıq dənizin azadlığı prinsipi tam həcmdə qapalı dənizlərə şamil olunmur. Sahilyanı olmayan dövlətlərin hərbi gəmilərinin bu dənizlərə buraxılışı məhduddur. 1982-ci il Konvensiyasında göstərilir ki, sahilyanı dövlətlər qapalı və yarımqapalı dənizlərin canlı ehtiyatların idarə olumasında, dəniz mühitinin mühafizəsində və elmi tədqiqatların aparılmasında üstün hüquqlara malikdirlər. Bir qayda olaraq, sahilyanı dövlətlər öz aralarında müqavilələr bağlamaqla, bu dənizlərin ekologiyası, balıqçılıq rejimi və s.məsələləri nizama salırlar.

Qapalı dənizlərə misal olaraq, Qara dənizi və Baltik dənizini göstərmək olar.

11. Xəzər gölünün beynəlxalq-hüquqi statusu. Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin statusu, habelə onun dibi və orada olan təbii ehtiyatlar ilə bağlı mürəkkəb suallar ortaya çıxdı: bu ehtiyatlara bütün sahilyanı dövlətlər sahibdir, yoxsa onların arasında bərabər bölünməlidir, əgər bölünməlidirsə, onda bu, hansı əsasda həyata keçirilməlidir?

Azərbaycan Respublikasının mövqeyi onun Konstitusiyasında birmənalı şəkildə elan olunmuşdur. Konstitusiyasının 11-ci maddəsinə görə, Xəzər dənizinin

(gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Qeyd edək ki, *Xəzər heç bir dənizə və ya okeana çıxışı olmayan qapalı daxili dəniz, daha doğrusu, göldür.* SSRİ-nin dağılmasına qədər, yalız iki Xəzəryani dövlət var idi: İran və SSRİ. Problem burasındadır ki, Xəzərdə Sovet-İran sərhədləri heç bir vaxt müəyyən olunmamışdı. Məsələn, bu iki dövlət arasında 1954-cü ildə bağlanmış *Sərhədlərin nizamlanması haqqında Müqavilə* Xəzərin hər iki tərəfdən sərhədi müəyyən edilir, lakin dənizin özündəki sərhədlə bağlı isə heç nə demirdi. Bundan əvvəl bağlanmış müqavilələrdə də dəniz sərhədi haqqında bir göstəriş yoxdur. 1940-cı il Sovet İran müqaviləsi (*Ticarət və Gəmiçilik haqqında Müqavilə*) hər iki tərəf üçün "10 dəniz milli həddində öz sahil sularında müstəsna balıqtutma azadlığı" nəzərdə tuturdu. 1935-ci il və 1940-ci il Sovet-İran müqavilələrinə əlavə olunmuş nota mübadilələrində bəyan olunurdu ki, Xəzər "hər iki Hökumət tərəfindən Sovet və İran dənizi sayılır" (1035-ci il) və "tərəflər hesab edir ki, Xəzər İrana və Sovet İttifaqına məxsusdur" (1940-cı il). Bu və digər müqavilələr İran və SSRİ gəmilərinin Xəzər dənizinin hər bir yerində sərbəst və bərabər naviqasiya hüququnu nəzərdə tuturdu. Xəzərin "Sovet İttifaqına və İrana məxsus olması" haqqında yuxarıda göstərdiyimiz müddəaların mənası ondan ibarət idi ki, heç bir üçüncü dövlət bura hər hansı bir hüquqa, o cümlədən naviqasiya hüququna malik deyildi. Qeyd edək ki, Sovet İttifaqı "qapalı dəniz" dotirinasının qızğın tərəfdari idi və o, bu doktirinanı Qara dənizə də şamil etməyə san atmışdı. İran Xəzərin qapalı dəniz olması ilə razılaşmışdı. Belə ki, Kontinental şelfin tədqiqi və istismarı haqqında 19 iyun 1953-cü il tarıxlı İran qanununda deyilirdi: "Xəzər dənizinə gəlincə, buraya beynəlxalq hüququn qapalı dənizlərə aid olan normaları şamil olunur".

Uzun illər ərzində Sovet İttifaqı Xəzər dənizində, əsas etibarilə, Azərbaycana yaxın sahədə tədqiqat və istismar işləri aparırdı və bu fəaliyyət əslində 10 mildən artıq ərazini də əhatə edirdi. SSRİ heç vaxt bundan əldə etdiyi gəlirin tarısını İrana ödəməmişdi və heç təklif də etməmişdi və onu heç vaxt bu fəaliyyətə hər hansı bir formada cəlb etməmişdi. Sovet İttifaqında belə bir mövqe mövcud idi ki, Xəzərin

dibi və buradakı ehtiyatlar dənizin müvafiq sahələrində SSRİ-yə və İrana məxsusdur. İran SSRİ-nin Xəzərdəki neft fəaliyyətinə heç bir vaxt etiraz etməmişdi və bu fəaliyyətdən gələn gəlirin bölünməsinə idiia etməmişdi; İran da özünə yaxın sahədə birtərəfli fəaliyyət aparırdı.

SSRİ dövründə respublikalar arasında Xəzər dənizində formal sərhədəlr müəyyən olunmamışdı, praktikada isə neftçıxarma əməliyyatları bu və ya digər respublikanın müvafiq müəssisəsinə - həmin respublikanın dəniz zonasına yaxınlıq əsasında – həvalə olunmuşdu. Belə ki, bu günki "Günəşli", "Çıraq", "Azəri" və "Kəpəz" yataqlarının daxil olduğu zona Azərbaycanda yerləşən *Kaspmor Neftqaz*-a həvalə olunmuşdu. Ürkmənistanın oxşar müəssisəsi "Kəpəz"dən şərqə olan zona üçün məsul idi. Göstərilən dörd yataq Kaspmor Neftqaz trəfindən təşkil olunmuşdu və "Günəşli" artıq sovet dövründə istismar olunurdu.

"Azəri" yatağının yerləşdiyi zona 1991-ci ilin yanvarında SSRİ Neft və qaz sənayesi nazirliyi və Azərbaycan SSR-in Nazirlər Soveti tərəfindən birgə tenderə qoyulmuşdu. Tenderə icazə verən qərarda deyilirdi ki, "Xəzər dənizinin *Azərbaycan sektorunda* dörd nəhəng neft və qaz yatağı kəşf edilmişdir". SSRİ parçalandıqdan sonra "Günəşli", "Çıraq" və "Kəpəz" yataqları üçün kontraktlar üzrə danışıqlar yalız Azərbaycan hökuməti tərəfindən aparılırdı. Eynilə, Xəzər dənizinin Qazxıstana bitişik sektorunda təbii ehtiyatlarla bağlı "Kaspişel Konsorsiumu" ilə danışıqlar yalnız Qazxıstan hökuməti ilə aparılırdı.

Beləliklə, Sovet dövründəki praktika və adət hüququ Xəzərdə respublikalar arasında daxili inzibati sərhədlərin olmasını *de facto* tanıyırdı. Sovet İttifaqının dağıdılmasından sonra de facto sərhədlər varis dövlətlər tərəfindən qəbul edildi; bu zaman onlardan hər biri öz de facto dəniz ərazisi hüdudlarında dəniz ehtiyatlarını istismar etməkdə davam etdilər. Azərbaycan belə bir konkret təklif vermişdi: "sahil xəttinin davamı kimi orta xətt çəkilir; bu xəttin hər bir nöqtəsi Xəzərin bitişik və ya əks tərəfində yerləşən dövlətlərin ilkin sahil xəttindən bərabər məsafədə olur".

Bəs beynəlxalq hüququn mövqeyi necədir?

Məlumdur ki, okean sularına aid olan geniş normalar sistemi daxili dənizlərə tam və birbaşa tətbiq olunmur. Məsələn, Dəniz hüququ üzrə 1982-ci il Konvensiyası

prembulasında yalnız “dəniz və okeanlar”dan danışır; Konvensiyanın IX hissəsi “qapalı və yarımqapalı dənizlər” adlanır, lakin 122-ci maddəyə görə, həmin dənizlərə “başqa dəniz və ya okeana çıxışı olmayan” dənizlər aid deyildir.

Lakin dəniz hüququnun bütövlükdə daxili dənizlərə birbaşa şamil olunmamasının səbəbi ondadır ki, dəniz hüququnun fundamental prinsipi olan *gəmiçilik azadlığı* daxili dənizlərə tətbiq olunmur. Daxili dənizlərin və göllərin sərhədyanı dövlətləri həmişə belə bir mövqedən çıxış stmişlər ki, (SSRİ və İranın Xəzər dənizi ilə bağlı mövqeyi məhz belə olmuşdur), onlar başqa dövlətlərin gəmiçiliyinə icazə verməyə də bilərlər və bu mövqelər hamılıqla qəbul olunmuşdur. Lakin məlum deyildir ki, nəyə görə dəniz hüququnun digər normaları daxili dənizlərə tətbiq oluna bilməz. Məsələn, dəniz dibinin və buradakı ehtiyatların sahilyanı dövlətlərin arasında, bərabərlik və proporsionallığı təmin etməklə, bölünməli olması haqqında norma bütünlüklə daxili dənizlər üçün uyğundur. Müasir beynəlxalq hüquq dəniz dibi və buradakı ehtiyatlar üzərində müstəsna hüquqları artəq tanımışdır, çünki bu ehtiyatları texnoloji baxımdan istismar etmək mümkün olmuşdur. Bu texnoloji inkişaf eyniylə daxili dənizlərə və göllərə də aid edilməlidir.

Əslində, əksər çaylar və göllər sahilyanı dövlətlər arasında, hələ beynəlxalq məhkəmələr mövcud olmamışdan qabaq, razılaşmalar yolu ilə bölünürdü. Çaylar üçün, adətən müəyyən olunan sərhəd talveqdir, yəni ən dərin kanalın orta xəttidir. Göllər üçün, adətən, sərhəd kimi orta və ya ekvidstansiya xətti götürülür (bəzən xüsusi hallarla bağlı bu dəyişdirilə bilər). Qeyd etmək lazımdır ki, indiyə qədər daxili dənizə və ya gölə sahib olma məsələsi ilə bağlı heç bir iş beynəlxalq məhkəməyə və ya arbitraja verilməmişdir. Əgər belə bir iş verilsəydi, beynəlxalq məhkəmə Alman federal məhkəməsinin 1920-ci ildə gəldiyi nəticəyə gələrdi. Beynəlxalq hüquq prinsiplərini tətbiq etməklə, federal məhkəmə vurğulamışdı ki, Konstansa gölü ekvidstansiya sərhədləri ilə bölünmüşdür. Məhkəmə belə bir nəticəyə gəlmişdir: “Belə bir nöqteyi-nəzərə üstünlük verilməlidir ki, orta xətt sərhəd təşkil edir. Beynəlxalq hüququn ümumi normaları kondominium (birgə sahibkarlıq) nəzəriyyəsinə ziddir”.

Sahilyanı dövlətlərin müstəsna hüquqlarını ayıran sərhəd xəttləri anlamı o qədər inandırıcıdır və geniş qəbul olunmuşdur ki, məhkəmə bu qaydanın, əgər xüsusi coğrafi və tatixi faktlar başqa bir nəticəni şərtləndirmirsə, beynəlxalq adət hüquq norması olması nəticəsinə gələ bilər.

Nəhayət, belə bir suala cavb verək: Xəzərin dənizaltı ehtiyatları hamıya məxsus olmalıdırmı? Belə bir arqument irəli sürülür ki, Xəzərin dibi və yeraltı ehtiyatları sahilyanı dövlətlər arasında bölünməməlidir və onların hamısına və ya hər halda dörd keçmiş sovet respublikasına məxsus olmalıdır. Bu arqumen üç faktora söykənir: 1) 1935-ci və 1940-cı il Sovet-iran müqavilələri; 2) Xəzər dənizi ümumi ekoloji müdafiə tələb edən vahid ekosistemdir; 3) Beynəlxalq Məhkəmənin (daha doğtusu, beş hakimdən ibarət palatanın) *Quru, Ada və dəniz sərhədləri mübahisəsinə aid iş (Salvador/ Honduras, Nikaraquanın müdaxiləsi ilə)* üzrə 1992-ci ildə çıxartdığı qərar.

Əvvala, qeyd edək ki, tarixdə heç vaxt göl və ya daxili dənizlərin kondominiumu olmamışdır.

1-ci arqumentin əsasız olmasını belə sübut etmək olar. 1940-cı il müqaviləsi müstəsna balıqçılıq hüquqlarını sahildən 10 mil həddində məhdudlaşdırmışdı və bununla güman olunurdu ki, Xəzərin qalan hissəsində bu hüquqlar ümumidir. Lakin balıqçılığı tənzimləyən rejimin dəniz dibi və yeraltı ehtiyatları nizama salan rejimə heç bir aidiyyəti yoxdur. Müəyyən olunmuş 10 millik limit dəniz dibi və yeraltı ehtiyatlar üzərində müstəsna nəzarət üçün limit demək deyildir. Göstərilən müqavilələrin dili açıq-aşkar bunu nəzərdə tutur ki, üçüncü dövlətlərin Xəzərdə heç bir hüququ (hər şeydən öncə, gəmiçilik hüququ) yoxdur və dəniz dibinin ümumi mülkiyyətdə qalıb-qalmamasını nəzərdə tutmurdu. Əgər hətta bu müqavilələr belə təfsir olunsa ki, dəniz dibi və yeraltı ehtiyatlar ümumi mülkiyyətdə olmalıdır, onda "ümumi mülkiyyətçilər" İran və SSRİ olur. Əlbəttə ki, heç bir varis dövlət belə bir təfsirlə razılaşmaz ki, güya Xəzərin bütün ehtiyatlarının 50%-i İrana verilir və qalan 50%-in necə bölünməsi ilə bağlı isə heç bir göstəriş yoxdur.

Ekoloji mülahizələr, doğrudan da, çox vacibdir, lakin onlar belə bir nəticə çıxarmağa əsas vermir ki, Xəzərin dibi və yeraltı ehtiyatları ümumi olmalıdır. Sahilyanı dövlətlər çirkləndirmə problemləri ilə mübarizə məqsədilə müqavilə bağlaya bilər: belə bir müqavilədə, məsələn, ekoloji standartların müəyyən olunması prosedurları, çirkləndirmə halları haqqında xəbərvermə və s. məsələlər nizama salına bilər. Bu müqavilə hər bir sahilyanı dövlətin öz sektorunda dəniz dibinə və yeraltı ehtiyatlara sahibli hüququna zidd olmazdı. Belə müqavilələrə ABŞ və Kanada arasındakı; Trinidad
Və Tobaqo və digər Karib ölkələri arasındakı müvafiq sazişləri və Dəniz mühitinin çirklənmədən qorunması haqqında 1978-ci il Küveyt regional Konvensiyasını misal göstərmək olar.

Beynəlxalq Məhkəmənin yuxarıda göstərdiyimiz qərarına gəldikdə isə, qetd edək ki, həmin işin bir aspekti Salvador, Honduras və Nikaraquanın sahilyanı dövlət olduğu Fonseka körfəzi üzərində suverenliyə aid idi. Məhkəmə qərar çıxarmışdi ki, körfəzin tarixi boğaz statusu vardır və onun suları (sahildən üç mildən kənarda olan) göstərilən üç dövlətin kondominiumuna məxsusdur. Lakin Xəzər Fonseka körfəzindən köklü surətdə fərqlidir. Beynəlxalq məhkəmə sözü gedən işdə belə bir fakta əsaslamışdı ki, Fonseka körfəzinə, - Xəzərdən fərqli olaraq, - uzun müddət ərzində bir dövlət sahiblik etmişdir və hətta üç sahilyanı dövlət müstəqil olandan sonra körfəzi onlar ümumi mülkiyyət kimi nəzərdən keçirməmişdilər. Bundan əlavə, müstəsna olaraq gəmiçilik məsələsinə toxunan Məhkəmə aşkara çıxarmışdi ki, körfəzin coğrafiyası elədir ki, onun hər hansı formada bölünməsi həll olunmaz praktik çətinliklər yaradardı və ən azı, göstərilən dövlətlərdən birini açıq dənizə çıxışsız qoyardı. Xəzərdə situasiya tamamilə başqa cürdür. Xəzəri heç vaxt bir dövlət əhatə etməyib və o, bir dövlətə məxsus olmayıb. Sərhədlər bölünsə, hər halda dəniz dibi və yeraltı ehtiyatlara müstəsna hüquqlar baxımından, heç bir praktik çətinlik ortaya çıxmazdı.

Beləliklə, beynəlxalq hüquq Xəzər dənizində sərhədlərin delimintasiyasını tələb edir və burada sərhədlər, əsas etibarilə, *ekvidstansiya prinsipi,* yəni bərabərdayanma prinsipi əsasında ayır edilə bilər. Azərbaycan hökumətinin istinad

etdiyi bu prinsip Qazaxıstan və Rusiya tərəfindən də dəstəklənir və müvafiq ikitərəfli müqavilələrdə (Rusiya – Qazaxıstan – 1998, Rusiya - Azərbaycan – (2002) öz əksini tapmışdır.

12. Dənizə çıxışı olmayan dövlətlərin hüquqları. Dəniz hüququ üzrə 1982-ci il Konvensiyası dənizə heç bir təbii çıxışı olmayan dövlətlərin (qitədaxili dövlətlərin – məsələn, Avstriya, Əfqanıstan və b.) bir sıra hüquqlarını müəyyən etmişdir:

a) dənizə çıxış hüququ (bu məsələ qitədaxili dövlət ilə dəniz sahilində yerləşən müvafiq dövlət arasında müqavilə əsasında həll olunur);

b) müstəsna iqtisadi zonaların canlı ehtiyatların bu və ya digər səbəbə görə sahilyanı dövlətlər tərəfindən istifadə olunmayan hissəsinin istismarında ədalətli əsasda iştirak etmək hüququ;

c) "bəşəriyyətin ümumi irsi"ndən, o cümlədən Beynəlxlq dəniz dibi rayonunun ehtiyatlarından faydalanmaq hüququ.

13. Beynılxalq boğazlar və Beynəlxalq kanallar. ***Beynəlxalq boğazlar – hər hansı bir dənizin hissələrini və ya ayrı-ayrı dəniz və okeanları birləşdirən və bütün dövlətlər tərəfindən bərabər əsasda beynəlxalq gəmiçilik və hava naviqasiyası üçün istifadə edilən təbii dəniz keçidləridir.***

Beynəlxalq boğazlara misal olaraq, Pa-de-Kale, La-Manş, Cəbəllütariq, Sinqapur,

Ormuz və başqa boğazları göstərmək olar.

Açıq dənizin hissələrini birləşdirən boğazlarda gəmiçilik və uçuş azadlıqları mövcuddur. Hər hansı dövlətin (və ya dövlətlərin) ərazi dənizindən keçən beynəlxalq boğazlarda isə *tranzid keçid hüququ* əsas görürülür: bu halda gəmiçilik və uçuş azadlığı yalnız boğazdan fasiləsiz və tez tranzit məqsədi üçün həyata keçirilir; tranzit keçid hüququndan istifadə edən gəmilərə və uçuş aparatlarına maneə törədilməməlidir. Lakin onlar beynəlxalq hüquq prinsiplərinə, habelə fasiləsiz və tez keçid rejiminə zidd olan fəaliyyətə yol verməməlidir.

1982-ci il Konvensiyası, hüquqi rejimi artıq qüvvədə olan müqavilələrlə müəyyən olunmuş beynəlxalq boğazlara şamil olunmur. Bu, Qara dəniz (Mərmərə və Dardanel), Baltik (Böyük və kiçik Belt, Zund) və Maqellan boğazlaradır.

Qara dəniz boğazlararının hüquqi rejimi 1936-cı ildə bağlanmış çoxtərəfli Konvensiyası ilə müəyyən edilmişdir. Həmin Konvensiyaya görə, bu boğazlar bürün dövltlərin ticarət gəmiləri üçün açıqdır. Yalnız Türkiyə müharibədə iştirak etdikdə, düşmən tərəfin gəmiləri keçid hüququndan məhrum olunur. Qara dəniz sahilində yerləşməyən dövlətlərin hərbi gəmilərinin dinc vaxtı üzüb keçməsi üçün bir sıra məhdudiyyətlər nəzərdə tutulmuşdur. Müharibə zamanı bütün vuruşan tərəflərin hərbi gəmilərinin boğazlardan üzüb keçməsi qadağan olunur.

Beynəlxalq kanallar – dəniz və okeanları birləşdirə və beynəlxalq gəmiçilik üçün istifadə olunan hidrotexniki qurğulardır.

Beynəlxalq kanal hər hansı suveren dövlətin razılığı ilə onun ərazisində çəkilir. Bu

zaman həmin dövlət razılaşır ki, onun ərazisinin bir hissəsinin həm fiziki coğrafi statusu, həm də hüquqi statusu dəyişdirilsin (müvafiq olaraq, quru ərazisi su ərazisinə çevrilir və bu ərazidən dəniz gəmiçiliyini həyata keçirmək üçün istifadə hüququ tam bərabərlik əsasında və ayrı-seçkilik olmadan digər dövlətlərə verilir). Hmin dövlət, kanalın sahbi kimi, sərbəst gəmiçiliyi təmin etməyə borcludur. Digər ölkələr isə göstərilən dövlətin qanunlarına və inzibati qaydalarına hörmət etməlidir. Bütün bu məsələlər, adətən, xüsusi beynəlxalq sazişlərdə öz hüquqi həllini tapır (məsələn, *Şüveyş kanalında sərbəst üzmənin təmin edilməsinə dair 1988-ci il Konvensiyası;* 1977-ci ildə ABŞ və Panama arasında bağlanmış *Panama kanalı haqqında və Panama kanalının daimi neytirallığı və istismarı haqqında müqavilələr*). Lakin bütün dövlətlərin ticarəy gəmiləri üçün açıq olan Kill kanalının hüquqi rejimi AFR tərəfindən birtərəfli qaydada müəyyən olunmuşdur.

15. Beynəlxalq dəniz təşkilatları. Dünya okeanının müxtəlif məqsədlərlə istifadəsində dövlətlərin səylərini birləşdirmək və onların əməkdaşlığını inkişaf etdirmək üçün bir sıra beynəlxalq təşkilatlar yaradılmışdır. Onlardan ən əsası 1958-ci ildə təsis olunmuş *Beynəlxalq Dəniz Təşkilatıdır* (BDT). BDT-nin əsas

məqsədləri aşağıdakılardır: beynəlxalq ticarət gəmiçiliyinin texniki məslələrinə dair dövlətlərin əməkdaşlığına şərait yaratmaq; bu sahədə yol verilən ayrı-seçkilik tədbirlərinin və məhdudiyyətlərin aradan qaldırılmasına dəstək vermək. BDT insan həyatının dənizdə mühafizəsi, dənizin gəmilərdən çirklənməsinin qarşısının alınması, balıqtutan gəmilərin təhlükəsizliyi və digər bu kimi məsələlər üzrə konvensiya layihələri işləyib hazırlayır.

1897-ci ildə Belçikada təsis olunmuş *Beynəlxalq dəniz komitəsinin* başlıca məqsədi müvafiq hüquq normalarının işləyib hazırlanmasından və dəniz hüququnun unifikasiyasından ibarətdir.

Dəniz və okeanların öyrənilməsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilmsi üçün YUNESKO yanında fəaliyyət göstərən *Hökumətlərarası okeanoqrafiya komissiyası və Dənizin tədqiq edilməsi üzrə Beynəlxalq Şura* böyük əhəmiyyət kəsb edir.

1979-cu uldə fəaliyyət göstərən *Beynəlxalq dəniz peyk rabitəsi təşkilatının (İNMARSAT)* məqsədi Yerin süni peykləri vasitəsilə dənizin gəmilərinin gəmi sahibləri ilə və bu təşkilatı təsis etmiş dövlətlərin müvafiq orqanları ilə əlaqəsini gecə-gündüz və tez təmin etməkdən ibarətdir.

Mövzu17: BEYNƏLXALQ HAVA HÜQUQU

Plan:

1. Beynəlxalq hava hüququnun anlayışı və mənbələri

2. Beynəlxalq hava hüququnun prinsipləri

3. Hava məkanındakı uçuşların təsnifatı

4. “Hava azadlıqları” (kommersiya hüquqları)

5. Mülki aviasiya sahəsində beynəlxalq təşkilatlar

Ədəbiyyat siyahısı.

Бордунов В.Д., Котов А.И., Малеев Ю.Н. *Правовое регулирование международных полетов гражданских воздушных судов.* М., 1988.

Бордунов В.Д. *Правовой механизм деятельности международных авиационных организаций.* М., 1982.

Грязнов В.С. *Международные авиаперевозки (Правовые вопросы).* М., 1986.

Дежкин В.Н. *Правовое регулирование международных воздушных сообщений.* М., 1987.

Малеев Ю.Н. *Международное воздушное право: Вопросы теории и практики.* М., 1986.

Международное воздушное право. Кн. 1. М., 1980.

Международное воздушное право. Кн. 2. М., 1981.

Мезенцев А.В. Современные международно-правовые вопросы управления воздушным движением // *Московский журнал международного права. 1997.* №2.

Словарь международного воздушного права. М., 1988.

Abeyratne R. Legal and Regulatory Issues in International Aviation. Transnational Publ. Inc.: 1996/

Air and Space Law: De Lege Ferenda (eds. Zwaan and Mendes de Leon). 1992.

Diederiks-Vershoor I.H. An Introduction to Air Law. Deventer, 1983.

Zylicks M. International Air transport Law. Dordrecht, 1992.

1. Beynəlxalq hava hüququnun anlayışı və mənbələri. ***Beynəlxalq hava hüququ – hava məkanının hüquqi statusu və ondan istifadə rejimi ilə bağlı***

dövlətlərarası münasibətləri nizama salan beynəlxalq-hüquqi normaların məcmusuna deyilir.

Beynəlxalq hava hüququnun tətbiq sahəsindən danışarkən nəzərə almaq lazımdır ki,

hava məkanı (dünya okeanının səviyyəsindən kosmik fəzanın sərhədinə qədər olan sahə) iki növə - dövlətlərin quru və su ərazisi üzərində yerləşən suveren hava məkanına və dövlət sərhədlərinin hüdudlarından kənarda yerləşən açıq hava məkanına ayrılır. Dövlətin hava məkanının hüquqi rejimi milli qanunvericilik ilə nizama salınır. Lakin dövlət bu zaman beynəlxalq hava əlaqələrinə aid olan öz beynəlxalq öhdəliklərini mütləq nəzərə almalıdır.

Beynəlxalq hava hüququnun əsas mənbəyi beynəlxalq müqavilələrdir. Bu sahədə ilk çoxtərəfli müqavilə 1919-cu il Paris Konvensiyası olmuşdur. Konvensiyada dövlətlərin öz hava məkanı üzərində müstəsna suvernliyi birbaşa təsbit olunmuşdu. Eyni zamanda, Konvensiya əcnəbi hava gəmilərinin başqa dövlətlərin hava məkanından "dinc uşub keçməsini" nəzərdə tuturdu. 1929-cu ildən ikinci çoxtərəfli müqavilə - Beynəlxalq hava daşımalarına aid olan bəzi qaydaların unifikasiyası üzrə Varşava Konvensiyası bağlandı.

Beynəlxalq hava hüququ sahəsində ən mühüm akt 1944-cü ildə imzalanmış Beynəlxalq mülki aviasiya haqqında Çikaqo Konvensiyasıdır. Bu Konvensiyada dövlətin öz hava məkanı üzərində tam və müstəsna suvernliyi prinsipi birmənalı şəkildə təsbit olunmuşdur. Konvensiyada iştirakçı dövlətlərin ərazi üzərindən uçuş qaydaları, mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tələblər öz əksini tapmışdır. Çikaqo Konvensiyasının ikinci hissəsində Beynəlxalq mülki aviasiya təşkilatının

(İKAO) təşkili ilə fəaliyyətinin hüquqi əsasları müəyyən edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanın iştirakçısıdır.

Bundan əlavə, beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qeyri-qanuni müdaxilə aktları ilə mübarizə məsələlərinə həsr olunmuş konvensiyaları, habelə ikitərəfli sazişləri göstərmək olar (məsələn, Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə 1993-cü ildə bağladığı Hava əlaqəsi haqqında Saziş).

Beynəlxalq hava hüququ sahəsində betnəlxalq adətlər öz əhəmiyyətini saxlayır. Çikaqo Konvensiyasında iştirak etməyən dövlətlər üçün bir sıra mühüm normalar, o cümlədən dövlətin öz hava məkanı üzərində suvernliyi prinsipi məhz adət "statusuna" malikdir. Bu sahədə digər adət normaları da mövcuddur: məsələn, dövlət, istənilən hava məkanında onun reyestinə daxil edilmiş hər bir hava gəmisi üzərində öz yurisdiksiyasını saxlayır; fəlakət zamanı hava gəmisi icazə olmadan xarici dövlətin hava ərazisinə daxil ola bilər və s.

2. Beynəlxalq hava hüququnun prinsipləri. Beynəlxalq hava hüququnun aşağıdakı prinsipləri vardır:

a) öz hava məkanı üzərində dövlətin tam və müstəsna suverenliyi.

Dövlət suveren hava məkanından əcnəbi uçuş aparatları yalnız icazə qaydasında istifadə edə bilər. Bu icazə ya müvafiq dövlətlərarası müqavilədə təsbit oluna bilər, ya da dövlətin səlahiyyətli orqanı tərəfindən birdəfəlik uçuş üçün verilə bilər.

Dövlətlər, habelə qarşılıqlı əsasda öz hava məkanından müəyyən razılaşdırılmış vəzifələrin həlli üçün istifadə edə bilərlər. Buna misal olaraq, 24 mart 1992-ci il tarixdə ATƏT çərçivəsində imzalanmış Açıq səma haqqında Müqaviləni gösrtərmək olar. Açıq dəniz rejimi iştirakçı dövlətlərin ərazisindəki hərbi fəaliyyət haqqında məlumat əldə etmək məqsədi ilə bu ərazilərin üzərindən müşahidə uçuşlarının həyata keçirilməsi üçün müəyyən olunur. Bunun üçün iştirakçı dövlətlərin birində qeydiyyatdan keçmiş və xüsusi avadanlıqla təchiz olunmuş təyyarələrdən istifadə edilir. Müqavilədə hər bir iştirakçı dövlət üçün nəzərdə tutulmuş müşahidə uçuşlarının sayı müəyyən edilmişdir.

Müşahidə uçuşları istənilən müntəzəm hava uçuşları üzrində üstünlüyə malikdir. Belə uçuşlar nəticəsində əldə edilmiş məlumatlar Müqavilənin bütün iştirakçılarına təqdim olunur.

Dövlət ərazi hüdudlarında uçuş zamanı və ya bu ərazidə olarkən, əcnəbi hava gəmiləri həmin dövlətin müəyyən etdiyi müvafiq qanun və qaydalara ciddi surətdə riayət etməlidir.

Bununla belə, dövlət öz hava məkanından elə istifadə etməlidir ki, bu zaman başqa dövlətlərin hüquq və qanuni mənafelərinə zərər dəyməsin.

Sözü gedən prinsipə müvafiq olaraq, hər bir dövlət öz hava məkanında beynəlxalq uçuşların marşurutlarını və lazım olduqda, belə uçuşlar üçün qadağan zonaları təyin edir, habelə radiorabitə və uçuşların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qaydalar müəyyən edir.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun 9-cu maddəsində göstərilir ki, "hava gəmiləri Azərbaycan Respublikasının dövlət sərhədini... xüsusi ayrılmış hava uçuş dəhlizləri vasitəsi ilə keçirlər. Hava dəhlizlərindən kənarda Azərbaycan Respublikası dövlət sərhədinin üzərindən uçub keçməyə yalnız Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının xüsusi icazəsi ilə yol verilir".

Əcnəbi hava gəmilərinə, onların ekipajına və dövlətə gələn və ya onu tərk edən sərnişinlərə həmin dövlətdə mövcud olan pasport, gömrük, sanitar və digər qaydalar şamil edilir.

a) açıq hava məkanında uçuş azadlığı.

Bu prinsipə görə, istənilən dövlətin uçuş aparatları açıq (beynəlxalq) hava məkanında müvafiq beynəlxalq-hüquqi normalara, xüsusilə, İKAO tərəfindən müəyyən olunmuş standartlara əməl etmək şərtilə, maneəsiz uçuşlar həyata keçirmək hüququna malikdir. Beynəlxalq hava məkanında olduğu müddətdə bütün hava gəmiləri yalnız qeydiyyatda olduğu dövlətin yurisdiksiyasına tabe olur. Hər hansı başqa bir dövlətin hakimiyyəti bu hava gəmisinə şamil edilmir və onun uçuşuna müdaxilə edə bilməz.

b) beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi.

Bu prinsipdən dövlətlər üçün iki başlıca vəzifə irəli gəlir: 1) aviasiya texnikasının, hava limanlarının, köməkçi xidmətlərin və hava marşurutlarının texniki etibarlılığını təmin etmək üzrə tədbirlər görmək; 2) mülki aviasiyanın fəaliyyətinə qeyri-qanuni müdaxilə aktları ilə mübarizə aparmaq.

Birinci vəzifənin həyata keçirilməsində İKAO böyük rol oynayır. Bu təşkilat çərəivəsində dövlətlər mütəmadi olaraq, hava gəmilərinin uçuşa yararlığı; uçuş və texniki heyətin lazımi peşə hazırlığı; rabitə sistemləri və aeronaviqasiya xəritələri; hava limanlarının və enmə meydançalarının xaraqterisdikası və aviasiyanın

təhlükəsizliyi ilə bağlı bütün digər məsələlərə aid beynəlxalq reqlamentlər işləyib hazırlayırlar.

İkinci vəzifənin həyata keçirilməsi ilə əlaqədar dövlətlər beynəlxalq müqavilələr bağlayır və beynəlxalq mülki aviasiya üçün təhlükə törədən cinayət əməlləri ilə mübarizənin beynəlxalq-hüquqi və dövlətdaxili vasitələrini müəyyən edirlər. Bu sahədə üç əsas universal müqavilə mövcuddur: Hava gəmisində törədilən hüquq pozuntuları və bəzi digər aktlar haqqında 1963-cü il Tokio Konvensiyası; Hava gəmilərinin qeyri-qanuni ələ keçirilməsi ilə mübarizə haqqında 1970-ci il Haaqa Konvensiyası və Mülki aviasiyanın təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni akrlarla mübarizə haqqında 1971-ci il Moneral Konvensiyası. Tokio Konvensiyası hava gəmisində törədilən istənilən cinayətlərə tətbiq olunur. Haaqa Konvensiyasına görə, uçuşda olan hava gəmisində şəxs o halda cinayət törətmiş sayılır ki, o: "a) qeyri-qanuni olaraq, zorakılıq yolu ilə və ya zorakılıq tətbiq edilməsi ilə hədələməklə və yaxud istənilən digər formada qorxutma yolu ilə bu hava gəmisini ələ keçirir və ya onun üzərində nəzarət həyata keçirir, yaxud istənilən belə bir hərəkət törətməyə cəhd edir və ya b) istənilən belə bir əməlin törədilməsində və ya törədilməyə cəhd edilməsində iştirakçı kimi çıxış edir" (1-ci maddə). Moneral Konvensiyası beynəlxalq mülki aviasiya üçün təhlükəli olan cinayət əməllərinin siyahısını genişləndirmişdir. Konvensiyanın 1-ci maddəsinə əsasən, aşağıdakı əməllərin birini qeyri-qanuni və törətmiş şəxs cinayət etmiş sayılır:

a) uçuşda olan hava gəmisindəki şəxsə qarşı zorakılıq akt törədilməsi, əgər bu akt həmin hava gəmisini təhlükəyə məruz qoyarsa;

b) istismarda olan hava gəmisinin məhv edilməsi və ya hava gəmisinə, onu sıradan çıxaran və ya uçuş zamanı onu təhlükəyə məruz qoya bilən zədə yetirilməsi;

c) istismarda olan hava gəmisinə hər hansı bir üsulla qurğu və ya maddə qoyulması və ya buna gətirib çıxara bilən müəyyən hərəkətlər edilməsi, əgər bu qurğu və ya maddə həmin hava gəmisini dağıda və ya onu sıradan çıxara bilərsə və yaxud onu uçuş zamanı təhlükəyə məruz qoya bilən zədə yetiriə bilərsə;

ç) aeronaviqasiya avadanlığının məhv edilməsi və zədələnməsi və yaxud onun istismarına müdaxilə edilməsi, əgər istənilən belə bir akt uçuşda olan hava gəmisini təhlükəyə məruz qoya bilərsə;

d) bilərəkdən yalan məlumatlar verilməsi, əgər bu, uçuşda olan hava gəmisini təhlükəyə məruz qoya bilərsə.

Göstərilən maddənin 2-ci hissəsinə görə, yuxarıda sadalanan cinayətlərdən hər hansı birini törətməyə cəhd edən və ya istənilən belə bir cinayətin törədilməsində iştirakçı kimi çıxış edən hər hansı bir şəxs də cinayət törətmiş sayılır.

3. Hava məkanındakı uçuşların təsnifatı. Hava məkanındakı uçuşların aşağıdakı növləri vardır:

1. Bir dövlətin ərazisindən başqa dövlətin ərazisinə.

Bu uçuşlar da öz növbəsində bir neçə cür olur: a) iki dövlətin sərhədini ani kəsib keçməklə həmsərhəd dövlətə uçuşlar; b) açıq dəniz rayonunu kəsib keçməklə; c) üçüncü dövlətin ərazisindən tranzit (enmədən) uçub keçməklə; ç) beynəlxalq boğazlardan və ya arxipelaq sularından tranzit uçub keçməklə.

2. Açıq dəniz rayonundan və ya Antraktidadan xarici dövlətlərin ərazisinə və geriyə;

3. Açıq dənizin bir rayonundan və ya Antraktidadan açıq dənizin digər rayonuna, beynəlxalq boğazlardan və ya arxipelaq sularından tranzit uçub keçməklə;

4. Açıq dəniz və ya Antraktida hüdudlarında, beynəlxalq boğazlardan və ya arxipelaq sularından tranzit uçub keçmədən;

5. Hava gəmisinin qeydiyyatda olduğu (gəmini istismar edən) dövlətin ərazisindən açıq dənizə və ya Antraktikaya və geriyə (balıq ehtiyatlarının kəşfiyyatı, elmi tədqiqatlar aparılması məqsədilə və s.);

6. Hava gəmisinin qeydiyyatda olduğu (gəmini istismar edən) dövlətin ərazisinin bir hissəsindən digər hissəsinə, xarici dövlətin ərazisini tranzit uçub keçməklə (məsələn, ABŞ-in mərkəzi hissəsindən Kanadadan keçməklə Alyaskaya);

7. Hava gəmisinin qeydiyyatda olduğu (gəmini istismar edən) dövlətin ərazisinin bir
hissəsindən digər hissəsinə, beynəlxalq boğazlardan və ya arxipelaq sularından tranzit uçub keçmədən;

8. Bir dövlətin hüdudlarında daxili uçuşlar (həmin ölkənin milli hüququnun subyektləri tərəfindən və onun ərazisi çərçivəsində məhdud məqsədlərlə həyata keçirilən uçuşlar).

Özü-özlüyündə digər dövlətin hava məkanında uçuş beynəlxalq uçuş sayıla bilməz. Söhbət yalnız o uçuşdan gedə bilər ki, onun başlanması və ya başa çatması xarici dövlətin ərazisində baş verir. Uçuş bütövlükdə (onun bir mərhələsi yox) bir dövlətin içərisində planlaşdırılıbsa, bu daxili uçuş hesab olunur.

4. "Hava azadlıqları" (kommersiya hüquqları). Kommersiya xaraqterli beynəlxalq hava uçuşları müəyyən hüquqlar əsasında həyata keçirilir. Bu hüquqlar aşağıdakılardır:

1) müəyyən dövlətin ərazisi üzərindən, onun razılığı əsasında tranzit (yerə enmədən) uçub keçmək hüququ;

2) göstərilən tranzit uçuşu qeyri-kommersiya məqsədləri ilə yerə enməklə yerinə yetirmək hüququ (yanacaq doldurmaq, təmir və s. üçün);

3) xarici dövlətin ərazisində sərnişinləri düşürmək və hava gəmisinin qeydiyyatda olduğu dövlətdə götürülmüş baqajı, yükləri və poçtu boşaltmaq hüququ;

4) bundan əvvəlki "hava azadlığı"na oxşar olan, amma əks istiqamətdə (xarici dövlətin ərazisindən öz ərazisinə) həyata keçirilən hüquq;

5) xarici dövlətin ərazisində sərnişinləri düşürmək, həmin dövlətin ərazisində yükləri və poçtu boşaltmaq və habelə onları istənilən üçüncü ölkədən və ya istənilən üçüncü ölkəyə daşımaq üçün götürmək hüququ.

Yuxarıda göstərilənlərdən başqa, daha iki "hava azadlığı" mövcuddur:

1) öz ərazisindən keşməklə, üçüncü ölkələr arasında hava daşımaları həyata keçirmək hüququ;

2) öz ərazisindən keşməməklə, üçüncü ölkələr arasında hava daşımaları həyata keçirmək hüququ.

5. Mülki aviasiya sahəsində beynəlxalq təşkilatlar. Beynəlxalq mülki aviasiya sahəsində ən nüfuzlu beynəlxalq təşkilat 1947-ci ildə fəaliyyət göstərən və hazırda 188 üzvü olan İKAO-dur. Yuxarıda qeyd edildiyi kimi, İKAO 1944-cü il Çikaqo Konvensiyasının II hissəsi əsasında yaradılmışdır. Onun başlıca məqsədi bütün dünyada beynəlxalq mülki aviasiyanın təhlükəsiz inkişafını təmin etmək, bütün bu məsələlərdə beynəlxalq əməkdaşlığı təşkil etmək və əlaqələndirməkdən ibarətdir. İKAO aşağıdakı sturuktura malikdir: Assambleya (bütün üzv-dövlətlərin təmsil olunduğu dli orqan; üç ildə bir dəfədən az olmayaraq toplanır); Şura (Assambleya tərəfindən seçilən 33 dövlətin təmsil olunduğu daimi orqan; ona prezident rəhbərlik edir; sessiyaları, adətən, ildə üç dəfə keçirilir); Aeronaviqasiya komissiyası; Avianəqliyyat komitəsi; Hüquqi komitə; Katiblik (ona Təşkilatın baş icraçı vəzifəli şəxsi olan Baş katib rəhbərlik edir) və s.

Avropa mülki aviasiya konfransı (EKAK). 1954-cü ildə təsis olunmuşdur. Qərbi Avropa ölkələrinin və Yürliyənin iştirak etdiyi bu təşkilat Avropa hava nəqliyyatının problemlərini öyrənir və iştirakçı dövlətlərin bu sahədə fəaliyyətini əlaqələndirir. Tövsiyə xaraqterli qərarlar çıxarır. İKAO ilə sıx əlaqə saxlayır. Əsas orqanları Plenar kommissiya (ali orqan) və Əlaqələndirmə komitəsidir (icra orqanı).

Aeronaviqasiyanın təhlükəsizliyinin təmin edilməsi üzrə Avropa təşkilatı (Avronəzarət). 1960-cı ildə xüsusi konvensiya əsasında təsis olunmuşdur. Təşkilatın başlıca məqsədi mülki və hərbi hava gəmilərinin uçuşlarının təhlükəsizliyini təmin etməkdir. Ali orqanı Aeronaviqasiyanın təhlükəsizliyinin təmin edilməsi üzrə Daimi komissiyadır. İcra orqanı Aeronaviqasiyanın təhlükəsizliyi üzrə Agentlik adlanır; bu orqanda bütün üzv-dövlətlər (Almaniya, Belçika, Böyük Britaniya, Lüksemburq, Niderland və Fransa) təmsil olunmuşdur. Bundan əlavə, Avronəzarət çərçivəsində arbitraj məhkəməsi mövcuddur. Məhkəmə iştirakçı dövlətlər arasında, habelə dövlətlərlə Təşkilat arasında ortaya çıxan

mübahisələri həll edir; məhkəmənin qərarı qətidir və onlardan şikayət verilə bilmaz.

Afrika mülki aviasiya komissiyası (AFKAK). 1969-cu ildə təsis olunmuşdur. Hazırda 32 üzvü vardır. Aşağıdakı məqsədləri vardır: regional aeronaviqasiya xidməti planlarını hazırlamaq; hava nəqliyyatı sahəsində üzv-dövlətlərin siyasətinin inteqrasiyasına dəstək vermək; İKAO-nun standart və tövsiyələrinin regionda tətbiqinə yardım etmək və s. Tövsiyə xaraqterli qərarlar çıxarır. Əsas orqanları Plenar sessiya (ali orqan) və AFKAK-ın Bürosudur (icra orqanı).

Afrikada və Madaqasqarda aeronaviqasiyanın təhlükəsizliyinin təmin edilməsi üzrə Agentlik (ASENKA). 1959-cu ildə yaradılmışdır. Hazırda 12 üzvü vardır. Məqsədi üzv-dövlətlərin əraziləri üzərində müntəzəm və təhlükəsiz uçuşlar təmin etməkdən ibarətdir. Agentlik üzv-dövlətlərə zəruri məlumatlar verir, hava nəqliyyatına nəzarət edir, uçuşları idarə edir və s. Bu məqsədlə onun xidmətindən istifadə etməyə razı olan istənilən dövlətlə müvafiq sazişlər bağlaya bilər. Ali orqanı İnzibati şuradır; Şuranın qərarı qəbul edildiyi andan üzv-dövlətlər üçün məcburi qüvvəyə malikdir.

Latın Amerikası mülki aviasiya komissiyası (LAKAK). 1973-cü ildə yaradılmışdır. Başlıca məqsədi üzv-dövlətlərin hava nəqliyyatının fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Ali orqanı Assambleyadır; Assambleyanın qətnamə və tövsiyələri üzv-dövlətlər tərəfindən bəyənildikdən sonra məcburi qüvvəyə malik olur. İcra komitəsi icra orqanı kimi LAKAK-ın cari fəaliyyətini təmin edir.

Aeronaviqasiya xidməti üzrə Mərkəzi Amerika korporasiyası (KOKESNA). 1960-cı ildə təsis olunmuşdur. Sözü gedən sahədə yeganə beynəlxalq təşkilatdır ki, regionun dövlətlərinin əraziləri üzərində hava nəqliyyatının idarə edilməsini bilavasitə təmin edir. Öz xidmətlərini Təşkilat nəinki üzv-dövlətlərə, habelə müvafiq kontraktlar əsasında onların hüquqi və fiziki şəxslərinə də təkilf edir. Təşkilatın verdiyi təlimatlar uçuş aparatlarının komandirləri üçün məcburidir. Ali orqanı üzv-dövlətlərin nümayəndələrindən ibarət İnzibati şuradır; Şuranın qərarı bilavasitə icra olunur.

Mövzu18: BEYNƏLXALQ KOSMOS HÜQUQU

Plan:

1. Beynəlxalq kosmos hüququnun anlayışı və mənbələri

2. Beynəlxalq kosmos hüququnun prinsipləri

3. Kosmik fəzanın və səma cisimlərinin hüquqi rejimi

4. Kosmik obyektlərin beynəlxalq-hüquqi statusu

5. Kosmonavtların hüquqi vəziyyəti

6. Kosmik fəaliyyətə və bu zaman vurulan zərərə görə beynəlxalq məsuliyyət

7. Kosmosun tədqiqi və istifadəsi sahəsində beynəlxalq əməkdaşlıq

Ədəbiyyat siyahısı.

Василевская Э.Г. *Правовой статус природных ресурсов Луны и планет.* М., 1978.

Верещетин В.С. *Международное сотрудничество в космосе: правовые вопросы.* М., 1977.

Жуков Г.П. *Космос и мир.* М., 1985.

Каменецкая Е.П. *Космос и международные организации: международно-правовые проблемы.* М., 1980.

Колосов Ю.М., Сташевский С.Г. *Борьба за мирный космос: Правовые вопросы.* М., 1984.

Международное космическое право. Отв. ред. А.С.Пирадов. М., 1985.

Международное космическое право. Учебник. М., 1999.

Постышев В.М. *Освоение космоса и развивающиеся страны (международно-правовые пролемы).* М., 1986.

Правовые прблемы полетов человека в космос. Отв. ред. В.С. Верещагин. М., 1986.

Рудев А.И. *Международно-правовой статус космических станций.* М., 1982.

Словарь международного космического права. М., 1992.

Air and Space Law: De Lege Ferenda(eds. Zwaan and Mendes de Leon).1992.

1. Beynəlxalq kosmos hüququnun anlayışı və mənbələri. ***Beynəlxalq kosmos hüququ səma cisimiləri də daxil olmaqla, kosmik fəzanın hüquqi rejimini müəyyən edən və kosmik fəaliyyətin iştirakçılarının hüquq və vəzifələrini nizama salan normaların məcmusuna deyilir.***

Beynəlxalq kosmos hüququnun obyektini kosmik fəzanın, planetlərin, Ayın və süni

kosmik obyekt lərin istifadəsi ilə bağlı ortaya çıxan hüquq münasibətləri, kosmik ekipajların hüquqi statusu və kosmik fəaliyyətin nəticələrindən istifadənin hüquqi rejimi təşkil edir.

Beynəlxalq kosmos hüququ, əsas etibarilə, benəlxalq müqavilələrə söykənir. Bu sahədə əsas beynəlxalq müqavilə Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istismarı üzrə dövlətlərin fəaliyyətinin prinsipləri haqqında 1967-ci il Müqaviləsidir. Bundan əlavə,aşağıdakı müqavilələri göstərmk olar: Kosmonavtların xilas edilməsi, kosmonavtların qaytarılması və kosmik fəzaya buraxılmış obyektlərin qaytarılması haqqında 1968- ci il Sazişi (Kosmonavtların xilas edilməsi haqqında Saziş); Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında 1972-ci il Konvensiyası; Kosmik fəzaya buraxəlan obyektlərin qeydiyyatı haqqında 1975- il Konvensiyası; Ayda və digər səma cisimlərində dövlətlərin fəaliyyəti haqqında 1979-cu il sazişi (Ay haqqında Saziş). Bu və ya digər dərəcədə kosmik fəaliyyətə aid olan müddəaları başqa müqavilələrdə də tapmaq olar: məsələn, Atmosferdə, kosmik fəzada və su altında nüvə silahı sınaqlarının qadağan edilməsi haqqında1963-cü il Müqaviləsi; Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyası; "İnterputnik" Beynəlxalq rabitə sisteminin yaradılması və kosmik rabitənin təşkili haqqında 1971-ci il Sazişi; Nüvə qəzası barədə operativ xəbərvermə haqqında 1986-cı il konvensiyası və s.

Yeni sahə olan beynəlxalq kosmos hüququnda adət normaları mühhüm rol oynayır. Bir sıra məsələlər bu günə kimi adət hüququ ilə nizama salınır; məsələn,

kosmik obyektlərin xarici dövlətlərin hava məkanına azad girmək və çıxmaq hüququ; kosmik fəzanın aşağı sərhədinin (hava fəzası ilə kosmik fəzanı ayıran xəttin dəniz səviyyəsindən təxminən 100 km hündürlükdə müəyyən olunması; sputniklər vasitəsilə televerilişlər həyata leçirilməsi hüququ və s.).

2. Beynəlxalq kosmos hüququnun prinsipləri. Beynəlxalq kosmos hüququnun prinsipləri Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyətinin prinsipləri haqqında Müqavilədə təsbit olunmuşdur. Bu prinsiplər aşağıdakılardır:

- kosmik fəzanın və səma cisimlərinin tədqiqi və istifadəsi azadlığı;
- kosmik fəzanın və səma cisimlərinin mənimsənilməsinə yol verilməməsi;
- kosmik fəaliyyətin beynəlxalq hüququn prinsiplərinə üyğun olaraqhəyata kemirilməsi;
- dövlətin bütün milli kosmik fəaliyyətə görə beynəlxalq məsuliyyəti;
- kosmik obyektlərlə vurulmuş zərərə görə dövlətlərin beynəlxalq məsuliyyəti;
- Ayın və digər səma cisimlərinin müstəsna olaraq dinc məqsədlərlə istifadə olunması;
- kosmosun tədqiqi və istifadəsi zamanı dövlətlərin əməkdaşlığı və qarşılıqlı yardımı;
- dövlətlərin öz kosmik obyektləri üzərində suveren hüquqlarının və nəzarətin saxlanılması.

3. Kosmik fəzanın və səma cisimlərinin hüquqi rejimi. Kosmos iki ərazidən – kosmik fəzadan və səma cisimlərindən ibarətdir. “Kosmik fəza” anlayışı hava fəzasının xarici sərhədindən ay orbitinin hüdudlarına qədər uzanan geniş ərazini (yaxın kosmos) və bu hüdudlardan kənarda yəni, 384 km-dən o tərəfə yerləşən ərazini (uzaq kosmos) bildirir. Təbii səma cisimləri öz daimi orbiti üzrə hərəkət edən, istifadə üçün yararlı olan, üzərində insan yaşamayan kosmik cisimlərdir. Ay haqqında Sazişə görə, Yer səthinə təbii yolla çatan asteroid, metoroid və s. kimi materiallar bu anlayışa daxil deyildir; təbii səma cisimləri bəşəriyyətin ümumi irsi

olduğu halda, bu materiallar, hansı dövlətin ərazisinə düşərsə, həmin dövlətin mülkiyyəti hesab edilir.

Kosmik fəzanın və səma cisimlərinin hüquqi rejimi, əsas etibarilə, 1967-ci il Müqaviləsi ilə və Ay haqqında Sazişlə müəyyən olunmuşdur. Bu müqavilələrə görə, kosmik fəza və səma cisimləri bütün dövlətlər tərəfindən bərabər əsasda, ayrı-seçkilik olmadan tədqiq edilə və istifadə oluna bilər. Heç bir dövlət öz suverenliyini bu və ya digər şəkildə bu ərazilərə şamil edə bilməz. Kosmik fəzanın və səma cisimlərinin hüquqi rejimində müəyyən fərqlər mövcuddur. Kosmosdan fərqli olaraq, Ay və digər səma cisimləri müstəsna olaraq dinc məqsədlərlə istifadə olunmalıdır; onların üzərində hərbi bazalar və qurğular yaratmaq, istənilən tip silahlı sınaqdan çıxmaq, hərbi manevrlər həyata keçirmək, güclə hədələmək və ya güc tətbiq etmək, istənilən digər düşmən hərəkətləri törətmək və ya belə hərəkətlərin törədilməsi ilə hədələmək qadağan olunmuşdur.

Ay və onun təbii ehtiyatları bəşəriyyətin ümumi irsi elan olunmuşdur.

4. Kosmik obyektlərin beynəlxalq-hüquqi statusu. Kosmik obyektlər dedikdə, süni səma cismi (Yerin sputnikləri), onun kosmik fəzaya çıxarılması vasitələri, kosmik fəzaya buraxılmış və ya kosmik fəzada və yaxud səma cisimlərində quraşdırılmış digər hissələri başa düşülür.

Kosmik obyektlər üzərində mülkiyyət hüququ onların kosmik fəzada və səma cisimlərində olduğu və ya yerə qayıtdığı zaman toxunulmamış qalır. Kosmik obyektlər, onları kosmosa buraxan dövlətin ərazisindən kənarda aşkar edildikdə, həmin dövlətin xahişi ilə və bütün müvafiq xərclərin həmin dövlət tərəfindən ödənilməsi ilə ona qaytarılmalıdır.

Kosmik fəzaya buraxılan obyektlərin qeydiyyatı haqqında 1975-ci il Konvensiyasına müvafiq olaraq, kosmosa buraxılan hər bir obyekt qeydiyyatdan keçirilməlidir və milli reyesrerə daxil edilməlidir. Kosmik obyektin qeydiyyatdan keçdiyi dövlət həmin obyekt üzərində yurisdiksiyaya malik olur. 1961-ci ildən etibarən BMT Baş Katibi kosmik obyektlərin Reyestini aparır; buraya hər bir kosmik obyektlə bağlı məlumatlar daxil edilir.

5. Kosmonavtların hüquqi vəziyyəti. 1967-ci il Müqaviləsinə, habelə Kosmonavtların xilas edilməsi haqqında Sazişə və Ay haqqında Sazişə əsasən, kosmonavtlar "bəşəriyyətin elçiləri" kimi nəzərdən keçirilir. Bununla bütün dövlətlərin üzərinə aşağıdakı hüquq və vəzifələr qoyulmuşdur: qəza, fəlakət və ya məcburi enmə halında kosmonavtlara istənilən ərazidə hərtərəfli kömək göstərmək; səma cisimləri üzərində qəzaya uğrayan şəxsləri öz stansiyalarında, qurğularında və aparatlarında sığınacaq vermək; BMT Baş Katibinə və obyektin qeydiyyatdan keçdiyi dövlətə kosmonavtların aşkar edilməsi və onların xilas edilməsi üçün görülən tədbirlər barədə məlumat vermək; kosmonavtları dərhal müvafiq dövlətə qaytarmaq; kosmonavtların həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görülməsində başqa dövlətlərə, birinci növbədə, obyektin qeydiyyatdan keçdiyi dövlətlə əməkdaşlıq etmək və s.

Kosmonavt və ya kosmos gəminin ekipajı kosmik fəzada, o cümlədən səma cismi üzərində olduğu müddətdə, vətəndaşlığından asılı olmayaraq, gəminin qeydiyyatdan keçdiyi dövlətin yurisdiksiyası və nəzarəti altında olur.

6. Kosmik fəaliyyətə və bu zaman vurulan zərərə görə beynəlxalq məsuliyyət. Dövlətin bütün milli kosmik fəaliyyətə görə beynəlxalq məsuliyyəti prinsipi, yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq kosmos hüququnun əsas prinsiplərindən biridir; kosmik fəaliyyətin hökumət orqanları və ya xüsusi şəxslər tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, məsuliyyəti dövlət daşıyır. Bu fəaliyyətdə beynəlxalq təşkilatın iştirak etdiyi halda isə, təşkilat və onun üzv-dövlətləri birgə məsuliyyət daşıyır.

Hüquqauyğun kosmik fəaliyyət nəticəsində xarici dövlətə və ya onun fiziki və hüquqi şəxslərinə zərər dəymişsə, bu zərərin ödənilməsi vəzifəsi kosmik obyektin buraxılmasını həyata keçirmiş və ya təşkil etmiş dövlətin, habelə ərazisindən və ya qurğusundan həmin obyek buraxılmış dövlətin üzərinə qoyulur. Dövlətin bu hallarda daşıdığı maddi məsuliyyətin həyata keçirilməsi əsasları və qaydası Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqında 1972-ci il Konvensiyasında müəyyən olunmuşdur. Konvensiyaya görə, kosmik obyektin vurduğu zərərə dedikdə, insan ölümü, bədən xəsarəti, səhhətə dəyən digər zərər,

dövlətlərin, fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların əmlakına vurulan zərər başa düşülür.

Kosmik fəaliyyətin həyata keçirilməsi nəticəsində Yerdəki və ya hava məkanındakı obyektlərə zərər dəymişsə, ortaya çıxan məsuliyyət mütləq (obyektiv) məsuliyyətdir; heç bir beynəlxalq hüquq norması pozulmasa da, dövlət bu zərəri ödəməlidir. Kosmik fəaliyyət bu halda yüksək təhlükə mənbəyi kimi nəzərdən keçirilir; Kosmik obyekt tərəfindən başqa bir dövlətin obyektinə kosmik fəzada və ya səma cismi üzərində vurulan zərərə görə isə məsuliyyət yalnız təqsir olduqda ortaya çıxır.

7. Kosmosun tədqiqi və istifadəsi sahəsində beynəlxalq əməkdaşlıq.

Kosmosun tədqiqi və istifadəsi həm fundamental elmin inkişafı, həm də bir sıra praktik-tətbiqi məsələlərin həlli baxımından prinsipial əhəmiyyət daşıyır. Kosmosun hərtərəfli tədqiqi və onun nadir imkanlarından istifadə nəticəsində yeni elm və fəaliyyət sahələri meydana gəlmişdir: kosmik meteorologiya, astronomiya, kosmik rabitə, naviqasiya və s.

Kosmik meteorologiya sahəsində əməkdaşlıq Kosmos üzrə BMT Komitəsi, Ümumdünya meteorologiya təşkilatı, İNTELAST və b. vasitəsilə həyata keçirilir. Yeni süni peykləri havanın proqnozlaşdırılmasının, iqlim inkişafının, dənizin temperaturunun, küləyin surətinin və s.öyrənilməsi üçün istifadə olunur.

Yerin məsafədən zondla tədqiq edilməsi (YMZT) geologiya, coğrafiya, geodeziya və kənd təsərrüfatı sahəsində uğurla isrifadə olunur. YMZT vasitəsilə quru, okezn və Yer atmosferinin vəziyyəti təyin olunur, ətraf mühit üzərində nəzarət həyata keçirilir, Yerin təbii ehtiyatları öyrənilir, faydalı qazıntıların yataqları aşkara çıxarılır və s. 1986-cı ildə BMT Baş Assambleyası Yerin kosmik fəzadan məsafə zondlamasına dair Prinsiplər qəbul etmişdir. Bu prinsiplərə görə, xarici dövlətlərin ərazisinin kosmosdan zondlaması hüquqauygundur və dövlətlər bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına dəstək verməlidir.

Kosmik rabitə sahəsində dövlətlərin əməkdaşlığı son illər xeyli genişlənmişdir. Bu, bir tərəfdən, Yerdə kommunikasiya vasitələrinə artan tələbatla, digər tərəfdən isə kosmosda yerüstü stansiyalar, Yerin süni peykləri, orbital stansiyalar və s.

arasında əlaqə qurulması zərurəti ilə bağlıdır. Hazırda radio və televiziya peyk xidməti, Yerin süni peykləri vasitəsilə proqramların birbaşa ötürülməsi sistemi intensiv inkişaf edir. Kosmik rabitənin tətbiqi dəniz əlaqəsinin və dənizdə xilasetmə işlərinin səmərəliliyini xeyli artırmışdır. Dövlətlər göstərilən sahədə Beynəlxalq Elektron Rabitəsi İttifaqı, İNTELSAT, ARABSAT və s. kimi beynəlxalq hökumətlərarası təşkilatlar vasitəsilə əməkdaşlıq edirlər. Kosmik rabitənin hüquqauyğun və səmərəli istiqamətini təmin etmək üçün BMT Baş Assambleyası 1982-ci ildə "Dövlətlər tərəfindən Yerin süni peyklərinin beynəlxalq birbaşa televiziya verlişləri üçün istifadə olunması Prinsipləri" adlı qətnamə qəbul etmişdir.

Kosmik naviqasiya hər hansı bir yerdə qəzaya uğrayan dəniz və hava gəmilərinə kömək göstərilməsi üçün müstəsna əhəmiyyət daşıyan bir sahədir. Statisdikaya görə, il ərzində qəzaya uğrayan gəmilərin, demək olar ki, yarısı meteopeyklər vasitəsilə xilas olunur. Bu sahədə, 1976-cı ildə yaradılmış *Beynəlxalq dəniz peyk rabitəsi təşkilatı – İNMARSAT* mühüm rol oynayır. İNMARSAT-ın təşkili və fəaliyyətinin, habelə dövlətlərin sözü gedən sahədə əməkdaşlığının hüquqi əsasları *Beynəlxalq dəniz peyk rabitəsi təşkilatı haqqında 1976-cı il Konvensiyası* ilə müəyyən olunur.

Göstərilənlərdən əlavə, *kosmik geologiya, kosmik texnika və texnologiya* da böyük praktiki əhəmiyyət kəsb edən sahələrdir.

Yekun olaraq qeyd edilməlidir ki, bütün yuxarıda sadalanmış və habelə kosmosun tədqiqi və istifadəsi ilə bağlı gələcəkdə ortaya çıxacaq yeni fəaliyyət növləri beynəlxalq hüququn və beynəlxalq kosmos hüququnun prinsiplərinə söykənməli və bütün bəşəriyyətin rifahı naminə həyata keçirilməlidir.

Mövzu19: BEYNƏLXALQ EKOLOGİYA HÜQUQU

Plan:

1.Beynəlxalq ekologiya hüququnun anlayışı və mənbələri

2. Beynəlxalq ekologiya hüququnun prinsipləri

3. Beynəlxalq ekologiya hüququnun mənbələri

4. Dəniz mühitinin mühafizəsi

5. Dənizin canlı ehtiyatlarının mühafizəsi

6. Beynəlxalq çay və göllərin mühafizəsi

7. Ətraf mühitin radioaktiv yoluxmadan mühafizəsi

8. Heyvan və bitki aləminin müdafiəsi

9. Ətraf mühitin müharibə dövründə qorunması

10. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq təşkilatlar

Ədəbiyyat siyahısı.

Виноградов С.В. *Международного право и охрана атмосферы.* М.., 1987.

Зашита окружающей среды в международном гуманитарном праве. М..,1995.

Кириленко В.П., Сидорченко В.Ф. *Мореплавание и предотварщение загрязнения Мирового океана (международно-правовые).* М..,1985.

Колбасов О.С. *Международно-прававая охрана окружающей среды.* М.,1982.

Мировой океан и международное право: защита и сохранение морской среды. М..,1986.

Сперанская Л.В. *Международно-прававая ответственностъ государств за загрязнение Мирового океана.* М..,1984.

Сперанская Л.В., Третъякова К.В. *Международное право окружающей среды.* М.,1995.

Тимошенко А.С. *Формирование и развитие Международного права окружающей среды.* М..,1986.

Шишко А.А. *Предупреждение трансграничного загрязнения (международно-правовые).* Киев, 1990.

Brnie P.W., Boyle A.E. *International Law and the Environment.* Oxford, 1995.

Brnie P.W., Boyle A.E. *Basic Dokuments on International Law and the Environment.* Oxford, 1995.

Mitchell R.B. *International Oil Pollution at Sea.* Cambridge, 1994.

1.Beynəlxalq ekologiya hüququnun anlayışı və mənbələri. ***Beynəlxalq ekologiya hüququ - ətraf mühitin çirklənmədən qorunması və təbii ehtiyatların rasional istifadəsi ilə bağlı dövlətlərarası münasibətləri nizama salan normaların məcmusuna deyilir.***

Təbiətin qorunması və onun ehtiyatlarından məqsədəuyğun istifadə olunması – müasir dövrün qlobal problemlərindən biridir. Bu problemin həllində bütün dövlətlər maraqlı olmalıdırlar.

Müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sistemi yaradılması, demək olar ki, qeyri-mümkündür. Yalnız birgə səylərlə, müvafiq hüquqi rejim yaratmaqla, bu günkü və gələcək nəsillərin sağlam yaşayışını və inkişafını təmin etmək olar. Buradan belə bir məntiqi nəticə alınır ki, ətraf mühitin qorunub saxlanmasında və ekoloji ehtiyatların adekvat mühafizəsində beynəlxalq ekologiya hüququ həlledici rol oynaya bilər və oynamalıdır.

Beynəlxalq ekologiya hüququnun predmetinə aşağıdakı məsələlər daxildir: 1) ətraf mühitə müxtəlif mənbələrdən dəyən zərərin qarşısının alınması, azaldılması və aradan qaldırılması; 2) təbii ehtiyatların ekoloji baxımdan əsaslandırılmış rasional istifadəsi rejiminin təmin edilməsi; 3) ətraf mühitin mühafizəsi ilə bağlı dövlətin elmi-texniki əməkdaşlığı.

Ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsinin aşağıdakı obyektləri vardır:

1) *milli təbii ehtiyatlar*; dövlətin yurisdiksiyası altında yerləşən bu ehtiyatların

hüquqi rejiminin müəyyən edilməsində daxili hüquq normaları başlıca rol oynasa da, onların mühafizəsinə dair beynəlxalq müqavilələr də mövcuddur;

2) *beynəlxalq təbii ehtiyatlar*; milli yurisdiksiyanın hüdudlarından kənarda və ya

özünün təbii dövretmə prosesində müxtəlif dövlətlərin ərazisində olur. Bu ehtiyatların mühafizəsi və onlardan istifadə rejimi beynəlxalq hüquq normaları ilə müəyyən edilir; iki növü vardır: a) *universal ehtiyatlar*; bütün dövlətlərin ümumi istifadəsində olur (açıq dəniz, kosmos, Antarktida, beynəlxalq dəniz dibi rayonu); b) *bölünə bilən təbii ehtiyatlar*; iki və ya daha çox ölkəyə məxsus olur və ya onlar tərəfindən istifadə edilir (məsələn, beynəlxalq çaylarda olan ehtiyatlar, sərhədyanı təbii komplekslər və s.).

2. Beynəlxalq ekologiya hüququnun prinsipləri. *Ətraf mühitin indiki və gələcək nəsillər naminə mühafizəsi* – beynəlxalq ekologiya hüququnun mərkəzi prinsipidir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, dövlətlər indiki və gələcək nəsillər naminə ətraf mühitin keyfiyyətinin qorunub saxlanması və yaxşılaşdırılması və təbii ehtiyatların rasional idarə olunması istiqamətində bütün zəruri tədbirləri görməlidirlər.

Beynəlxalq ekologiya hüququnun aşağıdakı digər xüsusi prinsipləri vardır:

a) transsərhəd ekoloji zərərin yolverilməzliyi. Öz yurisdiksiyasi çərçivəsində dövlətlər digər dövlətlərin və beynəlxalq rejimli ərazilərin təbii mühitinə zərər yetirə bilən hərəkətlərdən çəkinməli, habelə belə zərər yetirə bilən fəaliyyətin qarşısını almalıdırlar. İlk dəfə 1972-ci il Stokholm Bəyannaməsində təsbit olunmuş bu prinsip hazırda beynəlxalq praktikada hamılıqla tanınmışdır.

b) təbii ehtiyatların ekoloji baxımdan əsaslandırılmış rasional istifadəsi. Hələ tam

dəqiq normativ məzmuna malik olmayan bu prinsipin mahiyyəti aşağıdakılardan ibarətdir: indiki və gələcək nəsillərin mənafeyi naminə Yerin bərpa oluna bilən və bərpa olunmayan ehtiyatlarının rasional planlaşdırılması və idarə olunması; ekoloji fəaliyyətin uzun müddətə planlaşdırılması; dövlətlərin öz yurisdiksiyası

çərçivəsində fəaliyyətinin bu hüdudlardan kənarda yerləşən təbii mühitə göstərə biləcəyi nəticələrin qiymətləndirilməsi.

c) ətraf mühitin radioktiv çirklənməsinin yolverilməzliyi;

ç) dəniz mühitinin mühafizəsi;

d) ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən

məqsədlərlə istifadə olunmasınınqadağan edilməsi;

e) milli yurisdiksiya hüdudlarından kənarda yerləşən ekoloji sistemlərə vurulmuş

zərərə görə dövlətlərin beynəlxalq məsuliyyəti və s.

3. Beynəlxalq ekologiya hüququnun mənbələri. Beynəlxalq ekoloji standartların ən yaxşı və ən səmərəli ifadə forması *beynəlxalq müqavilələrdir.* Hal-hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-ə qədər beynəlxalq saziş mövcuddur. Onların içərisində ikitərəfli regional və universal sazişlər, ətraf mühitin qorunmasının ümumi məsələlərinə və ya ayrı-ayrı ekoloji sistemlərin – dəniz mühitinin, atmosferin, yerətrafı kosmik fəzanın mühafizəsinə həsr olunmuş müqavilələr vardır. Lakin bu sahədə bu günə qədər vahid məcəllələşdirilmiş akt işlənib hazırlanmamışdır. Universal müqavilələrə misal olaraq aşağıdakı aktları göstərmək olar: *Dənizin tullantılarla və digər materiallarla çirklənməsinin qarşısının alınması haqqında 1972-ci il Konvensiyası; Gəmilərdən çirkləndirmənin qarşısının alınmasına dair 1973-cü il Beynəlxalq Konvensiyası; Vəhşi fauna və floranın yox olmaq təhlükəsində olan növlərinin beynəlxalq ticarəti haqqında 1973-cü il Konvensiyası; Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-ci il Konvensiyası; Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyası; ozon qatının mühafizəsi haqqında 1985-ci il Vyana Konvensiyası və bu Konvensiyaya əlavə olunmuş 1987-ci il Monreal Protokolu; Bioloji müxtəliflik haqqında 1992-ci il Konvensiyası və s.* Lakin sözü gedən sahədə beynəlxalq-hüquqi tənzimləmənin əsas "yükü" regional müqavlələrin üzərinə düşür. Bu müqavilələr, demək olar ki bütün regionları və bütün ekoloji sistemləri əhatə edir.

Onlara misal olaraq aşağıdakıları göstərmək olar: *Yuyucu və təmizləyici vasitələrdə bəzi bəzi maddələrin istifadəsinin qadağan olunması haqqında 1968-ci il Avropa sazişi: Təbiətin və təbii ehtiyatların qorunub saxlanması haqqında 1968-ci il Afrika Konvensiyası; Avropada vəhşi fauna və floranın mühafizəsi haqqında 1979-cu il Konvensiyası; Havanın uzaq məsafələrə transsərhəd çirkləndirməsi haqqında 1979-ui il Konvensiyası; Sənaye qəzalarının transsərhəd təsiri haqqında 1992-ci il Konvensiyası; Aralıq dənizinin çirklənmədən qorunması haqqında 1976-cı il Konvensiyası; Sakit okeanın cənubi-şərqi hissəsinin dəniz mühiti və bitişik zonalarının mühafizəsi haqqında 1981-ci il Konvensiyası; Şimal dənizinin neftlə və digər zərərli maddələrlə çirkləndirilməsi ilə mübarizə üzrə əməkdaşlıq haqqında 1983-cü il Sazişi; Baltik dənizi rayonunun dəniz mühitinin çirklənmədən qorunması haqında 1992-ci il Konvensiyası; Qara dəniz çirklənmədən qorunması haqında 1992-ci il Konvensiyası; Şimali Atlantikanın dəniz mühitinin mühafizəsi haqqında 1992-ci il Konvensiyası və s.*

Ətraf mühitin mühafizəsi və ətraf mühitə vurulan zərərin ödənilməsi ilə bağlı bir sıra mühüm normalar *beynəlxalq adət hüququna* daxildir.

Beynəlxalq ekologiya hüququnda *tövsiyə* xaraqterli aktlar əhəmiyyətli rol oynayır. Müxtəlif xaraqterli ekoloji tələblər ilk əvvəl tövsiyə kimi qətnamələrdə, bəyannamələrdə, proqramlarda və s. əks olunur (belə normalara beynəlxalq hüquq elmində *"yumşaq hüquq"* da deyirlər), müəyyən müddət keçdikdən sonra isə bu standartların bəziləri ya müqavilə qaydasında, ya da beynəlxalq adət şəklində məcburi hüquq normaları kimi tanınır. Tövsiyə xaraqterli aktlara misal olaraq, yuxarıda adları çəkilmiş *Stokholm və Rio-de-Janeyro Bəyannamələrini, 1982-ci Ümumdünya təbiəti mühafizə Xartiyasını* göstərmək olar. Məsələn, Rio Bəyannaməsində dövlətlərin aşağıdakı vəzifələri müəyyən edilmişdir: ətraf mühitin mühafizəsi sahəsində hər bir dövlət tərəfindən effektiv qanunların qəbul edilməsi; ətraf mühitin çirkləndirilməsinə görə dövlətlərin məsuliyyəti; ətraf mühitə və insana zərər vuran çirkləndiricilərin digər dövlətlərdə yerləşdirilməsinə yol verilməməsi; ətraf mühit üçün neqativ nəticələr verə biləcək tədbirlər haqqında dövlətlərin bir-birinə məlumat verməsi; Yerin ekosistemlərini qorumaq məqsədilə

dövlətlərin qlobal əməkdaşlığı; planlaşdırılan fəaliyyətin ekoloji nəticələrinin qabaqcadan qiymətləndirilməsi; ətraf mühitin vəziyyətinin pisləşməsi hallarının qarşısının alınması üzrə bürün zəruri tədbirlərin görülməsi; hərbi münaqişələr dövründə ətraf mühitin mühafizəsinin təmin edilməsi və s.

4. Dəniz mühitinin mühafizəsi. Dünya okeanının mühafizəsi məqsədilə bir sıra universal və regional müqavilələr qəbul edilmişdir.

Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyası bu sahədə əsas beynəlxalq-hüquqi akt hesab edilə bilər. Konvensiyada birbaşa bəyan edilir ki, iştirakçı dövlətlər dəniz mühitini mühafizə etməli və qoruyub saxlamalıdırlar. Dövlətlər bütün zəruri tədbirləri görməlidirlər ki, onların yurisdiksiyası və nəzarəti altında həyata keçirilən fəaliyyət digər dövlətlərə və onların dəniz mühitinə zərər yetirməsin. Bu tədbirlərə aşağıdakılar daxildir: quruda yerləşən mənbələrdən, atmosferdən, gəmilərdən və dəniz dibinin və onun təkinin təbii ehtiyyatlaranın kəşfiyyatı və çıxarılması üçün istifadə olunan qurğulardan, zərərli və ya zəhərli maddələrin dənizə atılmamasına mümkün dərəcədə yol verilməməsi; dənizdə aparılan bütün işlərin təhlükəsizliyinin təmin edilməsi, qəzaların qarşısının alınması və fövqəladə situasiyaların aradan qaldırılması və s. Müxtəlif mənbələrdən dəniz mühitinin çirklənməsinin qarşısını almaq, bu çirklənməni azaltmaq və nəzarətdə saxlamaq üçün dövlətlər müvafiq qanun və qaydalar qəbul etməlidirlər. Konvensiyada göstərilir ki, dəniz mühitinin qorunub saxlanması ilə bağlı öz beynəlxalq öhdəliklərini yerinə yetirməyən dövlət beynəlxalq hüquqa uyğun məsuliyyət daşıyır.

Gəmilərdən çirkləndirmənin qarşısının alınmasına dair 1973-cü il Beynəlxalq Konvensiyasında dənizin neftlə və gəmilərdə daşınan və ya onların istismarı prosesində yaranan digər maddələrlə çirklənməsinin qarşısının alınmasına dair texniki-hüquqi normalar təsbit olunmuşdur. Konvensiyanın qüvvəsi altına düşən gəmilər beynəlxalq şəhadətnaməyə malik olmalıdır. Konvensiya gəmilərin istismarı nəticəsində yaranan bütün növ zərərli maddələrlə dənizin çirklənməsinin qarşısının alınmasına dair vahid beynəlxalq standartlar müəyyən edir və bu bu

standartları nəinki Konvensiya iştirakçılarına, habelə onu imzalamamış dövlətlərə şamil edir.

Neftlə çirklənməyə gətirib çıxaran qəzalar zamanı açıq dənizdə müdaxiləyə dair 1969-cu il Konvensiyasında bu cür qəzaların ardan qaldırılması üzrə zəruri tədbirlər müəyyən edilmişdir. Konvensiyaya müvafiq olaraq, sahilyanı dövlət qəzanı aradan qaldırmaq məqsədilə məcburiyyət tədbirlərinə əl ata bilər və sahilboyunun çirklənmə təhlükəsi olduqda, həmin gəmini batıra bilər.

Neftlə çirklənmədən dəyən zərərə görə mülki məsuliyyət haqqında 1992-ci il Beynəlxalq Konvensiyasında nəzərdə tutulmuşdur ki, gəminin sahibi çirklənmədən dəyən istənilən zərərə görə məsuliyyət daşıyır.

Neftlə çirklənmə hallarına hazırlığın təmin edilməsi, onunla mübarizə və əməkdaşlıq haqqında 1990-cı il Beynəlxalq Konvensiyası xəbərdaredici və preventiv tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Hər bir iştirakçı dövlət, onun bayrağı altında üzən gəmilərdə neftlə çırklənmə ilə mübarizə üzrə fövqəladə tədbirlər planının olmasını təmin etməlidir.

Dənizin tullantılarla və digər materiallarla çırklənməsinin qarşısının alınması haqqında 1972-ci il Konvensiyası gəmilərdən, təyyarələrdən, platformalardan və digər konstruksiyalardan dənizə tullantıların və digər materialların atılmasını, bu materialların ayrılıqda və yə daşınma vasitələri ilə bir yerdə batırılmasını qadağan edir. Bu qadağandan istisnaya yalnız "insanların həyatının və ya gəmilərin, təyyarələrin, platformaların təhlükəsizliyini təmin etmək üçün və yaxud fors-major hallarda" yol verilir. Konvensiyada dənizə atılması tamamilə qadağan edilmiş maddələrin siyahısı (xlor üzvi birləşmələr; civə; neft və onun qarışıqları; radioaktiv tullantılar və s.) verilmişdir.

5. Dənizin canlı ehtiyatlarının mühafizəsi. Hazırda canlı dəniz ehtiyatlarının mühafizəsinə və balıqçılığın tənzimlənməsinə həsr olunmuş yüzdən artıq universal və regional müqavilə mövcuddur. Bu məsələ ilə bağlı əsas prinsip və mexanizmlər Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasında təsbit olunmuşdur. Konvensiya iştirakçı dövlətlərdən canlı ehtiyatların qorunub saxlanması üçün bütün zəruri tədbirlərin görülməsini tələb edir. Dövlətlər bu sahədə bir-biri ilə

əməkdaşlıq etməli, müvafiq subregional və regional təşkilatlar vasitəsilə müəyyən ehtiyatların qorunub saxlanması və sayının artırılması üçün səy göstərməlidirlər.

Bir çox konkret balıq növlərinin qorunub saxlanması və rasional istifadəsi məsələlərini nizama salmaq məqsədilə 1995-ci ildə Dəniz hüququ üzrə BMT Konvensiyasının müvafiq müddəalarının həyata keçirilməsi haqqında xüsusi Saziş bağlamışdır. Maddi normalardan başqa, Saziş beynəlxalq əməkdaşlıq mexanizmləri də nəzərdə tutulur.

Dünya okeanının canlı ehtiyyatlarının mühafizəsi sahəsində bağlanmış digər müqavilələrə misal olaraq aşağıdakıları göstərmək olar: Atlantik okeanın şimal-qərb hissəsində balıqçılıq üzrə gələcək çoxtərəfli əməkdaşlıq haqqında 1978-ci il Konvensiyası; Antraktikanın canlı dəniz ehtiyyatlarının mühafizəsi haqqında 1980-cı il Konvensiyası və s. Bu və digər müqavilələrdə Dünya okeanının müvafiq akvotoriyasında canlı ehtiyyatların qorunub saxlanması ilə bağlı dövlətlərin öhdəlikləri müəyyən edilmiş, bu öhdəliklərin yerinə yetirilməsi üzərində milli və beynəlxalq nəzarət nəzərdə tutulmuşdur.

6. Beynəlxalq çay və göllərin mühafizəsi. Beynəlxalq çay və göllərin çirklənməsinə yol verilməməsi və onların canlı ehtiyyatlarının mühafizəsi müvafiq sahilyanı dövlətlərin üzərinə düşən vəzifədir. Bu vəzifələrin həyata keçirilməsi üçün sahilyanı dövlətlər regional və ikitərəfli müqavilələr bağlayırlar. Müqavilələrin başlıca məzmunu ondan ibarət olur ki, sahilyanı dövlətlər beynəlxalq çayın və gölün mövcud çirklənməsinin azaldılması üçün bütün zəruri tədbirlər görməlidirlər. Belə tədbirlərin məqsədi digər dövlətə (dövlətlərə) və Dünya okeanı sularına dəyə bilən zərərin qarşısını almaqdan ibarətdir. Bu müqavilələrdə göstərilir ki, suların çirklənməsində təqsirli olan dövlət bütün dəymiş zərəri ödəməlidir.

Hazırda beynəlxalq çayların çirklənmədən qorunmasına dair 100-dən artıq beynəlxalq müqavilə mövcuddur. Bu müqavilələrdə, əsas etibarilə, neft, kimyəvi və üzvi maddələrin çay mühitinə atılmasını qadağan edən müddəalar təsbit olunmuşdur (məsələn, Reynin xloridlərlə çirklənmədən qorunması haqqında 1976-

cı il Konvensiyası; Reynin kimyəvi maddələrlə çirklənmədən qorunması haqqında 1976-cı il Konvensiyası və s.).

Transsərhəd suaxınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsinə dair 1992-ci il Konvensiyası isə nisbətən ümumi xaraqter daşıyır. Konvensiyanın iştirakçıları transsərhəd təsir göstərən və ya göstərə bilən çirklənmənin qarşısını almaq və azaldtmaq üçün bütün müvafiq tədbirləri görməlidirlər. Bu tədbirlərin görülməsi ilə bağlı bütün xərclər çirklənməyə yol vermiş dövlətin üzərinə düşür. Konvensiya iştirakçı dövlətlərdən, habelə müvafiq hüquqi, inzibati, iqtisadi və maliyyə tədbirlərinin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir.

7. Ətraf mühitin radioaktiv yoluxmadan mühafizəsi. Ətraf təbii mühitin radioaktiv maddələrlə çirklənmədən beynəlxalq-hüquqi mühafizəsi iki istiqamətdə həyata keçirilir: 1) nüvə, radioloji və neytron silahlarının sınağı və ya tətbiqinin qadağan edilməsi və ya məhdudlaşdırılması; 2) "dinc atom"un istifadəsi prosesində ortaya çıxan neqativ nəticələrin qaşısının alınması və ya aradan qaldırılması.

Birinci istiqamətdə aşağıdakı mühüm tədbirlər həyata keçirilmişdir: üç mühitdə - atmosferdə, kosmik fəzada və su altında nüvə silahının sınağı qadağan edilmişdir (Atmosferdə, kosmik fəzada və su altında nüvə silahı sınaqlarının qadağan edilməsi haqqında 1963-cü il Müqaviləsi); nüvə silahının yayılması qadağan edilmişdir (Nüvə silahının yayılması haqqında 1968-ci il Müqaviləsi); nüvə silahının dəniz və okeanların dibində, Antarktikada və kosmosda yerləşdirilməsi qadağan edilmişdir (müvafiq olaraq, Nüvə silahının və kütləvi qırğın silahlarının digər növlərinin dəniz və okeanların dibində və onun təkində yerləşdirilməsinin qadağan edilməsi haqqında 1971-ci il Konvensiyası; Antarktikada haqqında 1959-cu il Müqaviləsi və Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyətinin prinsipləri haqqında 1967-ci il Müqaviləsi); Afrikada, Antarktikada, Latın Amerikasında, Sakit okeanın cənub hissəsində və digər regionlarda nüvəsiz zonalar yaradılmışdır.

İkinci istiqamət üzrə qəbul olunmuş beynəlxalq sazişlərə misal olaraq aşağıdakıları göstərmək olar: Nüvə gəmilərinin məsuliyyəti haqqında 1962-ci il Beynəlxalq Konvensiyası; Nüvə materiallarının dəniz daşımaları sahəsində mülki

məsuliyyət haqqında 1971-ci il Konvensiyası; Nüvə materiallarının fiziki müdafiəsi haqqında 1980-cı il Konvensiyası; Nüvə qəzası haqqında operativ xəbərvermə haqqında 1986-cı il Konvensiyası; Nüvə qəzası zamanı və ya radiasiya qəza vəziyyətində kömək haqqında 1986-cı il Konvensiyas.

8. Heyvan və bitki aləminin müdafiəsi. Flora və faunanın beynəlxalq-hüquqi mühafizəsi bir neçə istiqamətdə aparılır:

a) bütövlükdə flora və faunanın mühafizəsi (məsələn, Fauna və floranın, onların təbii vəziyyətində qorunub saxlanması haqqında 1933-cü il Konvensiyası; Quşların mühafizəsi haqqında 1950-ci il Beynəlxalq Konvensiyası; Bitkilərin mühafizəsi haqqında 1951-ci il Beynəlxalq Konvensiyası);

b) balıqçılığın və dənizin digər canlı ehtiyatlarının ovunun nizama salınması (məsələn, Balina ovunun nizama salınmasına dair 1946-ci il Beynəlxalq Konvensiyası; Dünya sularında balıqçılıq haqqında 1958-ci il Konvensiyası; Antarktikanın canlı dəniz ehtiyatlarının mühafizəsi haqqında 1980-cı il Konvensiyası və s.);

c) konkret növlərin mühafizəsi (məsələn, Atlantik suitilərinin mühafizəsi haqqında 1972-cı il Konvensiyası; Ağ ayıların qorunub saxlanması haqqında 1973-cü il Sazişi və s.)

ç) yox olmaqda olan və ya nadir növlərin qorunması (məsələn, Vəhşi fauna və floranın yox olmaq təhlükəsi altında olan növləri ilə beynəlxalq ticarət haqqında 1973-cü il Konvensiyası; Vəhşi heyvanların köçəri növlərinin mühafizəsi haqqında 1979-cu il Konvensiyası və s.).

9. Ətraf mühitin müharibə dövründə qorunması. Özündə müharibə dövründə təbii mühitin qorunması ilə bağlı normalar ehtiva edən bir sıra beynəlxalq-hüquqi aktlar mövcuddur. Onlardan Quru müharibəsinin qanun və adətləri haqqında 1907-ci il Haaqa Konvensiyasını; Müharibə qurbanlarınınmüdafiəsinə dair 1949-cu il CenevrəKonvensiyalarını; CenevrəKonvensiyalarına I Əlavə Protokolu; Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyasını, Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola

bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-cı il Konvensiyasını göstərmək olar.

Məsələn, I Əlavə Protokolun 35-ci maddəsi ətraf mühitin mühafizəsi prinsipini təsbit edir və təbii mühitə genişmiqyaslı, uzunmuddətli və ciddi zərər yetirmək məqsədi düdən hərbi əməliyyatların aparılmasının metod və vasitəlrini qadağan edir. Ətraf mühitin hucum obyektinə çevrilməsi qadağan olunmuşdur.

Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyası iştirakçı dövlətlərin üzərinə aşağıdakı əsas öhdəlikləri qoyur: a) Yerin dinamika və sturukturunu, onun canlı aləmini, litosferi, hidrosferi, atmosferi və ya kosmosu qəsdən dəyişikliyə uğradan vasitələrin hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadəsinə yol verməmək; b) təbii mühiti dəyişikliyə uğradan vasitələrin hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə edilməsində digər dövlətlərə və ya qurumlara yardım etməmək; c) təbii mühiti dəyişikliyə uğradan vasitələrdın yalnız dinc məqsədlər üçün istifadə etmək; ç) bu Konvensiyaya zidd olan hər hansı fəaliyyətin qadağan olunması və qarşısının alınması istiqamətində istənilən qanuni tədbirləri görmək və s.

Adi silah növləri haqqında 1980-cı il Konvensiyasına əlavə olunmuş Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokolda (III Protokol) meşələrin və bitki örtüyünün digər növlərinin yandırıcı silahların tətbiqi ilə hücum obyektinə çevrilməsi qadağan olunmuşdur.

10. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq təşkilatlar. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi, əsas etibarilə, BMT sistemində - həm BMT orqanları, həm də BMT-nin ixtisaslaşdırılmış təsisatları çərçivəsində həyata keçirilir.

Baş Assambleya yanında Atom radiasiyasının təsiri üzrə Elmi Komitə, Kosmik fəzanın dinc məqsədlərlə istifadəsi üzrə Komitə kimi köməkçi orqanlar fəaliyyət göstərir.

EKOSOK təbiətin qorunmasının beynəlxalq məsələlərinə dair tədqiqatlar aparır, məruzələr tərtib edir və bu məsələlər üzrə Baş Assambleyaya, BMT

üzvlərinə və müvafiq ixtisaslaşdırılmış təsisatlara tövsiyələr verir. EKOSOK yanında Təbii ehtiyatlar üzrə Komitə fəaliyyət göstərir.

YUNESKO "İnsan və biosfer" beynəlxalq proqramı işləyib hazırlamışdır və onun yerinə yetirilməsini əlaqələndirir. Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında 1972-ci il Konvensiyası bu təşkilat çərçivəsində işlənib hazırlanmışdır. YUNESKO-nun Hökumətlərarası okeanoqrafiya komissiyası dəniz mühitinin mühafizəsi ilə bağlı tədqiqatlar aparır və tövsiyələr hazırlayır.

Ümumdünya səhiyyə təşkilatı atmosfer havasının çirklənməsi problemi ilə məşğul olur və dövlətlərin müvafiq qanunvericiliyini təhlil edir.

Beynəlxalq dəniz təşkilatı dəniz mühitinin mühafizəsi məsələləri ilə məşğul olur, müvafiq konvensiyalar işləyib hazırlayır.

Ərzaq və kənd təsərrufatı təşkilatı torpaqların, meşələri, suların, flora və faunanın mühafizəsi məsələləri ilə məşğul olur və bununla bağlı müvafiq konvensiya layihələri hazırlayır.

Beynəlxalq mülki aviasiya təşkilatı ətraf mühitin aviasiya səs-küyündən mühafizəsi ilə bağlı texniki-hüquqi qaydalar işləyib hazırlayır.

Atom enerjisi üzrə beynəlxalq agentlik (MAQATE) insanı və ətraf mühitin radiasiyadan mühafizəsi proqramını həyata keçirir.

Lakin BMT sistemində başlıca funksiyası ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığı əlaqələndirmək olan xüsusi mexanizm mövcuddur: bu, 1972-ci ildə yaradılmış Ətraf mühit üzrə BMT Proqramıdır (YUNEP). YUNEP-in fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır: a) ayrı-ayrı təbii obyeklərin mühafizəsi; b) təbiətə zərərli təsirin müxtəlif növləri ilə (məsələn, səhralaşma, çirklənmə və s. ilə) mübarizə; c) təbii ehtiyatların rasional istifadəsi; ç) beynəlxalq ekoloji standartların işlənib hazırlanması və s. YÜNEP-in dəstəyi ilə Aralıq dənizinin çirklənmədən qorunması haqqında 1976-cı il Konvensiyası, Dəniz mühitinin çirklənmədən qorunması haqqında 1978-ci il Küveyt regional Konvensiyası, Havanın uzaq məsafələrə transsərhəd çirklənməsi haqqında 1979-cu il Konvensiyası və digər mühüm beynəlxalq müqavilələr işlənib hazırlanmış və qəbul edilmişdir.

YUNEP-in əsas orqanları bunlardır. İdarəetmə şurası (ali rəhbər orqan); başında İcraçı direktor dayanan Katiblik və Ətraf mühit fondu.